AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# GÜNEY AZƏRBAYCAN FOLKLORU

## IV KİTAB

BAKI – 2015

**Layihənin rəhbəri:** **Muxtar KAZIMOĞLU (İMANOV)**
AMEA-nın müxbir üzvü

**Tərtib edənlər:** f.ü.f.d. **Mətanət MAŞALLAH qızı (ABBASOVA)**
Dr. **Hüseyn ŞƏRQİDƏRƏCƏK (SOYTÜRK)**

**Mətnləri transliterasiya edənlər:** f.ü.f.d. **Mətanət MAŞALLAH qızı (ABBASOVA)**
**Kəmalə OSMANOVA**
**Lalə ŞABANOVA**

**Redaktor:** f.ü.f.d. **Qədim QUBADOV**

**Güney Azərbaycan folkloru, IV kitab.** Bakı, Elm və təhsil, 2015. 388 səh.

Kitabda Güney Azərbaycanın zəngin şifahi xalq yaradıcılığı nümunələri toplanmışdır.

Folklorinstitutu.com

G 4603000000 Qrifli nəşr
N-098-2015

© Folklor İnstitutu, 2015.

## ÖN SÖZ

Folklor bir ulusun varlığını təsdiq edən amillərdəndir. Folklor vətəndir, torpaqdır. O, bütün maddi və mənəvi dəyərlərin gələcəyə ötürülməsində həlledici rol oynayır. Şifahi xalq ədəbiyyatı olmayan bir toplumun uzunömürlü olması bir qədər çətin məsələdir. Folklor keçmişdən gələn özəlliklərə malikdir və özlüyündə milli varlığın qorunmasına köklənir.

Ümumiyyətlə, hər bir ulusun və toplumun maddi və mənəvi dəyərləri onun adət-ənənə süzgəcindən süzülüb durulduqda mədəni varlığa və unudulmaz abidəyə çevrilir. Ona görə də bu işi elmi şəkildə görən mərkəzlər və institutlar olmalıdır ki, mənəvi sərvəti toplayıb bir araya gətirsin və qoruya bilsin.

Bizim Azərbaycan türklərində də şifahi xalq ədəbiyyatı dərin və zəngin keçmişə dayanır. Minlərcə misradan ibarət olan "Manas" dastanını uzun illər hafizəsində yaşadan türk milləti, nəhayət, min illər sonra Təbrizdə Şəhriyarı ərsəyə gətirir. Onun dilindən "Heydərbaba" mənzuməsi yaranır. Bu əsər təkcə "Heydərbaba" mənzuməsi olaraq Şəhriyarın fərdi yaradıcılığı deyildir, eyni zamanda bir xalqın həyat tərzi və yaşam tərzidir. Şəhriyar dərin mədəniyyətə arxalanaraq, dünyanın ən gözəl əsərlərindən birini ortaya qoymuş olur. Bu, o deməkdir ki, hər bir Azərbaycan türkü öz kökünü və soyunu dərk etmiş olsa, o zaman hər bir azərbaycanlı evindən onlarca kitab həcmində zəngin şifahi xalq ədəbiyyatı nümunələri toplayıb ortaya çıxarmaq olar.

Doğrusunu söyləsək, hər bir türk (azərbaycanlı) anası cocuğuna qoşduğu yuxu nəğmələri, nazlama şeirləri ilə canlı ədəbiyyat qaynağıdır. Bununla yanaşı, ata-babalarımızın yaratdığı saysız-hesabsız atalar sözü beşikdən qəbrə qədər həyat tərzimizi və kişisəl mənliyimizi ehtiva etməkdədir. Ona görə

bunun adı zəngin mədəniyyət irsidir. Ruhumuza, qanımıza hopan, ancaq heç bir yerdə yazılmayan el ədəbiyyatı keçmişdən bu günə yolumuza tutulan işıqdır. Süni və yaxud sifarişlə yaradılan ədəbiyyat nümunələri keçici olaraq uğur qazansa da, dərin ictimai və siyasi məişət köklərinə söykənən şifahi xalq ədəbiyyatı ötəri yox, əbədi yaşamaq hüququ qazanır.

Güney Azərbaycan bu baxımdan həm zəngindir, həm də toxunulmamış münbit qaynaqdır. Orada folklor nümunələrini işləyib hazırlamaq həm asandır, həm çətin. Qeyd edək ki, qaynaq mükəmməl olsa da, imkanlar bir qədər məhduddur. Vaxtaşırı təzyiqə məruz qalan Güney əhalisi on illər boyu öz varlığını təsdiq etməkdə bəzi çətinliklərlə üzləşmişdir. Bu çətinliklər özünü müəyyən zaman kəsiyində ana dilinin yasaq olmasında, ana dilli məktəblərin olmamasında, ana dilində kitabların, qəzet və jurnalların nəşr olunmamasında və s. göstərmişdir.

Eyni zamanda adət-ənənələrin, bayram və törənlərin hər tərəfdən görünə biləcək səviyyədə icrası və təbliği zərif olmuşdur. Bu toplumun üzvləri öz şair və bilginlərini, demək olar ki, tam yaxından tanıya bilməmişlər. Amma, gəl gör ki, zəngin xalq ədəbiyyatı xəzinəsinə malik olan azərbaycanlılar hər zaman öz varlıqlarını keçmişdəki zəngin ata-baba yaradıcılığına arxalanaraq qoruya bilmişlər.

Pəhləvi şahlıq rejiminin siyasəti nəticəsində assimilyasiya dəyirmanı daha fəal işləyirdi. Pəhləvi hakimiyyəti illərində milli varlığa yiyələnmə və mühafizəetmə çox çətinləşmişdi. Minlərlə qələm sahibi ana dilində əsərlər yaratmaqdan məhrum edilmişdilər. Lakin bütün bunlara baxmayaraq, xalq və onun zəngin mədəniyyəti öz işini görməkdə idi. Mədəniyyət və tarix gizli-gizli öz axarı ilə davam edirdi. Bu dövrdə muzdur qələm sahiblərinin yazdığı minlərlə kitab Pəhləvi siyasətinə xidmət edirdi. Hələ bu az imiş kimi, az-çox ana dilin-

də yaranan kitabların yandırılma siyasəti bütün dünyanın gözünün qarşısında həyata keçirildi. Azərbaycan Milli Hökumətinin süquta uğradılmasından sonra Azərbaycan xalqının bütün maddi və mənəvi sərvəti talan olunmağa başladı. Rəsmi olaraq türkcədən istifadə qadağan edildi. Minlərlə ziyalı sürgün edilərək İranın başqa yörələrinə göndərildi. Milli dövlətin mədəniyyət sahəsində əldə etdiyi uğurlar darmadağın edildi. Təbriz və ətraf şəhərlərin küçələri edam ağacları ilə dolduruldu. Bütün bu cəhdlər xalqı öz varlığını gizlicə qorumağa sövq etdi.

Bütün bunlara rəğmən kökdən gələn zənginlik yenə öz sözünü deməyi bacardı. Ədəbiyyatımız sinələrdən-sinələrə gəzdi. Evlərdə gizli-gizli uşaqlara söyləndi. Analar laylalarında, nazlamalarında, oxşamalarında ədəbiyyatlarını öz balalarına ötürməyi bacardı. Ərən atalarımız isə cəsur və qorxmaz tavrları ilə hər gün məktəbdən evə dönən balalarına Dədə Qorqudu, Nizamini, Nəsimini, Füzulini, Səttar xanı, Koroğlunu və ulu türk ulusunun digər zənginliklərini və başarılarını aşılamağa başladılar. Milli varlığımıza güvəndikcə var olmağımız da davam etdi.

Aşıqlarımız zəngin el ədəbiyyatından, el dilindən ilham alaraq, sözümüzü sazda və sazımızı da ürəklərdə yaşatdı. Onlar toy məclislərində milli dastanlarımızı söyləyərək assimilyasiya dəyirmanının suyunu kəsdi. Onlar susmadı, sazdan və sözdən əyləncə deyil, bir silah kimi varlıq mücadiləsində yayqın şəkildə istifadə etdilər. Beləliklə, dədələrin və nənələrin söyləmələri aşıqların "Yanıq Kərəmi"ndə, "Sarı tel"ində milli köklərə köklənərək ruhumuza hopduruldu.

Toy mərasimləri böyüklərimizin sərgilədiyi təcrübəvi həyat tərzini gələcək nəsillərə ötürmə vəzifəsini yerinə yetirdi. Musiqimiz, bayram ayinlərimiz və mərasimlərimiz var olmağımızın alınmaz simgəsinə çevrildi.

Yas mərasimlərimiz, dini inanc və ayinlərimiz, ata-baba törənlərimiz hamısı birlikdə bütövləşərək zəngin mədəniyyətimizin mühafizəsinə çevrildi. Toylarda oxunan mahnılar, yaslarda deyilən ağılar hamısı bir yerdə Azərbaycan türklərinin mənəvi zənginliyini qorumağın mühüm vasitəsinə çevrildi. Siyasətlə, top və tüfənglə, zalimcəsinə qadağalarla yox olmağımıza çaba göstərən şovinist ünsürlərin hədəfləri puça çıxdı. Məktəbi əlindən alınsa da, ana laylası heç zaman əlindən alına bilmədi. Şəhər və kənd adlarımız kağızlar üzərində dəyişdirilsə də, dilimizdə və ürəklərimizdə heç zaman dəyişmədi. Ağlımız və ürəklərimiz dərdlərimizin və zəfərlərimizin can məkanı oldu.

İran-İslam inqilabından sonra şah rejiminin əksinə olaraq, islami qardaşlıq elan olundu. Milli mədəniyyətin inkişafında bir canlanma başlandı. Minlərlə kitab çap olundu. Kül altında qalan köz yenidən közərməyə başladı. Külün altından közərən köz istisini bütün canlara bəxş etdi. Bir gəlin balasının beşiyinin başında söylədiyi laylaları, bir cütçü cüt əkərkən oxuduğu mahnıları, bir işçi azadlıq marşına çevirdiyi şeirlərini öz ana dilində yazıb kitab halına gətirməyi bacardı. Şəhriyarlar, Səhəndlər, Hüseyn Düzgünlər, Fərzanə və Savalanlar, El oğlu və Heyətlər, minlərlə gənc yazar və araşdırmaçılar mədəniyyət ərsəsinə qədəm qoydular. Güney Azərbaycan, bəlkə də el dili və ədəbiyyatının zənginliyi baxımından yer kürəsinin bərabəri olmayan bir parçasıdır. Ancaq bu ədəbiyyatı toplamaq ona görə çətindir ki, ana dilində təhsil alan adamların sayı azdır. Dilimizi danışıb, yaza bilməmək kimi çətinliklər mövcuddur. Şəhərləşmə və kökdən uzaqlaşma əsrimizin təbii fəlakəti kimi buralarda insanları öz varlıqlarından uzaqlaşdırmaqdadır.

Bütün bunlara baxmayaraq, Güney Azərbaycan folklor toplusu, demək olar ki, yeni-yeni həyata keçirilən işlərdən ol-

duğuna görə həm şirin, həm də acı yönlərə sahibdir. Məsafənin genişliyi və araşdırma, toplama institutlarının olmaması bu məsələni çətinləşdirir. Ləhcə və deyim fərqləri, mütəxəssislərin olmamaması işin toplanıb elmi şəkildə üzə çıxmasına əngəl törədir. Lakin keçmişə dayanaraq canından və vaxtından keçən araşdırmaçılarımızın işlərini yolumuza çıraq edərək, Muxtar müəllim İmanovun rəhbərliyi altında, Mətanət xanım Abbasovanın əməyi nəticəsində rəhmətlik Səməd Behrənginin başladığı, Məhəmmədəli Fərzanənin əmək qoyduğu bu iş bu gün bir çox dəyərli alimlərimiz tərəfindən davam etdirilir. Gördüyünüz bu kitab çoxsaylı soydaşlarımızın zəhmətinin nəticəsi olaraq siz əzizlərə təqdim edilir.

**Dr. Hüseyn Şərqidərəcək (Soytürk)**

# UŞAQ FOLKLORU

## LAYLALAR

Laylay qızıl qolbağım,
Bulağım, baxçam, bağım.
Sən gülməsən inanma,
Bir an qaça dodağım.

Laylay meyvəli bağım,
Laylay şamama tağım.
Allahdan sonra mənim
Sənsən arxam dayağım.

Laylay gəmim, qayığım,
Qırmızı şəqayığım.
Ol vətən qoruqcusu,
Gecə– gündüz ayığım.

Laylay çatmır dadə kim,
Haraya, fəryada kim,
Dur qaladan harayla
Bəlkə gəlsin Babəkim.

Laylay gülüm, çiçəyim,
Ev –eşiyim, dirəyim.
Dar günümdə olginən
Mənim güclü biləyim.

Laylay dedim maralım,
Sən qızar, mən saralım.
Incə dişlərin çıxsın
Gündə sənə nar alım.

Laylay dövlətim, malım,
Başımda ipək şalım,
Sən şirin yuxula, mən də
Yanında ayıq qalım.

Laylay ulduzum, ayım,
Laylay şamama payım.
Sən get şirin yuxuya
Mən də nəfəsin sayım.

Laylayın quzu qurban,
Qoç qurban, quzu qurban,
Hər səhər boyun görsəm,
Kəsərəm quzu qurban.

Laylay telinə qurban,
Şirin dilinə qurban.
Min quzu, qoyun olsun,
Sən tək gəlinə qurban.

Laylayıyam bala can,
Iki igid, iki can.
Sənin böyük babandır
Səttar ilə Bağır xan.

Laylay çaldım astadan,
Qadan allam astadan.
Sübhə kimi başında
Oyaq qallam astadan.

Laylay ana baladan,
Doymaz ana baladan.
Rəngi saralıb solar
Ayrı düşsə baladan.

Laylayı gələr yoldan,
Kim gedib gələr yoldan.
Balam yatıb durana,
Atası gələr yoldan.

Laylay dedim yatasan,
Qızıl gülə batasan.
Mən arzuma çatmadım,
Sən arzuna çatasan.

O dünyada behiştim,
Bu dünyada varımsan.
Laylayımsan, dayağımsan,
Arxamsan, dayağımsan.
Indi lazım olmasan,
Dar gündə dayağımsan.

Laylay balam bağrı qan,
Bir quş vardı bağrı qan.
Laladan gözəl gül yox,
O da baxsan, bağrı qan.

Laylayınam xan oğlan,
Boyuna qurban oğlan.
Qoç Koroğlu, qoç Nəbi
Övladı aslan oğlan.

Laylay dedim ellərdən,
Şirin-şirin dillərdən.
Allah, balamı saxla,
Uzun aylar, illərdən.

Laylay gülüm çiçəyim,
Ev-eşiyim, dirəyim.
Dar günümdə olginan
Mənim güclü biləyim.

Laylay yonca gülüm,
Gül açıb qonça gülüm.
Bacısı qardaşına,
Toxuyur xalca, kilim.

Laylayınam ay canım,
Balama laylay canım.
Sən yat gülüm oyaqdır
Gözü Azərbaycanın.

Laylayın quzu qurban,
Qoç qurban, quzu qurban.
Hər səmər boyun görsəm,
Kəsərəm quzu qurban.

Laylay çaldım astadan,
Qadan allam astadan.
Sübhə kimi başında,
Oyaq qallam astadan.

Laylayın birdən– birdən,
Beşiyin qızıl güldən,
Diləyin uzaq qalsın,
Gül balam, yaman gözdən.

Laylay balam narından,
Gül qurbanın, narın dən.
Başın qoy sinəm üstə,
Lay-lay deyim narından.

Laylay (balam) tərkimsən,
Düşüncəm sən, dərkim sən.
Uca boy Savalanım,
Səhəndimsən, Ərkimsən.

Laylay obam, elimsən,
Dil dodağım, dilimsən.
Qoç Koroğlum olmasan,
Eyvaz adlı dəlimsən.

Laylay balam məzəsən,
Gül– çiçəkdən təzəsən.
Qurban olum o günə
Ayaq tutub gəzəsən.

Laylay dedim biləsən,
Düşməyəsən dilə sən.
Boya başa çatasan,
Oynayasan, güləsən.

Laylay balam güləsən,
Danışasan, güləsən,
Arzım budur qaçasan,
Taza gələn ilə sən.

Laylayın bir dənəsən,
İncisən, dürdanəsən.
Mən ölsəm sənə qurban,
Sən ölmə bir dənəsən.

Laylay gülün birisən,
Mələkmisən, Pərisən?
Bu il iməkləyirsən,
Gələn ildə yeri sən.

Laylay bala, vaxt ikən,
Yatıb oyan vaxt ikən.
Dostu, yarı, qardaşı,
Gedib yoxla, vaxt ikən.

Laylay ömrün çox olsun,
Göylün, gözün tox olsun.
Sənə laylay çağırım,
Duşmanların yox olsun.

Laylayın çiçək olsun,
Yarpağı ləçək olsun.
Burda bir bala yoxdur,
Balamdan göyçək olsun.

Laylay bir bağın olsun,
Bağlar oylağın olsun.
Tanrıdan arzum budur,
At minən çağın olsun.

Laylay gül bağa dönsün,
Bağım yaylağa dönsün.
Bircə kəlmə, din danış,
Ürəyim dağa dönsün.

Laylayın şirin-şirin,
Yuxla yat şirin– şirin.
Başın qoy sinəm üstə
Sübhətək şirin-şirin.

Laylay xumar baxışın,
Baş altda naz balışın.
Görməsinlər yaman gün
Nə dostun, nə tanışın.

Laylayın şirin– şirin,
Baladır baldan şirin.
Dodağın bal pöhrəsi,
Qaymaqdan dadlı dilin.

Laylay dağa çən ötdü,
Şeh oturdu, çən ötdü.
Kim nə dedi balamın
Yaş gözdəndən dən ötdü.

Laylayın axşam oldu,
Ulduzlar sana doldu.
Bala dərdin çəkməkdən
Urəyim qana doldu.

Laylay balam yaz oldu,
Buludlar gözü doldu.
Baxçada bir gül açdı,
Bağbanın üzü güldü.

Laylay nar quş üzümu,
Eylər quş nuş üzümü.
Yuxla sənə gətirsin,
Quşlar meyxüş üzümü.

Laylay qurulu püstə,
Başın qoy dizim üstə.
Qoy tamah dişin çıxsın
Onda məndən bal istə.

Laylay dedim gülüncə,
Danışınca, gülüncə.
Balama laylay dedim
Ellərinin dilincə.

Laylayınam çəməndə,
Yel uymayıb əsəndə.
Məhəbbətdən daşıram
Sən sütümü əməndə.

Laylay balam beşikdə,
Bülbül oxur eşikdə.
Sən yat yuxun algınan,
Mən durmuşam keşikdə.

Laylay ev-eşiyində,
Yat balam, beşiyində.
Bir mən, bir dan ulduzu
Durmuşuq keşiyində.

Laylayın öz dilində,
Çalaram öz dilində.
Ruzisi bol olarmış,
Olan quzu ilində.

Laylayın ilmə-ilmə,
Kim atdı dağda güllə?
Yaralı oy gözündən,
Qan axdı gillə-gillə.

Laylay tel düzər sənə,
Anan gül bəzər sənə.
Allahdan əhdim budur
Dəyməsin nəzər sənə.

Laylayın dənə-dənə,
Dərdlərin gəlsin mənə.
Bir deyib, min güləsən,
İllərin dönə-dönə.

Laylay dur bax üzümə,
Başını qoy dizimə.
Axşam qonaq getməyə
Sürmə çəkim gözünə.

Laylayın sinə-sinə,
Toyuqlar getdi hinə.
Analar laylay çalır
Balaca körpəsinə.

Laylay güllü bağa tay,
Al laləli dağa tay.
Ətirlisən, nazlısan
Şamamalı tağa tay.

Laylay, a balam laylay,
Alınmaz qalam laylay,
Sənə iri baxanı,
Yandırsın nalam laylay.

Laylayın quzum, laylay,
Ayım, ulduzum lay-lay.
Sən bir igit olunca,
Hər dərdə dözüm laylay.

Laylay, öz gülüm laylay,
Gulum, bülbülum laylay.
Böyüyəsən kölgəndə
Mən də bir gülüm laylay.

Laylay, bülbülüm laylay,
Bağda sünbülüm laylay.
Baxçalarda gül çoxdur,
Bir qızıl gülüm, laylay.

Laylay həyatım laylay,
Qəndim, nabatım laylay.
Şirin sözlər içində
Sözüm, bayatım laylay.

Laylay bəbəyim laylay,
Gözəl, göyəçəyim laylay.
Qürbətdə yad elində
Arxam, köməyim laylay.

Laylay balam, tar səsi,
Qaval səsi, tar səsi,
Səsin kimin xuş olmaz
İnan mənə tar səsi.

Laylay gülün dəstəsi,
Ağacların püstəsi.
Anan kimin olmasın,
Gözün yollar xəstəsi.

Laylay gülün dəstəsi,
Bayram günün püstəsi.
Yuxla sənə oxuyum
Qarabağ şikəstəsi.

Laylay, kəhlik fərəsi,
Güllü çiçək dərəsi,
Balamın Savalandan
Gələr balı, kərəsi.

Laylay ətir şüşəsi,
Urəyimin güşəsi.
Təkcə sənə oxşayır,
Baharın bənövşəsi.

Laylay Səhəndin dağı,
Nə gözəldir oylağı.
Aslan, igit bəsləyir
Balam kimi, torpağı.

Laylay güllərin ağı,
Bəzəyir baxça, bağı.
Qırmızısı yanağın
Göyçək üzündür ağı.

Laylay gülün budağı,
Gülsün balam dodağı.
Hər anaya şirindir,
Dünyada öz uşağı.

Lay-lay güllərin ağı,
Açılıbdır yarpağı,
Birdir ana gözündə
Körpə qarası, ağı.

Laylay gözüm işığı,
Evimin yaraşığı.
Danışandan olmuşam,
Mən dilivin aşığı.

Laylayın qəmli-qəmli,
Olmasın balam qəmli.
Ölmə qızılca ilə
Gedəsən qalam qəmli.

Laylay lalam qurbanı,
Nolur olam qurbanı?
Quzu qurban bayramın,
Mən də balam qurbanı.

Laylay canım qurbanı,
Yat, laylayın qurbanı.
Sən get şirin yuxuya
Olum canın qurbanı.

Laylay tutaram səni,
Əcəb ovütaram səni.
Can qoydum, cəfa çəkdim,
Belə böyütdüm səni.

Laylay əməyim laylay,
Duzum, çörəyim laylay.
Görüm səni böyüyüb
Tutasan əlim laylay.

Laylayın yenə laylay,
Can deyim sənə laylay,
Sənə gələn dərd-bəla
Qoy gəlsin mənə laylay.

Lay-lay bala bal dadı,
Bala adam aldadır.
Yaxşısına can qurban
Pisi verər bal dadı.

Laylay xoruz banladı,
Günəş saçın salladı.
Səhər tezdən durmağı,
Nazlı balam anladı.

Laylay balam, ay batdı,
Günəş çıxdı, ay batdı.
Gözlərin yum yatgınan,
Gecədir zulumatdır.

Laylayın lala çixdı,
Quşa gül lala çixdı.
Şükür balam böyüdü
Yeriyib yola çixdı.

Laylay yağış ələdi,
Dağda qoyun mələdi.
Analar körpəsinə
Yaxşı dilək dilədi.

Laylay dağda çeşmədir,
Suyundan kim içmədi?
Qoç yiyəsin tapmağa,
Burda bir at kişnədi.

Laylayın bir quş idi,
Divara qunmuş idi.
Əl uzatdım tutmağa,
Mələklər tutmuş idi.

Laylay gözum iridır,
Boy– buxunun pəridir.
Deyin, balam maşallah,
Ayaq tutub yeridi.

Laylay Kərəmin sazı,
Koroğlunun Eyvazı.
Hansı dərddən ağlayır
Elimizin Arazı?

Laylay pambıq qozası,
Bağın gül dərvazası.
Badam şükufəsi sən,
Yaz gülünün tazası.

Laylay “Bəzyən “qalası,
Kəleybərin qalası.
Hansı qandan boyanıb
Savalanın lalası?

Laylay ahu balası,
Elin umud qalası.
Ağlasan yaşdan dolar
Cüt gözün piyalası.

Laylay Ərkin qalası,
Yat qəhrəman balası.
Yenə şehdən dolubdur
Gözlərin piyalası.

Laylay narın danası,
Qızıl üzüm danası.
Şirin dilli uşağa
Qurbandır öz anası.

Laylay ahu göz balam,
Laylay şirin söz balam.
Gözəllikdə dünyada
Təkdi mənim öz balam.

Laylayınam öz balam,
Qaşı qara göz balam.
Dilin baldan şirindir
Dodağında söz balam.

Laylay dilin duz balam,
Dil acgınan tez balam.
Mən oturum sən danış,
Şırın-şırın söz balam.

Laylay balam, gül balam,
Mən sənə qurban balam.
Qan eyləmə könlümü,
Gəl mənə bir gül balam.

Laylayınam gül balam,
Telləri sünbül balam.
Kəpənəkdən, serçədən
Yuxusu yüngül balam.

Laylay kəkilli balam,
Huşlu, fikirli balam.
Yar-yoldaşın yanında
Mənim şəkilli balam.

Laylayam oyaq ollam,
Yatmaram oyaq ollam.
Sən gecələr yatınca
Göz ollam, qulaq ollam.

Laylay gülüm, gülabım,
Alma, heyva, gülabım.
Dərya kimin geyinmiş
Ayaqdan başa abım.

Laylay dedim, can dedim,
Yuxudan oyan dedim.
Sən yeri, bir mən baxım,
Can sənə qurban dedim.

Balama laylay dedim,
Yatmadı laylay dedim.
Küçədə oynayanda
Yıxıldı, ey vay dedim.

Laylay şəkərim, qəndim,
Laylay uca Səhəndim.
Dünya gözəllərindən
Mən bir balamı bildim.

Laylay yaşıl çinarım,
Şöhrətim, iftixarım,
Narın-narın, nargülü
Dışləri inci narım.

Laylay damım– duvarım,
Sənsiz yoxdu qərarım.
Sənsən güllü, çiçəkli
Baxça, bağım, baharım.

Laylay bacım qardaşım,
Qərib yerdə sirdaşım.
Qəmli qürbət elində
Sənsən mənim yoldaşım.

Laylay ömür yoldaşım,
Laylay bacım, qardaşım.
Sənsən mənim toy payım,
Bollu-bollu şabaşım.

Laylay güllü zanbağım,
Gülşənim, baxça, bağım.
Almasım, bırılyantım,
Qolbağım, boyunbağım.

Laylay balam ayıxıb,
Süt süzələyib acıxıb,
Ya kal durub yuxudan
Ya qucağa darıxıb.

Laylay dağı qar alıb,
Ağaclardan bar alıb.
Balamın gözləri tək
Hava rəngi qaralıb.

Laylay gülüm belə yat,
Başıvı qoy gülə yat.
Mən qəmini çəkərim,
Sən bax gülə-gülə yat.

Laylayınam biri yox,
Biri vardı, biri yox.
Bağlarında balam tək
Təzə gülü, təri yox.

Laylay göydə ağ bulud,
Dərə bulud, dağ bulud.
Qıyma balam ağlaya,
Sən dayanma yağ, bulud.

Laylayın hamar-hamar,
Naz balam gözün yumar.
Üştü gül, altı çiçək,
Yuxusun orda tapar.

Laylayın çinar-çinar,
Yarpağı damar-damar.
Yaman gözdən, nəzərdən
Saxlasın pərvardigar.

Laylay uca qalalar,
Laçın orda balalar.
Ana balasın verməz
Güç ilin də alalar.

Laylay yandı çıraqlar,
Beşikdədi uşaqlar.
Yeddi yuxu içində
Balam behişt soraqlar.

Laylay şan-şan arılar
Qonar gülə sarılar.
Balama qurban olsun,
Yaşı uzun qarılar.

Laylay dağda lalam var,
Urəyimdə yaram var.
Xalqın malı, dövləti
Mənim də bir balam var.

Laylay balasın istər,
Ana balasın istər.
Mən balamı istərəm
Balam balasın istər.

Laylay laylası gələr,
Yatar yuxusu gələr.
Uzaq-uzaq yolardan
İndi dayısı gələr.

Laylay uşaq şirindir,
Dil yumuşaq şirindir.
Ana üçün hər nədən
Körpə uşaq şirindir.

## YALANLAR

* * *

Hadı idi, Hudu idi, mən idim. Getdik şikara. Gördük biri var. Dedim:

– Hadı, tüfəngin var?

Dedi:

– Yox.

– Hudu, tüfəngin var?

Dedi:

–Yox.

– Məndə də biri var, lüləsi yox.

– Hadı, fişəngin var?

Dedi:

– Yox.

– Hudu, fişəngin var?

Dedi:

– Yox.

– Məndə də var idi, barıtı yox.

Bu barıtsız fişəngi, lüləsiz tüfəngə qoyub nişana gedib ovun lap alnının ortasından vurdım.

– Hadı, bıçağın var?

Dedi:

– Yox.

– Hudu, bıcağın var?

Dedi:

– Yox.

– Məndə də biri var, tiyəsi yox.

Bu tiyəsiz bıcağ ilə ovun başını kəsib dərisini soydum.

– Hadı, qazanın var?

Dedi:

– Yox.

– Hudu, qazanın var?

Dedi:

– Yox.

Məndə də var idi, dibi yox.

Gətirib bu dibi olmayan qazanı govhan ilə dəlib, sirim ilə süpürdüm. Ətləri töküb içinə, ocaq üstə qoydum bişməyə. Ətləri tökülüb suya qaldı. Oturduq yeməyə. Amma çox yağlı idi. Mənim sağ əlim yağlı oldu, çəkdim sol başmağımın üzünə, sağ başmağım acıq eləyib getdi. Dağa çıxdım görmədim, daşa çıxdım görmədim. Gedib düzdə iynə ilə bir quyu qazdım. İynə sancdım qoyunun tərkinə, çıxdım iynənin üstünə, gördüm odu ha, başmaq tayım Muğanda çəltik əkir.

Getdim Muğana, dedi:

– Səbr elə çəltik yetişsin, biçib döyüb götürüb gedək.

Bir gün getdik biçməyə, gördük qabanlar düşüb çəltiki yeyirlər. Hirslənib orağı atdım qabana, oraq kecdi qabanın quyruğunun altına. Qaban qacdı. Oraq biçdi. Çəltiklər hamısı bicildi.

Bir gün getdik döyməyə, gördük bir dəstə at düşüb tayaya çəltikləri yeyirlər. Bir daş götürüb atdım, dəydi atın nalına, naldan bir od atılıb düşdü tayaya. Çəltikləri söküb qərağa atdım, bir də gördüm çəltiyin içindən bir palan çıxdı. Palanı açıb oxudum, gördüm mənim bu dediklərimin hamısı yalan çıxdı.

* * *

Hadı idi, Hudu idi, bir də mən idim. Gedirdik Təbriz hamamına, üç bisti tapdıq. Pul, nə pul? İkisi sınıq, birinin sikkəsi yox. Sikkəsi yoxu verdik üç tüfəngə. Tüfəng, nə tüfəng? İkisi sınıq, birinin qundağı yox. Qundağı yoxnan, üç ov vurduq. Ov, nə ov? İkisi ölü, birinin nəfəsi yox. Nəfəsi yoxu apardıq üç kəndə. Kənd, nə kənd? İkisi yıxıq, birinin

divarı yox. Divarı yoxdan üç qarı çıxdı. Qarı, nə qarı? İkisi kor, birinin gözü yox. Gözü yoxdan, üç küp aldıq. Küp, nə küp? İkisi sınıq, birinin dibi yox. Dibi yoxda ovları bişirdik, yedik. Qarnımızın xəbəri yox.

## Hədik ilə Hüdük

Biri var idi, biri yox idi. Dörd adam var idi. Adları Hədik, Hüdük, Kosakoroğlu, zirnaçı Əbdürrəhman. Bir gün bunlar ov üçün ormana çıxdılar. Dörd yoldaş özlərin bu ağaclığa, o ağaclığa vurub ancaq bir mığmığa şikar etdilər. Ovlamaqdan sonra mığmığanın dərisini soymaq üçün Əbdürrəhman Hədik, Hüdügə üzünü tutdu, dedi:

– Hədik, sənin bıçağın var? Hüdük, sənin bıçağın var?

Hədik, Hüdük cavab verdilər:

– Yox.

Əbdürrəhman dedi:

– Qarnıvuza yaman ox!

Kosakoroğlu o yandan dedi:

– Mənim bir dənə tiyəsiz bıçağım var.

Kosakoroğlu o tiyəsiz bıçaqla mığmığanın dərisin soyub Hədik, Hüdükdən soruşdu:

– Hədik, sənin qazanın var? Hüdük, sənin qazanın var?

Hədik və Hüdük cavab verdilər:

– Yox.

Kosakoroğlu dedi:

– Qarnıvuza yaman ox!

Əbdürrəhman o taydan cavab verdi:

– Mənim bir dənə dibsiz qazanım var.

Əbdürrəhman qazanı gətirib mığmığanı bişirib yedilər. Gəlməgə iradə elədikləri zaman Əbdürrəhman ip axtarırdı, dərini bağlayıb arxasınca alsın. Hədik, Hüdügə dedi:

– Hədik, sənin ipin var? Hüdük, sənin ipin var?

Hədik-Hüdük dedilər:

-Yox.

Əbdürrəhman dedi:

– Qarnıvuza yaman ox!

O taydan Kosakoroğlu bir tel saçlarından qopardıb gəldi ki, mığmığanın dərisini bağlasın. Gücü çatmadığı üçün Hədik, Hüdük də yardıma gəldilər. Amma onların da gücü çatmadı. Əbdürrəhman beləsi görəndə, gəldi dərini arxasına alsın. Yükün ağırlığından belinin yeddi möhrəsi yerindən tərpəndi, aciz qaldı. Onlar işin sonunda bir atlı qarışqa tapıb dərini yükləyib gəldilər.

## DÜZGÜLƏR, ACITMALAR, UŞAQ NƏĞMƏLƏRI

Ala dana,
Göy dana,
Qorxmursan
Cıx meydana.

Əhəd əmi,
Damda yatar,
Dambılın
Atar,
Tikan batar.

Eşşək adam,
Qoduq başlar,
Hec görmüsən
Yeriyə daş?

İrza, İrza,
Mindi xoruza.
Bir təpik vurdum,
Düşdü hovuza.

Cıqqılı kişi,
Dağ yemişi.

Hoqqa maşa,
Dəydi daşa.
Üc arvadın
Birini boşa.

## ACITMALAR

Qarğa deyir:
– Qar-qar.
Qəcələ deyir:
– Zəhrmar.
Sərcə deyir:
– Nə işin var?

Qoca, qoca,
Sən gələn gecə
Qapı cırıldar,
Pişik movuldar.

Kecəl, kecəl bamiyə,
Getdi həkimxaniyə.
Həkimxana bağlıdı,
Kecəlin başı yağlıdı.

Kecəllər ha,
Kecəllər,
Yığışallar,
Aş icəllər.

Kecəlin
Hindi başı,
Mazammətə

Mindi başı,
O tayda
Daş atdılar,
Bu tayda
Sındı başı.

Gəlin getdi
Hamama,
Cıxdı oldu
Şamama.

Havva xala,
Təndiri qala.
Kösövü götür,
Məni qavala.

Yağdı yağışlar,
Banladı quşlar.
Bizim dərvişlər,
Qıcın qərişlər.

Keçəl, keçəl
Naz eylər,
Quyruğun bular
Toz eylər.
Girər əncir
Koluna,
Saxsağana
Göz eylər.
Dınqılı, dınqılı,
Dur cay qoy.
Evimi süpür, nahar qoy.

Mənim adım Həlmədi,
İsfahannan gəlmədi.
İsfahan mənim olsun,
Qırmızı donum olsun.
Geyim gedim Tehrana,
Tehranda toyum olsun.
Qızlar gəlsin toyuma,
Qurban olsun boyuma.

Üşüdüm, ay üşüdüm,
Dağdan alma daşıdım.
Almacığım aldılar,
Mənə curum vurdular.
Mən curumdan bezaram,
Dərin quyu qazaram,
Dərin quyu beş keci,
Beşi də ərkək keci,
Ərkək qazanda qaynar,
Qənbər yanında oynar.
Qənbər getdi oduna,
Qarqı batdı bıdına.
Qarqı deyil, qəmişdi,
Beş barmağım gümüşdü.
Gümüşü verdim tata,
Tat mənə darı verdi.
Darını səpdim quşa,
Quş mənə qənət verdi.
Qənət caldım ucmağa,
Haq qapısın acmağa.
Haq qapısı kilitdi,
Kilidi dəvə boynunda.

Babam Gilan yolunda,
Gilan yolu sərbəsər,
İcində ahu gəzər.

– Denən bir alma.
– Bir alma.
– Yeri-yeri yolda qalma.

Denən, nəlbəkı,
– Nəlbəki,
– O kimdi tövlədəki?

– Denən, əriştə.
– Əriştə.
– Dədön-nənön behiştə.

– Denən, badam.
– Badam.
– Gözlərivə qadam.

– Denən yeddi.
– Yeddi.
– Aşığın əlindən getdi.

## Kəsibdi

Əlimi bicax kəsibdi,
Dəstə bicax kəsibdi,
Yağ gətirin yağlıyax,
Dəsmal gətirin bağlıyax.
Dəsmal dəvə boynunda,
Dəvə Gilan yolunda,
Gilan yolu sərbəsər,
İcində ahu gəzər.
Ahunun balaları,
Məni gördü ağlaşdı.

Tumanına qığlaşdı,
Tumanı boluh-boluh,
Aftaha dəlih-dəlih,
Həsən bəyin nəyi var?
Qələm yazan qolu var,
Cit oynadan qızı var,
Göy mıncixlı iti var,
Dağa cıxan atı var.
Əlində bir lutu var,
Əlli batman g.... var.

## TAPMACALAR

Ahanı hay ahanı,
Gəzər cümlə cahanı.
Gətirsən öldürməyə,
Nə əti var, nə qanı.
**(Yel)**

Ahanı hay ahanı,
Gəzər külli cahanı,
Altı qıçı var, iki dabanı.
**(Tərəzi)**

Axşam baxdım çuxura,
Səhər baxdım yuxudu.
**(Uduzlar)**

Altı qoyun, üstü keçi, başı fındıq, quyruğu qayçı.
**(Çarıx)**

Alalar hay alalar,
Üstü yaşıl, içi
Qırmızı alalar.
**(Qarpız)**

Atım ha atar,
Çəməndə otlar,
Vədəsi gələndə
Dimdiyi çatlar.
(**Pambıq)**

Aynanı qapaxladım,
Dörd bir yanın sacaxladım.
**(Göz)**

Azan oxur, namaz qılmaz,
Arvad alar kəbin bilməz.
**(Xoruz)**

Azar üstü dumandır,
Duman üstü samandı.
Samana bir od düşübdü,
Ay Allahım amandı.
**(Qəlyan)**

Başını kəsərəm qanı yox,
Yumurtasının sanı yox.
**(Qarışqa)**

Bazarda olmaz,
Tərəzidə durmaz,
Ondan şirin zad olmaz.
**(Yuxu)**

Beş bacıyıq, beşimiz də bir peşəyə baxarıq.
**(Corab mili)**

Bir atım var sakit durmaz,
Hey yol gedər heç yorulmaz.
**(Çay)**

Bircə belə boyu var,
Qırmızıca boyu var.
**(İydə)**

Bircə belə boyu var, dağdan şələ yendirər.
**(Göbələk)**

Bir damım var bir dirəkli.
**(Göbələk)**

Bir inəyim var, uyruqlamasan yerinə girməz.
**(Qaşıq)**

Bir inəyim var bayırdadı,
İl on-iki ayı bayırdadı.
İldə bir yol sağılar,
Özü genə də bayırdadı.
**(Zəmi)**

Bir səhəngim var, iki rəngli su tutar.
(**Yumurta)**

Bizdə Yusub oturub,
Boynun qısıb oturub.
**(Şor motal)**

Bir atım var sakit durmaz,
Hey yol gedər heç yorulmaz.
**(Çay)**

Biz idik bizləridik,
Otuz iki qızlardıx.
Əzilərdik, üzülərdik
Bir taqcaya düzülərdik.
**(Otuz iki diş)**

Bizim evdən, sizin evə cınqıllı tas.
**(Siçan)**

Bizim evdə kəndi var,
Kəndinin kəməndi var.
Göydə uçan quşların
Ayağının bəndi var.
**(Tərəzi)**

Bir quşum var alaca,
Gedər qonar ağaca,
Özünə bir ev tikər,
Nə qapı qoyar, nə baca.
**(Barama qurdu)**

Bir şey vardı yemişdim,
Yeməsəydim ölmüşdüm.
Indi olsa yemərəm
Yeməsəm də ölərəm .
**(Ana südü)**

Dağdan atdım ölmədi,
Daşdan atdım ölmədi,
Suya atdım öldü.
**(Kağız)**

Bir hovuzum var cimməli,
Başı qızıl döyməli.
Hər kim onu tapmasa,
Bir qonaqlıq verməli.
**(Samovar)**

Boz öküz gedər gəlməz,
Qırmızı öküz yatar durmaz.
**(Od və tüstü)**

Burda vurar qılıncı,
Misirdə oynar ucu.
**(İldırım)**

Çatı su içər, dama köçər.
**(Boranı)**

Çayda şappıldar,
Dağda tappıldar.
Kənddə Süleyman,
Obada mehman.
**(Balıq, balta)**

Çin otaq,
Çin– çin otaq,
Qırx pilləkən,
Min bir otaq.
**(Kələm)**

Çıxdım təpəyə,
Düşdüm küpəyə.
**(Çəkmə)**

Cavanlıqda qaçmaz,
qocalıqda qaçar.
**(Yel qovan kol)**

Dağdan gəlir dağ kimi,
Qolları budağ kimi,
Əyilir su içməyə,
Bağırır ulağ kimi.
**(Sel)**

Dağdan gəlir dağ araca,
Quyruğun vurub ağaca,
Evin yıxılsın fələk,
Nə qapı qoydun, nə baca.
**(Sel)**

Dağdan gələr dağ əlaca,
Tökülər yal -yamaca.
**(Qar)**

Damdan dama dingilim fıs.
**(Dolu)**

Dam üstə daylağ oynar.
**(Dolu)**

Dədəmin bir donu var,
Qatdamaq olmaz,
Içi dolu şah Abbas
Sanamaq olmaz.
**(Göy, ulduzları və ay)**

Dəyirmana dən gedir,
Gedin görün nə gedir,
Tikilməmiş çuvalda
Çəkilməmiş un gedir.
**(İydə)**

Dəvədən uca, kürsü boyuca.
**(Dəvə palanı)**

Dilim– dilim nar,
Dizimədcan qar.
Uçdu bu kəklik
Qondu bir dilbər.
**(Xırman şanası, yaba)**

Dolu gedər, boş gələr,
Tərpədəndə xoş gələr.
**(Qələm)**

Duvar üstə ağ toyuq.
**(Dil və dişlər)**

Evimizdə bir kişi var,
Nənəminən işi var.
**(Cəhrə)**

Gəlirdim kənddən,
Səs verdi bənddən,
Ağzı sümükdən,
Saqqalı ətdən.
**(Xoruz)**

Gecədə gedər Camal bəy,
Günüzdə gedər Camal bəy,
Heç yorulmaz Camal bəy.
**(Su, çay)**

Gedən leyli,
Gələn leyli,
Bir qıç üstə
Duran leyli.
**(Qapı)**

Göbəyim göbəyən,
Mıxım dələyən.
**(Dəstək)**

Göydən gələr hənir-hənir,
Vur başına için gəmir.
**(Girdəkan)**

Hacılar haca gedər,
Cəhd edər gecə gedər.
Bir yumurtanın icində
Yüz əlli cücə gedər.
**(Nar)**

Ha gedər,
Hu gedər,
Bir qarış
Yol gedər.
**(Ürək)**

Ha gedər, hu gedər.
Bircə qəriş yol gedər.
**(Nənni)**

Hamını doyurar, özü ac qalar.
**(Dəyirman)**

Hamını bəzər,
Özü lüt gəzər.
**(İynə)**

Hap, hapı,
Kərki sapı.
Bir butağı,
Beş yarpağı.
**(Əl və barmaqlar)**

Hədi yabanı, hudu yabanı,
Altı qıçı var, iki dabanı.
**(Əl tərəzisi)**

Həzar, həzara gedər,
Tükan, bazara gedər,
Ata yatıb beşikdə
Oğlu bazara gedər.
**(Üzüm)**

Hini-hinicə,
Boynu ayrıca.
Hayana gedim,
Bu yarı gecə.
**(Baca və tüstü)**

Hini– hinicə,
Burnu iricə,
Hara gedirsən,
Bu yarı gecə.
**(Başmaq)**

Xanım oyandı,
Cama dayandı,
Cam sındı,
Qana boyandı.
**(Nar)**

İlmə, ilmə ilməsi,
İlmə xatın döyməsi.
Hər kim onu tapmasa
Yeddi ilin xəstəsi.
**(Üzərlik)**

Keçirdim bağ arası,
Tapdım bir gün parası.
Öpülməmiş qız gördüm
Üzündə diş yarası.
**(Ay)**

Qax, qax, qax,
Bir oğlan doğmuşam,
ağappaq
İnanmırsan, dur get bax.
**(Yumurta)**

Qanadlıdı quş deyil,
Buynuzludu qoç deyil.
**(Kəpənək)**

Qapı dalında qara molla.
**(Xəkandaz)**

Qapı dalında kilkəli qız.
**(Süpürgə)**

Qara nəzər
Qapıları gəzər.
**(Sac)**

Qərə toyux,
Qarnı yarıx.
**(Divar buxarısı,
yaxud ocaq)**

Qəlibsiz güllə tökər.
**(Keçi qığı)**

Qırmızı duvar üstə ağ cücələr.
**(Ağız, dişlər)**

Qonağım gəlib haqdan,
Qoç kəsmişəm nahaqdan,
Nə qoçun sümügü var,
Nə qonağımın dişi.
**(Qonaq, dünyaya təzə
gələn uşaq, ananın döşü)**

Quyruğundan tutanda qan
basar.
**(Çaynik)**

Quyruğun kəsməsən,
pəyəyə girməz.
**(Kişmiş)**

Mən gedirəm o da qalır.
**(İz)**

Mən getdikcə o da gedər.
**(Kölgə)**

Mənim maral inəyim,
Qarnı xaral inəyim.
Ot otlamaz, su içməz
Cəpəri yarar inəyim.
**(Yaba)**

Mənim dədəm burda yatıb,
Da...orda atıb.
**(Qarpız tağı)**

Mindirdilər ağaca,
Çıxartdılar yamaca.
Apardılar bir yerə,
Nə qapı var, nə baca.
**(Ölü və qəbir)**

O yan qala, bu yan qala,
Ortasında sarı maya.
**(Yumurta)**

O yanı taxta,
Bu yanı taxta,
Sevgili bəy
Durub taxta.

**(Bağa)**

O yan mərmər, bu yan mərmər,
Içində bir bülbül oynar.

**(Dişlər və dil)**

O yan daş, bu yan daş,
İçində qırx -əlli baş.

**(Hamam)**

Özü özünə qəbir qazar.

**(Damcı)**

Sarı, sarı sandıqlar,
İçi dolu fındıqlar.

**(Qabaq dişlər)**

Sarıdı zəfəran deyil,
Yazılıdı Quran deyil.

**(Sikkə)**

Sarıdı zəfəran deyil,
Yazılıdı Quran deyil,
Buynuzu var, qoc deyil,
Qanadlıdı quş deyil.

**(Bal arısı)**

Sarı fərik suda sınar.

**(Ləpə)**

Sarıdı, qırmızıdı, dü rəngidi,
Atılıb düşər firəngidi.
Gecələr o çalar, mən oynaram.
Günüzlər mən içmişəm, o, bəngidi.

**(Birə)**

Səhər durdum göy ovlağı çirpdım yerə.

**(Fırtığ)**

Səkidə çökər, yumurta tökər.

**(Kündə salan arvad)**

Sildim, süpürdüm gəl otur.

**(Kürsü)**

Tapışdırdım hopuşdurdum,
Çatlaquva yapışdırdım.

**(Yamaq)**

Tap tapbaca,
Tap yapbaca,
Məməli xoca
Dişləri yox.

**(Toyuq)**

Tap o nədi tapbaca,
Ayaxları yapbaca,
Gözləri piyalaca .

**(Dəvə)**

Tappaca tapdım baca,
Itə vursan it də qaça.
**(Kösöv)**

Uzun uzun qəmişlər,
Gecə bizə gəlmişlər.
O vaxtdır oyanmışlar
Xurdu -xəmir olmuşlar.
**(Əriştə)**

Uca damdan alçaq dama
qar yağar.
**(Ələk)**

Üç bacıyıq, üçümüzün də
döşü yanıq.
**(Ocaq daşı)**

Ülgüc kütəlməz, quyruq
qurtarmaz, məcəəyə dolmaz.
**(Əzrayıl, dünya,
qəbiristanlıq)**

Yer altda qanlı küpə.
**(Qənd çuğunduru)**

Yer altdan yasa gedər.
**(Siçan)**

Yer altda çöllü qodux.
**(Soğan)**

Yerə vurdum baltanı,
Ağzı gümüş xaltanı.
Yerdən bir oğlan çıxdı,
Cümlə cahan sultanı.
**(Su)**

Yük üstə qıllı yumax.
**(Pişik)**

Yol üstə yorğun qatır,
Heç durmaz hər gün yatır.
**(Körpü)**

Yol üstə yağlı qəyiş.
**(İlan)**

Yol üstə qazan qaynar.
**(Qarışqa)**

Yol üstə bağlı boxca.
**(Mal fəzləsi)**

Yük üstə Yusuf yatıb,
Qulağın qısıb yatıb.
**(Pişik)**

# OYUNLAR

## Südlü sümük oyunu

Südlü sümük oyunu bir yarışma oyunudur. Oyunçuların sayı hər neçə nəfər ola bilər (nə qədər çox olsa, bir o qədər yaxşı olar). Oyunun adamları oğlanlı, qızlı bütün yaşlarda ola bilərlər. Uşaqdan tutmuş qocaya kimi.

Oyunun vaxtı: Gün batandan sonra, gecə vaxtı ay işığında.

Oyunun oynanması: Öncə ölmüş heyvanın sümüklərindən birini ayırıb, oyun üçün seçərlər.

Əksərən dişi üstündə olan əng sümüyü, ya da bir nişan qoyulmuş sümük olar. Oyunu başlamazdan bir əbə qazıb (bir kiçik cula qazarlar) sonra hər neçə nəfər olsa iki bölümə bölünüb, öncə hansı qrupun başlayacaqlarına görə atarlar. Sonra hər tərəfə düşsə, o tərəfdən bir nəfər sümüyü atar. Sümüyü atanda hamı gözün yumar, sonra hamı düşər sümüyü axtarmağa. Hər kim tapa bilsə, gərək sümüyü əbəyə yetirə, yoxsa tutub sümüyü alarlar. Ancaq yoldaş, yoldaşa sümüyü verə-verə gətirib əbəyə çıxardarlar. Hər qrup sümüyü əbəyə yetirə bilsə, o qrup o biri qrupu bir məlum yerədək minərlər. Sonra udan qrup oyunu yenidən başlar.

## Baş qoruma (Baş tutdu)

Oyun birbaşa yarışma oyunudu, oyunçuların sayı hər neçə nəfər ola bilər.

Oyunun vaxtı: Yaz günləri çiməndə, ya da bir yumşaq yerdə.

Oyunun oynanması: Oynayanlar çevrə vurub aralarından birisini seçib ortalarında oturdarlar. Bir nəfər də seçirlər ki, onu qorusun (baş qoruyan). Qoruyucu əlin oturanın başına, ya da çiyninə qoyar. Oturan heç nə etməz, sakit oturar. Çevrədəkilər oturanın kurəyindən vurmağa çalışarlar. Hər kəs istəsə oturanı

vura qoruyucu ayağı ilə yerdə oturanı qoruyub, qoymaz ki vursunlar. Burada qoruyucu hər kimi vursa yerdəki də (aradakı ki, oturmuşdu) durub baş tutar (baş qoruyar) gahdan da baş tutanı yıxılsın deyə itələyirlər. Beləliklə, oyun davam edir.

## Topana cızan

Topana cızan – bu oyunda oynayanların sayı 4 nəfərdən az olmaz (çox da ola bilər). Qızlar, ya da oğlanlar oynayarlar. İki qurupa bölüşüb bir azcıq dayrə çəkərlər. Bir qrup cızıqdan içəri, bir qrup da cızıqdan bayırda (eşikdə) durarlar. Eşikdəkilər bir top ilə cızığın içərisindəkiləri vurarlar. Əgər olar topu tutup top atanı vura bilsələr, oyunçuların yeri dəyişilər. Oyun da davam edər.

## Əl məndə oyunu

Bu oyunu oğlan, həm də qızlar oynayarlar.

Oyunu oynayanlar iki nəfərlik qruplara bölünərlər. Sonra püşk atıb bir qrupu seçərlər. Seçilən qrup (iki nəfər) bir yerdə durarlar. O birilər gəlib onları vurarlar, gərək vurulan iki nəfər vuranlardan birisini tutalar. Elə ki, tutdular, o biri yoldaşı da gəlib onların yerində durarlar. Oyun dəyişilib davam edər.

## Əl-ələ

Balaca uşaqlar əl-ələ yapışar və yeriyə-yeriyə oxuyarlar:

– Əl-ələ
Kətan kələ,
Biz gedirik.
Babam mənə papış alıb,
İçi dolu kişmiş alıb.
Bir tayı sənin,
Bir tayı mənim,
Donbalan pis.

Bunu deyib çömbəlib yerə oturarlar. Ayağa qalxar, yenidən bu qoşmanı oxuyarlar.

### Qonaq bacı

Uşaqlar evcik qurar və biri-birinə növbə ilə qonaq gedərlər.

### İncələ qiz

Dörd-beş nəfər oyunçu üz-üzə dairə durar. Bir oyunçu da arada çömbələr. Bir başqa oyunçu ki ana rolunu ifa edər dəstədən kənarda gəzər və deyər:

– İncələ qızım itibdir,
Torbada duzum itibdir.

Axırda gələr və qızı tapar.

### Qovala qaçdı

Bir oyunçu yoldaşını qovalayır. Onu vura bilərsə vurulan dönüb vuranı qovalayır. Beləcə, bu onu o bunu vurub qaçmaqla oyun uşaqlar yorulana kimi ədamə tapar.

### Tas Məlik

Usta divarın dibində və oyuncular da onun yan– yörəsində oturarlar. Oyuncuların biri ustanın qabağında oturar və başını ustanın qucağına qoyub gözlərin yumar, usta iki əlini bir-bir dalbadal onun kürəyinə tapdayar və deyər: "Tas Məlik, dunbəyindən nəyindən?" Barmağını onun üzvlərinin birinə tuşlayır. O üzvün adını düzgün cavab verərəsə, durar və ayrı oyuncu onun yerinə göz yumar. Eləcə oyun davam edər.

### Cızdana-cızdana

Uşaqlar əlləri bir-birinin üstündə hər oyuncu iki barmağıyla cimdiklər – yoldaşının əlinin dalısının dərisindən tutar-

lar. Məsələn, oyuncu üç nəfər olarsa altı əl üstə bir birindən tutacaq. Sonra əllərini birgə aşağı yuxarı aparıb ritmlə hamısı deyirlər: “cızdana-cızdana əlim yandı, cızdana-cızdana əlim yandı.” Lap altdakı əl çıxar, ən üstdəki əlin dalısından yapışar və beləcə oyun davam edər.

### Atlanmaq

Daldan qaça-qaça gəlib cüt qıclı uzununa atlanmaq.

Bir yerdə durub cüt qıclı uzununa atlanmaq.

Göyə atlanıb necə dəfə ayaqları bir-birinə vurmaq.

Sağ əl ilə sol qıcın baş barmağından tutub bir qıclı maneədən atlanmaq.

### Təkər sürmək

Təkər dairə şəklində dəmir məftil, ya da neft boşqalarından çıxarılmış barmaq enində dəmir olardı. Bir də dəmirdən bir dəstə olardı ki, ucunu əyib təkərə keçirdib sürərdilər. Ya da bir təkəri ağacla döyəcləyə– döyəcləyə sürərdilər.

### Haça minmək

İki uzun ağac ki hərəsinin aşağı başı haça olar. Hər ağacı bir əldə saxlayar. Hər qıçını bir haçaya qoyar və ağacın dabanları üstə oyunçu yeriyir.

### Atımın başı qızıl

Oyunçuların sayı cüt olmalıdır. Əgər iki nəfər olarsa, biri dalını divara dayayıb əyilər və ikincisi onun belinə minib və deyir:

– Atımın başı qızıl, almışam səksən tümənə, verirəm doxsan tümənə.

Çox olarsa, cüt-cüt biri birini minib divar dibinə düzülərlər.

**Dədəm mənə kor deyib**

Bir uşaq əlinə bir ağac alar. Gözlərin yumar. Ağacı hər tərəfə tovlayar və deyir:

-Dədəm mənə kor deyib,
Hər gələnə vur deyib.

**Bişibdi**

Bu oyunu yekə-yekə gənclər də oynayarlar. Iki nəfər əl-ələ yapışar. Qalan oyunçular deyərlər: “bişibdir”. Calışarlar fürsət tapıb əllərini şap basalar o iki nəfəri vursunlar. O iki nəfər də qavalayar, ta oyuncuların birini tutsunlar və səy edərlər ki, bir-birindən ayrılmasınlar. Yoxsa əlləri bir-birindən üzülərsə təklikdə hər kimi tutar salar, göv deyil və hərəsin bir yerdə basıb döyəcəklər, ta güc billahla gəlib yenidən əl-ələ versinlər. Bu iki nəfər hər kimi tutarsalar, o gərək özünə bir yoldaş tapıb bu iki nəfərin yerini tutsunlar.

**Sari gülün sapı**

Uşaqlar bağlarda o çöldə bitən sarı gülün içi boş, lətif uzun sapını qırar və bir ucuna xətt salar ki, dörd yerdən açılıb eşiyə qatlansın. Bir zərrə palçıq yumurlayıb bu ucuna qoyar və dalı üstə otların içinə uzanıb sapın o birisi ucundan püfləyər. Yumru palcıq göydə azad qalıb oynayar.

**İp ilə həndəsi şəkil**

Təqribən yarım metrlik nazik ipin iki ucunu bir-birinə düyünləyərlər. Birinci oyuncu iki əl və barmaqlarına keçir-məklə ipi həndəsi şəklə salır. Ikinci oyuncu məharətlə iki əli-nin barmaqları ilə o ipi dərər və başqa bir şəklə salar. Sıra gə-lər birinci oyuncuya və beləliklə, neçə dəfə oyun idamə tapar.

## Girdəkan dığırlamaq

Divarın dibindən bir dik yerdən birinci oyuncu bir dənə ceviz qoyar. Ceviz öz-özünə dığırlanar və gedib bir yerdə dayanar. Ikinci oyuncu divarın dibində münasib bir yerdən bir ceviz qoyar. Gedib əvvəlki cevizə dəyərsə, ikisini də götürər və özü bir ceviz dığırlayar. Dəyməzsə, üçüncü oyuncu cevizini dığırladar. Birinə dəyərsə hamısını yığışdırar. Üçüncü oyuncunun da cevizi dəyməzsə dördüncü cevizi dığırladarlar. Heç birininki dəyməzsə, qayıdar başa. Birinci oyuncu ikinci cevizini dığırladar. Axır bir oyuncunun cevizi yerdəkilərin birinə dəyəcək. Onda hamısını yığışdırar.

## Qarış atmaq

İki nəfər pullarını yerə döşərlər. Özünün, ya tərəfinin məharət və bacarığını zehnində götür-qoy edər. Fasiləni nəzərə alaraq hərə öz növbəsində pullarının yerini dəyişər. Elə ki, biri münasib gördü pulunu götürər və tərəfin yerdəki pulunu tuşlayıb atar. Əgər bir qarışdan, ya təyin olunan ölçüdən fəsləsi az olsa tərəfin yerdəki pulunu götürür. Yoxsa, öz pulunu da uduzar.

## Pul çöndərmə

Oyunçular hərəsi münasib məbləğ – pul üst-üstə qoyarlar. Növbə ilə başqa bir sikkəni pullara vurar. Hər kəs sikkəni çöndərə bilərsə, özününkü edər.

## Alçı tava

Bəri başdan deyim ki, aşıq sovuranda ya “çik” düşər, ya “bök” düşər. Ya “alçı” durar, ya “tava” durar, ya da “omba” durar. Aşığın çuxur tərəfi üz olarsa “çik “düşüb. Saf olan dal tərəfi üz olarsa “bök” düşüb. Aşığın çuxur, yan üzü “alçı”, onun müqabilində yan üzü tava– mil durarsa “omba “deyilir.

Alçı tava oyunu iki oyuncu arasında olar. Birincisi aşığı sovurar, sonra ikincisi iki aşığdan tava duran bök düşəni və alçı duran çik düşəni udar. Əgər, məsələn, biri tava, o birisi çik düşərsə, aşığı duran oyuncu çik düşən aşığı öz aşığı ilə vuracaq. Çik üzünü döndərə bilərsə, onu udacaq. Döndərə bilməzsə, əgər aşığı durarsa bir də vurar. Yoxsa tərəfin haqqı var, bunun aşığını vurub döndərsin. Döndərə bilməzsə, yenə birinci, üçüncü vuracaq. Beləliklə, nəhayət biri– birini udacaq. Dediyim bəs, ikisi də dura ki, götrər və yenidən sovurarlar. Aşıqları sovurandan biri bök, o birisi çik düşərsə, bök çiki vura bilər. Hər aşıq omba durarsa, bir başqa aşıqlar onu üstündən vurarlar. Ta dörd halətdən biri düşsün.

## Qatar qoymaq

Bu oyunu iki nəfər oynar. Bir yumurtanı rədif düzərlər. Oyuncuların biri başdakı yumurtanı götürüb düşər və ikinci oyuncu ikinci yumurtanı götürüb vurar. Başını və künəsini sındıra bilsə, yumurtası sınan ikinci yumurtanı götürüb düşəcək. Əgər yumurta vuran oyuncunun yumurtasının başı sınarsa, çöndərib künəsini düşəcək. Künəsi də sınarsa, yerdən oyuncu yumurtanı götürüb düşəcək. Beləliklə, oyun idamə tapar. Yumurtalar qurtaranda hansı oyuncunun əlində sağ yumurta qalarsa, yumurtaların hamısını udub pularını o birisi tərəfə dükancıya ödəməlidirlər.

## Misqala kəsmək

İki nəfər bir qarpızı araya qoyar. Biri deyər, məsələn, on misqala, o birisi deyər, səkkiz misqala. Axırda biri deyəndə beş misqala kəsirəm, o birisi razılaşar. Bıçağı qoyub diqqətlə qarpızı iki böləcək. Qarpızın hər üzünü tərəzinin bir tayına qoyarlar. Əgər ağırlıq razılaşmış miqdarda misavi, ya az olarsa qarpızı kəsən udar və qarpız yeyilər. Pulunu da uduzan

verər. Yoxsa, əgər razılaşmış miqdardan artıq olarsa, qarpız müqabil tərəfindir. Pulunu da qarpızı kəsən ödəməlidir.

### Toxum çıxartmaq

İki nəfərin biri qarpızın qabığında bir müstəvi şəkil cızar. Məsələn, biri deyir, buradan altı dənə toxum çıxardaram. İkincisi onu itələyib deyir: səkkiz dənə çıxardaram. O, artırar, bu artırar axırda biri deyəndə on iki toxum çıxardaram, o birisi razılaşır. O adam bıcağı soxub diqqətlə qarpızı kəsib çıxardar. Bu cıxan hissədə əgər toxumların sayısı on iki dənədən cox olarsa, toxum çıxardan udur. Yoxsa, uduzarsa qarpızın pulun verməlidir.

### Mum oynatmaq

Bu oyunu iki nəfər oynar. Bal pətəyindən çıxan "bərə mum", ya "qara mum"dan bir oyuncu bir az mumdan qopardar, əllərini dalına aparar, mumu ovuclarının birinə qoyar. Əllərini yumaraq yoldaşına uzadar. Oyuncu mum olan əli tapmaq üçün cürbəcür fəndlər işlədər.

### Çəkişmək

İki ev adamı, ya iki yoldaş yeməlidən, ya bir şeydən çəkişərlər. Toyuğun ətin yeyəndən sonra cınağını iki nəfər hərəsi bir tərəfindən tutub çəkərlər. Sümük qırılar. O dəqiqən, əgər biri o birisinə əlində bir şey verərsə şey alan gərək deyə: yadımda. Yadımdan şıxıb deməzsə, şeyi verən yadımda deyib şərti udacaq. Necə günə kimi də olarsa, çəkişənlərin biri udana kimi bu qərar yerindədir.

### Mərcləşmək

İki, ya neçə nəfər pul, ya başqa bir şeydən mərcləşərlər. Mərcləşənlər iki nəfər olarsa, mərcləşən də çəkilib barmaqların bir-birinə kilidləyib sonra açarlar.

## Qirx barmaq

Təklikdə, ya bir məclisdə bir nəfər yoldaşına deyir: gətir sənin beş barmağını qırx eləyim. Tərəf əlini gətirir. O adam bunun çilik barmağından yapışır. Hər barmağa bir ad deyir.

## Çaydana girmək

Bir nəfər məçlis əhlinə deyir: mən çaydana girə bilərəm. Əlbəttə, buna heç kəs inanmayacaq və mərcləşirlər. Bir çaydan gətirirlər. O adam ayağa durar, əl-qolunu çırmalar. O yana, bu yana gedər və deyir: mən hər vaxt deyirsəm bir salavat çevirəcəksiniz. Ancaq gərək hər kəs əlini yanındakı yoldaşının üzünə çəksin. Yenə otağın o başına, bu başına gedər. Gəlib çaydanın yanında durar və deyər: bir salavat çevirin! Necə nəfər məclis əhli ki, öncədən çaydana girən gizlincə onlarla dilləşib və əllərinin içinə kömür qarası yaxıblar salavat çevirəndə əllərini yanındakının üzünə çəkərlər. Salavatdan sonra üzləri qaraya boyanmış adamlar məclis əhlinin gülməyinə səbəb olar və məclisdə gülmək çıxar.

## Gizlin şallaq

Oyunçular dairə şəklində yan-yana kip oturar və ayaqların dairənin mərkəzində bir-birinə çatarlar. Belə ki, qıçlarının büküklərinin altı bir dairə dalan kimi boş qalsın. Bir nəfər seçilərək dairənin mərkəzində ayaqları üstündə oturar və tez-tez o yan– bu yana göz-qulaq olar.

Şallağı qıçların altındakı boş dalandan əldən– ələ verərlər. Münasib fürsətdə oyuncuların biri şallaq əlinə keçdikdə, çıxardıb arada oturanın kürəyinə göpsəyir və tez qıçların altına soxub əldən-ələ verər. Arada oturan şallağı eşikdə birinin əlində tutarsa, onunla yerin dəyişəcək və oyun davam edəcək.

## Motal-motal

Bu oyunda uşaqlar dövrə vurub oturur, ayaqlarını bir yerə uzadarlar. Onlardan biri aşağıdakı şeyiri deyər:

İynə-iynə,
Ucu düymə.
Bal ballıca,
Ballı keci,
Şam ağacı,
Şatır keci.
Qoz ağacı,
Qotur keci.
Vur nağara,
Cıx qırağa.
Motal-motal
Tərsə motal,
Qaymaq tutar.
Ağ quşum,
Ağarçınım,
Göy quşum,
Göyərçinim.
Əlin tikan,
Əmirqulu.
Vur nağara,
Çıx qırağa.

Bu şerin hər kəlməsini deyən şəxs əlini növbə ilə yoldaşlarının və özünün ayağının üstünə qoyur. Şeyirin sonundakı "çıx qırağa" sözləri hər kəsin ayağının üstə deyilsə, ayağını çəkər. Sonra yenə şeyir başdan-ayağa deyilir. Beləliklə, uşaqlar bir-bir ayaqlarını çəkir. Hər kəsin ayağı axıra qalsa, onu üzü üstə uzadıb əllərini yumruq formasında onun kürəyinə qoyub soruşurlar:

– Əl üstə kimin əli?

Əgər uşaq əlini onun kürəyinə qoyanı tapsa onu durğuzullar, yox əgər tapmasa, deyərlər:

– Götürün vurun, yalandı.

Onu bir necə dəfə astaca vurur və yenə soruşurlar:

– Əl üstə kimin əli?

Beləcə, uşaq əl sahibini tapanadək onu astaca yumruqlayırlar.

## Sınıq qol

Bir uşağın əlindən tutub, ehmalca qavzayıb endirir və bu şeyirləri deyirlər:

– Sınıq qol ha, sınıq qol,
Suya gedər sınıq qol.
Sudan gələr sınıq qol,
Bir tikə cörək görəndə:

(Sonra qolunu daha da qavzayıb deyərlər)
Düm-düz duraaar sınıq qol,
Düm-düz duraaar sınıq qol.

**Lu lu lu lu xovzə**

Uşağın əlini əllərinə alıb, ovcundə barmaq ilə bir dairə cəkərək, oxuyurlar:

– Lu lu lu lu xovzə,
Dört bir yanı səbzə.
Sonra çiri barmağı bükərək:
– Bir quş gəldi su icmağa.
İkinci barmağı bükərək:
– Bu tutdu.
Ara barmağı bükərək:
– Bu bişirdi.
Dördüncü barmağı bükərək:
– Bu yedi.
Sonra baş barmağın başına calıb deyirlər:
– Külə qalasan, böyümüyəsən,
Külə qalasan böyümüyəsən.

**Kəkliyimin başı sarı**

Necə uşaq dövrə ilə əyləşər, bir xırdaca uşağı da aralarında oturdub, onu özlərinə kəhlik edərlər. Sonra da hamısı başlarına cadra, ya da mələfə cəkərlər. Xırdaca uşağın başını tumarlayaraq, bu şeyirləri oxuyarlar:

– Kəhliyimin başı sarı.
Saclarını tumarlayaraq:
– Sacı sarı.
Dodaqlarını oxşayaraq:
–Dimdiyi sarı.
Qollarını:

– Qanadı sarı.

Nəhayət ayaqlarına əl cəkərək:

– Ayağı sarı.

Sonra birdən əllərinin arxasıyla mələfəni yendirib, oxuyarlar:

– Kəhliyim qquu, kəhliyim qquu,
Kəhliyim qquu, kəhliyim qquu.

## Tapmışam, ha tapmışam

Bu oyunu qız uşaqları ilə oynarlar:

Qız uşağı deyir:

– Tap-tap

Anası deyir:

-İnci qızım,
Nanə qızım,
Palə duzumə
Nə tapdıysan, ver mən də tapdıyım.

Qız deyər:

– Yox, yox.
Ağam vurar, ağam söyər.

Anası deyər:

– Elə də bir çubuq ver çəkək.

Qız uşağı əlini çubuq şəklində tutub, anası onun kicik barmağını sorub deyər:

– Acıdı ha acıdı,

Bir də sorub belə deyər:

– Şirindi ha şirindi,
Mənimdi, ha mənimdi,
Tapmışam, ha tapmışam.

## Bir quşum var bu xərtənə...
## (oğlanlar ücün)

Oynayanlar özlərinə bir molla secib bir yerdə sıralanırlar. Molla öz zehnində bir quşu tutub onun biçimin qayışla deyir:

– Bir quşum var, bu xərtənə, başı var bu xərtənə...... Ayaxları var bu xərtənə.....

(Quşun bütün üzvlərinin ölcüsün qayışda tutar). Sıralanarlar hərəsi zənn etdikləri quşların adların deyərlər. Hər kəs tapsa o molla olar, ya tapa bilməsələr molla” vur catdasın” deyib, onları qayışla vurmağa başlar. Oyuncuların qayışdan qorxanı dağılarlar. Çevikləri mollanı tutarlar. Mollanın gözlərin yumub qayışı gizlədərlər. Sonra mollanın gözlərin açıb istərlər qayışı tapsın. Molla düşər axtarmağa, zənn etdiyi yerlərə baş çəkər. Tapa bilsə, oyunu davam edər, tapa bilməsə qayışı gizlədərlər, onu qayışla vurarlar. Ayrı molla seçilər oyun davam edər.

## Üçəm

Üç dənə saytal aşıq seçilir. Oyunçular dövrə otururlar, iki qarış boyunda dairə (çəmbər) şəklində cız çəkilir. Oyunçular sıra ilə üç aşığı cızın içində göyə atırlar, kimsə üçəm (üç aşıq birlikdə bük, cik, ya şək) gətirirsə, oyunu davam etdirir. Üçəm gətirən oyunçu, üç aşığı cızda göyə alır. Üçəm gəlsə, öncəki üçün üstünə sayılır. Yəni say altı olur. Üçəm gəlməsə, mat duran aşığa, oyunçu yatırdaraq çırtma ilə bir-bir qalan iki aşığı vurur. Vuran və vurulan aşıq cızdan çıxmamalı, yaxud bura keçməmlidir. Belə olsa, sıra o biri oyunçuya keçər və bir də ayrıdan sırası gələndə qaldığı saydan oyunu davam etdirir.

Oyun oynananda kimin atdığı üç aşıqdan biri dursa, o oyunçu oyunu udur. Hamıdan qabaq oyunun sayını əlli birə yetirən oyunu udur. Qalan oyunçular oyunu davam etdirirlər. Oyunda neçə nəfər olsa bir-bir əlli birə çatıb oyundan çıxırlar.

Kimsə hamıdan sonraya qalsa oyunu uduzur, o oyunu birinci qazanan oyunçudan cəza almalı olur.

Oyunu birinci udan oyunçu aşıqları əlinə ylğaraq uduzan oyunçunun yanında oturur, aşığı olan əlini onun başına tullayaraq deyir: "Hələ-hulə, dağdan-daşdan (uduzanın adı) "başına çətin oyun gələ". Sonra aşıqları yerə atır. Nə şəkildə düşərsə, cızanın qərarı olur (məsələn: iki cik, bir bük). Udan oyunçu, uduzan oyunçunun belinə şillə vuraraq deyir: "İki cik, bir bük". Uduzan oyunçu aşıqları göyə atır və çalışır cik, bir bük gətirsin. Belə olan kimi oyun bitir. Bu gün payız-qış gecələrində çoxlu uşaqlar və yeniyetmələr arasında oynanılır. Əyləncə üçün olduğu halda rəqabət hissini gücləndirir.

## Cız

Çəmbər (dairə) bir cız çəkilir. Bu cızın böyüklüyü oyunçuların marağı ilə iki arşından üç arşına qədər bəlkə də artıq olur. Cızın ortasında çəmbər şəklində, bir-iki qarış boyunda ayrı bir cız çəkilir. Bu cızın adı çırtdıqdır. Hər bir oyunçu çırtdıq deyilən cıza bir aşıq qurur. Düz bir cızın üstünə qurulan bu aşıqlara oyunçular hənə deyirlər. Hənə quran oyunçular, ola bilər, tək-tək olarlar, ya iki, ya üç, ya dəstələrə bölünürlər. Sonra birinci kim, ya hansı dəstə baş olub, başdan aşıqlara saqqa atmalı olacağını bəlləmək üçün, saqqaları (saqqa: cızın içində olan aşıqları vurmağa bir sağlam və böyük aşıq) bir-birinə qoşulub göyə atırlar. Kimin saqqası şık dursa o və onun dəstəsi birinci olur. Ardı və qalanları bəlli olunca bu iş davam etdirilir. Oyunu başlamaq vaxtı çatır. Birinci baş olan boş deyilən yerdən (baş: cızdan bir az aralı bəllənmiş yerdən) cızın içində qurulan aşıqlara saqqasını özəl şəkildə tuşlayıbdır. Saqqa aşıqlara dəyərsə, aşıqlardan böyük cızdan çıxanı saqqa atan oyunçunun olur. Bir dənədən artıq cızdan çıxanda mehişt deyilir. Mehiştin olub-olmaması

oyundan öncə olan danışığa bağlıdır. Saqqası dayanan yerdən bir daha atmaq haqqı var, amma çırtdıqdan çıxıb və qalan oyunçular vasitəsilə çırtdıq seçilən aşıqlara ata bilməz (Öncə danışılır). Qalan aşıqlara saqqasını atır. Saqqası çırtdığın içində qalsa, orada olan hənələri çırtmaqla, saqqası oradan çıxınca cızdan çıxara bilər. Saqqa başa keçərsə, ya dəydiyi aşıq cızdan çıxmasa sıra o biri oyunçuya keçir.

Sırada olan oyunçu çırtdıq seçibdirsə, cızın qırağında dayanaraq uzanıb onu çırtmalı, yoxsa dayanaraq vurmalıdır. Vurduğu aşıq çıxmasa, ya saqqası dəyməsə, sıra o biri oyunçuya keçir. Oyunçu o yerdən ki, gəzər saqqasını ata, onu bir az tapdasa, deyərlər haranı basdın, saqqası dəymiş olsa gəzən ayrıdan saqqa ata. Beləliklə, aşıq (hənə) azdan qurtarınca sıra ardıcıl dolanır. Yeni oyun başlananda sıra belə olur: sonuncu hənəni udan oyunçu baş olur, ilk oyunda ziran (hamıdan son) olan oyunçu ard olur, baş olan oyunçu ziran olur və qalan oyunçular bir nöbət yuxarı qalxırlar.

Qeyd etmək lazımdır ki, cızda olan aşıqların yerinə bəzən cınqır da qurulur. Hər halda cıza qurulan nə olursa olsun, hənə adlanır. Oyunçuların hənələri bitdikdən sonra, ya oyunçuların razılığı ilə oyun sona çatır. Oyunun qaydalarını bilərkən gözləməyən oyuncuya dağal deyilir.

## Qalaşək

Oyunçular hər biri, bir, ya iki aşıq (oyunçuların az çoxluğundan və qərarından asılı olaraq) şəkk halında bir-birinin yanına qalayırlar. Elə buna görə də bu oyun qalaşək adlanır. Həm də komalanmış bu aşıqlar qala şəklinə qalanan aşıqlarına arxasında duraraq hər oyunçu saqqasını bir yana atır (çıxır). Kim lap uzağa çıxsa, o başdır. Bu o deməkdir ki, birinci o atmalıdır. Sonuncu atan qurulan aşıqlara ən yaxın şəxs olur. Kimin saqqası aşıqlara dəysə, saqqanı yerindən aşanın aşıqları

tutması gərəkir. Yəni saqqa tutsan, ya bük düşərsə, bük düşən aşıqları və avçı, ya cik düşərsə, cik düşən hənələri tutur və bunları saqqa atan oyunçu udur. Əgər saqqa heç bir aşığı tutmursa, sıra o biri oyunçuya keçir. Aşıqlar tükənincə oyun sürür. Hənələr bitincəyə qədər, sırası gələn oyunçu son dönə saqqası hardadısa, oradan atmalı olur. Bu oyunda da oyunçular dəstələrə bölünə bilirlər.

## Kor

Bir düz cız çəkilir, oyunçular hər biri bir və ya iki hənəşək halında bir-birinin ardınca cızın üstünə qururlar. Oyunçular qurulan aşıqların ardından saqqalarını bir məsafəyə birbir özəl şəkildə maç quraraq atırlar. Saqqası hamıdan uzağa çıxan oyunçu baş olur. Bəzən ziran oyunçu dibdə qalır, saqqasını başa sufçunur. Bu sufçumalarda hər kimin saqqası kor şəklində durarsa, ondan sonra duran oyunçular kor duran saqqanı vurmaq üçün hənələrin dalından atacaqlar. Saqqa yiyəsi öncəki danışıqla bağlı saqqanın timini hər saqqa atan oyunçuya çevrir. Saqqa atanlar vura bilməsə, ilk başa çıxan olsa, onlar atırlar.

Beləliklə, hansı oyunçu kor duran saqqanı vurarsa, hənələri o oyunçu udur. Amma kor duran saqqanı vura bilən olmasa, hənələri kor yiyəsi udur. Oyun boyu kor duran saqqa olmasa oyunçular sıra ilə saqqaları ilə qurulan hanaları vururlar. Bu vurmada saqqa hansı hənəyə dəyərsə, gərək onu bir qarış ölçünü yerindən dəbərdə. Belə olmasa, sıra o biri oyunçuya keçir, saqqaları olduğu yerdən atmağa başlayırlar. Sonuncu hənəni udan oyunçu baş olur və baş olan oyunçu isə ziran, qalan oyunçular isə keçən oyundakı yerlərdən bir pillə başa doğru qalxırlar. Beləliklə, oyun oyunçuların hənələri qurtarınca davam edir. Oyunun harasında olursa olsun, kiminsə atdığı saqqa kordursa, hənələr qalır və sıra kimdədirsə, koru vurma-

ğa saqqa atır. Koru bu məqamda vursalar, onu vuran olmasa, kor yiyəsi udulan hənələri də o biri oyunçulardan alır.

## Göydən gəldi

Oyunçular hər biri aşıq (hənə) bir-birinə qoşurlar. Oyunçunun biri onu göyə atır. Aşıqlar göydən gəlib yerə səpələnir. Aşıqlarda birindən artıq şək duranı olsa və onların heç biri o biri aşıqlardan götürməsə, ya şək duran olmasa və yıxılmış aşıqların cik, ya bük düşən neçə aşıq olsa, aşıqları yığıb ayrıdan göyə atırlar. Yerə tökülmüş aşıqlara baxırlar, hansı şək durubsa, tuxan duran bük aşıqları avçı duran isə cik aşıqları götürür. Amma oyunu davam etdirməyə mat və şəxsin olur ki, onun şək durmuş aşığı hələ udub. Oyun qarışıq olduqca hey aşıqlar yığılıb yenidən göyə atılır və sonunda biri mat olur. Mat olan oyunçu öz hənəsini götürüb, göyə qaldırıb və yaxınlığında olan aşığa vurur. Oyunçu gərək vurduğu aşığı döndərə, ya aşığı şək dura və onu tuta. Ondan sonra başqa istədiyi aşığa atacaq. Əgər belə ola bilməsə, sıra vurulan aşıqçıya keçir, bütün aşıqlar qurtarana kimi oyun bu qayda ilə davam edir. Belə oyunlardan yaxşı şək durmaqdan ötrü tilan aşıqlar çoxlu qoşulur. Arada görürsən hənələri hənə gətirsin deyə, hər bir oyunçu qoşduğu hənəni özəl şəkildə tərifləyir:

– Timini para,
Qoyma apara.
Hə pivan, hə...

## Yerdə oturdu

Üç qarış boyunda çənbər (dairə) şəklində bir cız çəkilir. Oyunçular cızın qırağında duraraq hər biri bir, ya iki hənə qoşurlar. Bir oyunçu qoşulan hənələri göyə atır, hənələr cızın içinə səpələnir. Aşıqların bir dənəsində artıq şək duranı olsa və ya heç şək duran olmasa və yıxılmış aşıqlardan ya bük

düşən neçə aşıq olsa, aşıqları yığıb ayrıdan göyə atırlar. Ta aşıqların biri şək dura, ya biri bük, ya cik olan, yəni o biri aşıqlardan fərqli şəkildə düşə, onda bu aşıq kimin olarsa, deyərlər onun matıdır. Matı düşən aşıqçının aşığı tufxan durubsa, bük aşıqları və avçı durubsa, cik aşıqları tutur. Və onları şək duran aşıqları udur və sonra matı düşən matı yiyəsi aşığını istədiyi kimi yatırdıb, cırtma vasitəsilə öz aşığını ayrı aşığa tuşlayıb vurmaladır, beləliklə o aşığı cızdan çıxarmalıdır, amma öz aşığı cızdan çıxarsa, öz hənəsini uduzar və sıra aşığı tuşlanan oyunçuya keçər. Əgər cızın içində bir aşığı tuşladı və aşığı ona dəymədi, sıra aşığı tuşlanan oyunçunun olar. Beləliklə, oyun aşıqlar qurtaınca davam edir.

### Saqqa vurdu

Bu oyunda saqqa adlanan aşıq, ya bir tikə daş istifadə olunur. Oyunçuların biri saqqasını başa çıxır, o biri oyunçular sıra ilə çıxılmış saqqanı vurmağa saqqa atırlar. Saqqanı vuran udur. Bu oyunda hər dönə oyunçu o biri oyunçulardan bir hənə alar. Çıxılan saqqanı vura bilən olmasa, oyunçuların hər biri ona bir hənə verir. Hənə məmula aşıq, bilək, sədəf, cınqır və s. olur. Bu oyunu uşaqlar çox oynayırlar.

## AĞAC OYUNLARI

### Döymə ağac

Çobanlar örüşdən bir yerə toplaşırlar. Püşk atırlar, oyunçuların sırası bəlli olur, birinci (baş olan) həbənin arxasından ağacını öz istdəyi qədər başa çıxır. Hər oyunçu öz sırasından həbənin arxasından başda olan ağacı vurmaq üçün ağacını atır. Kim vurarsa, onu udur və dərhal bəlli olan cəzanı yerinə yetirir. (Məsələn, onu həbədən ağaca kimi minir).

Sonra ona yaxın olan ağaca atır, vursa onu da udur. Vurmasa sıra o ağacı ya keçir, ya o biri ağacı keçib ona atır. Oyun belə davam edir və ağaclar vurulub qurtardıqdan sonra kim vurub-sa, baş olur. Öncə baş olan ziran olur və o biri sıralar hər oyun bir pillə başa yaxınlaşırlar.

**Doqquz öküz**

Bu oyunda hərə bir balaca çala qazır. Hər oyunçunun altmış santı boyunda bir ağacı olur, on-beş santı boyundan çili-nək adlanan bir ağacın da olması lazımdır. Oyunçular bir-bir, ya oyunçuların sayından asılı olaraq bir neçə bölmədə bölünə bilərlər. Püşk atılır, oyunu ilk başlayan oyunçu bəlli olur. Çi-linglə çalanı bir təhər oyurlar, onun bir ucu çalanın içinə və ortası çalanın qırağına söykənərək yarısı çaladan çölə qalxır. O biri ağacla çilingin çöldə qalmış ucuna vururlar. Çiling göyə qalxan kimi ağacla onu vurub uzaqlaşdırırlar. Əgər bu çağ çi-ling vura bilməsə, sıra o biri oyunçuya keçir. Çilingdən həvəyə qədər ağac oyunda sayırlar. Hər doqquz ağac bir öküz sayılır.

Bəzən çiling həddindən artıq göyə qalxır, belə hallarda oyunçu onu kirtdəklə (sellə, ağacı özəl şəklində tullamaq, at-maq şəkli) vursa, ağac yerinə çilingin özü ilə ölçür. Çilingi vura bilməyən oyunçunun sırası gələndə, oyunun sayını qal-dığı yerdən davam etdirir. Əlli bir öküzə çatan oyunçu oyunu udur, qalan oyunçular oyunu davam etdirirlər. Oyunu birinci udan oyunçu danışığa bağlı ən sona alıb və uduzan oyunçunu minib bəlli bir yerə qədər gəzdirir.

**Sancma ağacı**

Oyunçular ağaclarını bir yerə toplayırlar və biri bu top-lanan ağacları göyə atır. Kimin ağacı hamısının üstündə qalsa, o oyunçu ağacını aparıb başda sancır. Ağacını sancan oyun-çudan başqa bir sıra da hər oyunçu mərə adlanan bir çala

qazılır. Oyunçuların bir ayaqları mərədə olaraq hamısı birdən sancılan ağacı vurmağa atırlar. Onu vuran olmasa, ağacın sancılanla birlikdə o biri oyunçular qaçır, ağaclarını götürüb qayıdıb mərə tuturlar. Kim mərə tuta bilməsə, ağacını sancır, ağaclar yenidən atılır. Sancılan ağacın vuran ağacını götürüb həbəyə gəlir, oradan uzanır, ağacı və öz boyu həbəsini sancılan ağaca yaxınşaldırır. Oyun belə sürür.

Sancılan ağacı vurub hər dənə beləcə həbəsini ona yaxınlaşdıran oyunçulardan kim hamıdan əvvəl ağaca çatır, oyunu o qazanır. Oyun belə davam edir və udanlar bir-bir sıradan çıxır. Hamıdan dala qalan oyunu uduzur. Uduzan oyunçunun gözlərini bağlayıb, ağacını əlinə verirlər. O, ağacını tullayaraq sancılan ağacını vurub aşırmağa çalışır. O biri oyunçular da onu başmaq tayı, ya çantayı ilə vururlar. Görürsən, gözü bağlı oyunçu çobanların hay-küyündən və başmaq taylarından aldığı zərbələr üzündən özünü itirib və ağacı tapıb aşıra bilmir və çoxlu döyülür. Ağacı tapıb aşıran kimi oyun bitir.

## Hoyma ağac

Çobanlar örüşdən bir yerə yığışıb püşk atırlar. Püşkü udan ağacını göyə atır. O biri çobanlar atılan ağacı göydə vurmaq üçün ağaclarını onun dalısıycan sıxırlar. Kim atılan ağacı birinci vursa udur və vurulan ağac yiyəsinə öncə bəlli olduğu cəzanı verir. Çobanların cəzası ya şillə, ya belə mindirdi, ya çantada olan yeməklərdən olur. Ağacı vuran şəxs baş olub və yeni dönə ağacını o göyə atmalı olur. Atılan ağacı vuran olmasa, oyun yiyəsi hamını udur, cəzalandırır. Oyun belə davam edir. Belə oyunlarda bəzən çörək, yavanlıq şərtlər arada olurdu.

## Coz mərəsi

Coz adlanan bir balaca (bir qarışıq boyunda barmaqdan bir az yoğun) ağac hazırlanır. Hər oyunçunun bir arşın boyun-

da bir əl ağacı olur. Mərə adlanan bir balaca çala qazılır. Mərədən beş-altı addım uzaqdan baş bəllənir. Oyunçular iki bölümə bölünür, pərşək (yaşda – quruda: bir yastı daşın bir üzünü yaş edib qarşı tərəfdən soruşurlar: yaşdasan, quruda?) atılır, püşkü udan mərədə qalır və ağacların ucunu mərənin üstündə tutub, hazır durumda dayanıb cozu ora düşməsin deyə güdürlər. Püşkü uduzan cozu mərəyə salmaq üçün onu başdan mərəyə atırlar. Coz mərənin üstünə gələrsə, mərə qoruyanlar onu var gücləriylə vurub atırlar. Coz mərənin içinə düşsə, yerlər dəyişilir. Uzaqlaşan cozun yanındakılar mərəyə doğru atırlar. Mərəyə başdan yaxın düşsə, onu mərədəkilər yerdə vuraraq, atırlar. Oyun belə davam edir. Bu oyunun cəzası ilə yandakıların qaçıb loqquyub yorulmasıdır. Bu oyunu da çoxlu çobanlar mal-qoyun otaranda örüşdə oynayırlar.

## ANDLAR

### İşığa, suya olan andlar:

Bu işığa and olsun.
Bu işığa, cırağa and olsun.
Bu çıraq haqqı.
Bu işığa gözlü baxım.
Bu çırağ mənə qənim olsun.
Bu işığ haqqı.
Bu çırağ mənim gözümü tutsun.
Bu suya and olsun.
Bu axan suya and olsun.
Bu gün haqqı.
Bu günə and olsun.
Bu günün işığına and olsun.
Bu ayın işığına and olsun.
Gözüm tutulsun.
Gözlərimdən olum, yalan desəm.
Kor baxım.
Yalan desəm kor olaram.

### Dini andlar:

Həzrət Abbas haqqı.
İmam haqqı.
İmam Həsən haqqı.
İmam Rza haqqı.
Kitab haqqı.
Məşhədə and olsun.
Oxuduğun kitaba and olsun.
Peyğəmbər haqqı.

**Digər andlar:**

Başa and olsun.
Başın üçün.
Bu çörək haqqı.
Bu çörək mənə qənim olsun.
Canın üçün.
Dostluğumuza and olsun.
Haqq salama and olsun.
Həqiqətə and olsun.
Kişiliyə and olsun.
Kişi deyiləm, bişərəfəm, əgər yalan desəm, sabaha çıxmayım.
Qardaşlığa and olsun.
Yediyimiz duz-çörəyə and olsun.

## ALQIŞLAR VƏ XEYİR-DUALAR

Ağrımayasan.
Ağzın ağrımasın.
Ağ günə çıxasan.
Axırın xeyir olsun.
Allah ata və ananı sənə çox görməsin.
Allah ana və atana rəhmət eləsin.
Allah ata və ananı saxlasın.
Allah açıq qapı eləsin.
Allah ağla gəlməyən bəlalardan uzaq eləsin.
Allah ölənlərivə rəhmət eləsin.
Allah əcir versin.
Allah üzünü güldürsün.
Allah uşaqlarının canına dəyməsin.
Allah oğularını sənə çox görməsin.
Allah işin rast gətirsin.
Allah bəd gözdən qorusun.
Allah nəzərdən saxlasın.
Allah bərəkət versin.
Allah can sağlığı versin.
Allah çörək verənlərdən eləsin.
Allah dostu şad, düşmənivi xar eləsin.
Allah səni axlatmasın.
Allah ciblərivi pullu eləsin.
Allah çörək verənlərdən eləsin.
Allah dadına yetişsin.
Allah şadlıq qismət eləsin.
Allah heç kəsi yuxarıdan aşağa salmasın.
Allah bu əli o biri ələ möhtac eləməsin.
Allah heç kəsin əvvəlin əziz, axırın zəlil eləməsin.
Allah əziz eləsin.

Allah ömrünü uzun eləsin.
Allah qabağına dürri su çıxartsın.
Alah qəza qədərdən uzaq eləsin.
Allah qızlarını saxlasın.
Allah köməyin olsun.
Allah gələn günlərinin xeyir etsin.
Alah muradını yetirsin.
Allah nəvə nəticə qismət eləsin.
Allah hec kəsə əziz ölümü göstərməsin.
Allah heç kəsi ucadan aşağıya endirməsin.
Allah hamınızı yerin göyün bəlasndan hifz eləsin.
Allah yoxsulluqla imtahana çəkməsin.
Allah yolunu açıq eləsin.
Allah çox görməsin.
Allah ziyarətin qismət eləsin.
Allah bərəkət versin.
Allah oğlun saxlasın.
Allah oğul versin.
Allah sənə bir halal süt əmmişin yetirsin.
Allah sağ gözü, sol gözə möhtac eləməsin.
Ananın südü sənə halal olsun.
Ayaqların ağrımasın.
Az işləyib çox yeyəsən.
Bala dağı görməyəsən.
Bəxtəvər olasan.
Biz yedik azaltdıq, Allah çoxaltsın.
Cibin dolu olsun.
El içində başı uca və alnı açıq yaşayasan.
Evin abad olsun.
Əllərin ağramasın.
Əli kəmərin bağlasın.
Əllərin ağrımasın.

Gəlin otağı görəsən.
Gözün əlin tox olsun.
Gözlərin aydın.
Gün o gün olsun Məkkədən gələsən.
Hacılar tuabında olasız.
Xeyrə qabaq gedəsən.
Igidlər içində başı uca olasan.
Keçən günlərin geçdi, gələn günlərin xeyir olsun.
Qabağında duru su axsın.
Qəbrin nur ilə dolsun.
Qoşa qarıyasız.
Qol qanadlı olasan.
Min belə bayram görəsiz.
Namərdə möhtac olmayasan.
Nəvə nəticə görəsən.
O dünyadan bu dünyaya işıq olsun.
Oğul toyu, qız toyu görəsən.
Ovulmuş çörək yemiyəsən.
Özün işləyib sağ canınla yiyəsən.
Səni görüm iki dünyada xoşbəxt olasan.
Son qəmin olsun.
Şad yaşayasan.
Toyunda oynuyum.
Uğurlu olasan.
Yaman gün görməyəsən.
Yekə kişi olasan, barmaqla nişan verələr.
Yorulmayasan.

## QARĞIŞLAR, BƏDDUALAR

Ağ günə çıxmayasan.
Ağzına əzvay acısı çöksün.
Ağzı acı olsun.
Ağzı şirin yeməsin.
Adın adlara qatım.
Allah baisin evin yıxsın.
Allah onun burnunu ovsun.
Allah qabağına qoysun – gördüyün iş, açdığın fırıqldaqda öz başına gəlsin.
Allah məni öldürsün, sənin əlindən yaxam qurtulsun.
Allah ona qənim olsun.
Aralıqda qalasan – yersiz-yurdsuz qalasan.
Avara qalsın.
Baisin torpağı dağılsın.
Baisin ocağı kecsin.
Baisi görüm pis günə qalsın.
Balası qabağında çapalasın.
Balası ölsün.
Balan qudursun.
Balaları yetim qalsın.
Başına küllər ələyim.
Başın ağarıncaq, gözün ağarsın – qocalmamış öləsən.
Başına göydən bir daş düşsün.
Başın meydan topu olsun.
Başına daş düşsün.
Bizim daşımız ağırdı.
Bizim daşımız elə düşüb hamının başına.
Boyuna xam ip tutum.
Boyun taxta üstə görüm (yuyum).
Boya-başa çatmayasan.

Boyuna xam ip tutum – kəfənləmək anlamında.
Bu bayram qara bayramı olsun.
Canı sinər yeməsin.
Cavanlığından xeyir görməsin.
Ciyərin çıxsın.
Ciyərin parçalansın.
Çolaq olasan.
Çox işləyəsən, az yeyəsən.
Çörək atlı olsun, sən piyada – çörəyin daşdan çıxsın, çətinliklə dolanasan.
Dalından kəsib, qabağına yamayasan–çətinliklərin, dərdlərin əlində avara olasan.
Dalın haray olsun, qabağın quyu – nə gediş yolun olsun, nə qayıdış.
Dədəsi it ilə qol boyun olsun.
Dili ağzında qan olsun.
Dilin yansın.
Dilin ağzında yansın.
Duvarlar dibində qalasan, avara qalasan.
Dübərdi dağılsın.
Evi yıxılsın.
Evladdan yarımayasan.
Ev-eşigi od tutub yansın.
Əli qoltuğunda qalsın.
Əlinə gələni dava dərmana versin.
Əllərin çürüsün.
Əllərin xəmir olsun, qarnın ac.
Əllərin xına görməsin.
Get, bir daş da dalınca – gedib, heç vaxt da qayıtmayasan.
Get– qayıt olasan.
Gedəsən gəlməyəsən.

Gülər üzün olmasın.

Gözün çıxsın.

Gözün tutulsun.

Haramı olsun.

Hamıya möhtac olsun.

Heç “oxay” deyib dincəlməyəsən – həmişə zəhmətdə olasan.

Heç üzün gülüb, eynin açılmasın – çox gün görməyəsən.

Həzrət Abbas ona qənim olsun.

Xalqa elədikləri öz başına gəlsin.

Xeyir görməsin.

Xoş gün görməyəsən.

İşıqlı günə həsrət qalasan.

İlan çalsın.

İt əti olsun.

İt ətindən haram olsun.

İt-pişik üzünə həsrət qalasan – it-pişiksiz, heyvansız, kimsəsiz, yalqız qalasan.

Kor olasan.

Qabağından duru su axmasın.

Qan qusasan.

Qapın bağlansın.

Qara bəxt olasan (qızlara deyirlər, ər evində xeyir görməyəsən).

Qara geyinib, göy bürünəsən.

Qara yaylıq olasan – qızlara, gəlinlərə deyirlər, ərinin yasına batasan.

Qarnın odla dolsun.

Qara günə düşəsən.

Qara gündən göz açmasın.

Qıfılın düyünə düşsün, açarın dama – işlərini yerbəyer eliyə bilməyəsən.

Qisməti olmasın.
Qıçın sınsın.
Qırğına ürcah olasan– qırılsınlar.
Lal olasan.
Malın mur olsun – malın korlanıb, qurtarsın.
Mələyə-mələyə qalsın.
Mənim daşım düşsün onun başına.
Naqafildən bir gülləyə gələsən.
Naqafil dərdlərə düşsün.
Naqafil bəlaya rast gəlsin.
Nənən sənə ağlasın.
Nənən ağlar qalsın.
Nənən mələr qalsın.
Nənəsiz qalasan.
Nənənin ciyarı yansın.
Onu ondan da pis günə qalsın.
Onu o bir Allaha tapşırdım.
Onu ağam Əmir Əl-Mömünə tapşırdım.
Onu Həzrət Abbasa tapşırdım.
Onu bildiyicə çəksin.
Onu görüm sərgərdan qalsın.
Onun damağı yansın.
Oğlunun qara xəbəri gəlsin.
Sabaha çıxmasın.
Sağ gedib salamat qayıtmayasan.
Səni görüm çörək atlı olsun, sən piyada.
Sənin kimi uşağı çay aşağı axırdım, çay yuxarı axtarım.
Səni görüm nənən ölsün.
Su üzünə gülsün.
Səni ağlar qalasan.
Şələn ağır olsun, qarnın boş.
Təpəndən kül ələnsin – pis günə qalasan.

Tifağın dağılsın – ev-eşiyin dağılsın.
Ürəgi yansın.
Üzün gülüb, qabağın açılmasın.
Vurğuna gələsən.
Vurğunun güclü gəlsin.
Yaman günlərə qalasan.
Yanar oda düşəsən.
Yatasan durmayasan.
Yetim qalasan.
Yolçu olub qapı-qapı dilənsin.
Yükün ağır olsun, cibin boş olsun.

# ATALAR SÖZÜ VƏ MƏSƏLLƏR

**A**

Ac it arıq itin ..... yalayar.
Ac adam daş da yeyər.
Aca meyid halaldır.
Ac başım, dinc qulağım.
Ac toyuq yuxuda darı görər.
Ac dəyirman doymaram, tox dəyirman acmaram.
Acın imanı olmaz.
Acın toxdan xəbəri olmaz.
Ac gəz, tox sallan.
Aclıq olsun, kef olsun.
Açıq qabı it yalar.
Açam sandığı, tökəm pambığı.
Açıq qapıya it də başın soxar.
Açılan düyünü dişə salmazlar.
Adam arığına can vermə, eşşəyin arığına can ver yükünü alsın dalına.
Adam utanmasa, oynamağa nə var.
Adam iti saxlar, qapısında abrına görə.
Adam birinə daş atmaz.
Adam çörək kəsən olmaz.
Adam qarnından artar.
Adada qurd az idi, biri də gəmi ilə gəldi.
Adam özü özünə eləyəni, el yığışsa eyləməz.
Adam bir dəfə doğulub, bir dəfə də öləcək.
Adam gərək ağzına görə tikəni götürə.
Adam gərək özü öz ehtiramını saxlaya.
Adam gərək bir acıyanda özünü saxlaya, bir giciyəndə.
Adam gərək sözü ağzında bişirib çıxarsın.
Adam gərək yorğanına görə qıçını uzada.

Adam gündə bir söz eşitməsə, qulağı kar olar.
Adam gedər, adı qalar.
Adam var dəyirmana gedər, İsfahan xəbəri gətirər, adam var İsfahana gedər dəyirman xəbəri də gətirməz.
Adamı paltar ilə tanımazlar.
Adamın alnına hər nə yazılıb, o da olacaq.
Adamın alnına yazılanı pozmaq olmaz.
Adamın ağlı gözündə olar.
Adamın qarnının içini görən olmaz.
Adam yıxılanda bir böyük yıxılar.
Adın qoydun dəyirmançı, çağır gəlsin dən Koroğlu.
Adın nədir? -Daşdəmir; -Yumuşanırsan, yumuşanır.
Adın nədir? -Rəşid; -Birin de, birin eşit.
Adam gedər adı qalar.
Adam, adam oğlu olar.
Adama gəl-gəl deyən çox olar, kömək eləyən az.
Adını qoydun bal ağa, başını sal qalağa.
Adın tut, qulağın bur.
Ağa dedi sür dərəyə, sür dərəyə.
Ağac öz dibinə kölgə salar.
Ağac olub, daş qəribliyə düşüb.
Ağcanı gördün, qaraca yadından çıxdı.
Ağrılı göz ağrıdan qurtarmaz.
Ağzın qanlı olsa, ut getsin, tüpürmə.
Ağa toxdu, nökər bir əpbək çoxdu.
Ağac bar gətirdikcə, başını aşağı tikər.
Ağacı öz içindən qurd yeyər.
Ağacı götürəndə oğru pişik üzün bəllədər.
Ağa gətirər novala, nökər tökər çuvala.
Ağanın pulu çıxar, nökərin canı.
Ağaya bir kəlmə söz nökərə bir illik yoldu.
Ağ pul qara gün üçündür.

Ağ gün adamı ağardar.
Ağladan yanına get, güldürən yanına getmə.
Ağlamayana pəpə yox.
Ağıllı biri tapmaz, dəli qatmasın qırar qaçar.
Ağıllı körpü axtarınca, dəli çırmalanıb çayı kecdi.
Ağıl yaşda olmaz, başda olar.
Ağır otur, batman gəl.
Ağlı olan arvad sözünə baxmaz.
Ağlın kəsməyənə inanma.
Ağlın başda olar yaşda olmaz.
Ağıl ağıldan ötkün olar.
Ağlamaq arvadın yaraşığıdır.
Axa-axa sel olar, dama-dama göl olar.
Axtaran tapar.
Alanda yaxşıdı, verəndə pis.
Aldım qoz, satdım qoz, mənə qaldı şıqqaşıq.
Allah uşaqlara ağıl versin.
Allah bir yandan bağlayanda bir yandan açar.
Allah birinə verəndə də, nənəsin soruşmaz.
Allah yandıran çırağı keçirtmək olmaz.
Allah dağala bal verməz.
Allah dağına baxar qar verər.
Allah saxlayana heç zad olmaz.
Allah sənə bir ağıl, versin mənə də bir çuval pul.
Allah kor quşunkun yuvada yetirər.
Allah verən canı ondan almaq olmaz.
Alına yazanı pozmaq olmaz.
Almanın bir üzü şirin olar, bir üzü acı.
Alimə iman verən canım, özüm qaldım imansız.
Almanı atıbdılar göyə, yerə düşüncə deyiblər ya nəsib.
Alver deyiblər, al vermək deməyiblər.
Anam məni dam üstə doğub.

Anlamaza hər nə desən anlamaz.

Anlamaza desən, nökərinəm deyər: əlbəttə.

Anlamazla bal yemə, anlıyanla daş daşı.

Anlayanın nökəri olasan, anlamazın heç ağası da olmayasan.

An məni, anım səni.

Anadan əziz bir də anadı.

Anasına bax qızını al, qırağına bax bezini al.

Analı qızın özü böyüyər, anasız qızın sözü.

Anamın aşı, təndirin başı.

Ana bala ucundan canını oda yaxar.

Anadan ayrılan quzunu qurd yeyər.

Aranda buğdadan olduq, buğdada xurmandan.

Arıq öz yerində kökələr.

Arpayı yenə buğda yedirdərsən, qudurub qaçar (buğda yeyənə arpa yedirdərsən qaçar).

Artıq tamahlıq baş yarar.

Artıq tamah acından olar.

Arğaca bax bezini al, nəniyə bax, qızını al.

Arvad evin yaraşığıdır.

Arpa əkən buğda biçər.

Arvad sözünə baxan avara qalar.

Arvad gətirən mal toxmaq olar, asılar qapının başından, bir girəndə dəyər kişinin başına, bir çıxanda.

Arvadın şərikli olsun, malın şərikli olmasın.

Arvad olmayan yerdə bu da arvaddır.

Asta yeriyər, qiyam basar, yerində marın kəsər.

Aslanın erkəyi dişisi olmaz (arvad ilə kişi hər cəhətdən bərabərdir).

Aşağıdan yuxarı gələn elin qədrin bilməz.

Aşı daşana gülmə, aşun daşar.

At öz yiyəsin tanıyar.

At ölüncə yiyəsi mat olar.

At ölər meydan qalar, igid ölər ad-san qalar.

At olanda meydan olmaz, meydan olanda at olmaz.

At qardaşdan yaxşıdır.

Atlı atını sürəndə bu da dayçasını cıxardır.

At miniş ögrədər, heç kim bacarığı ana qarnından gətirməyibdir.

At minənindir, don geyənin.

At minəni tanıyar.

Atı at yanında bağlarsan rəngin də götürməsə xuyunu götürər.

Atın colağı seyidə nəzirdir.

Atını satan nuxta alanmaz.

Atının tərkinə mindirməyəni, itinin tərkinə mindirmə.

At öləndə itin toyudur.

At atın təpiyin götürər.

At olan günü atdır, oğul doğulan günü oğul.

At gərək öz altında axsamaya.

Ata min, ceyda götür.

Ata-ana kiçik tanrıdır.

Atı ağzına görək alıllar.

Atım ölmə yonca bitəcək.

Atın almamış axırın çəkmə.

Ayın on beş günü qaranlıq olar, on beş günü işıq.

Ayı il qonaq olan basar, belin sındırar.

Ayıblı ayıbın bilsə, öz başına palaz örtər.

Aya o qədər baxmasan ki, düşər ayağın altına.

Ayda ildə bir namaz, onu da şeytan qoymaz.

Ayda bir gəl altana çələ salım. Gündə bir gəl altına həsir salım.

Aydan işıq, sudan duru.

Ayının yetmiş iki oyunu var, yetmiş ikisi də bir armuddan ötürüdür.
Az ağrı, asan ölüm.
Azrail can verməz.

**B**

Bablı babın tapmasa, gülməz üzü.
Bacanaq bacanaqı görəndə yanı qaşınar.
Bahalıqdan çox yemə adın qalar çox yeyən.
Bağda ərik var idi, "salam Məlik" var idi.
Bağlı qapıya daş dəyər.
Bağlı qapıdan min bir bəla keçər.
Balalı qarğa bala yeməz.
Balıq da böyük xalıqdır.
Balığı boşla, balıq da bilməsə xalıq bilər.
Barmağın dəryaya vursa, dərya bulanar.
Başına gələn başmaqçı olar.
Başa gələni heç kəs bilməz.
Baş olsa papaq tapılar.
Başın çıxan yerə burnunu soxma.
Baş-başa söykənməsə daş yerindən oynamaz.
Başmaq deyiləm hər ayağın qabı olam.
Başmağın dardı sat qurtar.
Başını yardığı daş olar, ağzını yandırdığı aş.
Bazara girdin gərək cibinin ağzın açıq qoyasan.
Benamus canım, dinc canım.
Beşdə alacağı yox, üçdə verəcəyi.
Beş barmağın beşi də bir boyda deyil.
Bəxti yatan adamın salamı da acıqlıdır.
Bəndənin dayağı Allahdan irəlidir.
Bəy verən atın dişinə baxmazlar.

Bəy öz toyunda oynasa ucuzluq olar.
Bir ağacın kölgəsində mini yatar.
Bir arxa ki, su gələ ümid var, bir də gələ.
Biri batman olanda biri gərək yarım batman ola.
Bir daşdı artıq, ya tutar, ya tutmaz.
Bir daşın altın qaldırsan, min arvad tapılar.
Bir dəli bir quyuya daş atar, min ağıllı çıxarda bilməz.
Bir dili var ki, ilanı yuvasından çıxardar.
Bir evdə ki iki baş çıxdı, biri gərək kəsilə.
Bir ev adam yığılsa, dərdi doğan çəkər.
Bir əppək ye, birin də Allah yolunda ver.
Bir əldə iki qarpız tutmaq olmaz.
Bir ölümə çarə yoxdur.
Bir itin qulağın kəssən, biri deyər uzundu, biri deyər, gödəkdir.
Bir qarın iki minnət götürməz.
Bir naxırın adını bir dana batırar.
Bir tikəni bilməyən min tikəni də bilməz.
Bir şəhərə girdin, gördün hamı kor, sən də kor.
Bir zaddan ki, adam kökəlmiyəcək, niyə arıxlasın.
Birlik harda, dirlik orda.
Biri ölməsə, biri dirilməz.
Biri çörək olanda, biri gərək punza ola.
Bir yemirəmdən qorx, bir içmirəmdən.
Bizdən demək, səndən eşitmək.
Bizə gələn bizə bənzər.
Bizim tasımız düşüb, cingildəyib səsini aləm eşidib.
Bizim damımız hamıdan alcaqdı.
Bizə cücə basırmaq düşər.
Bel ver, dəstə ver, yüz altın da üstə ver.
Bivaxt gələn qonağın xərci öz kisəsindən olar.
Borclu borclunun sağlığın istər.

Bostançı qulağı ağır eşidər.
Böyük sözünə baxmayan peşman olar.
Böyüyün böyük yeri var, kiçigin kiçik.
Böyüyə ehtiram, kiçiyə hörmət.
Bu bez, bu arşın.
Bu camaat qılınc müsəlmandır.
Bu dünya quyruğu uzun dünyadır.
Bu zamanda dəvəsin satan köşşək ala bilməz.
Burda mənəm, Bağdadda kor xəlifə.
Buğda əppəyinin buynuzu olar.
Bulanmasa durulmaz.
Bundan da bizə cırağ yanmaz.
Bu günün sabahı da var.
Bulud altının günü, yaşmağ altının dili.
Bu günü sovuşdurdu, sabaha Allah kərimdir.
Bu dünyada qəmsiz olmaz, qəmsiz adam ya gic olmaz.
Bu gözdən o gözə haray yoxdur.

**C**

Cahil bir yaşar, bilgili min yaşar.
Cahil ilə bal yemə, aqil ilə daş daşı.
Cahil ilə çıxma yola, gətirər başına min bir bəla.
Cahil olan vaxtsız ötən xoruz kimidir.
Cahil özünə düşməndir, başqalarına nə cür dost olar?
Cahildə söz ilinməz.
Cahildən qorx, aslandan qorxma.
Cahilə qoşulan cahil olur.
Cahilə söz anlatmaqdansa, dəvəni xəndəkdən atlatmaq iyidir.
Canavarnan qonşu olan çomağını yerə qoymamalıdır.
Can kirə ilə yanar.
Can versən sərçəyə ver, qaranquş gəlib gedəndir.

Canımı da alsan gülə-gülə al.
Cavanlıqda qəfəs, qocalıqda həvəs.
Cəhənnəmdən gələn mən, xəbər verən bu.
Cəhd elə dost qazan, düşmən ocaq başında.
Culfa olmamış kələf oğurluyur.
Cuhud qan gördü.
Cücəni payızda sayarlar.
Cücə həmişə səbət altda qalmaz.

## Ç

Çaxırçının şahidi üzüm ayaxlıyan olar.
Çaladan cıxdıq, çuqqura düşdük.
Çarığın tapan dolağın da tapar.
Çay axar, el baxar, sənə də baxar, mənə də baxar.
Çırağ öz dibinə işıq salmaz.
Çeynənən saqqız çürüyər.
Çox oxuyan çox bilməz, çox gəzən çox bilər.
Çox bilsən az danış.
Çox bilmişdiyindən boyu çıxmaz.
Çox dolanan çox bilər.
Çox qeyrətlilik biqeyrətlik gətirər.
Çox ver, az yalvar.
Çox başına çox bilməz, çox dolanan çox bilər.
Çox yeməklik adamı az yeməklikdən də qoyar.
Çörək verən ac qalmaz.
Çörək verən adam gözündən tanınar.
Çörəyi başında dolandırır.
Çörəyi cavanlığında qazan, inamı da.
Çörəyi at dəryaya, balıq da bilməsə, xalıq bilər.
Çörəyin yavan olsun, amma dualı olmasın.
Çörəyi ver çörəkçiyə, bir çörəkdə üstündə.

Çünki oldun dəyirmançı, çağır gəlsin dən Koroğlu.
Çuğundurun da özünə görə damarı var.

**D**

Dadanan ilə quduranı saxlamaq olmaz.
Dadanmısan dolmaya, bəlkə bir gün olmaya.
Dağ-dağa yetişməz, adam adama yetişər.
Dağ dərəsiz olmaz.
Dalına min, ya dalına al, heç fərqi yoxdur.
Dama-dama göl olar, axa-axa sel.
Darı quyuda, köz anbarda.
Daş daşı sürtsə, arada olan darı əzilər.
Daş düşdüyü yerdə ağır olar.
Daş qayaya rast gələr.
Dedilər ağıllı kimdir, dedilər qabaqdakı zəncirli.
Dedi: – Özün yorulmuş yelsən, yoldaşın ölmüş bil.
Dedi: – Bu çəmənlərin hamısını mən otlamışam. Dedi: – Bə hanı yal quyruğun?
Dedi: – Bir şahı verdik dindirdik, bir abbası veririk əl çəkmir.
Dedi: –Bir nökər tutmuşam özündən yesin, bizə işləsin, dedi, birin tutaydın biz də ondan yeyəydik.
Dedi: – Dədən acından öldü. Dedi: – Varıydı yemədi?
Dedi: – Xəbər eylə nübara az qalıb.
Dedi: – Şalvarımı satıram. Dedi: – Nisyə versin.
Dedi: –Qardaşın necə adamdı? Dedi: –Yoldaş olmamışam.
Dedi: – Qızım sənə deyirəm, gəlinim sənə andırıram.
Dedi: – Yan mənə, yanım sənə.
Deyirlər bəs ki, novalada halva var.
Dədə evində də qara gün, ər evində də qara gün.
Dədə evin yıxmışıq kürəməyin dərdindən.

Dədəsin görməsəydi Allahlıq ədası elərdi.
Dədəm mənə tov deyib, hər gələnə vur deyib.
Dədə soğan, nənə sarımsaq hardan olduq uzun gülbəsər.
Dədəmin ölməgindən qorxmuram, Əzrail qapımız tanır.
Dəli dəlini görəndə çomaxını gizlədər.
Dəli qırmızı sevər, gic sarı.
Dəliyə hər gün bayramdı.
Dəliyə yel ver, əlinə bel ver.
Dəmir qapının da taxta qapya işi düşər.
Dəmiri dəmir kəsər.
Dənizdə balıq suda silləyir.
Dərd gələndə batman ilə gəlir.
Dərziyə dedilər köç, iynəsin taxdı börkünə dedi, buyurun.
Dərya qırağında bir quş var ildə bir dəfə danışar onda da deyər, "p…".
Dərənin güzarı dəbbağxanaya düşər.
Dərzinin iynəsi itməsə, gündə yüz dəst paltar tikər.
Dəvə oynayanda qar yağar.
Dəvədən böyük fil var.
Dəvəçi ilə dost olanın dərvazası gen olar.
Dəvəyə dedilər, hardan gəlirsən? Dedi: – Çini-maçin-dan. Dedi, elə tökülür qolu-qıçından.
Dəvə yaxın otlar, uzağı gözlər.
Dil doğrusun deyər.
Dil qanmaz, tarı tanımaz.
Dil ki var, başa bəladır.
Dil ilə ilanı yuvasından çıxardar.
Dil bir parca ətdi, haraya döndərsən o yana dönər.
Dili olmasa başını qarğalar yeyər.
Dilin saxlayan başını da saxlayar.
Dilin tutursan, dilçəyi dillənir.
Dindir dilin gör, qovza qılın gör.

Dilənçinin üzü tüpürcəkli olar, torbası dolu.
Dilənçiyə dünyanı da versən deyər azdı.
Dirilik birlikdədir.
Dinməyənin dinəni olar.
Dişin ağrıyır çək qurtul.
Doğru danışanın bir ayağı üzəngidə olar.
Dolanan ayağa daş dəyər.
Donquzdan bir tük də qənimətdir.
Dost adamın başına baxar, düşmən ayağına.
Dost odu ki, adamın eybini üzünə deyə.
Dost ilə düşmən yaman gündə tanınar.
Dost məni anıb bir quru hel ilə.
Dost məni ansın bir qoz ilə.
Doşab almışıq mürəbbə çıxıb.
Döymə qapı, döyərlər qapını.
Dövlət dişdən gələr, işdən gəlməz.
Dövlət ilə dövlətlilik eləmək olmaz.
Dövlət dovşanı araba ilə tutar.
Dövlətliyə saxsı lazım olanda kasıb kuzəsin sındırar.
Düşmən yatdıqca qaçar.
Dünya gör– götürdü.
Dünya malı dünyada qalar.
Dünya ölüm-itimdir.
Dünyada bir ölümə çarə yoxdur.
Dünyanın hər nə cür tutsan, o cür keçər .
Dünyanı bölsələr bizə bundan artıq yetişməz.
Düşünən bir gülər, düşünməyən iki.
Düz danışanın yeri ac olar.
Düz əyrini kəsər.
Düz çörək adamı tez tutar.
Düz yol gedən yorulmaz.
Düz yerdə yeriyə bilmir, şumda şıllaq atır.

## E

Elçisi gülüm olanın başına külüm olar.

El gözü tərəzidir.

Elə elə ki, bir də qapıya ərik satan gəlsin.

Elmi olan həlmi olar.

Eşşək eşşəkliyi ilə bir yerdə palcığa batsa daha ordan keçməz.

Eşşək işlər, at yeyər.

Eşşəyə deyərlər, gözlərin aydın qoduğun olub. Dedi, yüküm belimdədir.

Eşşəyə gücü çatmır, palanın tapdayır.

Eşşəyə minmək bir ayıb, eşşəkdən düşmək iki ayıb.

Eşşəyi körpüdən keçib.

## Ə

Ədəbliyə deyirlər, ədəbi kimdən öyrəndin? Dedi, biədəbdən.

Əgər həvəsdi bəsdi.

Əl əli yuyar, əl də üzü yuyar.

Əldə beş barmağın, beşi də bir boyda deyil.

Əldən gedənə yanma.

Ələyimiz ələnib, xəlbirimiz asılıb.

Əli börkünü Vəli başına qoyub, Vəli börkünü Əli başına qoyub.

Əlli əli üstündən, bir əlli də onun üstündən.

Əlim xəmir, qarnım ac.

Əlimizdəki qarnımızdadı.

Əlov olmasa, pilov olmaz.

Əmir bazarı od tutsun, mənə bir dəsmal çıxsın.

Əmioğlu ilə əmiqızının kəbini göydə kəsilib.

Əmi vay deyil, zəmi vaydı.

Əncir yeyən quşun dimdiyi əyri olar.

Ər arvadın savaşı, yaz günün yağışı.
Ərə getdi taytuşum, yerdə qaldı şumbaşım.
Ət almaz, küftənin yekəsini qapar.
Ət dırnağdan ayrılmaz.
Əvvəl yemək, ondan demək.
Əyri oturaq, düz danışaq.
Əyri yük mənzilə çatmaz.
Əzrail gələndə xəbər eləməz.

**G**

Gecədən oduna gedən çox olar.
Gecənin ayazı çobanın luğazı.
Gecənin xeyrinnən günüzün şərri yaxçıdı.
Geda quzudan qoç olmaz, qoç oğlu qoç olar.
Gedər bostan xirası, qalar üzün qarası.
Gedənin oğli gedey sərbazçılığa, dədəsi deyir dövlət bizdədi.
Genə də qaynamaya sığır əti.
Getdik kabab iyisinə, gördük eşşək dağlayırlar.
Getmə gözümdən, gedərəm özümdən.
Getməli qonağın, getməyi qalmağından yaxşıdır.
Gəl bu daşı tök ətəgindən.
Gəlin ocağa gələr.
Gəlin gəlin olmaz, ev yiyəsi gəlin olar.
Gəldi qaşın almaqa, vurdu gözün çıxardı.
Gəldik saqqal qazanaq, buğu da qoyduq üstündə.
Gələn ilə yoldaşıq, gedən ilə qardaş.
Gələndən bir razıyıq, gələməyəndən iki.
Gəlir göz açar.
Gəlin oynayammaz, deyər otaq əyridir.
Gəmidə oturub gəmici gözü çıxardar.

Gənc xərabədə olar.

Gərmic (Ərdəbil) başına sədirəndə, duman diyər mən də varam.

Gətirəndə yel gətirər, sel gətirər.

Gilifdən keçməyən oğlan xiyarın qədrini bilməz.

Gorüm haradadı ki, kəfənim olar.

Gördün biri batıb palçıqa, bir təpik vur batsın.

Görükən kəndə nə bələdçi istəməz.

Görəndən göz kirisə istər.

Gözdən uzax, könüldən iraq.

Gözdən sürməni qapırlar.

Göz görər, könül istər.

Göz görməz, qız utanmaz.

Gözəl ağa çox gözəl idi, vurdu çiçək də çıxartdı.

Göz nədən qorxar, gördüyündən.

Gözünlə görməyənə inanma.

Güda adam gündə yüz dəfə allahlığ iddeası elər.

Güda vurdu özünü başa saldı.

Gülmə gülünc olana, asılınca olana.

Güni günini göyçək elər, qaynarvadı qaynarvadını zirəng.

Güldürən yanına getmə, ağlayan yanına get.

Güldən tikan bitər, tikandan gül.

Gülcə aşınnan oldux, gülli pilosinnan. (Gülcə aşından olduq, gülli pilovundan.)

Gün həmişə bulud altda qalmaz.

Günüz gedər, dar-dar elər, gecə gələr yer dar elər.

Günah öləndə olar.

Gizli günah aşkar savabdan yaxşıdı.

Gördün yemək, neynir demək.

Görünən dağın uzağı olmaz.

Gülmə qonşuva, gələr başıva.

Günün üzünə çamır yaxır.
Görməmişin bir oğlu oldu, çəkdi çükün qopartdı.
Göydə bir daş var, hər kəs özün bəyənməsə düşər onun başına.
Göyül sevən göyçək olar.

**X**

Xalqın ağzını bağlamaq olmaz.
Xalqın ağlı gözündədir.
Xan bağışlayır, nökərin bağrı çatdıyır.
Xanım sındıran qabın səsi cıxmaz.
Xara donum xarıldar, bağırsaqlarım qırıldar.
Xarab olmasa abad olmaz.
Xəbər ilə nübara bir zad qalmasın.
Xəyyata dedilər köç, iynəsini yəxasına saçdı.
Xoruz yox idi, səhər açılmırdı.

**H**

Hacıda pulun olsun, nə verər, nə danar.
Haqq baş ağır olar.
Haqq söz acı olar.
Haqq gəlsin, nahaq gəlməsin.
Halva-halva demək ilə ağız şirin olmaz.
Harda aş, orda orda baş.
Haray gərəh eldən çıxa.
Haradan qırson qoşunnandı (haradan qırsan qoşundandı).
Hamarda yeriyə bilmey, yamacda şıllağ atey (hamarda yeriyə bilmir, yamacda şıllaq atır).
Hamını qapında gör.
Hamı atını çapırdanda bu da daycasını çapırdı.
Hamı buğda əppəyi yeyibdi.
Hamını qurd budadı, bizim kimi tükü dağılan olmadı.

Hamam suyu ilə dost tutmaq.
Hamama girən tərləməmiş çıxar.
Hamıya itlər hürəndə bizə də çaqqal hürər.
Haram pul müzvəriyə gedər.
Hay bacadan gəlincəx, dad qapıdan çıxar (hay bacadan gəlincə, dad qapıdan çıxar).
Haynan gələn huynan gedər.
Hər aşiğin bir dövranı var.
Heç kəs öz ayranına turş deməz.
Heş yatmışın dalısınca oyaq olmasın.
Heyif ölənə olar.
Heç vaxt bu gözdən o gözə işıq yoxdu.
Hər dədəsinin gözünü çıxardana "Koroğlu" deməzlər, deyərlər,"kor kişinin oğlu".
Hər işin əvvəli çətin olar.
Hər kəs öz evinin şahıdır.
Hər kəsin öz yeri var.
Hər köpüklü suya sel deməzlər.
Hər kötükdən kömür çıxmaz.
Hər kimin balası özünə şirindir.
Hər qara qənbər olmaz.
Hər qazana bir damazlıq.
Həm minib, həm ağırlıq salır.
Həm yandırır, həm qazandırır.
Həmən aşdı, həmən kasa.
Həmişə Şaban, bir yol da Ramazan.
Həmişə qonşunun paxılı yol üstə oturar.
Hənək-hənək axırda gənək.
Hər nə əkərsən, onu da biçərsən.
Hər tükündən bir qız aslanıb.
Hər oxuyan molla Nəsrəddin olmaz.

Hər üzyuxarının bir üz aşağısı olar.
Hər saqqaldan bir tük çəksən kosaya saqqal qalmaz.
Hər saqqallı baba olmaz.
Hələ tazə közə soyuq sudur.
Hər yemişin bir dadı var.
Hər zaman bir aşığın dövranıdır.
Hər zadın carəsi var.
Hərənin tazası dostun köhnəsi.
Hərənin xeyri özünədir.
Həya gözdə olar.
Hirsin dövlətə ziyanı var.
Hiss anlamaz, həvəs anlamaz.
Hürə bilməyir, itləri başa salır.

**F**

Fel gəlinindi, iz eşşəyin.
Fərli cücə yumurtada cükküldər.
Filanı o başdan oğrusudur.
Filandan qışda buz almaq olmaz.
Filanı aşura baqqalıdı.
Füzulu apardılar cəhənnəmə, dedi odunları yaşdı.

**İ**

İçimiz özümüzü yandırır, eşigimiz özgəni.
İgid əmək itirməz.
İgid dayısına çəkər.
İgidin igiddən nəyi artıqdır.
İgidin ağzını bıçaq açmaz.
İki siçan savaşsa biri düşər quyuya.
İlan ulduz görməyincə canı çıxmaz.
İlan vuran ayılar, dost vuran ayılmaz.
İlan çalan ala çatıdan qorxar.

İlan hər yerdə əyri getsə, öz yuvasına düz gedər.

İlan yeyib əjdaha olubdur.

İlanı Seyid Həmzə əliynən tutur.

İlanı gördük, qəribə pənah apardıq.

İlanı görənə də nəhlət, görüb öldürməyənə də nəhlət.

İlanın qəzası torpaqdır, onu da qızırqana-qızırqana yeyir.

İlanın ağına da nəhlət, qarasına da.

İlanın quyruğunu ayaxlamasan dönüb adamı çalmaz.

İlanın yarpızddan açığı gələr, o da gəlib yuvasının ağzında bitər.

İldə bir bayram, o da şorla ayran.

İnək başlayan yol yarğana çıxar.

İnanma, utanma, aldanma.

İslanmışın sudan nə qorxusu?

İsti aşımıza soyuq su qatdı.

İstəklinin yamanı hər baldan şirin olar.

İşdən artmaz, dişdən artar.

İşləməyən dişləməz.

İşin bərk tut, qonşunu oğru eləmə.

İşin aşdı, zəhlən qaçdı.

İşin düz olsun, dünya sənə göz olsun.

İtin altınnan keç, işin aşsın.

İtin balaları hər rəngdə olsa da, hürəndə hamısının səsi bir olar.

İt hürər, karvan keçər.

İtin ağılsızı qayğanaqdan pay umar.

İtin əlin kəsdin, qurdun ayağı uzandı.

İtin quyruğunu ayaxlamasan dönüb adamı qapmaz.

İtin quyruğun kəsməklə qoyun olmaz.

İyidin adı çıxıncaq, boynu sınsa ondan yaxşıdır.

**K**

Kasıbı dəvə üstə ilan çalar.

Kasıbın qapısın açan olmaz.

Kasıbın işi qurtulanda oturar, dövlətlinin pulunun hesabını gedər.

Kasıbın xəstəsi deyilməz, varlının q.......

Keci can hayında, qəssab piy axtrır.

Keçi nıqqıllamasa, təkə atılmaz.

Keçəl Həsən, ya Həsən keçəl.

Keçəl dava bilsə öz başına elər.

Keçələ dedilər başın yudun? Dedi, yudum da, daradım da.

Keçələ gün çıxmamış alladanmasan, day alladanmassan.

Keçəlin əli yağlı olsa, çəkər başına.

Keçinin gici sürünün qabağında gedər.

Keçən xərmənləri təzədən sovurma.

Keçən günə gün çatmaz, calasan günü günə.

Keci quyruğun bulamasa, təkə dalınca düşməz.

Kecinin əcəli yetəndə, çobanın əpbəsini yeyər.

Kecinin qoturu sərçeşmədən su içər.

Kəfən müftə olsa, ölən çoxalar.

Kilidli sandığa açar salma.

Kəhlik başın soxar qar altına, deyər, məni hec kim görmür.

Kənkən quyunu nə qədər dərin qazsa, özünü quyunun tərkində görər.

Kəndxudanı gör, kəndi çap.

Kəsovu götürəndə oğru it üzünü bəlləndirər.

Kəsək oturub daşın gününə ağlayır.

Kəsik baş sevilməz olar.

Kiçikdən xətt, böyükdən at.

Kimin əvvəli, kimin axırı.

Kim nə bilir, kim qazana, kim yeyə.

Kirpi qaşmaxla kökəlməz.

Kirpiyə dedilər: – Hamıdan göyçək kimdir? Getdi, gəzdi gəldi. Dedi: – Hamıdan göyçək öz balam.
Kişi tüpürdüyün yalamaz.
Kişi seldi, arvad gül.
Kişinin başı gedər, sözü getməz.
Kişinin börku başında olar.
Kişinin sözü bir olar.
Kişinin qapısı açıq olar.
Kişmiş olmuyan yerdə iydəyə qaqa deyərlər.
Kor atın kor da nalbəndi olar.
Kora gecə gündüz birdi.
Korla Allahı da ortada gör.
Kornan karın tarısı olmaz.
Kor tutduğun buraxmaz.
Kor Allahdan nə istər: iki göz, biri əyri, biri düz.
Korun gözünə sürmə çəkmə.
Korunan çörəyi arada yeginən, Allahı da gör.
Kosa getdi səqqal gətirə, bığın da qoydu gəldi.
Köç gedər, yurd ağlar.
Köçən yurdun düşəndə qədrin bilərsən.
Könlü balıq istiyənin g... suya batsın gərək.
Közü kül qoruyar, gözü qaş.
Küsənin payını yeyərlər.
Küləş düşdü, qış düşdü.
Kürəkənsən, ya Ənkir– Münkirsən?
Kürəkən küllikdədir.
Kürd hara, Kərbala hara?

**Q**

Qabağa gedirsən deyirlər, bijdi, dalıya qalırsan deyirlər gijdi.

Qabaqdan gedən bilsə ki, daldan gələn nə deyəcək, heç ağzın açıb danışmaz.

Qabil olduq qaza, qaz da qoydu naza.

Qaçanı qovmazlar.

Qalan işə qar yağar.

Qan yerdə qalmaz.

Qanı qan ilə yumazlar.

Qapıdan qovursan bacadan gəlir.

Qapıya deyir ki, duvar eşitsin.

Qarabaxt dağa çıxanda ya qardı, ya boran.

Qara palaz yumağ ilə ağarmaz.

Qaradan artıq boyağ olmaz.

Qara günün ömrü az olar.

Qardaş yaxşı olsaydı, Allah birini də özünə yaradardı.

Qardaşın ürəyi dəmirdəndi, bacının ürəyi xəmirdən.

Qardaşın pisi yoldaşın yaxçısından yaxçıdı (yaxşısından yaxşıdır).

Qardaşım olsun, qarnı olmasın.

Qardaş oğlu qardaş olmaz, yorulanda yoldaş olmaz.

Qarğa gəldi kəklik yerişi yeriyə, öz yerişin də yaddan çıxartdı.

Qarğalar mənim tovuğum, yumurtasın görmürəm nə fayda.

Qarqanı rəngləyib bildirçin adına satıllar.

Qarın başa bəladır.

Qarından artmaz.

Qarın qardaşdan irəlidir.

Qarın kini yaman olar.

Qarına gedən qazancdı.

Qarın doyuranı ac göz tanıyar.

Qarın doyur, göz doymur.

Qarnı doysa Allaha bəndəliy eləməz.

Qarnım dolıdı, ağzım yumulı.

Qardaşıq kisəmiz ayrı.
Qarğışın iki başı olar.
Qarnın içini görən olmaz.
Qaşın alan yerdə vurdu gözün də çıxartdı.
Qatırçının qatırını hürkütmə.
Qatıra dedilər: dədən kimdir? Dedi, dayım atdı.
Qatıq tökülsə biri qalar, ayran tökülsə nəyi qalar.
Qacanı qovmazlar.
Qaymağı üzdən yeyərlər, balı dibdən.
Qaynamağa sığır əti.
Qaz ilə toyux bəsləşsə, toyuğun yanı cırılar.
Qazan qarası gedər, ürək qarası getməz.
Qazan qazana deyər g.... qərədir.
Qəp mal kimidir.
Qəp mal yiyəsinə yetişər.
Qələm yazanı qılınc poza bilməz.
Qəmə qınını kəsməz.
Qəza və qədərin baş barmağı var, ikisini qoyar adamın gözlərinə, ikisini qoyar adamın qulaqlarına, biri ilə də itələr qabağa.
Q... qazandığı ənlik-kirşana gedər.
Qıl bahadı, qaraçı saçın kəsir.
Qılıncı üstdən bağlayıbdır.
Qılınc yarası sağalar, dil yarası sağalmaz.
Qış çıxar, üzü qaralıq kömürə qalar.
Qış qışlığın görsədər.
Qışda bostan əkən çox olar.
Qız anadan görmüyüncə öyüd almaz.
Qız ilə oğlan od ilə pambıq kimidir.
Qız qapısı xan qapısı, mini gələr, biri razı gedər.
Qızı ver itə, iti aldat.
Qızıl cında arasında olar.

Qızılı daş üstə qoysan daşı əridər.
Qızın döyməyən, dizin döyər.
Qızışmadıq istisinə, kor olduq tüstüsünə.
Qızım sənə deyim, gəlinim sən eşit.
Qismətdən artıq yemək olmaz.
Qismət olsa gələr Yəməndən, qismət olmasa düşər dəhəndən.
Qisas qiyamətə qalmaz.
Qoç igid dayısına çəkər.
Qoç döyüşünə qoç dayanar.
Qoduxlu eşşək dağda qalmaz.
Qoduxlu eşşək anqırmaz.
Qohum qohumun ətini də yesə, sümüklərin çölə atmaz.
Qolumuzdan tutmusan, qıçımızdan sürütləmə.
Qolun sınığı boyuna yükdür.
Qonaq ev yiyəsinin ceyranıdır.
Qonaq sevən adamın süfrəsi boş olmaz.
Qonağın ruzusu özündən qabaq gələr.
Qonaq qonağı istəməz, ev yiyəsi heç birini.
Qonaq evə girincə utanar, ev sahibi qonaq girəndən sora.
Qonşu aşı dadlı olar.
Qonşun iki inəkli istəsən, özün bir inəkli olarsan.
Qonaq ev yiyəsinin dəvəsidi, harada xıxlatsa orda yatar.
Qonşusuna umud olan şamsız qalar.
Qonaq ruzisin özüynən gətirər.
Qonağın göylündən kecən ev sahibinin bir il xərcidi.
Qonağı çox olanın uşağı ac olar.
Qorxaq kölgəsini oğru bilər.
Qorx o kəsdən ki, qorxmaz Allahdan.
Qorx ondan, qorxmaz Tarıdan.
Qorxu başa bəladı.
Qorxan gözə tez çöp düşər.

Qorxunun cana faydası yoxdu.
Qoyun quzu ayağı basmaz.
Qoyunu qurda tapşırma.
Qulaq gündə bir söz eşitməsə, kar olar.
Qulaq umduğun yemədi.
Qurban olum o qana, üstündən bir gün keçə.
Qurban olum o pisə, yaxçı gələcək yerinə.
Qurd oğurladığının dərisini verər.
Qurd dedik qulaqların şəklədi.
Qurd dumanlıq sevər.
Qurd tüknü də dəyişsə, xasiyyətini dəyişməz.
Qurd keçinin bir zadını yeməyib.
Qurddan olan qurd olar.
Qurddan qorxan qoyun saxlamaz.
Qurdun adı yeddidi, yesə də yeddidi, yeməsə də yeddidi.
Quru boyun əyilməz, yaşı boyun ələ düşməz.
Quru palçıq divara yapışmaz.
Quş dimdiyindən tələyə düşər, adam dilindən.
Quş var ətini yeyərlər, quş var ət yedirdərlər.
Quşların acizi hacıleyləkdir, ilanı diri-diri udur.
Quyu qazan özünü quyunun tərkində görər.
Quyunu dərin qazan özü düşər.

**L**

Lalın dilin nənəsi bilər.
Lələ köçüb, yurdu qalıb.
Ləpəni demə düyünü de, dünəni demə bu günü de.
Lülehinə verə– verə, aftafanın pulu cıxar.

**M**

Mama iki olanda uşax tərsə gələr.
Mal yeməzin malını yeyərlər.
Mal yiyəsinə çəkər.

Mal yiyəsinə çəkməsə, haramdı.
Mal gedər bir yana, iman gedər min yana.
Malın bərk saxla, qonşunu oğru tutma.
Malın zəlil elə, canın əziz olsun.
Malım yoxdu oğru apara, imanım yox şeytan apara.
Matahın matah olunca, nazarın nazar olsun.
Meşə çaqqalsız olmaz.
Meyxanacını şahidi üzüm ayaxlıyan olar.
Meyvənin yetişməmişini dərərlər.
Məhəbbətdən mərəz hasil olar.
Mən nə bilim ki, sən yuxuda susuzsan.
Məşədixanım ağa, dua neyləsin yağa, tök qatığı cəda eylə çalxalamağa.
Məni vuran kösöv göyərməz.
Mən səndən ötrü deyirəm, sən kimdən ötrü.
Mən zirəng olsam, elə öz cırığımı yamaram.
Mən görən baydaqda bu parçadan yox idi.
Mənəmlik Allaha gəlibdir.
Mənim gorum haradadır ki, kəfənim ola.
Mənim ayağım biləni sənin başın bilməz.
Mərdi qova-qova namərd edərlər.
Məscid qapısıdı, nə sındırmaq olur, nə yandırmaq.
Məscid ağacıdı nə kəsmək olur, nə yandırmaq.
Məscid qapısı açıq, itin həyasına nə gəlib.
Min dəfə ölç, bir dəfə biç.
Milçəh qana gələr.
Mis ya sınmış, ya cingildəmiş.
Mındar əski od tutmaz.
Molla Nəsrəddinə dedilər haralısan, dedi evlənməmişəm.
Molla Nəsrəddin kimi mindiyini saymır.
Müsahibin bab elə, görən desin ha belə.
Müftə sirkə baldan şirin olar.

**N**

Nanəcibə tarı doh versün, dirnax verməsün.

Nahaq qan yerdə qalmaz.

Naşı adam zurnanın gen başında çalar.

Növətdən halva olar, dadı olmaz.

Neylərəm qızıl teşti, içində qan qusam.

Nə işim var dağ başında, çağıram Xıdır İlyas.

Nə tökərsən aşına, o da cıxar qaşıqa.

Nə dindən gecə bilir, nə dünyadan.

Nə yandırdıq, nə yapdıq, hazırca əppək tapdıq.

Nəqd sirkə nisyə halvadan yaxşıdı.

Nisyə alan iki dəfə keflənər– bir alanda, bir verəndə.

Nisyə, girməz kisəyə.

**O**

O dağa qar yağdı, bu dağa xəbərdi.

Od günü götürməz.

Od ilə su bir yerdə qalmaz.

Oddan kül törər, küldən od.

Oğru ev olmaz, ev sahibini evlilikdən salar.

Oğru yadına daş salmaq.

Oğlan evində xəbər yoxdu, qız evində vur catlasındı.

Oğul oğul olsa, neylər dədə malın.

Oğurluğumuzun əvvəli ay işığına düşdü.

“Ohə” var adamı dağa çıxardar, “ohə” var adamı dağdan endirər.

Oxu atıb, yayı gizlədir.

Oxlar məgər yıxılar, alçaxlar dola qalar.

Olacağa çarə yoxdur.

Olar aşım üçün, olmaz başım üçün.

On ağ toyuğun bir qara toyuqca ağlı olmaz.

On iki imama yalvarınca, bir Allaha yalvar.

Ot kökü üstə bitər.
Otuz ikilərdən bir zad artmaz.
Ov vurmamış dərisini satır.
Ova deyir qaç, tazıya deyir tut.
O verdiyin at, bu da buyurduğun qulluq.
Oyuna düşənin başı da oynar.

**Ö**

Ölçməmiş biçmə.
Ölmək var, dönmək yoxdur.
Ölmə eşşəyim, yonca bitincə, arpa göyərib torba tikincə.
Ölü inək südlü olar.
Ölüdən şeytan vaz keçibdi.
Ölüm qaş ilə göz arasındadı.
Ölümə deyərlər, hara gedirsən? Dedi, gedirəm ev yıxmağa.
Ölünü öz xoşuna qoysan tabutunu batırar.
Ömrünün axırı, işimin əvvəli.
Örtülü bazar, dostluğu bazar.
Özgə atına minən tez düşər.
Özgə ipi ilə quyuya girmək olmaz.
Özgə canı, duvar yanı.
Özü kəsir, özü biçir.
Özünə umac ova bilmir, özgəyə əriştə kəsir.
Özün yat, baxtın işləsin.
Özün yorulmuş bilsən yoldaşın yoldaş bil.
Özü yıxılan ağlamaz.

**P**

Papağı isti– soyuqdan ötrü başa qoymazlar.
Paxıl adam yaramaz.
Palaza bürün, el ilə sürün.

Pıcaq öz dəstəsini kəsməz.
Pıcaq sümüyə dayanıb.
Pilovunu aşa elədim, yerini yaşa elədim.
Pir mənimdi, kəramətinə bələdəm.
Pis qonşu adamı hacat sahibi edər.
Pis gün görməyən yaxşı günün qədrin bilməz.
Pisliyin qabağı pislikdir.
Pişik dədəsi xeyrinə siçan tutmaz.
Pişiyi divara qısnasan dönər adamı cırmaqlar.
Pişiyin ağzı ətə yetişməz, deyər mundardı.
Piyada atlıya gülməsə, bağrı çatlar.
Pul pulu gətirər.
Pulu daş üstə qoysan daşı əridər.
Pulumuz əlimizdə, ağlımız başımızda.
Pulu yığarlar xərcləməkdən ötrü.
Pulun var giriş, pulun yoxdu sürüş.

**S**

Sabahadək çox börklər başsız qalar.
Saqqaldan götürüb bığa yaxar.
Saqqalı ağarıb ağlı ağarmayıbdır.
Saqqalım yoxdu, sözüm keçmir.
Saqqız alarlar çeynəməkdən ötrü.
Sağır uşaq meşədə çaqqala bənzər.
Saxla samanı, gələr zamanı.
Sarala-sarala qalmaqdan qızara-qızara ölmək yaxşıdı.
Saman sənin deyil, samanlıq ki sənindir.
Sat kulahın xərc elə, tifil olma namərdə.
Sən arpa, buğdanı yüdürtdün, mən də darımı yürüdüm.
Sən oxuyanları mən çoxdan oxumuşam.
Sən ağa, mən ağa, inəkləri kim sağa.
Sən od olsan, özün yandıra bilməzsən.

Sən əvvəlin dedin, mən axıracan oxudum.
Sən saydığın say, qoy dursun gör bir fələk nə sayır.
Sən gördüyün ağacları kürəkliyə kəsdilər.
Sən gündüz gedən yolları mən gecə getmişəm.
Sən hər vaxt dovşan oldun, gəl bizim ağacları gəmir.
Sən yat baxtın iyiləşsin.
Sən çıxan ağacları mən budaq-budaq gəzmişəm.
Səndən hərəkət, məndən bərəkət.
Sənin andına inanım, ya xoruzun quyruğuna.
Sınanmamış atın dalına keçmə.
Sidq ilə qara daşdan murad almaq olar.
Sifariş ilə həcc qəbul olmaz.
Sican olmamış çuval dibi dəlir.
Su aparmazdı gilifi yaş elədi.
Su abadanlıq sevər.
Su aydınlıqdı.
Su bir yerdə qalsa qoxar.
Su səhəngi suda sınar.
Su görəndə susuyur, at görəndə axsıyır.
Suyu bulandırarlar balıq tutmağa.
Sürüdən ayrılan quzunu qurd yeyər.
Sözü at yerə, sahibi götürsün.
Söz-sözü gətirər, arşin bezi.
Söz eşitmək ədəbdəndir.
Söz ki ağızdan çıxdı, daha dala qaytarmaq olmaz.
Sözü gərək ağızda bişirib çıxardasan.
Sözün düzünü uşaxdan soruş.
Söz yerdə qalmaz.
Söyüd ağacı bar verməz.
Suyun axanından, adamın yerə baxanından.

**Ş**

Şahın da dalısınca söz deyərlər.

Şeytan olmasa dünya yola getməz.

Şər deməsən xeyir gəlməz.

Şər zahirə hököm elər.

Şərti gərək şumda kəsmək.

Şiş, kababda yanar əlyalovdu.

Şuxluq ilə nazar olmaz.

**T**

Taqçadakı qarnımda, boğçadakı əynimdə.

Tapdı, tapdının olsa çöldə çoban xan olar.

Tay tuşuvu bab elə, görən desin ha belə.

Tanrı iki qapazı bir başa salmaz.

Tanrı çörək verəndə ağız vermədi, ağız verəndə çörək vermədi.

Tehranda qazan, Ərdəbildə xəşdə.

Tez ölən ilə, tez ayrılan peşman olmaz.

Tək əlin səsi çıxmaz.

Tələsən adam işi iki dəfə görər.

Tənbəl eşşəkdi, bizləməsən işləməz.

Tənbəllikən eşşəyə dayı deyir.

Tənbəl fikirli olar.

Tərəzidə yüngül, sözdə çox ağır.

Təzə gəldi bazardan, köhnə düşdü nəzərdən.

Tikan olub ayağa batınca, gül ol yaxaya sancıl.

Tikə ilə dost olan, illər boyu düşmən olar.

Tikə dostu dost olmaz.

Tikə qarın doyurmaz, məhəbbət artırar.

Tikəni ağıza görə götürmək.

Tikəni çeynəməsən udmaq olmaz.

Tox deyər acmaram, ac deyər doymaram.

Toxu tərpətmə, acı dindirmə.
Torpaq adamı çəkər.
Topalnan gəzən oxşayar.
Torpağın üzü soyuq olar.
Torpağın üzü qara olar.
Tovuzquşu şişər, ayağına baxar fısı yatar.
Toyuğun gününə bir batman darı da versən, eşinməkdən əl çəkməz.
Toydan sonra nağara.
Toyuq qaz yerişi yerisə yanı cırılar.
Toyuğu buğda anbarına salsan, eşinməyini tərgitməz.
Toyuğun pisi bərk yumurtlar.
Toyuq yumurtasına görə qaqqıldar.
Tökülən dolu gəlməz.
Tülkü yatar aslan dalında, deyər öz kölgəmdir.
Tüpürcəyi güllə əvəzinə işləyir.
Tüfəngin dolusundan bir nəfər qorxar, boşundan iki nəfər.
Tülkü tülküyə buyurur, tülkü də quyruğa.
Tülkü suvaxlı bağa girməz.
Tülkünün ərzəsini oxuyunca, dərisin boğazından cırıb çıxardarlar.
Tülkü yuvaya girə bilmirdi, süpürgəni də quyruğuna bağladı.
Tüküyə dedilər şahidin kimdir? Dedi, quyruğum.

**U**

Ucuz ətin şorbası olmaz.
Ucuzdan bahası olmaz.
Ucunu tutdu, ucuzluğa getdi.
Ulu sözünə baxmayan ulaya-ulaya qalar.
Utananın oğlu olmaz.
Utanmasan oynamağa nə var.

Uşaq anadan yetim qalar.
Uşağa iş de, özün də get dalınca.
Uşaq ilə uşaqlıq eləmək olmaz.
Uşaq suyuna çəkər.
Uşaq ağlı, it ağlı.
Uşaq hökmü, şah hökmü.
Uşaq əzizdi, tərbiyəsi ondan əzizdir.
Uşaqlı adama cəhənnəmdə də yer yoxdu.
Uşaq yaş ağac kimidi, hər yana əysən, o yana əyilər.
Uzun adamın ağlı olmaz.
Uzun adamın ağlı topuğunda olar.

**Ü**

Ürəkdən ürəyə yol var.
Uzaxdan baxana döyüş asan gələr.
Üz verəndə astar istər.
Üz üzdən utanar.
Üz ki var, ətdəndi.

**V**

Vardan ziyan gəlməz.
Vardan verən utanmaz, yoxdan verən dəlidi.
Vaxtsız banlayan xoruzun başını kəsərlər.
Vaxtsız gələn qonaq öz kisəsəindən yeyər.
Vay o yatmışın halına ki, dalınca oyaq ola.
Verməsə məhbub, neyləsin məhmud.
Vermək dəliliklə, almaq ağıllılıqla.
Vətənə gəldim, imana gəldim.
Vurduq daşa, çıxdıq başa.

**Y**

Yağışdan qurtulduq, yağmura düşdük.
Yad oğlu adama oğul olmaz.

Yaxşı gündə kömək çox, yaman gündə heç kəs yox.
Yaxşı adam tez ölər.
Yaxşı dost adama qəylədaş yedirər.
Yaxşılıq et at dəryaya, balıq da bilməsə, xalıq bilər.
Yalançı tamahkarı alladar.
Yalançının gərək qapısınadək qovmaq.
Yalançının oğlu oldu, heç kim inanmadı.
Yalançının evi od tutdu yandı, heş kim inanmadı.
Yalan yalağan deyil ki, adam düşə, qıçı sına.
Yan mənə, yanım sənə.
Yalvaranın tarısı olmaz.
Yaman günün ömrü az olar.
Yarımadım odundan, kor oldum tütünündən.
Yaş da quru oduna yanar.
Yatan olmaz, yetən olar.
Yatma tülkü daldasında, qoy yesin aslan səni.
Yatmaqla Savalandan üzüm gəlib ağzına düşməz.
Yay var, qış nə tələsik iş var.
Yay əkinçi, qış dilənci.
Yel gücü, sel gücü, el gücü.
Yer bərk olanda öküz öküzdən görər.
Yer yalanı qurtulub göy yalanı danışır.
Yerə verən itməz.
Yemək ilə doymadın, yalamaq ilə doyacaqsan?
Yeməkdən ümidli olmaq yaxşıdı.
Yerli gəldi, yersiz köç.
Yekə gözün işığı olmaz.
Yetimə vay-vay deyən çox olar, əppək verən olmaz.
Yetimi dəvə üstə ilan çalar.
Yetişmişin qoyub kalın axtarır.
Yetimə gəl-gəl deyən çox olar, yiyə duran az.
Yetimin tikəsi böyük olar.

Yelnən gələn, selnən çıxar.
Yeməmisən qaz ətini, bilmirsən ləzzətini.
Yeyən ilə geyinəni Allah yetirər.
Yeyin at özünə qamçı yedirtməz.
Yeyin gedən tez yorular.
Yıxılanı vurmazlar.
Yıxılanın dalısınca daş atan çox olar.
Yoldan çıxanı yol vurar.
Yorğana görə qıçını uzat.
Yuxu ki, var ölünün qardaşıdır.
Yuxarı baxırsan buğdu, aşağı baxırsan saqqal.
Yuxarıda yer yoxdu, aşağıda da oturmur.
Yumurtdamadı, qalanı da içdi.

**Z**

Zalım ilə abad olan adil ilə viran olar.
Zalımın çırağı sübhədək yanmaz.
Zərərin qabığını harada alsan mənfəətdir.
Zərafət dostluğu pozar.
Zirəng at öz arpasını artırar.
Zor ilə bazar olmaz.
Zor qapıdan gürəndə haqq bacadan qacar.
Zurna çalanın zurnası yanında olar.
Zülmət daşdı, götürəndə də peşmandı, götürməyən də.
Zülmün axırı olmaz.

# DEYİMLƏR

**A**

Acından qurut qapır.

Acından köpük qusur.

Açdı sandığı, tökdü pambığı– hər nə var danışdı.

Adam olmayan yerdə bu da adamdır.

Adam adamın üstünə minib– tünlükdür, çox adam var.

Adam başından sonra hər zad var-zibilli yer.

Adam deyir elə çiy-çiy yeyim– çox yeməlidir.

Adamın cigəri ağzana gəlir– bir şeydən iyrənmək.

Adamın ağlı gedir– adam heyran qalır.

Adamsan axı!– Bir adam yoldaşı, ya başqa bir adamdan əziyyət görürsə, etiraz üçün bu sözü deyir.

Adamla oturub durmayıb ki, adamlıq öyrəşə.

Adamın elə üzünə yapışır (təəccüb, təssüf, ya utanmaq əlaməti).

Adıyla deyilirdi – məşhur idi.

Adın eşit, özün görmə–çox çirkindir.

Ağrımaz başına saqqız salma.

Ağıza getmək.

Ağzına it başı alıb.

Ağacda üç alma görməsə daş atmaz-bir işdə mənfəəti olmasa, o işə əl vurmaz.

Ağzım göy ota dəysə idi (yaza çıxsaydıq).

Ağzına çullu dovşan sığışmır– çox gic olana deyərlər.

Ağzımı doldurdum deyim-istədim deyəm.

Ağzının yemi deyil– adamın bu işə qabiliyyəti yoxdur.

Ağzının sarısı hələ getməyibdir– hələ uşaqdır.

Ağzında dili yoxdur.

Ağzından qaçırtdı – gizlətməyə çalışdığı sözü istəmədən ehtiyatsız dilinə gətirdi.

Ağzı süd iyisi verir-hələ uşaqdır.
Ağzına qovut atıb.
Ala itdən məşhurdur.
Alaxdan gələn adama oxşayır –yorğun, toz-torpaq için-də, üzünü tük basmış adam.
Altda qalıbsan? –cavabını ver, niyə susursan?
Alt vurub, üst çıxmaq – hər yeri axtarmaq .
Allah şans paylayanda hansı təndirin kufləsində gizlən-miş idin?
Allah onu vurubdu, sən niyə vurursan?
Allah yetirəndə yetirər.
Ala itdən məərufdi– çox tanınmış adama deyirlər.
Allah verdiyi canı ala bilmir-çox üzlüdür.
Alnı qaşqa buzovdu.
Anadan əmdiyim süd burnumdan gəldi.
Anamı əmməyəcəyəm ki – bu müamilədə gərək ad qaza-nam, qazanmayım bəs nə yeyim...
Anasıdır – məsələn, deyəndə, filankəs qarpızın anasıdır, yəni qarpızı yaxşı tanıyır.
Arzum gözümdə qaldı-ümidləri puc olmaq.
Aralıqda həlakdi-bərk çalışır.
Aramızdan qıl keçməz-dostluğumuz möhkəmdir.
Ara qarışdı, məssəb itdi.
Arı yeyib, namusu bağlayıb dalına.
Arıq, cılızın biridir– nazik və ucaboy adamdır.
Aramız dəyib – dostluğumuz pozulub.
Arpası artıq düşüb, anqırır-həddini aşıb.
Atası köhlən, anası köhlən.
Atı daşlığa sürmək-savaşmaq.
Ayı bitdi-müsibəti başlandı.
Aya deyər: sən çıxma, qoy mən çıxım– çox gözəldir.
Ayranlığın üzmək-qorxutmaq.

Ayağı əlindədir, gözü cibində.

Ayağımızın altında cik idi– yəni hey çöllük gəzərdik.

Ayağın verdi yerə – dirəndi, inad etdi.

Az yeyir arıqlayır, çox yeyir ........

Azarlı tapıq kimi baş-başa veriblər.

Az qalır, canı g... çıxa-paxıllıq, tənbəllik edən adam haqqında deyirlər.

**B**

Bacağı p...ludur – əlindən çox xəta çıxıb, məhkəmədə qurtulacağı olmayacaq.

Bağ belə, bostan belə – bir zadı tərifləmək.

Bağlar var, bağçalar var, ondan da axcılar var – məs: o qızdan qəşəngləri var.

Bala bülbül oldu.

Baltanı lap dibdən vurmaq – tamamilə məhv etmək.

Barmaqla sayılır.

Barmağını haraya tutarsam, o yana gedir-sözümdən çıxmaz.

Başı bədəninə ağırlıq eylər.

Başı daşa dəydi daha.

Başımın tükü ayağıma səlama gəlib.

Başı özünün deyil-əliaçıq və səxavətli adamdır.

Başı bədəndi-başı bir-birinə də məşğuldur.

Başında qarğa yuva salar– başının tüklərinin çoxu qarışmışdır.

Başı g... və nə ağırlıq edir – camaatı incidir.

Başımdan sellər-sular aşıb – çox çətinliklərə düşüb, dərdlər, bəlalar və müsibətlər çəkmişəm.

Başımıza atlanır – bizi zəif sanıb təcavüzkarlıq edir. Başıma dümük eyləmişəm-məsələn, günlərlə özümü məşğul eyləmişəm

Başda deyildim-fikrim özümdə deyildi.
Başda dolandırır– boş vədlər verib yalan satmaqla aldadıb ümudlu saxlayır.
Başdan dibə-hər yerə, hamısı.
Bas buraya-əl ver görüşək.
Bazarı yoxdur-satıram pula getmir.
Bazarın gözünü çıxartmaq.
Belə tora düşməmişdim – çox pis ilişmişəm.
Beli qoyuruq, qamzanı götürürük – bir işi qurtaracağın qabağımıza başqa bir iş çıxır.
Beyin deyil ki, pehindir.
Bərk adamdır – canından pul çıxmaz, güzəştə getməz.
Bıçaq vursa idin, qanı çıxmaz idi– betər hirslənmişdir.
Bir qulaqdan alıb, o birisindən çölə vermək– özünü eşitməməzliyə vurmaq.
Bir ağzı qızıl, bir ağzı gümüş-nağıllarda bir gözəl qızın haqqında deyirlər.
Bir-birinin başlarına atlanırlar– şuluq edirlər.
Biri gəlir, biri gedir– gələn çoxdur.
Bizimki də belə gəlib-alınımızın yazısı belə idi.
Biz dədə-nənəmizə nə olduq ki, bunlar bizə nə ola.
Bir atımlıq barıtı var idi.
Bir ayağı qəbirdədi.
Bir bezin qırağıdırlar.
Bir batman darı töksən biri yerə tökülməz.
Bizimki gətirməyib-şansımız yoxdur.
Bıçağının dalı da kəsir, qabağı da.
Boyuna biçilibdir.
Boğazı o qədər nazikdir, su içəndə görsənir.
Boğazında başmaq tayı qalıb.
Boyunu qızıla tutur.

Böyürdən girmə-izinsiz gələn adam.

Böyüyər səni yaddan çıxarar-yerə yıxılmış uşağa deyərlər.

Bu yandan çuvalla aparır, o yandan xaralla.

Bu hayanda öldü?– çox yubanmış, vaxtında gəlməz haqqında deyilir.

Bu ilki sərçələr bildirki sərşələrə civ-civ oyrədər.

Bu xına o xınalardan deyil.

Bu sən öləsən o sən öləsənlərdən deyil.

Bu qara o qaraya bənzəməz.

Buna bir dəstə kavar verməzlər – xeyirsiz bir şey.

Bunun əlinə su tökməyə yaranmayıb.

Bunun da gözü məndə açılıb – heç kimə dinə bilmir, mənə gələndə dili çıxır.

Bunu yerdə eşdi – yıxdı yerə bərk döydü.

Bunu yudu arıtdadı – savaşdığı adama yaman deməklə, bütün ayıblarını bir-bir üzünə saydı.

Burnunu tutsan canı çıxar.

Burada nə var-gəl edirsən?– Nə hədəfsiz gəzirsən?

Bülbül öldü, qaldı gül.

Buz üstündə toz axtarmaq-bihudə iş görmək.

**C**

Canamaz suya çəkmək.

Canım boğazıma yetişibdi.

Can ağzından çıxana kimi – ölənədək.

Canın sağ olsun – mənə deyin o ziyan bir sey deyil.

Cəmal malıq– onunla malımız şərikdir.

Cəhənnəm ol – itil get.

Cuhud ilə şərik olduq.

Cılıs farsdır – kamilən fars dilli adamdır.

## Ç

Çadırsızlıqdan evdə qalmaq– çarəsizlikdən bir işə boyun əymək.

Çayda balıq sovdası etmək.

Çıxdı oturdu kəlləmizdə – üz vermək.

Çiltik vursan qanı çıxar-bikefdir.

Çölmək dığırlanıb duvağın tapıb.

Çörək daş altdan çıxar – cörək cətinliklə qazanılır.

Çörəkli adamdır – ehsanı bol olan adamdır. Xeyir yetirən adamdır.

Çöl-palazını tökdülər eşigə.

Çöl itirən-şeylərini itirən, unutqan adam.

Çörəyi qulağımıza yemirik– hər şeydən xəbərdar olmaq.

Çömçə qazandan istidir– dayə anadan ürək yanandır.

## D

Dabanlarımdan tər süzürdü.

Dağa kəllə gedən vaxtı-yaşının lap güclü vaxtı.

Daha mənə yedirtməzsən – hamını aldatsan da, məni aldadanmazsan.

Daha sənin vaxtın keçib – bu hərəkətlərin gənc adamın hərəkətidir, sən qocalıbsan.

Dalınca kəlləqənd göndərməmişdim ki, gəlməyibdir.

Davar yatanda bir altın qaşıyar, sən onu da eyləmirsən – zibilin içində olan adama deyirlər.

Daş olum düşüm – məs: daş olum düşüm o kişinin başına kı, sənin kimi arvadı saxlayıb.

Daş qayaya tuş gəlmək– hərif-hərifə müqabildir.

Dava-dəllə biridir.

Daş kimi düşüb yatır.

Daşdan yumşaq hər nə olarsa, yeyər.

Desən bazarın itlərin də nişan verər– məşhur adamdı hamı tanıyır.

De haydı tökər-dayanmadan danışar.

Deyərəm birdən qəlbinə gələr-məndən inciyər.

Deyinmək onun sənətidir.

Dedim itə daş atma! Dedim iti qudurtma – dedim onunla işin olmasın, görürsən it kimi qapır.

Dədəsinin malı deyil ki?

Dədə-nənəsini qatdı, qarışdırdı– yaman dedi.

Dədən yaxşı, nənən yaxşı– razı etmək.

Dəli qan gördü-bir kəsə acığı gələn şeyi görəndə deyərlər.

Dənligini üzüm.

Dərisin boğazından çıxartcaq– çox isgəncə vermək.

Dəryaya getsə dərya quruyar.

Dəyirmanın boğazına ölü salsan diri çıxar.

Dəvə dəlləyin biridir.

Dəvəsi ölmüş ərəb– çox narahat adam.

Dilli-ağızlı adamdır – danışığında adamlara qarşı mehriban və hörmət xərc edir.

Dilimdən çıxdı –özüm bilmədən müəyyən sözü dilimdən aldı.

Dilin rahat dursun da – dilinlə onu incitmə, o da səni vurmasın.

Dilinə söz qoyur onun – başqasının əleyhinə deyəcək sözləri ona öyrədir.

Dilindən maqqaşnan söz çəkirlər – sözü ürəyində saxlayan adama deyirlər.

Dinc dur-şuluq eləmə.

Dinməz eyləməz qayıtdım – bir söz demədən, etiraz etmədən qayıtdım.

Dirisindən də ziyan gördük, ölüsündən də – ziyankar adamdır.

Dişini saydı – onun gücünü yoxlayıb zəif olduğunu anladı.
Dindirəcəyin it kimi qapır.
Dizinin altına vermə – məs: ananı arvadın dizinin altına vermə.
Durduğca ziyandır-qaldıqca ziyandır.
Duz yeyib düz gəzin.
Dünyada arzu qoymadı.
Dünyanı yorub– qocalıb.
Döşünə döyür – mənəm-mənəm deyir.
Döş aparır-məğrur olub – döşün qabağa verib gedir, başı bərk at kimi.

**E**

Elə boyumuz qalmışdı – ziyanlı və gözlənilməz bir iş.
Elə bir arvad hamamıdır – səs-küylüdür.
Elə bir erməni dığasıdır.
Elə bir ilana ağı verəndir.
Elə bir buğadır.
Elə bir çörəyi təndirdə yandı.
Elə bir hamam qapısıdır.
Elə bir dəyirman daşı keçirtdin boğazına– səsi çıxmadı.
Elə bir dörd doğar kəl deyir – çox güclüdür.
Elə bir dilinə yarama sərib– heç danışmır.
Elə bir divara dəyirsən – özünü eşitməməzliyə vurub.
Elə bir qotur qurbağadır– cirkin adam.
Elə bir gic toxludur.
Elə bir ala qarağadır.
Elə bir mal dayangıdır – kobud və qanmaz adam.
Elə bir məəttəl şəbehdir – işləyən adamların yanında məəttəl durub işləməyən adama deyirlər.
Elə bir məni yerdən götürüb!

Elə bir yetimxanadır – uşağı çox olan evə deyirlər.

Elə ki, ölçürsən, biçirsən, əriştədə çıxır – çox tərifləyirsən .

Elə bir əri evindən yanınca gətirib– bu uşağı çox istəyir və buna çox əlaqə göstərir.

Elə bil bununla deyilsən-söz eşitməyir.

Elə bir çörəyi təndirdə yandı– nə tez dilləndin.

Elə bir dilinə yarma sərib– heç danışmır.

Elə bir kor kişi arvadını döyür-bir adam bir işi görməkdə başarıqsız olanda deyərlər.

Eldən qotur qalmaq.

Erkək zərafat – kobud, tərəfi incidən və xoşagəlməyən zarafat.

Eşşək gəlib dünyaya, eşşək də gedəcək.

Eşşəkdən düşmüş olduq.

**Ə**

Əcəli gəlib– buna dolaşır, vuracaqlar ölə.

Əlisi də dəli, Vəlisi də dəli.

Əl-ayağa düşdü – yalvardı.

Əl-əldən üzülüb– iş işdən keçib.

Əl-qolumuz bağlıdı – carəsizik.

Ələ baxan adam– gözü özgələrində, əlində olan adam.

Ələyib narınların tökürəm, irilərin çiğnimdən atıram dala – bir adamla kef-əhval edib soruşarlar: neyləyirsən, neyləmirsən, nə qayırırsan? Cavabında mümkündür bu sözü deyə. Yəni işsizliklə əlləşir.

Əli düz, ayağı düz.

Əlim gəlmir.

Əlimizi bağlayıblar – bazarımızı kəsad ediblər.

Əlin ağdan qaraya vurmur– heç iş görmür.

Əlində tutumu yoxdur– əlində bir şeyi saxlaya bilmir, salıb sındırır.

Əlinə çöp verdilər– qumarda pullarının hamısını udub lütə çıxartdılar.

Əlinə döndügüm ( misal: əlinə döndügüm, o latın üzünə bir sillə vurdu!)

Əli elə deyir, Vəli belə – hərə bir hava çalır.

Əl-ayağa düşdü-yalvarmağa başladı

Əl-ayağını orağa vermək– çox tələsmək.

Ələ baxan adam – gözü özgəsinin əlində olan.

Əlim gəlmir – ondan incimişəm, əlim gəlmir ona məktub yazım.

Ələk apar, saz gətir – bihudə vaxt kecirdib nəticəsiz iş görmək.

Əlnən verib, ayaqnan yalvarmaq – bilə-bilə özünü müşkülə salmaq.

Əmələ bax – işimizə bax... bu da yaxşılığımız, üzündə pislik edir.

Əngin deşərəm!

Ərbab evinin gəlini – heç bir işə əl vurmayan.

Ətdən divar çəkdilər – camaat yığışıb tamaşaya durdular.

Əzrayilnən çiling – ağac oynayır.

Əzrayil tükü var – bir adam ya hər bir varlıq, ilk görüşündə insanda xof icad edərsə, deyirlər: onda Əzrayil tükü var.

Əzilib büzülür – naz eyləyir.

## G

Gedən it, gəl məni qap.

Get öz qapında təkər hərlət.

Gecə-gündüz qoydu qabağına danladı.

Get oğul, bala bunlar məndən sənə qalıb (mən səndən öncə bunları bilirdim, sən məndən öyrənibsən).

Gedib hamamdan buz gətirə – bir adamı soruşanda, cavabında zarafat üçün bu sözü deyirlər.

Gedib qalıb it öləndə – uzaq düşmüş, bir ev, dükan ya bir yerin barəsində deyirlər it ölən.

Gedir tıxılır ürəyimin başına.

Gəl indi keçini çaydan keçirt.

Gələnə qardaş, gedənə yoldaş – hamyla əl bir olmaq istəyən adama deyərlər.

Gələrsən gəl, gəlməzsən cəhənnəmə, oğlumun filan zadına kimi.

Gəl-gedi çoxdur – evinə çox qonaq gəlir.

Gəlməgi şah gəldisinə çıxdı.

Gəlməgiylə getməgi bir oldu – tez qayıtdı.

Gərək yumurtta dügünliyəsən söz düşündürsün.

Gop deyir.

G.... onun qucağına qoyub – hərə – zadın, hətta namus, qeyrətin də ona təslim edib.

G.... işə vermir – tənbəl adamdır.

G.... qırmızısı üzünə çıxır .

G..... tuta-tua qaçdı qorxusundan.

G.... üstündə balaxana saldırarlar – şallaq vurarlar.

Gör axırımız haraya çıxır.

Gör nə qaynadır, gör nə gülür.

Göz qızdırmaq– lətif cinsə baxıb ləzzət aparmaq.

Göydə götürdülər – bazara gələn cins çox tez satılıb qurtuldu.

Göylər yerə gəlməyib ki! Qan-qiyamət olmayıb ki! (niyə belə hirslənib özündən çıxırsan).

Göyə çəkilib – yoxa çıxıb, müəyyən bir cins tapılmır.

Gözlərin şappıldadır – intizar çəkir.

Gözdən tüh qapey.

Gözüm böyyədi süzərəm, böyyədi büzərəm, bırnım əlinnən.

Gözüyün yaşına baxım, gülər üzüyə?

Gözinin biri alça dərər, birisi də yığar.

Gözü düşüb.

Gözünü tutsun.

Gözdən tük qapmaq– çox zirəng olmaq.

Gözün gəlmir, məsələn, pulu çoxdur, gözünə gəlmir xərcləyir.

Gözə gəldi – gözəl və sağlam bir uşaq xəstələnib, ya ölərsə , deyərlər.

Gözünün qulağıynan da baxmaz – oğurluğu yoxdur və düz adamdır.

Gücü əngindədi– sözlə savaşir.

Günahdan silkindi – çox əzab-əziyyət çəkdiginə görə, günahları tökülüb bağışlandı (məsələn, bir arvad uşaq doğanda, əzab-əziyyət çəkdiyinə görə, ya bir adam uzun müddət ölüm bəsirətində can çəkdiyinə görə).

Günü-gündən dala gedir– zəifləyir.

Gün üzü tutuldu– şiddətli dava düşdü.

Gülməkdən ağzı yığışmır – çox gülür.

**H**

Halal baş çıxdım – nə ziyan qoydum, nə qazandım.

Hallacın atdı – onu bərk döydü (həllac pambığa atan kimi).

Hamam suyu ilə dost tutmaq – özgə malını bağışlayıb dostluq eləmək.

Han-hun eyləyincə... – fürsət vermədən (misal: hən-hun yatmaq vaxtı gəlib çatır).

Hamıya miyov, mənə də miyov?

Hamını ley vırıb, ancax bizim kimi tükü tökülən olmeyib.

Has-hus anlayır – körpə uşağın təzə başlayıb dövrəsindəki şeylərə, səslərə və hərəkətlərə əks əməl göstərməsi.

Hazırına qol dur.

Hesaba soxma görək – yalan sözlərini burax.

Heş görübsən yeriyə daş.

Hər oyundan çıxır – pis işlərdən çəkinmir.

Hər zadı yerində – eybi və nöqsanı yoxdur, yaraşıqlı adamdır.

Hələ yanacaqsan!

Hələ torbadakı qalır – hələ iş qurtarmayıb.

Həmişə ayaq üstə – sağalmış, xəstəlikdən duran adama deyir və ona sağlamlıq arzulayarlar.

Hır ilə nırı qanmır.

Hirs bədənimi kəsir.

Huşum dağılıb – unutqan olmuşam.

Huşun başına gələr, bilərsən nəyin nəsidir.

**X**

Xalası göyçək.

Xataya qalmışıq – bir adam bir neçə nəfərin tərəfindən təcavüz, yaman, ya tərs kimilərə məruz qaldıqa bu sözü deyir.

Xırdalaya bilmədi – o sözü təhlil edib mənasını qana bilmədi.

Xox, qorxdum-biri-birinə hədə-qorxu gələndə, cavabında bu sözü deyir. Yəni, səndən qorxan deyiləm.

Xoruzun qoltuğunda vermək – qəbul etməmək, sözünə baxmamaq.

**İ**

İçinə baxır – qüssəli adam.

İgdə ağacı kimi düzdür.

İkicə olsun, gözlərinin ikisini də çıxardacağam. (Bu sözü arvadlar deyirlər).

İki göz istəyir baxasan – çöx gözəl, calib və tamaşalıdır.

İkini sayınca gəldim.

İki eşşəgin arpasın bölə bilmir – bacarıqsızdır.

İki çəlik bir dəlik – çox arıqdır.

İki ayağı bir başmağa təpmək.

İki inəyi qabağına qatsan birini itirər.

İki keçini otara bilməz.

İki dindən də avara oldux.

İkisi də bir birinin qırağıdır.

İlan yeyib əjdaha olub (özünü qüdrətə çatdırmış, zor işlədən adamın haqqında deyirlər).

İlanın yuvasına ayaq uzatmaq – güclü və xatalı adama dolaşmaq.

İmanı təzələdi – kefə baxdı.

İmanı qırıq imanına döndü – çox sevindi.

İnad boynuma gəlsə, bir batman duz yeyərəm.

İp bağlayıblar beləsinə – beləsini məsxərəyə qoyarlar.

İpə-sapa yatan deyil – çox danqazdır.

İstəklidilər – bir-birlərin sevərlər.

İşə qoymaq – müşgülə salmaq.

İşimiz oyun, oyuncağa çıxıb.

İşin yaşdı – tənbeh olacaqsan.

İşimiz düşüb kor Mələkin əlinə.

İşin qurtulub? – məsələn, niyə başını qalmaqala qatırsan? İt canı var– çox canı bərk adamdır.

İt dəftərində də adı yoxdur – heç kimin yanında etibarı yoxdur.

İt yiyəsin tanımır.

İti yıxılsa dişi çıxar– heç nə yoxdu, çox safdır.

İtə verəndə ağzına atmaq.

İtən yerə getmir.

İtin dal qıçı da deyil – bir adamı təhqir etmək üçün deyirlər.

İtin yamanın dedi beləsinə.

İtin üstünə atarsan götürməz – heç nəyə yaramayan bir şey.

İtin qarnında küçük vurur – böyük danışmamış, kiçik ona aman vermir.

İynə atmağa yer yoxdu.

İynə ilə gor qazmaq.

İynə salsan yerə düşməz.

**K**

Kasıbcılığın daşın atmaqdadır.

Keçəl başını xartılayır.

Keçini çaydan keçirtmək – ağır müşkülü həll etmək.

Kərə-kərə, mənə də kərə – yalan-yalan, mənə də yalan.

Kələfin ucunu itirmək.

Kələfçənin ucuna yetirib.

Kəsik baş kimi deyinmək – çox danışmaq.

Kərələ-kərələ gedir.

Kibrit çöpindən şorba qızdırma.

Kirayəşinniy bəs deyil, toyux-cücə də saxley.

Kim biley mən şavinin oğluyam.

Kimisi tikib on dört tumandamaxlı, kimisi tapbır tay tuman yamaxlı.

Kor it də bunnan xeyir görməyib.

Kor kora diyər cırt bəridəki gözüvə.

Kordan çəlik oğurlamaq – çox nainsaflıq etmək.

Korlar içində badamgöz tapılıb – özünü naza qoydurana deyərlər.

Könülü, gözü toxdur.

Könülün bulanmasın-şübhə etmə.

Kör əlinə birə düşüb – görməmiş adam bir şey əlində çox oynadanda deyərlər.

Körpünü keçincək ayıya dayı demək – işi keçənədək bir zəhmətə boyun əymək.

Köhnə palan içi sökmək – vaxtı keçmiş sözlərdən söz açmaq.

Kürəsinə od düşüb – susuzluqdan çox su içən adama deyirlər.

Kürəkənimizdir nə deyə bilirik – xatiri əziz olduğuna görə günahından keçirik.

Kül olsun ona gələnin başına – kül olsun o qız, ya dul arvadın başına ki, bu eyib içində olan oğlan, ya kişiyə gələ.

Kümçə ilə dəvə sovurmaq.

**Q**

Qabaqdan gələnlik eyləyir – gördüyü işin xəcalətliyin çəkmək əvəzinə hələ üzə qabarır.

Qabaqdan sınmır – dikbədik adamla savaşda da dala çəkilmir.

Qalmazın oyunu gətirdilər başına bax – itin oyunun.

Qan– tərin içində işləyir.

Qan-qan çağırır – davakar adamdır, qan tökməyə hərisdir.

Qan-qiyamət olmayıb ki.... – məsələn, sənə bir kiçik ziyanım dəyib, niyə belə hay-küy salıbsan?

Qanı it kimidir.

Qayın-qudalı gəlin.

Qapı daldasına düşüb – çoxdandı məsələn, qohum evinə getmədiyinə görə indi üzü gəlmir gedə.

Qapımızda od yandırdılar.

Qapını dabandan eylədilər – gəlib getməkləriylə o qədər qapını açıb örtdülər ki, qapının dabanı yeyilib yerindən çıxdı.

Qapını verdi təpiyin qabağına.

Qat kəsib – farş kimi şeyləri qatlayarlar qalar, bir müddətdən sonra farş qatlanan yerdən kəsilər. Deyirlər: farşı qat kəsib.

Qarın basmaq– həddən artıq qarın dolusu yeyəndə adamı qarın basar. Bu halda adamı tənbəllik basar və tərpənməyə halı olmaz.

Qara sudan qaymaq tutmaq.

Qarnı təpmək – naşükürlük etmək.

Qaragün ilə əlləşirik.

Qarovuldan düşüb, tuşlayıb hədəfə vura bilmir – yəni, qocalıb.

Qaş-qabağı yer süpürür – çox qaşqabaqlıdır.

Qavalı qızdırmaq – hazır etmək.

Qazan altından çıxıb – çox qaradır.

Qıç-qolunu çırmala – özünü işə hazırla.

Qılıncının dalı da kəsir, qabağı da – sözü çox ötkündür.

Qılıncını açanmaz.

Qılıncından qan damır.

Qız deyil qızdırmadır.

Qızım səni xana verim, üstündə bir dana verim.

Qıy çəkirsən qulaq tutulur – çox sakitlikdir.

Qiblə divarına çöp taxaq nə əcəb, nə yovu!?

Qoru-qoru eyləyirlər – adam bilmir nə deyirlər.

Qolay işdi – yaxşı deyil, bu işi görmə.

Qollarını tovlaya-tovlaya gəlir.

Qolum gəlmir.

Qonşu meyitinə dəyməz – bu şeyin o qədər dəyəri yoxdur, o adam qonşudan minnət çəkib ala.

Qov kimidir – bir şey götürəndə adamın əlinə yüngül gələrsə, deyir, qov kimidi.

Qovurmalıq eyləməyəcəyik ki? – Məs: Biri evlənəndə bir adam ona bir kök və ətli quzu təklif edərsə, cavabında bu sözü deyər.

Qoy bu iş əldən çıxsın – qoy bu iş qurtarsın, sonra ayrı işlərə başlayaq.

Qoy sənin könlün xoş olsun – qoy sən deyən olsun.

Qulaq dibi qaşımaq.

Qulağın əməlli kəs!

Qurda-qurda düşdülər.

Qurandan köynək geyinərsə... – inanmaram o yalançı adamdır, sözünə inanmaram.

Quran düşüb kafir əlinə.

Quyruğumuzu buzlu suya qoydu – məni cox çətin vəziyyətə saldı.

**L**

Lap o qarat qumarbazlardandır.

Lələ köçüb, yurdu qalıb – dağılan bir yerə deyərlər.

**M**

Mal kimi başın saldı aşağa.

Meşdqıloşdu – bu mənasız bir şeyi hədəf götürüb, daş, ya belənçi bir şeylə vurmaq istəyəndə, diqqəti artırmaq üçün deyirlər.

Mədəm küsüb – iştaham yoxdur.

Mələyə-mələyə aldı – ağlayıb, sızlayıb, yalvara-yalvara aldı.

Mən ki dədəyə oğul olmayacağam.

Məni bəd basıb.

Məni xətaya qoydu – oyun açdı başıma.

Məni qaralayıb.

Mənim daşım onun başına düşüb – paxıllığımı edir.

Mənimlə bürüz gəzir – məndən küsüb.

Məcazım çəkmir – o şeyi yemək istəmirəm.

Mızığına dəydi– acığına gəldi və küsdü.

Min cırığa bir yamaq salar – yalançı adam.

Mindiyin hesaba eləmir – sürdüyün hesaba eləyir.

Min közəyə qulaq qoymaq – hər işə qol qoyub işləyən adama deyərlər.

**N**

Nənəsinin əmcəyini kəsənlərdəndir.

Nə ki varın başına çevirərəm.

Nəqd mənim, nisyələr sənin.

Nə ölüsü var, nə dirisi – itib-batıbdır.

Nəyin nəsi?! (Misal: Sən nə bilirsən, nəyin nəsidir).

Nə isteysən bacunnan, bacun öley acınnan (Nə istəyirsən bacından, bacın ölür acından).

Nə cütünə gedirəm, nə kuruşnəni yeyirəm.

Nə yağan yağışdan oldum, nə bitən qamışdan.

**O**

O bilmir? – Çaya baxarsa balığın da erkək-dişisin bilər.

Oğrunun yadına daş salmaq – bir söz deyib özünü giriftar eləmək.

Od qoydu beləsinə – misal, Əhməd tərəfə gör neçə od qoyub ki, oda dönüb bunu bıçaqlayıb.

Odnan suyun arasında qalma-– çarəsiz qalmaq.

Orada olub, ölüb gedəm.

On adamı bir-birinin üstünə qoyar – güclüdür.

Ona dişi batmadı – ona gücü çatmadı.

On iki imamın altısı sənə qənim olsun, altısı mənə– ziyanı yarı bölək.

Ona dili çıxmır – ondan qorxur.

Ondan elə qorxur ki, az qalırda g... öpə.

Onlar bu yolda külüng sındırıblar – onların təcrübəsindən gərək yararlanaq.

Onu elə burublar ki... – onun başına bir oyun gətiriblər ki, daha onda cürət, cəsarət və kişlik qüruru qalmayıbdır.

Onu özünə iş eyləyib – işləmək bəhanəsi.

Onu görəndə elə bir anamın oynaşın görürəm – ondan zəhləm gedir.

Onu görənməzsən!

Onun cızığına girmək olmaz.

Onun qarasıyla getdim – onu özgədən təqib etdim.

Onunla aramız açıqdır – hər sözü bir-birimizə deyirik.

Onunla mənim nə alıb-verməm – onunla mənim nə rabitəmiz var, niyə mənə sataşır?

Ondan gözün olsun.

Onun yerini verməz – o, bundan yaxşıdır.

Onun ipinin üstünə odun yığmaq olmaz.

Onun bir barmağı da olmaz.

Ovuc ilə dağ daşımaq.

O yana keçir yaman deyir, bu yana keçir yaman deyir.

Oyun açdı başıma– məni zəhmətə və müsibətə saldı.

## Ö

Öküzün böyügü töylədədir – hələ işin çətini qalır.

Öküz kimidir – güclü, kobud adamdır.

Öküz yeriməz, cütə getməz – məsələn, verdiyin pul, şey azdır.

Öləsən də, qalasan da, pul görənməzsən.

Örkənin üstünə odun yığma – ona etibar eləmə.

Ölü itin başının altın gəzmək – çox döymək, çox vurmaq.

Özüm deyirəm, özüm eşidirəm – sözümə qulaq asmır.

Özün gör, kimə qoşub – bir nəfər əsgik adamla yamanlaşıb, savaşanda, ona bu sözü deyirlər.

**P**

Palanını aşırdı – çaxır içmişdi keflәndi.

Pıçaq vursan, qanı çıxmaz.

Pişigimiz oğlan doğub – işimiz çәtin olub.

Pul tәlәsigidir – davamsızdır.

P..... südündәn çıxıb – böyümüş uşaq.

P ........vandan çıxmayıb – hәlә uşaqdır (misal: p...... mәnә lotuluq edir).

**R**

Rәng verdi, rәng aldı – qızardı-bozardı.

Rәng atdı – üzünün rәngi qaçdı, ağardı (mәsәlәn, qorxudan).

**S**

Saçıb sovurdu – mal-dövlәtin ona-buna, o yana, bu yana xәrclәdi.

Sağır cücәsәn, büzüş yat.

Salamın uca alıblar – getdiyi yerdә hörmәtlә qarşılanıb, daha gәlmәk istәmir.

Saman altdan su yeridәndi.

Saf– çürük etmәk.

Savaşdı qijqırıb – bir yazı-pozu bilәn, savadı az olan adam, mәsәlәn, bir mәktub oxumaqda sәhvi olarsa, deyirlәr, savadı qıjqırıb.

Sevәllәnә– sevәllәnә gәlir – xәyalsız, gәzә– gәzә gәlir.

Sәhәrin gözündәn – sәhәr, lap tezdәn.

Sәhlәmin çatdı – tayları baş-başa tikib eşşәyin belinә aşırdı.

Sәsin atdı başına – oxumağa başladı.

Sәsi özünә xoş gәlib.

Sәsi başıma düşür – sәsi mәni rahatsız edir.

Səsi küçəni gütdü.

Sən deyən olsun – qal yatsın.

Sən nə deyirsən, mən nə deyirəm.

Sənin qıyımını ona verməz.

Sənin geyimini ona verməröm – sənin təəssübünü çəkərəm.

Siçan dəliyini satın almaq – qorxudan hər yerə qaçıb soxulmaq.

Sillə ilə üz qızartmax.

Sinə qoyublar – gündə birinin evinə yığışırlar.

Sinsiməli adam deyil – əzab-əziyyət çəkməli adam deyil.

Sonbeşikdir, zor gəlir də, bərkə qoymaq olmur.

Sondan görmüş.

Soyub-soyub quyruğunda murdar etmək.

Söz burada qalsın – öz aramızda qalsın.

Söhbəti şirin gəlib – işlər tökülüb qalır.

Sümügü yoğunlayıb – tərbiyə götürməli vaxtı keçib, söz eşitmir.

Sütün tökülüb mırtlanırsan?

Süpürülmüş yer gəzir – işin hazırını istəyir.

Süftə eləməmiş daxilə girmək – söz almamış irad çıxartmaq.

Sudan yaxşı çıxmadı.

Suyu kəsilib – Bir adam bir yerdən tələsik qacar. Haradan suyu kəsilməsin?

## Ş

Şadlığına şüvənlik eləmə.

Şalvarının ayağını kəsərəm.

Şapatladı – onu döydü.

Şapba ilə üz qızardır.

Şah ilə pilov yemir ki, buğum yağa batar.

Şah Abbasa yarı, Keçəl Abbasa yox.

Şeytana papış tikər.

Şeytanın başına börk qoyar.

Şəhərin açıb-bağlayanıdır – şəhərin bütün imtiyazatı onun əlindədir.

Şərihli malıya yetməz.

Şimbil ilə oynayır – qızbazlıq və arvadbazlıq edən gənc, ya kişiyə deyilir.

Şip düşüb yatdı – yorğunluğundan.

Şor tutub beləsin – ağıl üzrə davranmır.

**T**

Taxmamış taqqıldadır.

Tanrı da gəlsə bununla bacarmaz – inadkar adamdır.

Tanrısına təpig atmaq – naşükürlük eləmək.

Təzə başa düşüb – bir sürə vaxtı fövta verdikdən sonra.

Tək eşşəkli – bir işi tez-tez görən adama deyirlər.

Toyda donun tanımaq – fürsəti qənimət bilib, öz malını birindən istəmək, ya bir şeyə yiyələnmək.

Torbadan vurdu dağarcıqdan çıxdı, dağarcıqdan vurdu torbadan çıxdı.

Tutması var – hərdən dəliliyi tutur.

Tük özü içəridədi – Motalın tüklü üzü içəri tərəfdə olar. Üzünə baxma içərisi yamandı.

**Ü**

Ürəgimin yağın yedim – nigaranlıq və izitirab çəkdim.

Ürəgi tətöyüzə düşüb – nigarandır, iztirabı var.

Ürəgin boşaltdı – ağlayıb təskinlik tapdı.

Ürəgini basdı? – Ürəyini istədigi kimi oldu?

Üstünə çıxmaq – bir adamı pis iş gördügü halda qəfildən tutmaq.

Üz-bəhs etmərəm – onunla üz-üzə durub bəhs etmərəm.

Üzdən-gözdən salmaq – bir adama çox üz vurub utandırmaq.

Üzdədir -(məsələn, hirslənməyi üzdədir, yoxsa ürəyi onu istəyir. Ya məsələn, deyirlər qohumluğu üzdədir).

Üz verdikcə artırır.

Üzə qayıtmaq (misal: indiyədək anamın üzünə qayıtmamışam).

Üzümə it dərisi çəkdim– özümü qiymətdən saldım.

Üzümün dərisi getdi – birindən xahiş etmək üçün adamlar saqqal tutarlar, saqqalı olmayanlar saqqal tutan kimi əlini üzünə çəkər. Bu sözdən mənzur, yəni çox xahiş etdim.

Üzünü görək yoxsan, görsənmirsən.

Üzünə saldı.

Üzünə gətirmir – özünü o yola qoymur.

**V**

Vaxtsız beçə olma.

Vurdu aradan çıxdı – münasib fürsətdən yaralanıb. Məsələn: çoxlu pul qazandı, ya bir mülkə yiyələndi.

Vur gəldim!

Vurmayan kişi deyil – bir adam birini hədələyir, məsələn, deyir, vuraram əngin dağılar! Tərəf cavabında bu sözü deyir.

Vurhay– şiddətlə, dayanmadan.

**Y**

Ya sənə verən Allah, ya mənə verən Allah – ikimizdən birimizin şansımıza.

Yağış tutdu – işə düşdü.

Yağlı əlin çək öz başa.

Yağmasan da, gurulda.

Yaxama qıyıx sancmeyibsanki.

Yumurtası tərsə gəlib.

Yumurtası tərsə gələn toyuq kimi vırnıxır.

Yüz sənin kimilərin dəryaya susuz aparıb susuz gətirər.

Yüz dənə bıçaq qayırsa, birinin dəstəsi yoxdu.

Yuvadan çıxmış kor quş kimidi.

Yat-yut oldu – hadisə, ya bir işin üstündən bir müddət keçdi, yadlardan çıxdı.

Yaxşı ətəgimə cörək qoydun – sənin mənim üçün yol göstərməyin ziyanıma tamam oldu.

Yaxşı eyləyir gözünü oyur – yəni, sən düz toxumsan, dinc dur o səni döyməsin.

Yaxşı qabına qoydun... – biləsinə yaxşı ilişdirdin, əsəbi cavab verməklə onu yaxşı tənbeh etdin.

Yalan yarğan deyil ki, adam yıxıla qıçı sına – yalan danışan nədən qorxacaq, danışar da.

Yanından yel keçəndə soyuq dəyir.

Yayda bişməz, qışda üşüməz – heç nəyə fikir eləməyən.

Yaz qoduğu kimi o yana tızıxır, bu yana tızıxır.

Yer altından yasa getmək – saman altının suyu.

Yetmiş iki millətdən azaddır – hər cür kefi çəkir, o cür əməl eyləyir, heç cürə qeydi qəbul etmir.

Yedi, üstündən də su içdi.

Yeddi dəyirmanda üzünün suyu tökülüb.

Yersiz çıxdım – bu şeyi alıb-satdıqda bir azda ziyan qoydum.

Yerin yatırtmaq – bir zadın yerin bəlləyib nişanlamaq, məsələn, köynəgin yerin yatırtmışam, sabah gedəcəgəm alam.

Yerlə bir oldu – məsələn, noxud səpələndi, yerlə bir oldu.

Yerin altın da bilir, üstün də – çox bilmiş adamdır.

Yerindən duran (misal: qabaqkılar deyil, indi yerindən duran televizor alır).

Yeyir, qarının yoğunladır – müftəxor adam.

Yudu arıtladı.

Yuyub yarpuz üstə qoymaq – çox tərif eləmək.

Yüz altına dəyməz – dəyərsiz bir şeydir.

Yüz min tümənə pul demir – iştahası artıbdır, çox pul qazanır.

Yoldan keçənə yumaq sarıtdırmaq – öz işin onun-bunun boynuna atmaq.

**Z**

Zurnanı gen başından püfləyər.

Zəhər tuluğudur.

Zırpının biridir.

Zırna çalma – bir adam birinə toxunan söz deyərsə, o adamın cavabında bu sözü deyir.

## BAYATILAR

Savalan qırağın buz bağlar,
Dört bir yanın yarpız bağlar.
Doqquz oğullu canım
Öləndə çənəmi qız bağlar.

Ulağında gənə var,
Yata bilmirəm gənə var.
Qarı düşmən dost olmaz,
Getməz ürəyində, kini var.

Qərib yerdə daş ağlar,
Qələm ağlar, qaş ağlar,
Sevgisi gedən qızlar
Hamıdan yavaş ağlar.

Çatdıyıb döşün dağlar,
Bilinməz yaşın dağlar,
Ayrılıq sənə düşdü
Ağrıdı başın daşlar.

Bu dağlar uca dağlar,
Ağlaram uca dağlar.
Məni yardan ayırdız,
Mən dözüm necə dağlar.

Ulduzlar yatmaz ağlar,
Yarı oyatmaz ağlar.
Yar yardan ayrı düşsə,
Gecələr yatmaz ağlar.

Ayrılığa daş ağlar,
Gözlərim qan-yaş ağlar.
Yar yardan ayrılanda,
Ağlasa yavaş ağlar.

Bağbanam bağım ağlar,
Qəmdən yarpağım ağlar.
Diriyəm gözüm ağlar,
Ölsəm, torpağım ağlar.

Qəbrimi qazan ağlar,
Od düşər, qazan ağlar.
Bir götürüb, bir qoyan
Qəbrimi qazan ağlar.

Gədələr, qurumsaqlar,
Hisli dam qurum saxlar.
Kişilik öldü, getdi,
Sevinin qurumsaqlar.

Axşamlar, ay axşamlar,
Axşamlar yanar şamlar.
Yalqız evə gedənlər
Bəs nə çəkər axşamlar.

Mərcanlar, ay mərcanlar,
Qırmızı köynək, ay canlar.
Qızlar toya gedəndə
Həsrət çəkər oğlanlar.

Bulaq başı toz olar,
Dəstə-dəstə qız olar,
Əyil dəsmalın götür,
Mən götürsəm söz olar.

Yağış yağar, gül olar,
Karvan keçər, yol olar.
Gözüm yarı görəndə,
Dil tutular, lal olar.

Qəriblik yaman olar,
Yel gələr zaman olar,
Qərib yerdə qalanın
Ömrü tez talan olar.

Atlılar, ay atlılar,
Atlıları tutdular.
Hamının atlısı gəldi,
Mənim atlım tutdular.

Eşikdə qaraçılar,
Oturub fal açırlar,
Deyirlər yarın gəlir
Hanı bə, yalançılar.

Narıncı doğradılar,
Dəsmala bağladılar.
Bu yar mənim deyildi,
Boynuma bağladılar.

Arazı ayırdılar,
Qumunan doyurdular.
Mən səndən ayrılmazdım,
Zülümnən ayırdılar.

Dağlar duman arzular,
Çaylar çəmən arzular,
Mənim də dəli könlüm
Səni yaman arzular.

İstəkanda araq var,
Gəlmə evə qonaq var.
Gətir başın darayım,
Məndə qızıl daraq var.

Dəryada çox balıqlar
Ruzi verən xalıqlar,
Cavanlar evlənməyir
Deyirlər bahalıq var.

Dərvişəm kəşkülüm var,
Hər bağda beş gülüm var.
Çağıraram ya ilahi,
Sən açan müşkülüm var.

Bu dağda maralım var,
Ox dəymiş yaralım var.
Nə gecə yuxum gəlir,
Nə gündüz qərarım var.

Başımda kulahım var,
Sənin tək pənahım var.
Göz gördü, könül sevdi,
Mənim nə günahım var.

Dalan altda dalan var,
Dalanda yer salan var.
Boşlayın, çıxım gedim
Gözü yolda qalan var.

Yeri, yeri nadan yar,
Qaş-gözün oynadan yar.
Sən ki, belə deyildin
Olma, bir öyrədən var.

Bu dağların düzü var,
Düzlərində quzu var.
İki gönül bir olsa,
Kimin ona sözü var.

Baxçamızda quyu var,
Sərin-sərin suyu var,
Bir danə yar sevmişəm,
Gözəl halı, xuyu var.

Əzizim ay qabağı,
Buluddur ay qabağı,
Yetimin üzü gülməz,
Açılmaz qaş -qabağı.

Dəryada çırağ yanar,
Baxdıqca uzaq yanar.
Ayrılığın şərbətin
İçdikcə ürək yanar.

Qocalıqdan qorxmayın,
Qorxu yoxdur qorxmayın.
Çün mən cavanlığımda
Qocalmışam qorxmayın!

Araz, Araz, can Araz,
Sultan, Araz, xan Araz.
Səni görüm yanasan!
Bir dərdimi qan Araz.

Urus gəldi, son verdi,
Oğlum Yəhya can verdi.
Hansı evi yıxılmış
Təbrizi nişan verdi.

Sözlərin oldu yalan,
Könlümü etdi talan.
Yarından ayrı düşsün,
Bizə ayrılıq salan.

Şirvanın şirin narı,
Tuş narı, şirin narı.
Soğatı sizin olsun
Göndərin bizim yarı.

Yol belə daşlı qala,
Çınqıllı, daşlı qala.
Qorxuram, düşüm ölüm,
Yar gözü yaşlı qala.

Əzizim gül dərərəm,
Dərib günə sərərəm.
Sən bizə qonaq gəlsən,
Onu sənə verərəm.

Mən aşiq yasdı dağlar,
Söküldü basdı dağlar.
Uç ay toylu, bayramlı,
Doqquz ay yasdı dağlar.

Əzizim yara vurma,
Ox vurma, yara vurma,
Yarım məndən kusubsə
Ay falçı, fala vurma.

Qaradı bəxtim qara,
Mənə vurdun yara.
Görüm olasan səni
Dünyada bəxti qara.

Əzizim bayram olmaz,
Qışdan tez bayram olmaz.
Bunu bil hara getsəm,
Bir günüm sənsiz olmaz.

Araz səndən kim keçdi?
Kim qərq oldu, kim keçdi?
Fələk, gəl səbat eylə
Hansı günüm xoş keçdi?

Əzizinəm, at gedə,
Qəmi başdan at gedə.
Qüssədən haray olmaz
Qul olmağı at gedə.

Güvərçinim uçaram,
Qalmaram, mən uçaram.
Yar gedib bu diyardan,
Yar yanına qaçaram.

Balaca cib bıçağı,
Oldum ellər qaçağı.
Bir səhər gəl, bir axşam,
Bir də günorta çağı.

Aman haraya gəlin,
Bacım, saraya gəlin.
Burda bir qərib ölüb
Qəbrin qazmağa gəlin.

Qaşların qəlbə kahdı,
Qiblə desəm günahdı,
Dağları duman alsa,
Bil ki, mən çəkən ahdı.

Mən aşiq dərd əkərəm,
Dərdliyəm dərd əkərəm.
Qoşaram qəm cütünü
Özümə dərd əkərəm.

Mən aşiq su ilanı
Sal teştə bu ilanı.
Bu ilan məni sancıb
Tanıyıram bu ilanı.

Arazı keçən də var,
Suyunnan içən də var.
Tutma namərd adını
Ürəyi keçən də var.

Yar gəldi bu diyara,
Göylümə etdi çara.
Bir gözəl qız sevmişəm
Özü ağ, gözü qara.

Mən aşiq lalə dərdim,
Gül dərdim, lalə dərdim.
Guneydə xarı gördüm,
Quzeydən lalə dərdim.

Əzizim deyib qaçallar,
Duzu yeyib qaçallar.
Düz əməyi el bilir,
İmkansızlar qaçallar.

Əzizim gündə dara,
Aç zülfün gündə dara.
Əlim səndən üzmərəm,
Çəksələr gündə dara.

Dam üstədir damımız,
Qoşadır eyvanımız.
Sən ordan bax, mən burdan
Kor olsun düşmanımız.

Aşıq başına bağlar,
Zülfün başına bağlar.
Bülbül öldü, gül öldu,
Qaldı başına bağlar.

Bu dağlar kömürdəndi,
Keçən gün ömürdəndi,
Fələyin bir quşu var
Dimdiyi dəmirdəndi.

Sarılaydım belinə,
Məni apar elinə.
Nə canda can qalıbdı,
Nə də ürəkdə pinə!

Haray dumanlı dağlar,
Qarlı, boranalı dağlar.
Burda bir qərib ölüb
Göy kişnər, bulud ağlar.

Əzizim sulu gözlər,
Tar çalar, simi gözlər.
Sağ gözüm sənə qurban,
Sol gözüm kimi gözlər.

Allah yarı öldürmə,
Heş vaxt yarı öldürmə.
Gər məni öldürsən də,
Rəhm et, yarı öldürmə.

Əzizim buda məni,
Xəncər al, buda məni.
Gör nə günə qalmışam
Bəyənmir bu da məni.

Dilində sözüm yoxdu,
Ürəkdə dözüm yoxdu.
Bir sənə bağlıyam mən
Özgədə gözüm yoxdu.

Əzizim bala axşamlar,
Çırağ yanar axşamlar.
Öylü evində yatar
Qərib harada axşamlar?

Qızıl iynənin sapı,
Görsənir sizin qapı.
Məni yardan eyləyən
Dilənsin qapı-qapı.

Əzizim sulu gözlər,
Tar çalar simi gözlər.
Qaşın kimi qaş olmaz,
Gözlərin kimi gözlər.

Bu gələn haralıdı,
Dağların maralıdı.
Əyil üzündən öpüm
Ürəyim yaralıdı.

Haray çimənli çöllər,
Ördəkli, qazlı göllər,
Cavanlığın çağında
Xəzana döndü göllər.

Gəzərəm yana-yana,
Ürəyim dönub qana,
Yaralı bu gönlümü,
Dindirmə dönər qana.

Araz axar liliylən,
Dəstə-dəstə güliylən.
Mən yarımı sevirəm
Şirin-şirin diliylən.

Əzizim dağlara bax,
Dağa bax, dağlara bax,
Dağlar mənə vurulur,
Sən də dağ vurana bax?

Gəzirdim ağ daşda mən,
Qələm gördüm qaşda mən.
Göydən bəla gələndə
Yazılmışdım başda mən.

Sarı xoruz bannamaz,
Bannasa vaxt annamaz.
Bannasa bir söz demə
Annamayıb, annamaz.

Əzizim bala divanə,
Yada salma biganə.
Düşmanın huri olsa,
Cənnət olar viranə.

Ayağında məsi var,
Qızıldan düyməsi var.
Qoymayır gedim yanına,
Bir zalım nənəsi var.

Su gələr, açar gedər,
Yandırıb yaxar gedər.
Bu dünya bir güzgüdü,
Hər gələn baxar gedər.

Söyüd bağı bizimdi,
Hər tərəfi üzümdü.
Bu sözlər nəyə gərək,
Bir oğlan bir qızındı.

Dəsmalın arasında,
Gül verdim anasına.
Gözəllər bir dəstədi
Yar düşüb arasına.

Bayatı yazar ağlar,
Yurdunda azar ağlar.
Elindən ayrı düşüb
Dolanıb gəzər ağlar.

Allah, hara gedim mən?
Kim var, hara gedim mən.
Yar ölüb qəbirdədi,
Rəhm et, ora gedim mən.

Ay batdı hara getdi,
Göy safdı hara getdi?
Mənim vəfasız yarım,
Kim görüb, hara getdi?

Dağlarda laləm qaldı,
Başında balam qaldı,
Düşman vurdu, mən öldüm,
Bir ağlar balam qaldı.

Dəryada dəryalıq var,
Suda oynar balıq var.
Qolların sal boynuma
Deyillər ayrılıq var.

Bağlayıb ağ başına,
Qarğayıb tağ başına,
Bostançı xeyir görsə,
Dolanar tağ başına.

Sünbülüm sevda yandı,
Qara yeldə talandı.
Yarım məndən dönübdü,
Ürəyim laxtalandı.

Araz daşı, daş-daşı,
Qələmdi yarın qaşı.
Nadan ilə bal yemə,
Ağıllanar daş-daşı.

Odlan fələk, yan fələk,
Qəlbin olsun qan fələk.
Kimsəsinə dərd verib,
Kiminə fərman fələk.

Əzizim maşa qaldı,
Vurmadım daşa qaldı.
Zəhmət çəkdim yar sevdim,
Mənə tamaşa qaldı.

Əziziyəm, gündə mən,
Gölgədə sən, gündə mən.
İldə qurban bir olsa,
Sənə qurban gündə mən.

Dağlarda gəzmək olmaz,
Daşını düzmək olmaz,
Deyibsən ki, gələrəm,
Yubanma, dözmək olmaz.

Bu dərd məndə özgüdür,
Meydanını düz gördü.
Niyə əl çəkməz məndən?
Çün məni yalqız gördü?

Çıxdım uca divara,
Baxdım o nazlı yara,
Mən baxdım, o baxmadı,
Qəlbimə vurdu yara.

Çıxdım uca dağlara,
Endim yaşıl bağlara.
Rəhmin olsun söz verme
Mənim kimi ağlara.

Əzizim içənə qurban,
Sünbül biçənə qurban.
Bülbül gülə gec baxsa,
Qanın içənə qurban.

Bu bağda göy çağala,
Dövrəsin yarpaq ala.
Allah bir qayda qoya
Sevən sevəni ala.

Gülü taxdım divara,
Bülbül gələ suvara,
Oxu bülbülüm, oxu,
Bir gün yetərsən yara.

Qapıdan biri gəldi,
Gözümüz nuru gəldi.
Bu arxı kim arıtdı?
Su belə duru gəldi.

Dağ başını qar gördü,
Göz qamaşdı tor gördü.
Cəfasını mən çəkdim,
Səfasın əğyar gördü.

Göydə ulduz az qaldı,
Sinəm üstə saz qaldı.
Əlivi ver əlimə,
Ölməyimə az qaldı.

Bir ah çəksəm dərindən,
Dağlar oynar yerindən.
Vəfalı yara qurban
Düşmən adım dilindən.

Namərd aman əlindən,
Düşüb kaman əlindən,
Canım fəğanə gəldi
Axır zaman əlindən.

Mən gələndə yaz idi,
Göllər dolu qaz idi.
İstədim namə yazam
Mürəkkəbim az idi.

Mən aşığam nə sazdı?
Nə söhbətdi, nə sazdı?
Qocaldım elə qurban,
Demə kefim nasazdı.

Bu dağda maral azdı,
Ovçu çox, maral azdı.
Qəm çəkmə, dəli könlüm,
Ölmərəm, yaram azdı.

Mən aşiq işıq oldu,
Zülfü dolaşıq oldu.
Yarım çıxdı gün kimi
Elə yaraşıq oldu.

Aşığam yara mən də,
Dərd məndə yara məndə.
Dözərəm bu hicrana
Yetərəm yara mən də.

Ayax saxla axırı,
Şüşə saxlar çaxırı.
Qəm çəkmə dəli gönlüm,
Yar sənindir axırı.

Aşıq gəlir sazı var,
Qəmzəsi var, nazı var.
Hər payızın bir qışı,
Hər qışın bir yazı var.

Ovçu vurar maralı,
Maral düşər yaralı,
Fələkə neyləmişəm,
Yardan saldı aralı.

Yar gəldi bu diyara,
Gönlümə etdi çara.
Bir gözəl qız sevmişəm,
Üzü ağ, gözü qara.

Oğlan adın Rəşiddi,
Gün dağlara düşübdü.
Sən göndərən üzüklər
Barmağımdan düşübdü.

Arxalığın büzmə yar,
Əlin məndən üzmə yar.
Kirpiklərin ox kimi,
Sinəm üstə düzmə yar.

Sənin ala gözlərin,
Gəlmir yola gözlərin.
Hər baxanda az qalır
Canım ala gözlərin.

Mənim anam öz anam,
Qəlbimdəki köz anam,
Yad gəlir yalan ağlar,
Qoy ağlasın öz anam.

Çəkdim illər bu dərdi,
Çəkən bilər bu dərdi.
Gönlüm dərdli olanda,
Yarım silər bu dərdi.

Dam üsdədi damımız,
Qoşadır eyvanımız.
Sən ordan bax, mən burdan
Kor olsun duşmanımız.

Dağların başı vardı,
Başının daşı vardı,
Burdan keçən maralın
Əcəb göz– qaşı vardı.

Su atdım yara dəydi,
Əlim divara dəydi.
Dilim ağzımda yansın,
Nə dedim yara dəydi.

Dəryalar asta neylim,
Naqqalar utsa neylim,
Hamısı atıb gedib,
Sevgilim atsa neylim?

Dağlara dolu düşər,
Qar düşər, dolu düşər.
Qəbrimi yol üstə qaz
Anamın yolu düşər.

Dəryada gəmi qaldı,
Biçmədim zəmi qaldı.
Cəfasını mən çəkdim,
Bir mənə qəmi qaldı!

Oğlan adın Yaqubdu,
Əksin məndə qalıbdı.
Sən göndərən üzüklər
Barmağımda qalıbdı.

Mən aşiq işıqlara,
Zülfü dolaşıqlara.
Əlimə bir saz alam
Quşullam aşıqlara.

Əzizim alma qara,
Geyməyə alma qara.
Gizlində bir yar sevdim
Saldılar qalmaqala.

Əzizim gülə-gülə ,
Gül adım gülə-gülə.
Düşman evimi yıxdı
Üzümə gülə-gülə.

Əzizinəm, qalma gəl,
Sözüm yerə salma, gəl.
Mərd iyiddən zəhər al,
Namərddən bal alma gəl.

Əzizim nar ağacı,
Kəsməzlər bar ağacı.
Ayrılmaram yarımdan,
Qurula dar ağacı.

Bulaq başı toz olar,
Üsdü dolu qız olar.
Əyil dəsmalın götür,
Mən götürsəm söz olar.

Əzizim elə bağla,
Ümüdün elə bağla.
El gülərsə, sən də gül,
Ağlasa, sən də ağla.

Yar bağını gəzərəm,
Güllərini bəzərəm.
Mənim olsa ala göz,
Hər dərdinə dözərəm.

Bülbül gələr yaz ilən,
Yarım oynar saz ilən.
Ürəyimə çalar köz,
Yar baxanda nazilən.

Əzizim dağıt üzə,
Saçların dağıt üzə.
Qorxuram bir ah çəkim,
Döndərəm dağı düzə.

Qürbətə düşdü yolum,
Düşman alıb sağ-solum.
Eldən ayrı düşəli
Buxovlanıbdı qolum.

Alma versəm almassan,
Sən almadan qalmassan.
Hansı bağın gülüsən?
İylədikcə solmassan.

Bu dağlar haram dağlar,
Gül yoxdu dərəm dağlar.
Ürəyim ah çəkmədən,
Bağlayıb vərəm dağlar.

Yar bağında sarı gül,
Yarı gonca, yarı gül,
Nə tez açıb, tez soldun?!
Açmayaydın barı gül.

Əzizim üç gül açar,
Üç yarpaq, üç gül açar.
Çağır mollanı gəlsin,
O yaxşı müşkül açar.

Qardaşlar, ay qardaşlar,
Qar kəsər, yağış başlar.
Ölsə, bacılar ölsün,
Heç ölməsin qardaşlar.

Əzizim şirin elər,
Hər işin şirin elər.
Yar özü şirin olsa,
Hər işin şirin elər.

Yel dəydi, telin əsdi,
Səbrimi yenə kəsdi,
Sağ gözüm sənə qurban,
Sol gözüm mənə bəsdi.

Mən əziz quzu qurban,
Qoç qurban, quzu qurban.
Mərdin bir tək tükünə,
Namərdin yüzü qurban.

Əzizim axar gedər,
Su gələr axar gedər,
Bu dünya pəncərədi
Hər gələn baxar gedər.

Əzizim dolu bağlar,
Sulu, meyvəli bağlar.
Yar yadıma düşəndə
Gözlərim dolub ağlar.

Əzizim bir də-bir də,
Çox iş var bu səbirdə.
Öləndə cüt olaydıq
İkimiz bir qəbirdə.

Əzizinəm, gülə naz,
Bülbül eylər gülə naz.
Bu dünya qəmxanadı,
Ağlayan çox, gülən az.

Gəl bir gedək o yana,
Məskənimdi virana.
Sən oxu, mən ağlıyım,
Bəlkə baxtım oyana.

Mənim anam baş ağlar,
Başı yuvar, baş ağlar.
Gah məni deyər ağlar,
Gah bağrına daş bağlar.

Əzizinəm vay dərdim,
Vay dərmanım, vay dərdim.
Hamı gül əkdi, gül dərdi,
Mən gül əkdim, vay dərdim.

Karvan yola düzülüb,
Xumar gözlər süzülüb.
Necə mən qəm çəkməyim?
Əlim yardan üzülüb.

Əzizim Xoy çəməni,
Mərəndin Xoy çəməni.
Ya mələrəm taparam,
Ya vurar ovçu məni.

Əzizinəm baxan yar,
Qızıl düymə taxan yar.
Bir dənə gül olaydım
Taxılaydım yaxan yar.

Araqçının dar -darı,
Gəl başımın sərdarı.
Öz evimizə gəlmirsən,
Qonşumuza gəl barı.

Durma qapı dalında,
Gözüm qalıb xalında.
Gedim anama deyim,
Gəlim qalım yanında.

Stəkanım qanlıdı,
İçmişəm dərmanlıdı.
Bu məclis şahid olsun,
Mən öləm yar qanlıdı.

Əzizim gecədən gedər,
Karvan gecədən gedər.
Gecə uzun, həmdəm yox,
Zəhləm gecədən gedər.

Bu dağdan əsli getdi,
Səbrimi kəsdi getdi.
Şahid ol, badi-səba,
Yar məndən küsdü getdi.

Fələyin qəhri mənə,
Gəlmədi rəhmi mənə,
Doldurdu qəm badəsin
İçdirdi zəhəri mənə.

Əzizim, sərin ellər,
Yel gələr sərin ellər.
İki dostun arasın
Bir kağaz sərin eylər.

Bu ağac bir gül açar,
Üç ağac üç gül açar.
Çağır qolsuz Abbası
O gələr müşkül açar.

Mən aşıq qara bağı,
Gəl gəzək Qarabağı.
Mən bir ceyran itirdim,
Boynunda qara bağı.

Əzizim bala öldürmə,
Bülbülü zar öldürmə.
Bülbülsüz çəmən olmaz,
Bülbülü xar öldürmə.

Aşıq qaralı qoyma,
Ovçu maralı qoyma.
Oxun sinəmdə qaldı,
Öldüm yaralı qoyma.

Əzizim bala, gözəl al,
Otur, axtar, gözəl al,
Camaldan gözəl olmaz,
Kamal axtar, gözəl al.

Əzizim nar ağaçı,
Əkərəm nar ağacı.
Mən səndən əl çəkmərəm,
Çəksələr dar ağacı.

Çayı keçək ayrılaq,
Suyun içək ayrılaq,
Gəl bir yol bütün olaq
Halallaşaq ayrılaq.

Mən aşiq Mərəndə gəl,
Güllərin dərəndə gəl.
Bir gəldin xəstə gördün,
Bir də can verəndə gəl.

Burdan uzaq Əhərdi,
Mənim işim səhərdi.
Yatdım yuxuya qaldım,
Durdum gördüm səhərdi.

O tayda yatan oğlan,
Əlini satan oğlan.
Nişanlın apardılar,
Xəbərsiz yatan oğlan.

Əzizinəm, gün batar,
Ay çıxmamış gün batar.
Xoş o aşıq halına
Sevdiyi yara çatar.

Bülbül gəzər aşikar,
Xarə o bülbül şikar.
Çirkin üzün gizlədər,
Gözəl gəzər aşikar.

Ay çıxar parlı-parlı,
Qapılar quşa nərli.
Girəsən yar qoynuna,
Çıxasan tərli-tərli.

Dəryada gəmim qaldı,
Əkmədim zəmim qaldı.
Arzun gözündə qalsın,
Necə ki, mənim qaldı.

Göydə ulduz çəməni,
Öldürdü qüssə məni.
Dəsmalın kəfən eylə,
Göz yaşıyla yu məni.

Dağların başı qova,
Dibi gül, başı qova.
Məni bir qız oxladı,
Gözü göy, qaşı qara.

Dəryada quş üzümü,
Oğlan, eşit sözümü.
Eşitməyəsən sözümü,
Öldürərəm öz özümü.

Bağa girdim bağbansız,
Dəvə gördüm sarvansız.
Aləmə dərman oldum,
Öldüm özüm dərmansız.

Bağça məndə, yar məndə,
Heyva məndə, yar səndə.
Sinəm əttar tükanı,
Hər nə desən var məndə.

Bu dağda əkdim əkin,
Aldılar əlimdəkin.
Heç kafir, müsəlman
Olmasın mənim təkin.

Əzizim, bala, mən zamin,
Bağda gülə mən zamin.
Əyil üzündən öpəm
Düşsə ləkə mən zamin.

Əzizim su ayandı,
Sünbülüm suda yandı.
Mən dərdim suya dedim,
Od tutub su da yandı.

Əzizim yazana qaldı,
Qəbir qazana qaldı.
Qələm düşman əlində
İnsaf yazana qaldı.

Kipriyin qana batar,
Məni torpağa atar.
Əlim sənə çatmasa,
Ahım dağlara çatar.

Əzizim düzə düşdü,
Göyərçin düzə düşdü.
Püşk atdıq el içində
Ayrılıq bizə düşdü.

Əzizim ayda görüm,
Görmüşəm yenə görüm.
Gecələr çıx bax aya,
Gül üzün yenə görüm.

Əziziyəm qonşudan,
Yar sevəsən qonşudan.
Yaman gündə dərdivə
Dərman olar qonşudan.

Arazı daşladılar,
Çimməyə başladılar.
Bir oyun oynadılar,
Gözləri yaşladılar.

Muğamı düz hasarı,
Yollardan üz hasarı.
Mərdin ağac gölgəsi,
Namərdin yüz hasarı.

Mən aşiq sakar keçər,
İldırım şaxar keçər.
Qürbətdə qərib ölsə,
Hər gələn baxar geçər.

Əzizim gül gözümə,
Biri bəsdi özümə.
Yuxuma sən gəlməsən,
Yuxu gəlməz gözümə.

Əzizim səndə qalsın,
Səndə bir səndə qalsın.
Can məndə qərar tutmaz
Göndərim səndə qalsın.

Sığal vurur telə o,
Kəmər bağlar belə o.
İyid elləri saxlar,
Arxa olsa elə o.

Tərlan evin sar alı,
Mənzil gedər sar alı,
Qəm çəkmədən aşiqin,
Rəngi, ruhu saralı.

Göydə ulduz naşıdı,
Kim ulduzun yaşıdı?
İyidə ellər qurban,
İyid ürək başıdı.

Mən aşiq yarpaq tökülür,
Payızda yarpaq tökülür.
Ömür keçər, gün azalar
Üsdüvə torpaq tökülər.

Kirpiyin meşə bildim,
Ox idi, meşə bildim.
Dalıncan sürünməyi
Özüm peşə bildim.

Bu dönüb elə dağlar,
Gəlibdir dilə dağlar,
Bülbül çoşub oxuyur,
Bürünüb gülə dağlar.

Əgər sevsə el səni,
Yıxa bilməz sel səni.
Namərdə boyun əymə,
Qoy aparsın sel səni.

Yandım, Allahım, yandım,
Sinə billahım, yandım.
Daş olsaydım ərirdim,
Torpağıdım dayandım.

Əzizim qız aranda,
Dan yeri qızaranda.
Qalsa da oğlan qalsın,
Qalmasın qız aranda.

Rübət çək üzə dağlar,
Gölgə sal düzə dağlar.
El sinəndə yurd salmasın,
Gəlməsin gözə dağlar.

Al kəməri belə bağla,
Saçlarını tez bağla.
Nə yada sirrini de,
Nə namərdə bel bağla.

Mən əzizim axıtmaz,
Daşları çay axıtmaz.
El tikən bir köməni,
Tufan gəlsə dağıtmaz.

Mən aşiq, o gün eylər,
O quzey, o güneylər.
Dost dostuna çatanda
Bayramın o gün eylər.

Əzizim daşa çalı,
Ömrümü daşa çalı.
Yesən namərd çörəyin,
Qayıdar başa çalı.

Mən aşiq olan gündə,
Dəryalar dolan gündə,
Ruhum ruhun sevibdi
Ruhlar yaranan günnən.

Bu dağlar qoşa dağlar,
Verib baş-başa dağlar,
Yarım səndə gəzibdi,
Səni yüz yaşa dağlar.

Əlimə saz verdilər,
Sazı telsiz verdilər.
İşlədim işləmədim,
Haqqımı az verdilər.

Qərənfil haça bətdi,
Sana gör neçə bətdi.
Vəfalıya can qurban,
Bivəfa heçə bətdi.

Mən aşiq xoş adalı,
Xoş üzlü, xoş ədalı,
Mərd iyiddə qaydadı
Meydanda xoş ad alı.

Kəman bəla, ox bəla,
El gələli yox bəla.
Namərd ilə dost olsan,
Başın çəkər çox bəla.

Yar başa qara bağlar,
Ürəyi yara bağlar.
Vətəndən ayrı düşsə,
Ümidin hara bağlar?

Əzizim sərin ayaz,
Göy-bulud sərin ayaz.
Dosta gələn qadanı,
Düşmənin şərinə yaz.

Aman fələk, dad fələk,
Heç olmadım şad fələk.
İçdirdiyin şərbətdən,
Özün də bir dad fələk.

Əzizim ötmək olmaz,
Köhləni ötmək olmaz.
Elin atdığı daşı,
Yerdən tərpətmək olmaz.

Salxımı üzmə barı,
Nimçəyə düzmə barı,
Aşnalığı üzmüsən
Dostluğu üzmə barı.

Çıxdım dağın başına,
Yazı yazdım daşına.
Gələn gedən oxusun,
Nələr gəlmiş başıma.

Əzizim gülün yansın,
Pis adam, gülün yansın.
Məni yardan edənin,
Ağzında dili yansın.

Gözüm gördü o kamı,
O sultanı, o xanı.
Sinəmə nişan tikdim,
Gəldim deyəm ox hanı?

Yar gəlir bədö atda,
Arxalığı göy qatda,
İyid oğul bəd gündə,
Ya atda, ya yer altda.

Quşum qaşdı tüləkdən,
Qolum düşdü kürəkdən.
Mənimki belə gəldi
Çərxi dönmüş fələkdən.

Əzizinəm dilən gəz,
Bağda gülə dilən gəz.
Qürbətdə xan olunca,
Vətənində dilən gəz.

Mən aşiq yara səni,
Göz gördü yar, a səni.
İllər ayırsa canım,
Yetirəm yara səni.

Əzizim yoxdu arxam,
Qanadım yoxdu qalxam.
Çıxam uca dağlara
Vətənə doğru baxam.

Mən aşiq sazaq oldu,
Yel əsib, sazaq oldu.
Mən görmürəm da səni,
Fasilə uzaq oldu.

Çəkilib dərd hasarı,
Gedirəm dərdə sarı.
Namərd dizimi qırsa,
Sürünnəm mərdə sarı.

Aşiq gedər hər yana,
Sözün deyər mərdana.
İyidə ürək verir
Bərk ayaqda mərd ana.

Bir qurban kasad olmaz,
Mərd əli kasad olmaz.
Yüz namərdin çörəyin
Doğrasan kasad olmaz.

Gün dolanar ay olar,
Pis gün aya tay olar.
Harada şahlıq oldu,
Cəllad olar, tay olar.

Donu tik büz ilməni,
Sana tək düz ilməni.
Vəfalı dost yad olmaz,
Görməsə yüz il məni.

Bulut getdi ay hanı?
Qaşın kimi yay hanı?
Gəzdim eli, obanı
Yarım kimi yar hanı?

Aşıq yüz ilə dəyər,
Şana yüz telə dəyər.
İl var bir günə dəyməz,
Gün var yüz ilə dəyər.

Mən aşiq nə vəfası,
Nə əhdi, nə vəfası.
Vəfalıya can qurban,
Namərdin nə vəfası.

Gün gedər elə dağlar,
Gəlibdir dilə dağlar.
Bülbül kimi hay salıb,
Dönüb bülbülə dağlar.

Mən aşığam gülə naz,
Bülbül eylər gülə naz.
Bu il hicran ilidi,
Ağlıyan çox, gülən az.

Durna sayınnan keçər,
Ötər sayınnan keçər.
İyid vətən yolunda
Ölər canınan keçər.

Can çıxdı salı bağlar
Dəryada salı bağlar.
Xəyalım hər dəm səni,
Yadına salıb dağlar.

Axar su gedər, qalmaz,
Ürəkdə kədər qalmaz.
Vəfalıya can qurban,
Bivəfa gedər, qalmaz.

Əzizinəm mərdanə,
Sözüm dedim mərdanə.
Qorxağa oğul deməz,
Qoçax ata, mərd ana.

Qolunda var qüvvətin,
Arzum var olsun mətin.
El yolunda baş qoyan
Qazanar el hörmətin.

Aşığam gördüyünü,
Xəstənin gördüyünü,
Cənnətdə görməz aşiq
Sən ilə gördüyümü.

Mən aşiq baxdı yarım,
Baxtımın taxtı yarım.
Üzündə göz izi var,
Sənə kim baxdı yarım?

Yol gedər Ordubada,
Salmasnan Ordubada.
Sərkərdə qoçaq olsa,
Heç getməz ordu bada.

Bayatılar başlandı,
Dərd ürəkdən daşlandı.
Tarix mənə lütf etdi,
Günahım bağışlandı.

Bulağın başı ilə,
Dibinin daşı ilə,
İyidə alqış dedim
Gözümün yaşı ilə.

Bu dağlar qanlı dağlar,
Laləli, qanlı dağlar.
Yığılmış aşiq üstə,
El ağlar, ürək dağlar.

Bu dağda maral gəzər,
Dırnağın daşlar əzər.
Mən yara neyləmişəm,
Yar məndən kənar gəzər.

Aşmağa asan dağlar,
Qar başın basan dağlar.
Qərib çox çətin gülər
Ağlasa asan ağlar.

Nəbini gül incidir,
Bülbülü gül incidir.
Düşman atar daş nədir?
Dost atan gül incidir.

Əzizim kim sadağa,
Kim qurban, kim sadağa.
Mən Məcnun varisiyəm
Qoymaram kimsə dağa.

Bağında üzüm qaldı,
Yemədim gözüm qaldı.
İki əmi qızının
Birində gözüm qaldı.

İbrahim ahın dilər,
Göz yaşı, ahın dilər.
Yar ilə keçən günlər
Olaydı kaş indilər.

Mən aşığam axşamlar,
Gün batar ay axşamlar.
Hər kəs evinə gedər,
Qərib harda axşamlar?

Qızıl gülü dərəllər,
Məxmər üstə sərəllər.
Aralıxda düşman çox
Səni məndən eləllər.

Mey dağlar, məzə dağlar,
Yaz gələ gəzə dağlar.
Qoymaram namərd gəzə
Bağrımı əzə dağlar.

Yaman gündü, bez gətir,
Arşın apar, tez gətir.
Nə qonşudan söz apar,
Nə qonşudan söz gətir.

Pəncərədən daş gəlir,
Xumar gözdən yaş gəlir.
Səni mənə versələr,
Hər görənə xoş gələr.

Endim başa dağ üstə,
Şəki, Şirvan bağ üstə.
Nə qaydadı o yarda,
Dağı çəkər dağ üstə.

Əzizim qar üstündə,
Buz dönüb qar üstündə.
Mən bu hala qalmışam,
Bivəfa yar üstündə.

Pəncərəni bağlama,
Mən gedirəm ağlama.
Gedərəm genə gəlləm,
Özgəyə bel bağlama.

Dağlara çən düşəndə,
Göllərə dən düşəndə,
Ruhum bədəndə oynar,
Yadıma sən düşəndə.

Pəncərənin milləri,
Açıb qızıl gülləri,
Oğlanı yoldan eylər
Qızın şirin dilləri.

Laylay dedim bir dənə,
Hər biri dənə-dənə,
İldə qurban bir olsa,
Səndə gündə min dənə.

Yeri-yeri naz oğlan,
Bazarda bəzzaz oğlan.
Al qələmi əlivə
Hər nə desəm yaz oğlan.

Dağlar başı qoyundu,
Ay qız, bu nə oyundu?
Yatdım yuxuda gördüm,
Cuma axşamı toyundu.

Dəsmalında qara var,
Ürəyimdə yara var.
Nə ölürəm qurtaram,
Nə dərdimə çara var.

Aç üzündən duvağı,
Görüm o gül yanağı.
Əlini ver əlimə,
Gəzək çəmənli bağı.

Dağda yel əsər gedər.
Söz qılıcdı, kəsər gedər,
Qızın oynaşı çox olsa,
Söz deməmiş küsər gedər.

Yeri-yeri düşən var,
Yeri eşqa düşən yar.
Elçiləri yorulmuş
Özü elçi gedən yar.

Yara dedim saz alsın,
Çalım dərdim azalsın,
Məgər mən ölmüşəm ki,
Yarım özgə qız alsın.

Dağlar dağımdı mənim,
Qəm yatağımdı mənim,
Dindirmə qan ağlaram
Yaman çağımdı mənim.

Kağız yazdım biləsən,
Oxuyasan güləsən,
Sən ki mənə gəlmədin,
Səni çavan öləsən.

Bu gələn haralıdı?
Dağların maralıdı.
Əyil üzündən öpüm,
Ürəyim yaralıdı.

Atam evi yolumdu,
Qanadımdı, qolumdu.
Gedib evə görməsəm,
Onda mənə ölümdü.

Köynəyin ağ saxlaram,
Yığaram tağ saxlaram.
Bir də səfərdən gəlsən,
Səni qonağ saxlaram.

Mən aşığam, gül ağlar,
Bülbül oxur, gül ağlar.
İstəklidən ayrılan
Başa səpər kül ağlar.

Mən aşıq hacı bağlar,
Hacı mihrabı bağlar.
Qardaşa Allah dəysə,
Yarasın bacı bağlar.

Mən aşıq al yorğanı,
Üstünə sal yorğanı.
Qardaş səfərdən gəlsə,
Bacı kəsər qurbanı.

Mən aşıq qara dərdim,
Gül dərdim, qara dərdim,
Dərdivi çəkənmirəm,
Aparram gora dərdim.

Bağında su ilanı,
Yenər bağı dolanı.
Sənin dərdindən öləm,
Sözlərin qurtulanı.

Alma atdım nar gəldi,
Köynək biçdim, dar gəldi.
Mən səndən ayrılandan,
Başıma nələr gəldi.

Dam üstə basdım taya,
Gölgəsi düşdü aya.
Cəfa çəkdim, yar sevdim,
Zəhmətim getdi zaya.

Yaralıyam yatmaram,
Yatsan sən oyatmaram.
Çıxıb getsən qürbətə
Yadımnan çıxartmaram.

Qoynunu mən açaram,
Açar versən açaram.
Girsəm evə, görməsəm,
Qayıdaram, qaçaram.

Ağaşda püstə mənəm,
Dibində xəstə mənəm.
Gedsən səfərə tez gəl,
Səndən pay istə mənəm.

Aşıq hava yaxşıdı,
Dərdə dəva yaxşıdı.
Qonşunun minnətindən
Sınıq tava yaxşıdı.

Qardaşım var, qalam var,
Ərşə çıxan naləm var.
Qardaş evə qoymasa,
Hara gedim, haram var?

Ağaşda göy mazılar,
Onu göylüm arzılar.
Gedəsən dost bağına,
Baxalar tamarzılar.

Qardaşlar, hay qardaşlar,
Yağış yağar, qar başlar,
Bacı yolların gözlər,
Gəlməsələr qardaşlar.

Dağların sinə-sinə,
Qar yağar sinə-sinə,
Bir cüt qurban kəsərəm,
Gözlərin giləsinə.

Gedərəm oturmaram,
Tənə söz götürmərəm.
Dünya-dünya dan olar,
Səndən əl götürmərəm.

Bostanda tağım ağlar,
Basma, yarpağım ağlar.
Qardaş, səndən ayrılsam,
Ölsəm, torpağım ağlar.

Yerində duz yeri,
Əlində vardı beli.
Evin aşağı başı,
Məzlumun yatar yeri.

Günün keçdim gölgəyə,
Dəsmal verdim sevgiyə,
Zəhmət çəkdim yar sevdim,
Qismət oldu özgəyə.

Qardaş demə qan ola,
Yel əssə tufan ola,
Qardaş gəzən yerlərə
Bacılar qurban ola.

Dağda duman yeri var,
Qaşda kaman yeri var.
Gəlim sizdən axtarım,
Sizdə guman yeri var.

Suvanam söymə məni,
Boşqaba qoyma məni.
Havax gəlsəm qapıva,
Qapınnan qovma məni.

Yaralandım yanımnan,
Quşlar doydu qanımnan,
Göydə mələk yatmadı
Mənim ahi zarımnan.

Gedirəm qoyuna mən,
Düşmüşəm oyuna mən.
Zəhmət çəkdim, yar sevdim
Baxmadım boyuna mən.

Qoyun kövşəndə mələr,
Otdar kövşəndə mələr.
Nənələr balasından
Ayrı düşəndə mələr.

İpək atdım çiyninə,
Ucu düşdü düyünə.
Tək əlin səsi çıxmaz,
Verək çiyin-çiyinə.

Qəlyanı mən çəkərəm,
Doldur ver, mən çəkərəm.
Qəmin olsa, yaz yolla,
Onu da mən çəkərəm.

Qəlyanı günə qoydum,
Doldurdum, günə qoydum.
Yar qoydun çıxdın getdin,
Məni nə günə qoydun.

Qaşın qaralar məni,
Eldən aralar məni,
Güllə vursan ovçusu
Gələr yaralar məni.

Yaralı qoydun məni,
Nar kimin oydun məni.
Gölgədə bəslənmişdim,
Nə günə qoydun məni.

O tayda qoç yatıbdı,
Qoç buynuzun çatıbdı.
Heyifim qoca gələr,
Quru yerdə yatıbdır.

Məna aşıq həkim dərdi,
Doğruyam, tökəm dərdi.
Nə anam var, nə bacım,
Kiminin çəkim dərdi.

Mən aşıq gözəl ağlar,
Gözlərin gözəl ağlar,
Mən ölsəm yad ağlamaz,
Öz anam, gözəl ağlar.

Dağda, dağlar dumanı,
Yoxdu yarın imanı,
Qızıldan körpü saldım
Gümüşdən nərdivanı.

Əzizim üşüdüm gəl,
Yad bağına düşdüm gəl.
Şad günlərimin dostu,
Yaman günə düşdüm gəl.

Bazara yerdə gəldi,
Satıldı bir də gəldi.
Qərib yerdə çox qaldım,
Ürəyim dərdə gəldi.

Əzizim üzüm ağacı,
Özüm dözüm ağacı,
Bağa baltalı girdi,
Kəsdi bizim ağacı.

Obadan baxan gözəl,
Yandırıb yaxan gözəl,
Rəhm elə bir az mənə
Evimi yaxan gözəl.

Bağda gül solmayacaq,
Gözlərin dolmayacaq.
Fələyin çərxi dönüb,
Ayrılıq olmayacaq.

Əlində fənər gözəl,
Alışıb yanar gözəl,
Söz içində söz demə
Ağıllar qanar gözəl.

Arazam yelə bəndim,
Bülbülüm gülə bəndim.
Mən gedəlgi qonağıyam,
Bir şirin dilə bəndim.

Axşamlar, ay axşamlar,
Axşamlar yanar şamlar.
Hərə evinə gedər,
“Xödək” harda axşamlar?

Gedərəm genə gəlləm,
Kafirəm dinə gəlləm.
On il zindanda qalsam,
Qurtulsam genə gəlləm.

Əzizim demə barı,
Demə əkdim demə barı,
Dosta deyin şad olsun,
Düşmana demə barı.

Qızılgül həşəm oldu,
Dərmədim həşəm oldu.
Mən səndən ayrılanı
Ağlamaq peşəm oldu.

Ağ almanı soyallar,
Boşqab üstə qoyallar.
Uzaxdan baxmağılan
Məgər yardan doyallar.

Ağ alma, qızıl alma,
Boşqaba düzül alma.
Bilsəm yar iyləyəcək,
Saxlaram yüz il alma.

Sarı qavun dilimi,
İtirmişəm gülümü.
Gəl gedək bizim evə
Deyim dərdi– dilimi.

Almanı atdım çaya,
Camalın bənzəyir aya.
Ömrüm qurtuldu Allah,
Günləri saya-saya.

Bazara keçi gəldi,
Satıldı üçü gəldi.
Çəkilin kənar durun,
Dostumun köçü gəldi.

Bu bağda mal mələdi,
Dili yox, lal mələdi.
Fələk qarnın doyurdu,
Yaxasın düyməlidi.

Gedərəm qoyuna mən,
Düşmüşəm oyuna mən,
Yaxşı bala böyütdüm,
Baxmadım boyuna mən.

Alma verdim yeyəsən,
Vermədim iyləyəsən.
Elə qoyub gedərəm,
Ta qədrimi biləsən.

Ağacda püstə mənəm,
Dibində xəstə mənəm.
Sən Allah gəl evinə,
Mən sovqat istəmənəm.

Mən aşiq al yorğanı,
Üstümdə sal yorğanı.
Yoxladım şəfa tapdım,
Üstümdən al yorğanı.

Qapıvı mən açaram,
Açar versən açaram.
Görsəm evdə deyilsən,
Dalı-dalı qaçaram.

Mən aşiq qana doldu,
Söylədi qana doldu.
Dədəsiz dözdüm Allah,
Ürəyim qana doldu.

Qurbanam gözlərivə,
Malıyam sözlərivə.
Yalvarıram heyvanata,
Dəyməsin gözlərivə.

Qaşın qaralar məni,
Eldən aralar məni.
Namərd düşman giribdi,
Səndən aralar məni.

Bağında var gül alı,
Yetişəndə saralı.
Dedin qayıdacağam,
Qürbətin var qaralı.

Gedərəm oturmaram,
Tənə söz götürmərəm,
Dünya-dünyadan ola,
Səndən əl götürmərəm.

Gedərəm Gilana mən,
Dolana-dolana mən,
Adam tapdım dərd deyim,
Bir dərman bulana mən.

Yaralıyam yatmaram,
Sən yatdın oyatmaram,
Sənin nisgillərini
Yadımdan çıxartmaram.

O tayda quzu mələr,
Tükü qırmızı mələr.
Mən səndən ayrılmaram,
Başıma gəlib nələr.

Bu dağda əkin olmaz,
Əkməsən əkin olmaz.
Səni gəlib görməsəm,
Ürəyim sakin olmaz.

Mən aşığam ağam gəl,
Ölməmişəm, sağam gəl.
Sinəmdə qəm zənciri,
Qapımda dustağam gəl.

Mərənd üstü Xoy, Salmas,
Alma göndərrəm almaz.
Elə göstəribdilər,
Salamını da almaz.

Gilanarım calandı,
Yığmaram acılandı.
O qədər dərdim vardı,
Qonşular sancılandı.

Ay getdi batdı gəlməz,
Günün yubatdı gəlməz.
Düşdü fələk əlinə,
Məni allatdı gəlməz.

Almanı atdım çaya,
Cəmalın bənzər aya.
Ömrüm qurtuldu Allah,
Günləri saya-saya.

Mən aşiq aralandım,
Ürəkdən yaralandım.
Evimdən böyük getdi,
Yarımdan aralandım.

Qardaşım var, qalam var,
Ərşə çıxar naləm var.
Qardaşsız hara gedim,
Allah mənim haram var?

Mən aşiq gülə-gülə,
Dərdivi dənə gülə.
Sən Allah qapımı aç,
Gəlginən gülə-gülə.

Bağın yolu miyanə,
Bu bağ gedir hayana,
Mən necə layla çalım,
Bəlkə yatan oyana.

Mən aşiqəm gülə naz,
Bülbül elə gülə naz.
Dünya belə dünyadı,
Ağlayan çox, gülən az.

Əlimdə nar bəzərəm,
Narı hamar bəzərəm.
Gedəsən gəlməyəsən,
Həmməşə xar gəzərəm.

Bostanda tağım ağlar,
Basma yarpağım ağlar.
Ta sağam ağlayaram,
Ölsəm torpağım ağlar.

Bülbül bağda yatıbdı,
Qışların uzadıbdı.
Mən ondan dönməmişəm
O məni bərk atıbdı.

Ağacda xəzəl ağlar,
Dibində gözəl ağlar.
Bunun nənəsi ölsə,
O məndən gözəl ağlar.

Almanı fallamışam,
Boşqaba fallamışam.
Sən gedənnən o yana,
Həmişə ağlamışam.

Bağçasında sarı gül,
Yarı qonca, yarı gül.
Tez açıldı, tez soldu,
Olmayaydı barı gül.

Gülüm gülü neylərəm,
Gülə xidmət eylərəm.
Versinlər öz balamı,
Özgəninkin neylərəm.

Mən aşıq bostana gəl,
Bağa gəl, bostana gəl.
Məni göylün istəsə,
Xarab qəbirstana gəl.

Bu dağda quzu mələr,
Başıma gəldi nələr.
Bağla viran xabıvı,
Görsənməsin sinələr.

Mərənd üstü yolumdu,
Qanatımdı, qolumdu.
Gəlib səni görməsəm,
Onda mənə ölümdü.

Qızılgül əsdi neylim?
Səbrimi kəsdi neylim?
Üzdə dost, dalda düşman,
Mən belə dostu neylim?

Mən aşiq bəsdi fələk,
Səbrimi kəsdi fələk.
Hər yanda çadır qurdum,
Kənəfim kəsdi fələk.

Qala başı üzüm var,
Ağlamağa gözüm var.
Bir belə qəm çəkməyə,
Məgər məndə dözüm var?

Qala başı, daş başı.
Yatmağa kəhriz başı.
Abdullayla bal yemə,
Qənbər ilə daş daşı.

Mən aşiq alma dərdimi,
Nar dərdi, alma dərdimi.
Çəkdim çəkə bilmədim,
Aparram gora dərdimi.

Mən aşiq sulu dağlar ,
Çeşməli, sulu dağlar.
Burda bir qərib ölüb,
Göy kişnər, bulud ağlar.

Qəribi el götürür,
El yığar, el götürür.
Hərə bir baş ağlasa,
Dünyanı sel götürür.

Qəribəm vətənim yox,
Bu gündən satanım yox,
Qəriblikdə ölürəm,
Əlimdən tutanım yox.

Almanın iyisinə,
Vuruldum birisinə,
Məni çoban yazardın,
Qızların sürüsünə.

Başıva mən dolanım,
Mən durum, mən dolanım.
Olginən sən bir ağac,
Kölgəndə mən dolanım.

Havanın küləyi var,
Qarı var, küləyi var.
Səni vuran ovçunun,
Qurtuğum biləyi var.

Bala demə qan olar,
Yel əsər, tufan olar.
Bala gəzən yerlərə,
Nənələr qurban olar.

Bacılar bacısıyam,
Şirinlər acısıyam.
Hər kim desə bacınam,
Mən onun bacısıyam.

Mən aşiq mehman ollam,
Bir gecə mehman ollam.
Çox yalvarsam gəlməsən,
Mən sənə qurban ollam.

Gedərəm dağ başına,
Örtübdü ağ başına.
Kim şamama bəsləsə,
Dolanar tağ başına.

Gülü taxdım duvara,
Bülbül gəlsə su ara,
Yayı sənlə keçirdim,
Qışda qaldım avara.

Bu küçədən yol gedər,
Qoşun gələr bol gedər.
Sən gəlib çıxanacan,
Ürəyim qanı gedər.

Tut ağacı tut verər,
Yarpaqları qurt verər.
Qız sevəsən alasan,
Gör bir necə dad verər.

Dağları gəzdim gəldim,
Daşını düzdüm gəldim.
Səni bivəfa gördüm,
Əlimi üzdüm gəldim.

Ay dolana-dolana,
Düşdü bizim dalana.
Mən səni alacağam
Barmaqlarım doğrana.

Fələk məni dindirdi,
Qəm atına mindirdi.
Düşmənin qapısında
Çaldı yerə sındırdı.

Mən aşiq tikan gülə,
Dolaşıb tikan gülə.
Görəsən kim gözünü,
Tikib mən tikən gülə.

Mən aşiq neylim sənə,
Düşübdür meylim sənə.
Mən dönsəm üzüm dönsün,
Sən dönsən neylim sənə.

Mən aşiq qaz ayağı,
Güllərdən qaz ayağı.
Qurudu gözüm yaşı,
Çəkildi qaz ayağı.

Bağda üzüm qoradı,
Dərməmisən qoradı.
Yanına oturmadım,
Ondan üzüm qaradı.

Gəlginən bağa gedək,
Qar yağa bağa gedək.
Sən yağış ol, mən bulut,
Hay salıb axıb gedək.

Göyərçin göyə bənzər,
Göz yaşım selə bənzər.
Gedəsən, gəlməyəsən,
Ev -eşiyin çölə bənzər.

Mən aşiq aparmışam,
Gül verib nar almışam.
Qovunun xarab olubdu,
Gör necə saralmışam.

Saralmışam solmuşam,
Bulut kimi dolmuşam.
Ağlamayım neyləyim,
Mən səndən ayrılmışam.

Qoyun kaşanda mələr,
Otdar kaşanda mələr.
Nənələr balalardan
Ayrı düşəndə mələr.

Mələ, qoyunum mələ,
Quzu verilməz ələ.
Mən ağlayıram gəlməyir,
Sən ağla bəlkə gələ.

Qardaşlar, ay qardaşlar,
Yağış yağar, qar başlar.
Tabutum ayrı gedər,
Yapışmaya qardaşlar.

Alma verdim yeyəsən,
Vermədim iyləyəsən.
Öz qədrivi nə bildin,
Mənimkinin nə biləsən?

Mən aşiq yatan yerdə,
Gül əkdim yatan yerdə.
Sənə köynək olaydım,
Soyunub yatan yerdə.

Mən aşiq yaralandım,
Ovçu vur yaralandım,
Mən sənnən ayrılmazdım,
Zülmünən aralandım.

Mən aşiq puta-puta,
Gül əkdim puta-puta,
Nə olardı ilahi,
Sevgi-sevgiyə çata.

Suları bulandırma,
Qapımı dolandırma.
Allah səni yandırsın,
Məni belə yandırma.

Mən aşiq günüm xoşdu,
Yatmısan, yerin xoşdu.
Özün getdin qurtuldun,
Mənim də yerim xoşdu.

İpək atdım çiynimə,
Ucu düşdü düyünə.
Qoy gəlsin bacılarım
Verək çiyin-çiyinə

Yad ağlar yalan ağlar,
Oduma yanan ağlar.
Qoy gəlsin xanım nənə,
O məndən gözəl ağlar.

Gülüm, gülüm neylərəm,
Gülə xidmət eylərəm.
Versinlər öz gülümü,
Özgə gülü neylərəm?

Gilanarım ağ doldu,
Yandı bağrım talx oldu.
Çıxım qapıda durum,
Yarım gələn vaxt oldu.

Bir yaralı qoçam mən,
Yerim yoxdu qaçam mən.
Gönül süfrə deyil ki,
Hər gələnə açam mən.

Əzizim dağda mələr,
Başıma gəldi nələr.
Düymələ köynəyinnən,
Görsənər ağ məmələr.

Mən aşiq mənim atam,
Ox alam, özüm atam,
Günüm onda xoş keçər,
Bir gecə sənnən yatam.

Gəlirdim dağdan qoşa,
Əlim çıxıbdı boşa,
İstəməyirsən məni,
Dur gedək məni boşa.

Gəlirdim dağ arası,
Tapdım məxmər parası.
Gördüm iki qız gəlir,
Üzündə diş yarası.

Qəlyanı mən çəkərəm,
Doldur ver, mən çəkərəm.
Bala dağı görmüyüm,
Hər nə versən çəkərəm.

Dağ başında minarə,
Şövqü düşüb çinara.
Qismətim qürbət oldu,
Sən başına qıl çara.

Bu yolu gedən gəlməz,
Bilmirəm nədən gəlməz.
Qırılıb qatarından,
Çıxıb cərgədən gəlməz.

Qardaş gəl, ay qardaş gəl,
Qarlı dağları aş gəl.
Qürbət eldir, kimsən yox
Tökər gözüm qan– yaş gəl.

Su içəcəm çanakdan,
Bal süzülər dodaqdan.
Neylim gələ bilmirəm,
Salamım var uzaxdan.

Dağlar başı ala qar,
Ala yaylaq, ala qar.
Nə qədər qar yağmışdı,
Yağmamışdı belə qar.

Bu dağlar, qoşa dağlar,
Verib baş-başa dağlar.
Mən ki avara oldum,
Sən barı yaşa dağlar.

Mən aşığam gül ey vay,
Bülbül ey vay, gül ey vay.
Bir bağa bağban oldum,
Heç dərmədim gül ey vay.

Aşiq dağ arasında,
Duman dağ arasında,
Şam kimi şölə çəkdim
Yandım dağ arasında.

Mən aşiq öz məzəli,
Tellərin düz məzəli,
Aşıq sevgili yardan
Ölüncə üzməz əli.

Aşığam yaxşı qala,
Ocağı yaxşı qala,
İstərəm bu dünyada
Pis ölə, yaxşı qala.

Aşıq günlər üzünü,
Tel sünbullər üzünü.
Çəkərəm yar həsrəti
Aylar, illər uzunu.

Mən aşıq tikə-tikə,
Al qəlbimi tikə-tikə.
Mən səndən dönmərəm
Doğransam tikə-tikə.

Aşıq qara yaxşıdı,
Xalı qara yaxşıdı.
Düşmanlar al geyinsin,
Mənə qara yaxşıdı.

Mən aşiq o yar mənim,
Qəm bağrım oyar mənim.
Məkkəmdi, Mədinəmdi,
Qibləmdi o yar mənim.

# YER-YURD ADLARI İLƏ BAĞLI BAYATILAR

## ARAZ VƏ KÜR

Arazı kecən də var,
Suyunu icən də var.
Tutma namərd adını
Ürəgi kecən də var.

Arazam Kürə bəndəm,
Bülbüləm gülə bəndəm.
Mən gedəri qonağam
Bir şirin dilə bəndəm.

Araz buruldu getdi,
Suyu duruldu getdi.
Mən dedim yar incidi,
Demə yoruldu getdi.

Araz daşı, daş daşı,
Qələmdir yarın qaşı.
Cahil ilə bal yemə,
Cahil ilə daş daşı.

Araz kimi axaram,
Yandıraram, yaxaram.
Gözlərində gözüm var
Həsrətiylə yaxaram.

Araz səndən kim kecdi,
Kim qərq oldu, kim kecdi.
Fələk gəl hesab elə,
Hansı günüm xoş kecdi.

Araz üstə, buz üstə,
Kaba yanar köz üstə.
Qoy məni öldürsünlər,
Danışdığım söz üstə.

Arazın başı mənəm,
Dibinin daşı mənəm.
Hər yanda qərib olsa,
Onun yoldaşı mənəm.

Arazı ayırdılar,
Daşınan qayırdılar.
Mən sənnən ayrılmazdım,
Zülmünnən ayırdılar.

Araz qırağı meşə,
Dövrəsində bənövşə.
Gətir dəsmalın döşə,
Arasına gül qoyum.

Araz axır qıyqacı,
Bu gələn bir cüt bacı,
Biri mənim öz yarım,
Biri başımın tacı.

Arazın başı hara,
Dibinin daşı hara.
Ananın ağ lavaşı,
Quyruqlu aşı hara.

Araz kimi bulannam,
Bağca kimi sulannam.
Əlim sənə catınca,
Hər tərəfi dollannam.

Araz axar yan verər,
Səsi mənə can verər.
Yaramı yaxşı bağla,
Pis bağlasan qan verər.

Araz, Araz, can Araz ,
Sultan Araz , xan Araz.
Cayın , ceşmən qurusun,
Mənim kimi yan Araz.

Arazda gəmim qaldı,
Əkmədim zəmim qaldı.
Arzun gözündə qalsın,
Necə ki, mənim qaldı.

Araz aşanda ağlar,
Kür qovuşanda ağlar.
Balalar anasından,
Ayrı düşəndə ağlar.

Araz başdan az oldu,
Ördək tutdum, qaz oldu.
Güc ilən bir yar tapdım,
O da kələkbaz oldu.

Aşıq Araz yaxşıdı,
Aran, Turan yaxşıdı.
Başın keçəl, gözün kor,
Sənin haran yaxşıdı?

Arazın qıraxları,
Dolu gəlir ayaxları.
Qızıl bir gülə bənzər,
Sevgilimin yanaqları.

## Savalan

Savalanın düzü var,
Üstündə sal buzu var.
Belə ki yar sallanır,
Ürəyində sözü var.

Savalan qardan doymaz ,
Xəstələr nardan doymaz.
Mənim bu ac gözlərim,
Baxdıqca yardan doymaz.

Savalan üstü torpaq,
Cadır quraq, oturaq.
Birin sən de, birin mən,
İntizardan qurtulaq.

Bu görünən Savalandı,
Sultandı, Savalandı.
Nə dərdim tək dərd olar,
Nə yaram sağalandı.

Savalan buz bağladı,
Üstü yarpız bağladı.
Yeddi oğullu canım
Ceşmimi qız bağladı.

## Səhənd

Səhəndin qarı mənəm,
Gün vursa ərimənəm.
Qəbrimi güneydə qaz,
Cavanam cürümənəm.

Səhəndin buz dağları,
Tutubdu buz dağları.
Xudam kömək eyləsə,
Aşaram tez dağları.

Mən aşiq dağına bax,
Sinəmin dağına bax,
Könlün məni istəsə,
Səhəndin dağına bax.

## Sərab

Təbriz üstə Sərabdı,
Demə halım xərabdı.
Yarım mənə verdigi,
Bir piyalə şərabdı.

Sərabın kücələri,
Bal verər becələri,
Çağırdım öz yarımı
Səs verdi beçələri.

## Salyan

Əzizinəm Salyana,
Dara zülfün, sal yana.
Neçəsən bir ah cəkim,
Kür quruya, sal yana.

## Salmas, Xoy

Əzizinəm Salmasa,
Xoydan gedər Salmasa.
Bəndə bəndəyə neylər,
Xudam gözdən salmasa.

Əzizim Xoyda qaldı,
Mərənddə, Xoyda qaldı.
Heyif ki, cavan öldüm,
Gözüm o tayda qaldı.

Əzizim Ordubada,
Salmasdan Ordubada.
Sərkərdə qocaq olsa,
Hec verməz ordu bada.

Əzizim Salmas ayrı,
Xoy ayrı , Salmas ayrı.
Yarım vəfalı olsa,
Yerini salmaz ayrı.

Bu gələn Xoydan gəlir,
Təbrizdən, Xoydan gəlir.
Gör nə bəzəkli gəlir,
Elə bir toydan gəlir.

## Şəki, Şirvan, Şamaxı

Şirvana yol bağlaram,
Dərd əlindən ağlaram.
Yardan namə gəlməsə,
Mən də küsüb ağlaram.

Şirvanın şirin narı,
Turş narı, şirin narı.
Sovqəti sizin olsun,
Göndərin bizim narı.

Şirvanın yasdı yolu,
Su gəldi, basdı yolu.
Gedərəm yar görməyə,
Yağılar kəsdi yolu.

Şirvana dəstə gəldi,
Bir boyu bəstə gəldi,
Xarab qalsın Şirvanı
Sağ gedən xəstə gəldi.

Şirvanın gədikləri,
Almadır yedikləri.
Yadıma bir-bir düşür,
Yarımın dedikləri.

Kağızın ağına yaz,
Sinəmin dağına yaz,
Göylün gözəl istəsə,
Şəkinin bağına bax.

Bu yol Şirvan yoludur,
Piyalələr doludur.
Ciynimə kölgə düşdü,
Dedim, bəs yar qoludur.

Şirvandan karvan gəlir,
Qabaqda sərvan gəlir.
Gedərli ürəyimdən
Gecə-gündüz qan gəlir.

Şirvanın bucağında,
Od yanar ocağında.
Başını qoy sinəm üstə
Can verim qucağında.

Şamaxı bazar imiş,
Oxuyan yazar imiş,
Gəldi gülüm soldurdu,
Nə yaman azar imiş.

## Urmu

Urmunun təlx üzümü,
Məzəsi təlx üzümü.
Səndən əl götürmərəm,
Danlasa xəlq üzümü.

Urmiyənin bağı var,
Bağında cardağı var.
Sənin hüsnün qədəri
Ürəyimin dağı var.

## Təbriz

Qar yağdı düzə düşdü,
Yolum Təbrizə düşdü.
Hamıya püşk atdılar
Ayrılıq bizə düşdü.

Urus gəldi dayandı,
Körpə balam oyandı.
Gedin deyin Təbrizə,
Gecə qana boyandı.

Təbriz üstü daşlıdı,
Torpağı zər daşlıdı,
Dindirməyin Təbrizi,
Gözləri qan-yaşlıdı.

Yol vermə, yada Təbriz,
El gedər bada Təbriz.
Sənin həsrətindəyəm,
Can sənə fəda Təbriz.

Ağ dəvə düzdə qaldı,
Yükü Təbrizdə qaldı.
Oğlanı dərd apardı,
Dərmanı qızda qaldı.

Mən aşiq gözə dəyər,
Gümüş mil gözə dəyər,
Zülfü Əcəm ipəyi,
Teli Təbrizə dəyər.

Təbriz üstə güneydi,
Şüşələr dolu meydi.
Yardan bir kağız gəlib,
Bütün ərzi gileydi.

Burdan Təbrizə kimi,
Qar yağdı dizə kimi.
Bir dözmüsən, bir də döz,
Gələn payıza kimi.

Təbriz üstə acı var,
Qaşların qıyqacı var.
Sevən sevənin olsa,
Kimin kimə sözü var.

Təbrizə paşa gəldi,
Əcəb tamaşa gəldi.
Əl atdım yar qoynuna,
Bir cüt nar qoşa gəldi.

Təbrizim, can Təbrizim,
Sənə qurban Təbrizim.
Düşmana boyun əymə,
Mərd ol, dayan Təbrizim.

**Diri**
**(Aşıq Qurbaninin anadan olduğu kəndin adı. Bu kənd Araz cayının cənubunda Xudafərin bölgəsindədir)**

Əzizim Diriyə mən,
Qurbanam Diriyə mən.
Tar-mar olsun bu yer,
Döndərim diriyə mən.

Əzizim Diri dağı,
Duman gəl bürü dağı.
Xudam bir körpü salıb,
Arxası Diri dağı.

Əzizim Diri dağı,
Olmasın diri dağı,
Kimdir ölümdın qorxan,
Zülümdü diri dağı.

## Tehran

Yol düşdü Əndəbilə,
Tehrana, Əndəbilə.
Bəd kamal deyil aşiq,
Əcəli gendə bilə.

Əzizinəm Qarabağ,
Qara salxım, qara bağ.
Tehran cənnətə dönsə,
Səndən dönməm Qarabağ.

## Tiflis, Bakı

Tiflisin yollarında,
Bənd oldum kollarında.
Bir cüt bazbənd olaydım,
Yarımın qollarında.

Bakının yeli əsdi,
Əsib səbrimi kəsdi.
Sağ gözüm sənə qurban,
Sol gözüm mənə bəsdi.

## İmamzada

İmamzada bağları,
Yaşıldı yarpaqları,
Nəzirim qəbul olsun,
Yandırım cıraqları.

## Ərzurum və Rum

Gedirəm Ərzuruma,
Dözərəm hər zuluma.
Yazaram göz yaşımla,
Göndərrəm ərzi– Ruma.

Rum mənəm, Herat mənəm,
O yanan çıraq mənəm.
Qul tək yollara düşmüş,
Elimdən iraq mənəm.

## Xorasan

Xorasanda üzüm var,
Gəl, qız, getmə sözüm var.
Dünyanı gözəl alsa,
Mənim səndə gözüm var.

Xorasanda bağ olmaz,
Qara salxım ağ olmaz.
Qaşı sürmə qız sevən,
Ürəyində yağ olmaz.

## Zəngan (Zəncan)

Zənganın yolu daşdı,
Sel gəldi başdan aşdı.
Aşiqdən söz soruşdum,
O yarımdan söz aşdı.

## Kaşan

Mən aşiq Kaşan işi,
Hind işi, Kaşan işi.
Düşmən düşmənə tutmaz
Sən mənə tutan işi.

## Miyana

Təbriz üstə Miyana,
Gül sünbülə dayana.
Oxu, bülbülüm, oxu,
Bəlkə yarım oyana.

## Muğan

Yol düşdü ha Muğana,
Sən də gəl ha Muğana.
Şanə bir muy üzündü,
Düşmüşük hamı qana.

## Marağa

Təbriz üstü Marağa,
Zülfün gəlmir darağa.
Yenə məndən küsmüsən,
Canım sənə sadağa.

## Mamağan, Maralan

Əzizim Mamağana,
Təbrizdən Mamağana.
Başım kəs sinən üstə,
Qoy batsın məmən qana.

Əzizim Maralanda,
Heyvalar saralanda,
Məni də yadına sal,
Qoynuna yar alanda.

## Mərənd

Gəl məni bəndə atma,
Xoydan Mərəndə atma.
Hamı üz döndəribdir,
Rəhm elə sən də atma.

Əzizim, Mərəndə gəl,
Güllərin dərəndə gəl.
Bir gəldin xəstə gördün,
Bir də can verəndə gəl.

## Quru cay

Əzizim quru cayı,
Gəl dolan Qurucayı.
Xəlq aşiqi hardasan?
Yad elə Qurucayı.

Qurucaydan çıxanlar,
Qəm bağrını sıxanlar.
Əllərizə mən qurban,
Zülm evini yıxanlar.

## Gəncə

Gəncənin dağına bax,
Soluna, sağına bax.
Dərdimə inanmırsan,
Gözümün ağına bax.

Gəncənin anına bax,
Ulduzun sanına bax!
Yar yolunda can qoydum,
Verdigi payına bax.

Mən aşiq bir az bəri,
Gəncədən bir az bəri.
Gönlümün istədigi,
Dilimin bir əzbəri.

Mən aşiqəm Gəncə var,
Şəki, Şirvan, Gəncə var.
Yar yardan ayrılsa da,
Məhəbbət ölüncə var.

## Qaradağ

Qaradağın düzü var,
Düzlərində quzu var.
İki göyül bir olsa,
Kimin ona sözü var?

Qaradağın başına,
Qurban olum başına.
Qırmızı döşlük olub,
Sarılaydım döşünə.

## Qarabağ

Qarabağın alması,
Döşənəydi xalcası.
Bir gözəl qiz sevmişəm
Qızıl gülün qoncası.

Qarabağın yolları,
Xırda tikan, kolları.
Eşitmişəm yar gəlir
Sulamışam yolları.

Əziziyəm Qarabağ,
Qara tale, qara baxt.
Tehran cənnətə dönsə,
Səndən dönməm Qarabağ.

Əslim Qarabağlıdır,
Sinəm carpaz dağlıdır.
Nə gələn var, nə gedən,
Yoxsa yollar bağlıdır.

Qarabağda talan var,
Məni dərdə salan var.
Gedirsən tez qayıt gəl,
Gözü yolda qalan var.

Qarabağda quş durmaz,
Dərdli başda huş durmaz.
Yarı hər yerdə görsəm,
Yanmış dilim diş durmaz.

Qarabağda bağ olmaz,
Qara salxım ağ olmaz.
Qonşudan qız sevənin,
Ürəyində yağ olmaz.

Əzizim Qarabağı,
Gəncənin qara bağı,
Mən bir ceyran itirdim,
Boynunda qara bağı.

## Bağdad, Misir, Yəmən

Əzizim bağda dara,
Telləri bağda dara.
Vəfalı dost yolunda,
Misri gəz, Bağdad ara.

Bir quş gəlir Yəməndən,
Dən götürür çəməndən.
Bu bir Allah işidir,
Nə səndəndi, nə məndən.

# NAĞILLAR

## İlan qaç, Xəccə gəldi

Bir kişinin Xədicə adlı bir qadını var idi ki, o, çox bədəxlaq idi. Ağzına gələn rəkik sözlər söylər, kişisinə deyirdi. Demək yazıq kişinin gününü göy əskiyə tutardı. Günlərin bir günü kişi beynində bir nəqşə çəkdi ki, bu nanəcib arvadın əlindən xilas olsun. Eləcə də gəzmək mahnası ilə Xəccəni də yanına salıb, çölə çıxıb az getdilər, çox getdilər bir quyunun kənarına yetişdilər. Kişi quyunun qırağında oturub quyuya sallanıb deyir:

– Baba, nə gözəl təmiz və duru suyu var.

Arvad bunu eşitdikdə çığırır:

– Çəkil kənara, sən məgər anlamırsan ki, həqqi təqqəddüm arvadlar ilədir?

Demək acı dili ilə kişini necə deyərlər, yuyub əritdi və keçib quyuya əyilib baxdıqda kişi fürsət əldən getməsin deyə var gücü ilə arvada bir hay verdi, Xəccəni saldı quyunun tərkinə. Nanəcib arvadın əlindən zara gələn yazıq kişi dərindən köks ötürərkən "ax, ey, bu şalaxda arvadın əlindən rahat oldum", – dedi. Kişi sevincək öz evinə qayıdarkən bir karvan gəlib quyunun yaxınlığında oturaq etdi və bir gənc oğlan su çıxar deyə dolçaya bir ip bağlayıb quyuya saldı, ancaq oğlan ipi çəkərkən ağırlığını duydu, güc verib dolçanı çəkdikdə dolçanın içindən ağlagəlməz böyük bir ilanın qıvrılıb yatmasını gördü. Qorxaraq ipi sallamaq istədikdə ilan dilə gəlib yalvardı ki, məni buradan azad elə. Çünki bir neçə saat olar bu quyuya bir arvad düşübdür ki, çox nanəcibdir. Doğrusu, məni cana gətirib, günümü qara edib. Əgər mənə bunun əlindən nicat versən, mən isə sənə xidmət göstərərəm. Gənc oğlan donuxaraq "sən mənə nə xidmət edərsən?"– deyə sual verdi.

İlan:

– Bu ölkənin padşahının yalnız bir qız uşağı vardır. Məni azad etsən, gedib onun boynuna sarılacağam, sultan sahirləri və ovsunçuları cəm edib qızını mənim əlimdən qurtarmaq istəsə də, mən açılmaram. Nəhayətdə, şah elan edərkən, kimsə ilanı mənim qızımın boynundan aça bilsə, onu özümə damat edib və öz yerimdə vəliəhd edəcəyəm. Eləcə də, bu sözü dinlədikdə sultanın sarayına gəlib, mən bu işin öhdəsindən gələ bilərəm söyləsən, o zaman səni gördükdə qızın boynundan açılacağam. Və sən ən böyük məqama çatacaqsan. Ancaq bunu bilməlisən ki, yalnız bu lütfü sənə etməliyəm. Eləcə də heç vaxt ardımca gəlməyəsən, yoxsa elə bir diş vurram ki, durduğun yerdə quruyarsan.

Gənc oğlan bu sözləri dinlədikdə, ilanı quyudan çıxarıb azad etdi.

İlan öz verdiyi ilqara əməl edim deyə, gəlib sultanın qızcığazının boynuna dolaşdı. Sultan ölkəsinin bütün sehr və ovsunçularını bir yerə cəmlədi. Ancaq kimsə qızın boynundan ilanı aça bilməyib, nəhayətdə şah elan etdi ki, kimsə mənim qızımın boynundan ilanı açıb, qızıma nicat verərsə, onu özümə damad edib vəliəhd edəcəyəm. Bu elanı dinləyən gənc dərbara gəlib bu işin öhdəsindən gəlməsini bildirdi və qız olan otağa girdikdə padişah şəkk etməsin deyə, dil-dodağını tərpədərək qıza sarı yönəldi. İlan gənc oğlanı görcəyin qızın boynundan açılıb qapıdan getdi. Bu mənzərəni müşahidə edən soltan artıq şad olub, verdiyi ilqara əməl edim deyə qızını həmin oğlana nişanlayıb, sonra isə özünə vəliəhd elədi. Gənc oğlan həm böyük məqama çatmış, kefini sürməkdə idi ki, qonşu ölkədən elçilər gəlib dedilər:

– Vəliəhd sağ olsun, mənim oğlancığımın boynuna bir ilan sarılıb. Əgər siz gəlib oğlumu bu ilanın əlindən qurtarsınız, xəzinəmin yarısına malik olacaqsınız. Cavan oğlan

tamahsılanaraq qaynatasından icazə alıb qonşu ölkəyə gəldi. Şahın oğlu olan otağa girdikdə ilan dedi:

– Məgər sənlə əhd etməmişdik ki, mənim ardımca gəlməyəcəksən.

Gənc oğlan:

– Mən öz ilqarımda sabitəm. Ancaq səndən təşəkkür etmək üçün buraya gəlmişəm ki, məni ən böyük məqama və eşsiz minnətə çatdırıbsan və bir də bu xəbəri sənə çatdıram ki, Xəccə quyudan çıxıb buraya gəlmək istəyir, eləcə də öz başına çarə qılmalısan.

Bu xəbəri eşidən əfi ilan dərhal oğlanın boynundan açılıb elə getdi ki, tozunu da görən olmadı. Deməli, o zamandan "İlan qaç, Xəccə gəldi" məsəli xalqın gündəlik sözlərindən olub dildən-dilə düşüb.

## Qızıl yük üstündə dəvə

Bir gün var idi, bir gün yox idi, Allahın kərəmi çox idi. Bir qarı nənə var idi. Bu qarı nənənin üç oğlu var idi. Biri cütçü, biri pinəçi, biri də parça toxuyan idi.

Bir gün cütçü qardaş dağda cüt sürəndə bir dəvə görür ki, qızıl yük üstündə gəlir. Yiyəsi də yoxdur. Cütü açar, dəvəni belə sürər, aparar evə. Qardaşlar gəlib dəvəni nəhrləyib ətini qorma edib, qoyarlar evə. Qızılları isə gizlədib, gözdən itirərlər. Qarı nənə ki, qulaqları ağır eşidirdi, soruşar:

– Bala, nə xəbər olub?

Oğlanları deyərlər:

– Nənə, sənin toyundur.

Sonra hər biri gedər öz işinin dalınca.

Cütçü qarda çöldə cüt sürərkən bir nəfər dövlət məmurunu görər ki, yaxına gəlir. Cütçü qardaşdan soruşar:

– Cütçü qardaş, bu yaxınlarda qızıl yük üstündə dəvə gördünmü?

Deyər:

– Qardaş, bu il yağınlıq olmayıb. Yer bərkdir. Çox süründə firlar yorulub qalırlar.

Dölət məmuru deyir:

– Cütçü qardaş, mən soruşdum qızıl yük üstündə dəvə gördünmü?

Cütçü deyir:

– Vallah, mən Rəşid olsam, öz cütümü sürərəm, artıq vəqtim olmaz.

Dölət məmuru görər cütçü qardaşdan istədigi cavabı ala bilməyəcək, yolunu tutub gedər. Kəndin məscidinin qarşısında bir pinəçiyə rastlaşar. Deyər:

– Qardaş, qızıl yük üstündə dəvə gördünmü?

Deyər:

– Bu il başmaq tikdirən çox azdır. Çörək çətin çıxır.

Dölət məmuru deyir:

– Qardaş, mən soruşdum qızıl yük üstündə dəvə gördünmü?

Deyir:

– Nə verirsən ver, sən dölət zəhmətkəşisən, bir də bir putunun görüm harasıdır.

Dölət məmuru görər ki, pinəçi də sadə bir kişidir və istədigi cavabı ala bilməyəcək, yolunu tutub gedər. Kəndə bir az yol getdikdən sonra parça toxuyana çatıb, soruşar:

– Qardaş, qızıl yük üstündə dəvə gördünmü?

Deyər:

– Qalıb müştəriyə. Gah yaxşı satılar, gahdan da zərərlidir.

Dölət məmuru deyir:

– Qardaş, mən soruşdum qızıl yük üstündə dəvə gördünmü?

Deyir:

– Cün sən dölət məmurusan, sənə yarı qiymətinə verəcəyəm.

Dölət məmuru görər yenə də cavab ala bilməyəcək. Yolun tutub gedər. Bir az yol getdikdən sonra qarı nənəni görər ki, altına bir çul sərib, oturub qapının qabağında. Deyər:

– Ay nənə, qızıl yük üstündə dəvə gördünmü?

Deyər:

– Hə bala, gördüm.

Dölət adamı deyər: nə zaman gördün?

Qarı nənə deyər:

– Mənim toyumda.

Məmur deyər:

– Axı nənə, sənin yetmiş il bundan əvvəl toyun olub. Mən dünən, bu günün sözünü soruşuram.

Yenə də dölət adamı yolunu tutub gedər və beləliklə, dölət adamını aldadıb, qızıl yük üstündə dəvəyə yiyə olarlar.

## Zeyqəm şah

Biri var idi, biri yox idi. Allahın kərəmi çox-çox idi. Əhməd Təlani adlı birisi var idi, bir də Zeyqəm şah. Əhməd Təlani bir gün oxun götürər, durar minər atına, gedər şikara. Gedəndə qabağına bir ceyran rast gələr. Çeyrana ox atar, kəmənd atar, tutanmaz. Ceyran kəmənddən qaçar, Əhməd Təlani də dalısıyca. Ceyran qaçar, Əhməd qaçar. Burda-orda, burda orda günlərdə bir mənzil, tey mənzil. Dərələrdə sel kimi, təpələrdə yel kimi badi-sərsər kimi qaçmağa məşğuldular.

Neçə gecə-gündüz yol gedəndən sonra ceyran təpilir bir qalaçaya. Əhməd qalaçanın qapısında atdan yenər, girər içəri.

Görür bəli, ceyranı bağlayıblar, qızıl boyunduruq boynunda, qabağında yonca. Əhməd Təlani ceyranı açar, götürsün gəlsin. Öz-özünə deyir: “Ey dili-qafil hötmən bir sahibi var. Sabah sənə bir adlar qoyarlar, gəl bir qalaçanı dolanginan”.

Əhməd Təlani gələr qalaçanı dolansın. Bir dəstə kilidlərə rast gələr. Götürər açar, görər bəli, bir anbarda düyü var, yağ var. Ağama ərz edim, bir anbarda ləl-cəvahirat var. Ayrı bir anbar döyuş vəsailləridi. Zubin, qalxan, qəmə, xəncər var. Sora ayrı bir dəstə açara rast gələr, görər neçə tövlə vardır. Hər tövləni açar görər hərəsində bir rəngdə at vardır. Sora görər ayrı bir dəstə kilid var. Götürər, açar, görər, hərəsində atların yəhəri -ləvazimatı vardır.

Ordan keçib rədd olar. Görər bir nəfər yatıb başı üstə bir şəm, ayağı altında ayrı bir şəm yanır. Başı üstündə bir tabaq yemək hazırdı, buğlayır. Əhməd Təlanı ac idi. Oturar, yeməkdən yeyər. Görər bir üzük çıxdı. Əhməd Təlanı üzüyü salar barmağına, keçib xəzanədən qızıl pul-pələ, əslahələrdən götürüb atların birinə minib yol başlar. Əhməd Təlani yola başlamaq həman, Zeyqəm şah yuxudan qalxar, görər, ey dili-qafil, yeməyin yeyiblər. Baxar, bilər bir nəfər bura gəlibdi. Diqqət edər, görər kilidlər yerindən tərpəşibdir. Bilər qızıldan sora atı, ceyranı da aparıblar. Qalxar, atlarından birinə minib rəddin arxasınca düşər, gedər. Burda-orda, burda-orda. Bəli, birdən Əhməd Təlanini görər, arxada bir atlı gəlir. Əhməd Təlani ata mahmız görsədər. Zeyqəm şah ata mahmız görsədər. Əhməd Təlaniyə yaxınlaşar, arxadan çalar:

– Ey şəxs, pul-pələmi, ceyranımı, atımı aparırsan işim yox, amma o üzügü at, get.

Əhməd Təlani buna inanmaz, ata mahmız görsədər. Get-haget bir yerdə Əhməd Təlani görər Zeyqəm şah bunu yetirəcəkdi. Çarə nədir? Deyər: “Gəl bu üzüyü at, gör başına nə gələr”, üzüyü atar.

Zeyqəm şah üzügü götürər qayıdar. Qayıdanda Əhməd Təlanini buht götürər. Ey dili– qafil, görəsən bu üzügdə nə var ki, bu bir belə ləl cəvahir, atı aparıram, pəsənd eləmədi, amma üzügü pəsənd elədi. Gəl, get gör bu üzügdə nə hikmət var? Əhməd Təlani atı qaytarar Zeyqəm şah dalısıca, səslər:

- Ey şəxs, getmə mən sənə qonağam bu gecə.

Zeyqəm Şah deyər:

- Götür nəmənə aparmısan, halal xoşun olsun, sənin mənə qonağ olmağa səlahiyyətin yoxdur ki, başın qəza-qədər görər.

Əhməd Təlani deyər:

- Qəza-qədərə rast gəlsə də mən Allah qonağınam.

Zeyqəm şah deyər:

- Allah qonağısan, pəs gəl görək.

Bunlar gələrlər, söhbət -vəhdət, axırda şam gələr araya. Əhməd Təlani deyər:

- Mən yemirəm.

Zeyqəm şah deyər:

- Niyə?

Əhməd Təlani deyər:

- Gərək mənə o üzügün sirrin agah eliyəsən.

Zeyqəm şah deyər:

- Sən bu sirdən bilmək istəmə, mənim dərdimi tazalama, bu üzügün sirri çoxdur.

Əhməd Təlani deyər:

– Olmaz, mən dərdinə əlac edəcəm, əgər olmasa da dərdinə şərik olacağam.

Zeyqəm şah başlar sirrin açar, deyər:

– Mənim bir əmqızım (əmi qızı) varidi, o adaxlım idi. Onu gətirdim qalaçaya. Bir gün söhbət sonu dedi, mən mavala gedəcəyəm, mən durdum kənarda. O mavaldan çıxanda göy şaqqıldadı, göydən bir əl gəldi, mənim məşuqəmi apardı. Əmqızım üzügün atdı, dedi: "əmoğlu, mənlə sənin didarın qaldı

qiyamətə, üzügü saxla məni könlün istəyən zaman bu üzügə bax”.

Mən sora sorağın tutdum. Gördüm, bəli bunlar yeddi divdilər. Birqıllı, ikiqıllı, üçqıllı, dördqıllı, beşqıllı, altıqıllı, yeddiqıllı. Mənim nişanlımı yeddiqıllı div aparıb. Mən qoşun çəkdim, amma əlac olmadı. Qoşun şikəst oldu. Belə oldu. Mən xanənişin olmuşam, məşuqəmin fərağındayam.

Əhməd Təlani dedi:

- Mən gedərəm sənin nişanlından xəbər gətirərəm.

Zeyqəm şah dedi:

- Getmə, məsləhət yoxdur.

Əhməd Təlani dedi:

- Gedəcəyəm.

Gecə səhər oldu. Zeyqəm şah Əhmədi musir görüb buna pul-pələ, silah və yaxşı at verdi. Əhməd Təlani düşdü yola. Bir, iki, beş gün, bir, iki, beş ay yol gedir. Dərələrdən sel kimi, təpələrdən yel kimi, badi– sərsər kimi əsməyə məşğul olub getdi, yetişdi ayrı bir məmləkətə.

Bu məmləkətin baş kəndində bir yeməkxanada düşdü. Orda vəzir-vüzəra, əmir-üməra gəlib şəbneşinlik edirdilər. Əhməd Təlani də orda idi ki, vəzir-vüzəra soruşdular ki, bu şəxs kimdir, ğəribəyə oxşur? Dedilər: – Əhməd Təlanidir, gedər Zeyqəm şahın nişanlısından ötrü. Onlar dedilər: Ey diliğafil, bu gör necə bəşərdi ki, yeddiqıllı divin davasına gedir. Deyirlər, bizim şahın qızın üçqıllı div aparıb, onlarla başara bilmirik. Gəlir şahın əndurisinə də təcavüz edir. Şaha xəbər aparırlar, yaxşıdı, Əhməd Təlani sənin başını üçqıllı divdən sovsun, sora getsin yeddiqıllı div davasına.

Şah Əhməd Təlanin ehzar edər, danışar. Əhməd Təlani başının qəza-qədərin nağıl edər.

Şah deyər:

- Ey şəxs, yaxşı gəlibsən. Mənim də bir müşkülüm var, bu müşkülümə əlac et. Bir üçqıllı div mənim qızımı aparıb. İndi də gəlir əndərun – birunuma haq ayaq qoyub. Buna qaravul, yasavul öhdədar etmir. Üçqıllı divin şərin bizim başımızdan götür.

Şam yeyəndən sora Əhməd Təlanini ötürürlər div gələn həyətə, qapısın bağlarlar. Əhməd Təlani bir guşədə daldalanıb gecənin bir zamanı görər bir hənirti gəldi. Əlin qatdı həyətin meyvələrindən yeməyə. Əhməd qorxudan qılınc çəkib yaxına gedə bilməz, amma uzaqdan qılıncın atar. Qılınc tutar divin budundan, budu düşər yerə. Div qaçar. Səhər olar. Əhməd qapını çalar, deyər:

– Yeddi təkərli arabını gətirin divin qıçını aparın.

Məmurlar gəlib, neçə nəfər divin qıçın qoyarlar arabaya, aparalar şəhərin üstünə. Şəhər əhli gələr tamaşaya ki, Əhməd Təlanı üçqıllı divin qıçın salıbdır. Əhməd gəlir şəhərin məzhərinə, sübhünü yeyib getmək istəyir. Vəzir fikirləşir: bu div yaralı deyildi, bu işləri görürdü, indi ki yaralıdı, sağalsa gəlib dədə yandırar. Yaxşısı budur, şahın oğlanların da qoş bu Əhmədə, getsinlər divin sorağına.

Vəzir bunu şaha anladır. Şah pəsənd elər. Oğlanların çağırıb deyər: – İndi siz üç qardaşsınız. Gəlin bu Əhmədlə gedib yaralı divi tapıb öldürün, bacıza da nicat verin.

Oğlanlar Əhməd Təlani ilə durarlar, Əhməd Təlani ilə qanın rəddin tutub gedərlər. Bər biyabanda bir quyuya çatarlar. Şahın böyük oğlun salarlar quyuya, yolun yarısında bağırar: – Öldüm-qaldım məni çəkin üstə. Üstə çəkərlər. Axırda Əhməd Talanini quyuya salarlar. Ortada Əhməd deyər: –Öldüm-qaldım məni çəkin üstə.

Qardaşlar ipi kəsərlər. Əhməd düşər quyuya haldan kənar. Bir azdan sora hala gələr. Durar quyunu gedər bir həyətə rast gələr. Görər nə həngamədir. Div yatıb başını qoyub

şahın qızının dizi üstünə, qız yelpik çalır. Əhməd balaca bir daş atar. Qız xəbərdar olar, soruşar:

- Sən kimsən?

Əhməd deyər:

- Mən Əhməd Təlaniyəm, dədən göndərib sənin dalınca.

Qız deyər:

- Bu div gedib üç günün yuxusuna. Əgər oyanıb səni görsə, günüvü qara edər.

Əhməd qızdan soruşar:

-Bu divin canı hardadır?

Qız deyər:

- Üç min kilometr göydədir. Əgər ələ gətirib buradakı hovuzun mərmər daşına çırpsan canı çıxar.

Əhməd gedər minər divin sinəsinə. Xəncəri salıb budundan neçə batman ət qopardıb atar o tərəfə. Div balavəri (azca, nisbətən) oyanar deyər:

- Nazənin, qoyma yaramdan milçəklər yesinlər.

Əhməd bir də xəncəri salar altdan sökər. Div oyanıb deyər:

- Nazənin, qoyma yaramdan milçəklər yesinlər.

Qız deyər:

- Milçəklər deyil, Əhməddir.

Div Əhməd adın eşidib qalxar. Əlin atıb Əhmədi göyə qalxızar, deyər:

- Səni yerə çırpsam nə olar?

Əhməd deyər:

- Elə bil toyuq hinindən düşmüşəm yerə.

Bir az göyə qalxızar, deyər:

- Burdan yerə çırpsam nə olar?

Əhməd deyər:

- Elə bil üç pillə nərdivandan yerə yıxılmışam.

Div hirslənib Əhmədi daha göyə qalxızar, deyər:

- Burdan necə ?

Əhməd göydəki şüşəni götürər, deyər:

- Mən də şüşəni yerə çalaram.

Div deyər:

- Amandı, ona dəymə.

Əhməd deyər:

-Sən məni yendir yerə, mən də şüşəni verim.

Div Əhmədi endirəndə yerə, az qalanda qız işarə edər, Əhməd şüşəni vurar daşa, özü də yerə atılar. Göy qalar bunlar huşdan gedərlər.

Bir az sora huşa gələrlər, görərlər div ölübdür. Əhməd Təlani qız ilə yeddi dövlətin qızılını götürər, quyu ağzına sarı gələr. Əvvəl qızı, sora qızılları yuxarı çəkərlər. Amma növbə Əhmədə çatanda iki qardaş ipi kəsərlər. Əhməd quyunun təki-nə düşər. İki qardaş bacılarını, yeddi dövlətin qızıllarını götü-rüb məmləkətlərinə dönərlər. Şaha deyərlər: Əhməd yolda di-və çatmamış bizi buraxdı, getdi.

Əhməd neçə müddət qalar quyunun təkində. Orda qurba-ğadan, balığdan tapar, başın saxlar. Əhmədin üzün-başın tük basar. Bir gün nəqibi tutar, gedər. Demə, bu nəqib Zeyqəm şa-hın bağına gedir. Əhməd neçə ay nəqibi tutub gələr. Bir gün nəqibin başında bağbanbaşı Əhməd Təlaniyə rast gələr. Bağ-banbaşı nəqibdən görər bir canavar çıxdı. Tez harasan xəbəri şaha çatdırarlar. Şah bu canavarı gətirər, ona sudan, yeməkdən verər ki, bu bəni-adəmdir. Şah əmri ilə onun üz-başına yetir-mişlər. Görürlər bu canavar deyil, Əhməd Təlanidir. Zeyqəm şah deyər: mən sənə dedim getmə, başın qəza-qədərə rast gələr.

Əhməd Talanı başın qəza-qədərin açıb şaha deyər. Şah əmri ilə Əhməd istirahət edər. Zeyqəm şah da bir böyük ərizə yazar, göndərər o qonşu məmləkətin şahına ki, niyə görə bu oyunu mənim firistadəmin başına gətiribsən. Mən sənə elani–cəng verdim. Naməni verər qasidə göndərər. Qasid yetirər

qonşu məmləkətin şahına. Şah açar məktubu, oxuyub oğlanların ihzar edər, deyər axmaqların biri, axmaqlar bu nə oyundur Əhmədin başına gətiribsiniz. Mən Zeyqəm şahın müqabili deyiləm. Qoşun çəkib torpağımı kisəyə doldurar, özümü də əsir edər, vəzir, əlac nədir? Vəzir deyər, bir Zeyqəm şaha məktub yaz. Şah yazdırar: "qurbanın olum, iştibah olub qoşununu da götür, bizə qonaq gəl, mən də səni agah edim. Əmrin nə olsa, mən sənə nökərəm".

Məktub gəlib çatar Zeyqəm şaha. Qoşun götürüb gedər. Onlar istiqbal edərlər. Neçə ağacdan neçə ağaca durbaş-durbaş qaravul-yasavul ki, Zeyqəm şah gəlir. Vəzir-vüzəra, əmir-üməra Əhməd Təlani şah ilə bərabər gəlirlər. Şah özü pişvaz edər, düşər ayağına. Zeyqəm şah Şahruh şahı qalxızar ki, bu iş şaha bərazəndə deyil. Içəridə bir məclis təşkil edərlər. Şah üzr istəyib deyir:

– Qızımı Əhmədə verirəm, oğlanlarımın üzü qara olsun, Zeyqəm şah sən də təqsirimdən keç.

Yeddi gecə-gündüz qonaqlıq edərlər. Amma Əhməd qızı aparmaz ki, mən Zeyqəm şahın adaxlısı dalısıyca gedəcəyəm. Zeyqəm şah öz məmləkətinə dönər. Əhməd Təlani yola düşər. Dərələrdə yel kimi, təpələrdə sel kimi, badi-sərsər kimi əsməyə məşğul, gedər neçə ildən sonra yetişər bir dəryanın qarşısına. Heyran qalar: Ey məbud, mən tək adam necə burdan keçim. Qu vursan qulaq tutulur. Adamı vəhşət götürür. Əhməd oturub başın qoyar dizinə. Yuxuya gedər. Yarıyuxu, yarıayıq iki göyərçin gələr qonar ağaca. Göyərçinlərin biri deyər:

– Ey bacı, bilirsəın bu kimdir?

O biri göyərçin deyər:

– Yox, ay bacı.

Əvvəlki deyər:

– Əhməd Təlanidir. Gedir Zeyqəm şahın nişanlısın yeddi qıllı div əlindən xilas edə.

O biri deyər:

- Baci, gedib gətirər.

Əvvəlki deyər:

– Yox, qızı görər, amma gətirə bilməz. Indi də burda heyran qalıb dəryadan necə keçə. Əlac budu, burdadı. Səhər dəryadan bir dana inək balığı çıxar. Onun ağzında bir gövhərşəb çıraq olar. Inək balığı şəbçırağı qoyar yerə otlasın. Onda Əhməd çırağa bir az palçığ tökə, çırağın işığı sönə. O zaman gərək özün pünhan edə. Inək balığı özün bu yana oyana çalar, düşər dəryaya. Günüz o şəbçırağı götürüb qıçına bağlaya, o zaman dəryanın suyu onun topuğunda olar. Dənizi keçəndən sora bir ormana rast gələr. Orman tilsim, sehr və cadudur. Gərək ayağının altına topraq bağlaya, başına ağac qoya. Ormandan səs gələr: topraq, onu tut. O gərək cavabında deyə: topraq torpağa neylər – heç zad. Belə desə tilsim batil olar. Yenə səs gələr: ağac, onu tut. Onda gərək deyə: ağac ağaca neylər– heç zad. Yenə də tilsim təsirsiz, sehr batil olar. Ordan keçib gedər ormanın sonuna. Yetişər, orda bir alma ağacına rast gələr. Əgər o almadan yesə yaşı dönüb on beşə olar. Ordan gedib bir qalaya rast gələr. Orda qızı görər, amma nəticəsi olmaz.

Quşlar bu sözləri danışar, uçar gedər. Əhməd bunları eşidər. Söz misli əməl edər. Dəryadan, ormandan keçər, almadan yeyib cavanlaşar. Sonu bir qalaya çatar. Kiçik bir yol tapa bilməz. Sonu bir kürəyə rast gələr. Ordan qalaya keçər, gizlənər. Gecənin bir zamanı görər, bəli bir yerdən işıq gəlir. Gedər görər Zeyqəm şahın nişanlısı burdadır. Yeddi qıllı divin də başı qızın dizi üstə. Div nəfəs çəkəndə az qalır ruhu bədəndən çıxsın, nəfəs verəndə hakəza. Görər, qız arıqlıyıb cücəyə dönüb. Fikir xəyalatdan ki, Allah mən necə əlimi bu zalimin təngindən qurtarım. Əhməd şüşəni dınqıldadar. Qız divin başın qoyar yerə, çıxar eşigə, deyər:

- Ey şəxs, sən gecənin bu vaxtı qalada neyləyirsən, burda quş quşluğunda qanad çala bilməz.

Əhməd Təlani deyər:

- Mən Zeyqəm şahın göndərdiyi Əhməd Təlaniyəm. Gəlmişəm sənin sorağına, səni aparam.

Deyər:

- Amma səni apara bilməm mən ki, bu divi gördüm qorxu düşdü canıma.

Qız deyər:

- Sən mənim dərdimi tazələdin, illa da bu məktubu apar əmoğluma ki, bizim didarımız qaldı qiyamətə.

Qız məktubu yazar verər Əhmədə. Bir az da azuqə verər. Əhməd getməkdə olar, qız da qalar qalada. Əhməd necə getmişdi, o cür də dönüb Zeyqəm şahın yanına gələr. Zeyqəm şah deyər:

- Əhməd, necə oldu?

Əhməd başının qəza-qədərini açar deyər: bəli, getdim bu zəhmətlərlə divi-ruət düşdü canıma. Amma əmqızının naməsini sənə gətirmişəm. Zeyqəm şah məktubu oxuyar, ruhu bədəndən çıxar, huşdan gedər. Bir azdan ayılandan sonra deyər:

- Aparıb nişanlımı mənə göstər.

Əhməd deyər:

- Bəli, amma mən uzaqda qalacağam. Allah sən və əmqızına köməgi olsun.

Bunlar yola düşürlər, üç gün, beş gün, beş ay dəryaya çatarlar. Əhməd Təlanı Zeyqəmi mindirir belinə, sudan keçirsin. Zeyqəm şah deyər:

- Əhməd, sənin sehrdən də başın çıxar?

Əhməd Təlani deyər:

– Azca başım çıxar, qurban.

Əhməd Təlani Zeyqəmi sudan, ormandan keçirər. Alma ağacına çatarlar. Almadan yeyərlər. Zeyqəm şah cavanlaşar,

şücaət, şəhamət tapar. Gedərlər. Qala uzaqdan görünər. Əhməd Təlani uzaqdan qalanı göstərər. Zeyqəm şah deyər:

– Əhməd, mən gedirəm, çar-naçar divlə qarşılaşacağam. Əgər əvvəl "Ya Əli" səsim gəldi, bil ki, divlə qarşılaşmışam, əgər ikinci "Ya Əli" səsim gəldi, bil ki, mən divlə güləşirəm. Üçüncü "Ya Əli" səsim gəldi bilginən divə qalibəm. Ama üçüncü səsim gəlmədi, bil ki mən ölmüşəm. Onda sən özünə əlac et.

Zeyqəm şah gedər, bir zaman gözdən itər. Bir az sora bir "Ya Əli" səsi gələr. Əhməd bilər, Zeyqəm şah divlə qarşılaşıb. İkinci, "Ya Əli" səsi gələr. Əhməd Təlani bilər, Zeyqəm şah divlə əlbəyaxa olub. Üçüncü səsə müntəzir qalar, səs gəlməz. Əhməd Təlani öz-özünə deyər: ey dad, div Zeyqəm şaha qalib gəldi. Amma indi mən bu qədər zəhmət çəkib buraya gəlmişəm, bu arı gora aparmaq olmaz, gəl sən də qalaya get. Ya öləsən, ya nəticə alasan. Əhməd gedər qalaya. Görər Zeyqəm şahın cənazəsi düşüb yerə. Demə, Zeyqəm şahla div bir-birinə elə zərbə vurub ki, ikisi də məhv olub. Öz-özünə deyər: Çörək yeyəndə vəfa olmaz, Zeyqəm şah ölüb, nişanlısı eşigə də cıxmır. Əhməd Zeyqəm şahın başı üstündə oturar, ağlar. Bir azdan sora Zeyqəm şahın nişanlısı eşidər ki, eşikdən ağlamaq səsi gəlir. Eşigə çıxar, gələr Zeyqəm şahın ölüsünü görər. Əmiqızı əmoğlunun başı üstə oturar. Xəncərin dəstəsin qoyar Zeyqəm şahın ürəgi üstə, başını öz ürəginə dayar, ağlar. Öz ağırlığın xəncər üstə salar, bu da burda ölər. Əhməd gələr, görər, əmqızı da ölüb. Əhməd durar, ölənləri yuyub kəfn və dəfn edər, xəyalatdan düşər dağa-daşa, çöllərə, dağda, daşda ceyranlarla həmavaz olar, çöllərdə yaşar. Bir gün Süleyman peyğəmbərin dişi ağrıyırdı. Deyirlər bir nədimçi (dastan rəvayət edən-nəqqal) gətirək nədim desin, bəlkə bunu yuxu tutsun. Yoxsa həlak olar. Amma bir nədimçi tapılmaz. Biri deyər: bir Əhməd Təlani var, başının sərgüzəştini nəql etsə, Süleyman peyğəmbərin ağrısı yaddan çıxar. Gedib dağlardan Əhməd Təlanini

gətirirlər. Əhməd Təlani bu söhbətləri necə mən sizə nağıl etdim, o da nağıl edər. Süleyman peyğəmbərin ağrısı yaddan çıxar və Əhməd Təlaniyə deyər:

- O cənazələri tapıb gətirə bilərsən?

Əhməd deyər:

- Bəli, əgər adam versən gedib gətirərəm.

Süleyman peyğəmbər bir dava verər, deyər:

- Apar sürt cənazələr salim qalsın, götür mənim yanıma gətir.

Əhməd Təlani bir neçə adam götürər, gedib bu iki cənazəni Süleyman peyğəmbərə gətirər. Süleyman peyğəmbər iki rükət namaz qılar və Allahdan istəyər bu əmoğlu, əmqızı dirilsin. Allahın əmri ilə Zeyqəm şah, nişanlısı dirilib düşərlər peyğəmbərin ayağına ki, sənə fəda olum, elə o dünyada da bizim toyumuzu tuturdular. Amma sənə görə Allah bizi bu dünyaya qaytardı.

Zeyqəm şah ilə nişanlısı, Əhməd Təlani Süleyman peyğəmbərdən xudafizləşib gələrlər. Şahruh şah məmləkətində Əhməd Təlaniyə yeddi gecə-gündüz toy tutarlar. Sonra ordan gəlib Zeyqəm şaha yeddi gecə– gündüz toy tutub şad yaşarlar. Zeyqəm şah da Əhməd Təlanini özünə vəzir tikər.

## Ey vay hay

Bir gün var idi, bir gün yox idi. Bir dənə keçəl varıdı. Özü də araqçın keçəl idi. Qatmaq qulağının dibinəcən tutmuşdu. Bu oğlan gündə naxırçılıqdan qayıdanda şahın qızın görərdi ki, küləfirəngidə durub, oğlan bir göyüldən min göyülə qıza aşıq olmuşdu. Axırda gəlir nənəsinə deyər ki, gərək şahın qızın alasız mənə. Nənə deyər ki, oğlan biz bir dənə naxırçı babanın biriyik, o şah qızı. Hardan onu sənə verərlər?

Oğlan əl çəkməz. Axırda arvad ərinə deyər:

– Olsun, şah ədalətdidi. Get elçi daşında otur. Sənə bir cavab verər. Gələsən deyəsən oğlan əl çəkər gedər işinə.

Kişi çar-naçar gələr oturar elçi daşının üstündə.

Şah deyər:

– Gedin görüm kimdi.

Elə ki, kişini şahın yanına gətirərlər.

Şah deyər:

– Hən əmi, sözün?

Deyər:

– Qibleyi-aləm sağ olsun, mənim oğlum sənin qızına aşiq olub. Gəlmişəm onun elçiliyinə.

Şah baxar vəzirinə, özünə, vəzir baxar şahın üzünə. Axırda şah deyər:

– Mənim qızımın başlığı ağırdı. Hər kim istəsə onu alsın gərək “ acıban-qariban”a örgəşə.

Kişi kor peşman qayıdar. Ürəkdə sevinirdi ki, yaxşı oldu, oğlan ayıbına kor olar oturar.

Gələr hal-qəziyyəni oğluna deyər. Oğlan iki ayağın dirər bir başmağa ki, gərək məni qoyasan “acıban-qarıban” örgəşim.

Neçə gün dədə oğlanı başda seriyər. Axırda olmaz.

Bir gün nənə aş bişirmişdi. Dədə deyər, naharı yeyək, gedək acıban-qariban oyuna örgəşək.

Nənə deyər:

– Apararsan dolandırarsan, görər belə zad yoxdu, gələr durar.

Nahardan sonra dədə ilə oğul düşərlər yola. O yana acıban-qaribançı, bu yana acıban-qaribançı tapa bilməzlər. Axırda görərlər bir çeşmə var. Deyərlər:

– Gedək bir oturaq yorğunluğumuzu çıxardaq. Dədə elə yorulmuşdu ki, da nə bilim. Elə ki, oturar yerə dərindən ah çəkər. Deyər:

– Ay vay hay!..

Sudan bir dənə bala kişi şabbıldaya-şabbıldaya çıxar eşiyə deyər:

– Hən, sözün?

Kişi:

– Sən ilə deyiləm. Səhərdən dolanırıq bir nəfər tapaq mənim bu oğluma “aciban-qariban” oyunu örgətsin. Şahın qızına aşıq olub, onun da başlığı “acıban-qariban “oyunudur. Yorulmuşdum, dedim ey vay hay...

Bala kişi deyər:

– Elə, ey vay hay mənəm. Bu şəhərdə məndən savay ayrı adam acıban-qariban oyunu bilməz.

Kişi deyər:

– Bə indi ki, belə oldu mənim oğlumu özünə şagird elə.

Ey vay hay deyər:

– Eybi yoxdu.

Yapışar oğlunun əlindən düşər yola, suyun içindən şabbıldaya-şabbıldaya gedər.

Kişi öz-özünə deyər:

– Ey dili-qafil, bu nə iş idi gördün! Oğlanı niyə o kişiyə verdin?

Axırda bir çara tapanmaz, durar gedər evə.

Ay vay hay İbrahimi aparar evə. Evdə bir qızı var idi. Bir göyüldən min göyüləcən İbrahimə aşiq olar. Qız deyər, oğlan bura gələn da çıxmaz, məni alarsan, sənə bir söz öyrədim.

İbrahim and içər ki, əvvəl səni alaram sonra şahın qızın.

Qız deyər:

– Mənim dədəm hər vaxt səndən soruşsa nəmənə örgəşmisən? Denə: bir çörək sulamağı, bir ev süpürməyi.

Oğlan neçə müddət orada qalar. Bala-bala bəzi şeylər örgəşirdi.

Amma nə vaxt Ey vay hay soruşurdu: – Oğlan nəmənə başarirsan? Deyirdi:

– Bir çörək sulamaq, bir də ev süpürmək.

Bir gün genə İbrahimin nənəsi aş bişirmişdi. Birdən oğlu yadına düşər. Gözləri dolar. Deyər kişi, dur get oğlanı gətir bir görək.

Kişi durar gələr çeşmənin qırağına deyər:

– Ey vay hay!..

O saat Ey vay ay zahir olar deyər:

– Sözün?

Kişi deyər:

– Oğlanı nənəsinin göylü istiyir. Ver 3-4 gecə qonaq qalsın qayıtsın.

Deyər:

– Eybi yoxdu.

İbrahimi gətirər verər.

Yolda İbrahim istər özün imtahan eləsin. Deyər:

– Dədə, sən qabaqda getginən, burda su başına çıxım gəlim.

Özünü eylər bir danə xoruz dədənin qabağında cik-cik cikgildər. Kişinin gözü xoruza sataşar. Deyər:

– Yaxşı oldu. İndi bu xoruzu tutaram.

Əlin uzadar tutsun, xoruz buna bir dimdik. Kişi əl-ayağın itirər. İbrahim adam cildinə düşər deyər:

– Nə var, dədə?

Deyər:

– Heç zad bir xoruz var idi. İstədim tutam, bir bərk dimdik vurdu özü də nəmənə oldu.

İbrahim deyər:

– Kişi, burda xoruz nə qayırır.

Bir azdan sonra özün eylər bir dənə qoç, kişinin qabağında oynar. Kişi genə əlin uzada tutsun ki, yaxşı oldu. Qoç buna bir kəllə, kişi qaş elər. İbrahim, genə adam olar. Deyər:

– Dədə, nə var? Genə nə oldu?

Deyər:

– Bir qoç var idi, istədim tutam, bir kəllə vurdu yıxıldım.

Bir azdan sonra özün eylər bir dənə at, dədəsinin q-abağında oynaqlar. Dədə istər onu tutsun, bir təpik vurar dədə yıxılar. Genə özün adam surətinə salar. Deyər:

– Genə nə var, dədə?

Dədə deyər:

– Bir at var idi. İstədim yapışam cilovundan, bir təpik vurdu yıxıldım.

İbrahim deyər:

– Elədi. At odur bax, qaçır.

Neçə gün İbrahim evlərində qalar. Bir gün dədəsinə deyər:

– Dədə, mən bir dənə xoruz oluram. Apar məni bazarda sat, amma ayağımın bəndin satma.

Dədə aparar xoruzu satar. Bəndin satmaz. Gələr görər İbrahim evdədir. Sabahısı gün deyər:

– Dədə, mən bir dənə at olacağam. Apar məni sat, amma cilovumu satma.

Dədə aparar satar. Gələr evə görər İbrahim oturub evdə. Üçüncü gün İbrahim deyər:

– Dədə, mən bir dənə qoç olacağam, məni apar sat, amma zəncirimi hər neçəyə istəsələr satma.

Ey vay hay durbin ilə baxırdı.Görər İbrahim qoç olub, dədəsi bazarda satır. Tez özün yetirər bazara. Deyər :

– Qardaş, bu qoç neçəyədi?

Deyər:

– Yüz tümən.

Deyər:

– Ala.

Dədə istər zəncirin açsın, Ey vay, hay deyər:

– Qardaş, mən zəncirsiz qoçu necə aparım?

Dədə deyər:

– Zəncirin satmıram.

Ey vay çıxardar yüz tümən də deyər: – Bu da zəncirin pulu.

O, buda yığışar deyər:

– Qardaş, da bir dənə zəncir nəmənədi ki, yüz tümənə vermirsən.

Kişi çar-naçar zənciri də verər, gələr evə görər İbrahim gəlməyib.

Ey vay hay qoçu aparar evə tərəf. Yolda deyər:

– Hən, bir çörək sulamaq başarırsan, bir ev süpürmək? İndi səninkin sənə verərəm.

Qız baxırdı görər dədəsi İbrahim gətirər. Öz-özünə deyər, indi pıçaq istəyəcək. Durar pıçaqların hamısının gizlədir. Elə bir saman tüstüsü salar ki, göz gözü görməsin. Dədə gələr deyər:

– Qiz, pıçağı gətir bu qoçu kəsim.

Qız deyər:

– Dədə, ev tüstüdür, tapanmıram.

Deyər:

– Gəl bu qoçun zəncirindən saxla özüm tapım.

Qız gələr yapışar zəncirdən əyilər qulağına deyər:

– Hən, nə deyirsən?

Deyər:

– And olsun Allaha, səni alaram.

Qız zənciri ötürər, qışqırar ki, dədə, gəl qoç qaçdı.

Ey vay hay düşər bunun dalsınca, İbrahim olar bir dənə sərçə. Ey vay hay olar bir dənə qarqa qovulağın götürər. Sərçə gələr, girər şahın otağına. Qarqa da dalısınca. Az qalar tuta, sərçə olar bir dəstə gül, düşər şahın qucağına. Qarqa da olar bir dənə dərviş, kəsər qapını ki, mənim gülümü verin. Padşah pul verər ki, al əl çək.

Dərviş deyər:

– Mən gülümü istəyirəm.

Padşah deyər:

– Baba, al şərrin sov!

Gül olar bir ovuc darı, səpilər yerə. Dərviş olar bir dənə cücəli toyuq, başlar darını dənləməyə. Bir dənə qalanda oğlan olar sərçə girər şahın otağına. Genə toyuq olar qarqa düşər onun dalıca. Bir az qalar qarqa sərçəni tuta, olar bir dəstə gül düşər şahın qucağına.

Qarqa da olar dərviş, kəsər qapını birdən şahın dilindən çıxar ki, vəzir, bu elə aciban– qəriban oyunudur. Bu sözü demək haman, gül olar İbrahim deyər:

– Qurban, əhdinə bəfa elə. Mən getmişəm acıban-qəriban oyunu örgəşmişəm. İndi qızını ver.

Şah deyər:

– Ayıbı yoxdur.

İbrahim deyər:

– Bu dərvişə denən məndən əl çəksin.

Dərviş deyər:

– Da işim yoxdu. Amma çərşənbə gecəsi gərək mənə qonaq olasan.

İbrahim qəbul elər. Çərşənbə gecəsi gedər Ey vay hayın evinə. Qız onu aparar bir yerə, görər bütün adamlar şüş qızıl alıblar. Qız deyər:

– Bunların hamısın dədəm qızıl eləyib. Səni də gecə aparacaq köhnə qəbiristana. Atı verəcək sənə ki, saxla. Özü girəcək bir köhnə qəbrə. Bir azdan sonra bir ölü çıxar eşiyə. Sən gərək o çıxmamışdan qabaq özünü bir yerdə gizlədəsən. Gizlə-dəsən odlu gözü ilə vurar sənə, olarsan qızıl. Gizlən-məsən, girər tazədən qəbrə, gözünü vurar dədəmə, özü həm o qızıl olar. Sonra çıx onları qoy pərdə kilimə, gətir evə.

Gecə yarısı Ey vay hay deyər:

– İbrahim, mənim bir işim var. Dur, min ata gedək, tez qayıdaq

İbrahim deyər:

– Eybi yoxdu.

Durarlar pərdə-kilim götürərlər düşərlər yola. Köhnə qəbirstanda Ey vay hay deyər:

– Sən bu atı saxla mən bura baxım gəlim.

İbrahim atın cilovun bağlar bir yerə, tez girər bir köhnə qəbirə, üstün tutar. Bir azdan sonra görər bir dənə ölü çıxdı gözləri od kimi. Əlində bir odlu gözü. O yana baxdı, bu yana baxdı. Bir səs gəldi qəbirdən yaşıl alov çıxdı, bir azdan sonra İbrahim çıxar eşiyə, gedər qəbirə, görər Eyvayhay da, ölü də şüş qızıl olublar. Onları götürər, qoyar pərdə-kilimə, gətirər evə.

Qız qapı qabağında gözləyirdi ki, dədə gələcək, ya İbrahim. Elə ki, İbrahimi görər, İbrahim qızı alar, sonra şahın qızın. Qızları gətirər öz evinə.

Yeyər, içər, mətləbinə yetişər.

## Əmqızı ilə əmoğlu

Biri var idi, biri yox idi. Iki qardaş var idi. Böyük qardaşın bir oğlu var idi. Kiçik qardaşın da üç qızı. Böyük qardaş öldü. Ölünü basdırıb yas tutdular. Bir müddət keçdi. Kiçik qardaş gördü qardaşoğlusu tək qalır. Istədi onu yalqızlıqdan qurtarsın. Böyük qızın qardaşıoğlusu evinə göndərdi, bəlkə ona arvad olsun. Əmqızı əmoğlunun evinə gəldi. Amma əmoğlu əmqızıya dedi: – Çirağ, çırağ, şah çırağ, əmqızı can, hansı yoldan gəlibsən, o yoldan da qayıt.

Əmqızı cahazın götürüb, atası evinə qayıtdı. Qız gəlib cərəyanı atasına danışdı. Kişi fikirləşdi ki, mümkündür qardaşoğlum böyük əmqızısından xoşu gəlmir. Yaxşıdı ikinci qızı evinə göndərim.

Əmoğlu böyük əmqızıya necə demişdi, elə o sözləri ikinci əmqızıya da dedi. Əmqızı boxçasını qoltuğuna vurub atası öyünə döndü. Əmi öz-özünə dedi: – Bəlkə qardaşoğlu-

mun ikinci qızdan da xoşu gəlmir, gəl üçüncü qızı evinə göndər. Əmi bu dəfə də kiçik qızın qardaşıoğlusu evinə göndərdi. Əmoğlu bu əmqızısına da başlayıb haman sözləri dedi:

– Çirağ, çirağ, şah çirağ, əmqızıcan! Hansı yolda gəlibsən, o yoldan da qayıt.

Kiçik əmqızı əmoğluna dedi:

– Çirağ, çirağ, şah çirağ, əmoğlu mən qayıtmayacağam. Istirəm sənlə qalam.

Kiçik qız atası evinə qayıtmadı. Amma, onlar hər biri ayrı otaqda yatdılar. Neçə həftə beləsinə keçdi. Bir gün qız fikirləşdi: hər gün əmoğlum işdən qayıdandan sora neylir? Hara gedir?

Bu fikirlə bir gün əmoğlunun işindən baş çıxarmaq üçün gizlicə onun ardınca düşdü. Gördü əmoğlu bir bağa getdi. Qız yavaşca oğlanın dalısıca bağa girdi. Bağda gördü əmoğlusu başın bir gözəl qızın dizi üstə qoyub danışığa qızışıblar. Bir az sora ikisi də yuxuladılar. Amma gün onların üzünə düşür, incidir. Qız ləçəgin başından açıb ağacın tüllərinə bağladı, bəlkə gün üzlərinə düşməsin. Özü də qayıdıb evə döndü.

Bir iki saat sora qız ilə oğlan yuxudan ayıldılar. Qız ləcəgi görüb oğlana dedi:

– Sənin arvadın vardı! Dur evinə qayıt.

Oğlan dedi:

Mən səni sevirəm. O qızdan xoşum gəlmir.

Qız dedi:

– Mən gərək gedəm, amma bura bir dul su buraxdım. Onu evə apar. Arvadın o su ilə üzün yusun.

Qız bu sözü deyər, bir anda nəzərdən qayıb oldu. Oğlan su dolunu götürüb kor-peşman evə qayıtdı. Əmoğlu suyu gətirib əmqızıya verib istədi su ilə üzünü yusun. Əmqızı su ilə üzün yumaq həmən, suyu verən huri sifətinə düşdü. Beləsinə qızın məhəbbəti əmoğlunun ürəyinə keçdi. Onlar yedilər, içdilər dövrə keçdilər. Siz də yeyin, için tarixə keçin.

## Nənəlik

Biri var idi, biri yox idi, vilayətlərin birində bir kişi, iki uşağı: bir oğlan, bir qız yaşayırdılar. Uşaqların nənələri ölmüşdü. Dədələri də onlara nənəlik gətirmişdi. Nağıl da ordan başladı ki, nənəlik bu evə gəlib uşaqları incitməyə başladı. Nənəlik hər gün uşaqları incidirdi. Nənəlik hər gün uşaqları çətin işlərə məcbur edirdi. Uşaqlar bacarmayanda onları vurub az yemək verirdi. Əvvəllərdə ata arvadın bu işləri ilə müxalifət edirdi. Amma gecə məlaləsi o qədər kişinin qulağına oxudu ki, kişi də uşaqları görməyə gözü olmadı.

Nənəlik taza boylu olmuşdu və yerikləyirdi. Arvad bir gün oğulluğunun ətinə yerikləyirdi. Arvad gəlib kişisindən istədi, oğulluğunun başın kəsib ətindən ona gətirsin. Kişi əvvələcə bu işə razı olmadı. Amma sonu arvadın zorlaması ilə başını kəsib ətin arvada apardı. Amma arvad ilə kişi əti yeyəndə ət acı oldu.

Qız bu işdə çox incidi, zar-zar ağlayıb göz yaşı tökdü. Axırda qardaşından yadigarı olsun deyə gəldi, qardaşının qanını bir qaba yığdı. Qız hər gün qaba-qardaşının qanına baxıb ağlayırdı. Allah qardaşının bu ağlamağından rəhmə gəldi. Yeddi gündən sonra Allahın izni ilə qabdan bir danışan quş çıxdı. Qız ilə yoldaş oldu. Qız bu quş ilə sirdaş olmuşdu, oynayırdı.

Bir gün qız köz qırağında oturmuşdu. Qız gözün yumub ağzın açıq qoyurdu. Danışan quş da qızın ağzına üzüm giləsi qoyurdu. Nənəlik ilə kişi görüb onlar da köz qırağına gəldilər. Ikisi də gözlərini yumub ağızlarını açdılar ki, quş onların da ağızlarına üzüm giləsi salsın. Danışan quş qızın ağızına üzüm saldı, amma nənəligin ağzına elə bir daş saldı, nənəlik boğuldu. Quş istədi kişinin də ağzına bir daş salsın, qız anasının tapşırdığı söz yadına düşdü ki, istəmişdi atalarından müvazib olsunlar. Tez keçib quşun işinin qabağını aldı. Allahın qızın

bu işindən xoşu gəldi. Onun üçün də quşu əvvəlki oğlana çevirdi.

Kişi də işlərindən peşman olub tövbə elədi. Onlar ata–iki bala şənliklə yaşadılar.

## Naraxatın

Biri var idi, bir yox idi. Tanrının kərəmi çox-çox idi. Yeniyetmə Naraxatun atası və ögey anası ilə birlikdə yaşayırdı. Nənəlik Naraxatının gözəlliginə giçiklənərək hər gün onu incidirdi.

Günlərdən bir günü nənəlik gicikdi kişisinə: "qızın Naranı gəzmək adına götür, bir yolda azdır, itir. Özün təkbaşına evə qayıt gəl " – deyərək onu bu işə zorladı.

Əvvəldə kişi bu işə razı olmadı. Amma nənəlik o qədər kişinin qulağına oxudu ki, kişi də razılaşıb, qəbul elədi. Beləliklə, bir gün kişi gəzmək adına qızını götürüb ormanda onu azdırdıqdan sonra özü təkcə evə qayıtdı.

Biçarə qız atasını itirdikdən sonra özünü yalqız gördü, itdigi yolun ortasında dizlərini qucaqlayıb ağlamağa başladı.

Qəzadan insan dilini bilən bir pişik ordan keçirmiş. Pişik ağlar Naraya rastladı. Naranın yanına gəlib ağlamağının səbəbini soruşdu. Naraxatın başına gələn hadisəni pişigə danışdı. Pişik qızın halın eşidib Naraya ürəgi yandı. Pişik Naranı dilə tutmağa başladı, sora dedi:

– Ey qız, nigaran qalma. Səni yeddi qardaşlar evinə aparaeven. Onlar çox yaxşı insanlardılar. Şəhərin də mötəmilləridirlər. Hökmən sənə kömək edərlər.

Pişik yeddi qardaşların yaşadığı evə sarı yola düşdü. Nara da onun ardıca yollandı. Pişik Naranı yeddi qardaşların evinə çatdırıb getdi. Nara qapını çaldı.

Yeddi qardaşın kiçigi qapıya gəldi.

Naraxatın başına gələnləri qapıya gələn oğlana dedi, ondan kömək istədi. Oğlan qızın sözlərin eşidib ürəgi yandı. Naranı içəriyə o biri qardaşları yanına apardı. Qız keçirdiyi qəzayanı (qəzaları) təkrar o biri qardaşlara da danışdı.

Qardaşların da hər birinin Naraya ürəgi yandı. Digər tərəfdən də hər yeddi qardaş Naradan xoşu gəldigi üçün Nara ilə evlənmək istədilər. Beləliklə, Nara ilə evlənmək üçün yeddi qardaşların bir-biri ilə sözləri oldu. Yeddi qardaşların heç biri öz istədigindən vaz keçmək istəmədi. Çarəsizlikdən kiçik qardaşın məsləhəti ilə Nara onlara bacı oldu. Beləliklə, Nara yeddi qardaşların evində qalıb onlara bacı oldu. Neçə ildən sora Naraxatının nənəligi eşitdi. Nara yeddi qardaşların bacısı olub. Qısqanclıqdan az qaldı partlasın. Bir fel qoşub kişisinə dedi: – Ya Naranı öldür, ya da məni boşa.

Naranının atası bu işə razı olmadı. Amma Naranın nənəligi o qədər israr etdi ki, sonra kişi razılaşdı. Nənəlik kişini razı edib Naranı öldürmək üçün zəhərə yatırdığı almalardan verərək, Naranın haman yeddi qardaşların evinə yola saldı. Kişi almaları götürüb yola düşdü.

Kişi gəlib yeddi qardaşların evini tapdı. Qapını çaldı. Nara qapıya gəldi. Atasını görüb təəccüb elədi. Ata Naradan üzür istədi, peşman olduğunu bildirdi. Nara atasının itirdigini unudub bağışladı, içəri dəvət etdi.

Naraxatının atası evdə zəhərə yatırılmış almalardan Naraya verib onu yeməyə çağırdı. Naraxatın zəhərli almalardan yedi və haman yerə yıxıldı. Ata tez evdən çıxıb qaçdı.

Axşam çağı yeddi qardaşlar işdən evə qayıdanda Naraxatını ölmüş zən edib onu sandığa qoyaraq çaya tapşırdılar.

Şahın sarayından keçən çay sandığı saraya götürdü. Sarayda şahın xidmətçiləri sandığı sudan alıb ağzını açanda gözəl bir qız ilə rastlaşdılar. Saray xidmətçiləri Naranı diri bilib tez sandığdan çıxardılar. Xəbər padşaha çatdı. Padşah

əmr verdi: Nara müalicə olunsun. Şahın özəl həkimi Naranı müalicə altına aldı. Neçə gündən sonra Nara sağaldı. Nara sağalandan sonra padşah Nara ilə evləndi. Çox keçmədi ki, Nara boylu oldu.

Doqquz ay, doqquz gün, doqquz saat Naranın boylulu-ğundan keçdi, bir oğlu oldu. Şahın əmriylə sarayda neçə gün şənlik qurulur.

O yandan Naraxatının nənəligi eşidir, Nara ölməyib, ya-şayır şahla da evlənibdir. Nənəlik yenə də gicikindən bir fel qo-şaraq kişisini götürüb şahın sarayına gəldi. Padşah ilə Nara-xatın kişi ilə arvadın pisliklərindən vaz keçib onları bağışla-dılar, saraya aldılar. Naranın əmri ilə atasının nənəligini yax-şıca qarşılayıb onlara qonağlıq verdilər. Amma gecə çağı hamı yatdıqdan sonra zaatı pis nənəlik Naraxatının oğlunun başını kəsib bıçağı Naraxatının cibinə qoydu. Sabah padşah işdən xə-bərdar oldu. Oğlun ölmüş gördü, əmr verdi: hamı təftiş olsun.

Sarayın gözətçiləri hamını təftiş etdikdən sonra bıçaq Naranın cibindən çıxdı. Naraxatını qatil bildi. Padşah əmr verdi. Naraxatının gözlərini çıxarıb, başı kəsilmiş uşağı da qucağına verin. Saraydan eşigə atın.

Saray gözətçiləri padşahın əmrin yerinə yetirdilər. Nara-xatın baş götürüb çöllərə baş qoydu. Çöllərdə avara sərgərdan olan Nara yorğunluqdan arx qırağında oturdu. Naraxatın söy-kəndiyi ağac başında iki göyərçin oturmuşdu. Göyərçinlərdən biri o birisinə dedi:

– Kaş ki, bu qız bizim dilimizi bacaraydı. Biz uçanda qanadımızdan düşən lələgi gözünə sürtüb gözlərin yerinə qo-yaydı, həmi də uşağın kəsilmiş başını yapışdıraydı. Naraxatın bu sözləri eşitdi. Göyərçinlər uçan zaman düşən lələgi götür-dü. Nara lələk ilə əvvəl öz gözlərini yerinə qoydu. Sora uşağı-nın kəsilmiş başını yapışdırdı. Naraxatın həmin yerdə arx kə-narında bir ev tikib oğlu ilə yaşamağa başladılar. İllər keçdi.

Bir gün qəzadan padşahın yolu Naranın evinin yanından düşdü. Padşah bir gül becərən oğlana rastladı. Padşah Naranın evinin bağçasının güllərinə tamaşaya dayandı. Naranın oğlu şahın güllərdən xoşu gəldiyini hiss edib padşaha dedi:

– Şahım əgər istərsə, güllərdən dərə bilər.

Padşah dedi:

– Axı, bu gülləri necə dərim? Sənin onlara nə qədər zəhmət çəkdiyini bilirəm.

Oğlan ki, keçmiş hadisələri anasından eşitmişdi, şaha dedi:

– Bəs bir ana necə qıya bilər, öz oğlunun başını kəssin? Bu söz ilə şah oğlu və arvadın tanıdı. Padşah işindən peşiman oldu. Nara ilə oğlu padşahı bağışladılar. Şah oğlu "nayib", Naranı mələkə etdi. Naraxatının da atası ilə nənəliyini öldürtdürdü.

## Armudan bəyin nağılı

Biri var idi, biri yox idi. Tanrıdan savayı heç kim yox idi. Armudan bəy adlı bir kimsə var idi. Armudan bəy çox yoxsul bir adam idi. Onun varı, dünyada olub-olanı bir armud ağacı idi. Armud ağacının meyvəsi yetişəndə, Armudan bəy onları dərib, aparıb bazarda satar və onun gəliri ilə keçinərdi. Bir gün başa düşür ki, ağacın meyvələri azalır. Armudan bəy oğrusunu tutmaq üçün, gündüzlər güdükçü olur və ağacını güdür. Amma bir zaddan baş tapmır. Bir gün bir bilici kişinin yanına gedib ondan məsləhət almaq istəyir. O bilici kişi deyir:

– Sən get bir az qır-saqqız al, apar ağacın gövdəsinə yapışdır. Əgər bir kimsə gəlsə qır-saqqıza yapışıb qalacaqdır.

Armudan bəy də elə o bilici kişinin dedigi kimi edir. Həmən günün gecəsi yarı olanda bir heyvan zingiltisi eşidir və çırağını yandırıb gedir ağacın yanına. Görür ki, bir tülkü ağaca yapışıb və gedə bilmir. Armudan bəy baltanı götürüb tülkünü vurmaq istədikdə tülkü ağlamağa başlayır və deyir:

– Məni öldürmə, padşahın qızını sənə alaram.

Armudan bəy deyir:

– Ay heyvan, nə deyirsən, məgər mən kiməm ki, padşah qızın mənə versin, məgər qızını yoldan tapıb?

Tülkü deyir:

– Sənin bu sözlərlə işin olmasın, işi tapşır mənə. Əgər bacarmadım, ondan məni öldür.

Armudan bəy tülküyə inanır və onun əl-ayağını təmizləyir və tülkü durub padşahın sarayına sarı gedir və bir nəfəri yollayır ki, get padşaha de ki, Armudan bəy deyir, çanağınızı verin, qızıllarımızı ölçək.

Padşah bu sözdən təəccüblənir və deyir:

– Bu Armudan bəy kimdir ki, bir belə qızılı var və onu çanaqla ölçmək istəyir?!

Tülkü çanağı alır və o yan, bu yanı dolanıb bir tikə qızıl parası tapır və padşahı inanadırmaq ücün çanağın sınıq yerinə yapışdırır, çanağı saraya aparır və padşaha verib qayıdır. Paşdah bir daha təəccüblənir.

Armudan bəyin haradan belə qızıl yiyəsi olmağına mat qalır və öz-özünə deyir:

– Mən bir padşaham, bir belə qızılım yoxdur, gör, Armudan bəyin nə qədər pulu var ki, çanağın sınığına yapışıb qalan qızıla əhəmiyyət verməmiş!

Bir neçə gün keçir, tülkü saraya adam göndərir ki, padşah sağ olsun, Armudan bəy icazə istəyir ki, sizin qızın elçiliginə gəlsin. Padşah bu sözü eşidib, çox sevinir və icazə verir. Tülkü Armudan bəyin yanına gedib, ona deyir:

– Tez ol hazırlaş, gedək padşahın qızının elçiliginə.

Armudan bəy deyir:

– Tülkü qardaş, sən ki, mənim vəziyyətimi görürsən. Mən bir fağır adam, padşah qızını mənə verməz.

Tülkü əsəbləşib deyir:

– Tez ol hazırlaş, neçə dönə demişəm ki, mənim işimlə işin olmasın.

Tülkü Armudan bəyi hamama aparıb, onu yuyundurub bəzətdirir. Armudan bəy deyir:

– Tülkü qardaş, mənim qonaqlığa getməli paltarım yoxdur.

Tülkü onu götürüb yola düşür və sarayın yaxınlığında Armudan bəydən ayrılır və deyir:

– Mən gedirəm bir yerə tez qayıdam, sən burada otur və mən gəlincə bir yerə getmə.

Tülkü gedir və özü ilə bir dəst paltar gətirir. Armudan bəy paltarı geyib deyir:

– Nə gözəl, sən bunları haradan gətirdin?!

Tülkü deyir:

– Mən getdim padşaha dedim ki, biz sizə gəlirdik, sizin itlər üstümüzə gəlib, Armudan bəyin paltarını parçaladılar, bir dəst paltar verin Armudan bəy geyib elçiligə gəlsin. Padşah da bunları mənə verdi.

Armudan bəy paltarları geyib, sevincək halda yola düşdü və elçiligə getdi və padşah qızını Armudan bəyə verdi və qırx gün-qırx gecə toy tutdulr. Vaxt oldu ki, gəlini Armudan bəyin evinə aparısnlar. Padşah qızını evinə yola saldıqda o qədər cehiz qoşdu ki, bir şəhər tutmaz idi. Bir qoşun adam da məmur qoşdu ki, cehizi və gəlini Armudan bəyin evinə çatdırsın. Armudan bəy dedi:

– Tülkü qardaş, evin yıxılsın bizim evimiz, bir balaca dəmdir, çarə elə.

Tülkü dedi:

– Sənin işin olmasın, mən bir yer tanıram ki, padşahın evindən də yekədir.

Onlar gəlməkdə və tülkü də qabaqdan qaçıb devlər şəhərinə çatıb dedi:

– Eviniz yıxılsın! Qaçın, qoşun gəlir!

Devlər baxıb gördülər ki, bir yığın qoşun gəlir, devlər soruşdular ki, bu qoşun niyə gəlir? Tülkü dedi:

– Padşahın dəvələri azar tutub, bilənlər deyirlər ki, gərək dəvələri devlərin bədənində olan yağla ilan yağlaya ta dəvələr toxtaya! Odur ki, gəlirlər devləri öldürüb, onların yağlarıyla dəvələri sağaldallar.

Devlər sorüşdular ki, biz indi neyləyək?

Tülkü dedi:

– Sizlər gərək tezliklə buradan qaçasınız, əlçatmaz yerlərə gedib çıxasınız. Ya da topladığınız ot tayalarının altında gizlənəsiniz, ta mən görüm nə çarə edə bilərəm.

Devlər qaçıb ot tayalarının altında gizləndilər. Tülkü tayalara od vurdu. Tayalar yandı. Devlər bütünlüklə öldülər. Tülkü qayıdıb qoşunun qabağına devlər şəhərinə gətirdi, onları və cehizləri devlər şəhərində yerbəyer etdi. Gördü çox gözəl yerdir, gəlini ilə orada yaşamağa başladı. O tülküdən soruşdu ki, mən sənə bir belə yaxşılığın qabağında nə yaxşılıq edə bilərəm? Tülkü dedi:

– Bircə xahişim var, mən öləndə məni yeddi kəfənə büküb, torpağa quylayarsan.

Armudan bəy dedi:

– Bu ki bir cətin iş deyil, eylərəm.

Bir gün tülkü özün vurdu ölümcülügə. Armudan bəyə dedilər ki, tülkü öldü! Armudan bəy burnunu tutub tülkünün yanından ötdü və nökərlərinə dedi.

– Bunu tez burdan rədd edin, qoxusu dünyanı bürüyəcək.

Tülkü gözünü açıb getdi padşahın qızının yanına və Armudan bəyin yoxsul olduğunu və bir armuddan ötürü tülkü öldürməyə hazır olduğunu ona dedi və padşahın qızı acıq eləyib atasının evinə döndü. Armudan bəy gedib tülküyə yalvar-yaxar edib dedi:

– Anlamamışam, səhv etmişəm, gəl bu işi bir də düzəlt. Padşahın qızını qaytar evə, nə cür desən, elə edərəm.

Tülkü getdi padşahın evinə və dedi:

– Ay qız, mən şuxluq elədim. Səni sınayırdım, dur get evə Armudan bəy səni gözləyir.

Padşahın qızı evə qayıtdı və uzun ellər boyu birgə yaşadılar. Bir gün tülkü öldü. Armudan bəy onu yeddi kəfənə çalğalatdı və torpağa quylatdırdı və yaşayışına davam etdi.

## Gül ilə Sünbül

Qədim zamanlarda bir padşah var idi. Onun uşağı olmurdu, sonsuz idi. Günlərin bir günü bir dərviş onun sarayının ala qapısına gəlib dedi:

– Padşahı görmək istəyirəm.

Padşahın adamları ala qapıya doğru gedib, ona on batman düyü, bir at, yüz tümən isə pul verdilər. Amma dərviş onları qəbul etməyib söylədi:

– Mən heç bir zad istəmirəm, mən dilənçi deyiləm, təkcə padşahı görmək istəyirəm!

Onlar gedib padşaha dedilər. Padşah söylədi:

– Ona at, pul, belənçi zadlardan verin getsin.

Söylədilər:

– Verdik, qəbul etmədi. O, sizi görmək istəyir!

Padşah elə o gün səhər çağı əl-üzün yuyarkən güzgüyə baxıb, görmüşdü saçına-saqqalına dən düşübdür, sanki qocalığın qarı yağıbdır. Elə buna görə padşah çox kədərlənib, pozğullaşmışdı. Söylədi:

– Yaxşı, dərvişə deyin içəri gəlsin!

Dərviş saraya girib getdi padşahın önündə oturub salamlaşıb söylədi:

– Sən dərvişsən, qapını çaldın, hər nə istəyirsən, al get, daha bu işlərlə nə işin vardır?

Dərviş döylədi:

– Mən bir zad almağa gəlməmişəm. Təkcə gəldim görək bu gün nə qəm-kədərli və pozğunsan?

Padşah söylədi:

– Bu gün güzgüdə gördüm saçıma-saqqalıma dən düşüb-dür. Mən bu yaşıma çatmışam amma hələ uşağım yoxdur, sonsuzam. İndi başa düşdünmü nə üçün qəm-kədərli və pozğunam?

Dərviş əlini cibinə saldı, bir cib dəsmalı eşigə çıxartdı. Dəsmalı açıb onun içindən bir gözəl-göyçək alma çıxarıb, padşaha verib söylədi:

– Bu gecə yatandan əvvəl bu almanı ye sonra yat. Beləliklə, tanrı sənə bir oğul verəcəkdir. Oğlun olandan sonra yeddi günə qədər ona ad qoyma. Döz mən gəlim.

Dərviş sağollaşıb getdi. Padşah isə almanı yedi. Günlər bir-bir gəlib, getdi. Aylar ötdü. Padşahın sonsuz qadınının boyuna ki, uşaq düşmüşdü, vaxtı gəlib çatan saatda bir oğlu oldu. Oğlan yeddi günlük idi ki, dərviş gəldi. Dərviş o oğlanın adını Qanqal qoydu. Günlər keçdi, aylar gəldi, illər ötdü. Qanqal boya başa çatdı, gözəl göyçək bir gənc oğlan oldu. Onu məktəbdə molla bacıya tapşırdılar. Molla bacının məktəbliləri ki, qız uşağı idilər dillənib, mırtdanıb hey deyirdilər, nə üçün Qanqalı bir kişi xaylağı olan mollaya tapşırmayırlar? Məktəblilər onu o qədər incitdilər ki, daha məktəbə getmədi. Bir gün iki dəst geyim, bir qədər yemək, bir kisə isə pul götürüb, öz atını yəhərləyib, ayağını üzəngiyə basıb, qalxıb atına minib yola düşdü. Heç kimsəyə, hətta ata-anasına da heç bir söz demədi. Molla bacının evinə doğru getdi. Molla bacının evinə-məktəbinə çatarkən nizəsinin ucunu yerə vurub başını ona dayayıb söylədi:

– Molla can, ay Molla can, mən Qanqalam, Qəndəhardan gəlmişəm, bahar qoxuluyam, aşıq bir vurğunam!

Məktəblilər səs-küy saldılar. Molla bacı başa düşmədi o, nə deyir. Oğlan ikinci kərə, üçüncü kərə, dönə-dönə başını nizəyə dayayarkən hey söylədi:

– Molla, molla can! Mən Qanqalam, Qəndhardan gəlmişəm, bahar qoxuluyuram, aşiq bir vurğunam!

Molla bacı onun sözlərini eşidib, başa düşərkən qız uşaqlarına söylədi:

– Səs salmayın, səsinizi kəsin!

Uşaqlar susdular. Molla bacı ayaqyalın eşigə qaçdı. Qanqalı at üstdə gördü. Qanqal pul ilə dolu kisəni molla bacıya verib dedi:

– Molla can, bunu məndən qəbul elə, mən istəyirəm gedəm!

Molla bacı sordu:

– Haraya gedirsən?

Cavab verdi:

– Hər yer yol versə!

Molla bacı sordu:

– Ata-anan bilirlərmi?

Cavab verdi:

– Yox!

Qanqal Molla bacı ilə sağollaşıb yola düşdü. Bir müddət at çapdı. Ha getdi, hu getdi. Az getdi, çox getdi, nəhayətdə bir çölə yetişdi. Ucsuz-bucaqsız, geniş çöldə gahdan durub, nizəsinin ucunu yerə vururdu. Başını nizəsinə dayayırdı, belə oxuyurdu:

Qanqalam, mən qanqalam,
Mən bahar qoxuluyam,
Qəndəhardan gəlmişəm
Mən bir aşiq, vurğunam.

Günlər, həftələr hey at çapıb, yol gedirdi. Günlərin bir günü bir şəhərə çatdı. O şəhərin sarayına doğru at sürdu. Padşahın qızı küləfirəngidən baxırdı. Qanqalı süzürdü. Padşahın gözəl-göyçək ay bənizli qızını görüb, bir könül yox, min könüldən onu sevib, aşiq olub vurğunu oldu. Vurğun Qanqal at belində, nizə əldə dayanıb, üzünü o gözəl şahzadə xanıma tutub, belə oxudu:

Qanqalam, mən qanqalam,
Mən bahar qoxuluyam,
Qəndəhardan gəlmişəm
Mən bir aşiq vurğunam.

O şəhərin padşahının qızı Qanqalı mahnı oxuyarkən görüb, üzünü ona tutub söylədi:

– Ay oğlan, dayanma, buradan get. İndi qardaşlarım gələrlər, səni burda görüb öldürərələr!

Qanqal eşidərkən söylədi:

– Haraya gedim?

Padşahın qızı qırx hörüklü hörülmüş saçlarını kəmənd kimi aşağıya salladı, oğlanı kəməndinə salıb sarayın divarından yuxarıya çəkdi. Sonra isə əmr etdi saraydakı adamların biri onun atını tövləyə apardı. Qanqal uzun bir müddət o qızın yanında qaldı. Sonra isə padşahın qızına dedi:

– Ay qız, canım çirklənibdir, hamama getməliyəm.

Padşahın qızı saraydakı adamların birinə əmr etdi, onu hamama apardı. Qanqal üzünü bərk-bərk əynindəki əbasına bürümüşdü ki, tanınmasın. Elə təzə hamama yetişmişdi ki, qızın qardaşlarının xəbəri oldu. Qızın qardaşları hamama girərkən gördülər ki, Qanqal əbasını, geyimini soyunur. Böyük qardaş onun sirrini bildi. Amma öz-özünə “ yox, mən bu oğlanı öldürmərəm” dedi – “onun günahı yoxdur”, dedi. Sonra isə özünün sıyırılmış xəncərini qınına taxdı. Ortancıl qardaşın da Qanqala ürəyi yandı. Amma kiçik qardaş öz xəncəri

ilə ona yügürüb, öldürdü. Qanqal ölən halda, onunla gələn adama dedi:

– Get padşahın qızına de.

Qanqal dedi:

– Mən atamın-anamın bir dənəsi idim. Arzum var idi. Arzuma çatmazkən, onun qardaşlarının biri məni öldürdü. İndi isə Şumşad ağacından mənim üçün bir tabut qayırın. Yan-yörəsini xəncərlərlə, güzgülərlə bəzəyin. Mənim cəsədimi yuyandan sonra tabuta qoyub, şəhərdə dolandırın. Buna görə ki, mən nisgilliyəm. Atamın, anamın bir dənəsiyəm. Atam-anam istəyirdilər ki, mən arzuma çatam.

Sonra isə Qanqal can verib dünyasını dəyişdi. Padşahın qızı bu olayı eşidərkən, pirim-pirim, zar-zar, hönkür-hönkür için çəkib, ağladı. Atasının yanına gedib söylədi:

– Qanqal bir oğlan idi ki, mən bir müddət onu sarayda saxladım. Qardaşlarımın biri onu hamamda öldürdü. Onun bir vəsiyyəti vardır. Atacan, mənə yardım et, onun vəsiyyətini yerinə yetirim.

Qızın atası onun sözlərini qəbul etdi. Əmr elədi Şimşad ağacından onun üçün bir tabut qayırdılar. Elə düz o cür ki, Qanqal demişdi. Onu xəncərlərlə və güzgülərlə bəzədilər. Qanqalın cəsədini yuyub tabutun içinə qoydular. Padşahın qızı tabutu qayıran kimsələrdən istədi ki, Qanqalın cəsədini tabut içrə şəhərdə dolandırsınlar. Sonra isə artırdı:

– Tabutu şəhər içrə dolandırandan sonra buraya gətirin. Onu neçə kərə sarayın dövrəsinə dolandırın, sonra isə onu aparın qəbiristanlıqda torpağa tapşırın.

Tabutu şəhər içinə aparıb dolandırdılar, sonra isə onu iki kərə sarayın dövrəsinə dolandırdılar. Qız küləfirənginin ikinci qatdakı pəncərəsindən eşigə baxırdı. Tabutu üçüncü dəfə sarayın başına dolandıranda, qız özünü pəncərədən tabutun üstünə atdı. Tabut, onu çəngində aparan adamların çiyinlərin-

dən yerə düşdü, xəncərlərin hamısı qızın bədəninə batdılar. Beləliklə, qız öldü. Yenidən Şumşad ağacından iki tabut qayırdılar. Qanqal ilə padşahın qızını tabutların içinə qoydular. Onları qəbiristanlığa apardılr. Pirim-pirim, zar-zar, hönkür-hönkür ağlaya-ağlaya onları iki qoşa qəbirdə torpağa basdırdılar. Onlar üçün nisgilli, həzin-həzin ağı oxudular, matəm tutdular, yas saxladılar. Beləliklə, o iki aşiq, sevgili vurğun əbədiyyata qovuşdular.

Padşah söylədi:

– Onların ikisinin qoşa məzarının arasında bir divar çəkin. Oğlan divarın bu tərəfində qalsın. Sabah onların qəbirlərinin üstünü açaq görək onlar necə dost-aşiq və vurğun imişlər.

Onların qəbirlərinin arasında divar çəkdilər, sonra isə oranı tərk edib, şəhərə getdilər. Ertəsi gün padşah, öz adamlarıyla qəbirsanlığa qayıtdılar. Onlar gördülər o qız ilə oğlanın qəbirlərinin arasında "Gül" ilə "Sünbül" göyəribdir. Bir gözəl sarı köynək bülbül gül ilə sünbülün üstündə hey vurnuxub uçub, dolanıb nəğmə oxuyurdu! Onlar qəbirlərin üstünü açdılar. Qara torpağı eşigə töküb meyitlərə çatdılar. Gördülər qızın biləgi oğlanın başının altındadır. Oğlanın biləgi isə qızın başının altındadır. Sanki iki vurğun aşiq əbədı yuxuya getmişdilər. Padşah bu durumu görərkən söylədi:

– Afərin, eşq olsun, canım qurban olsun belənçi bir ilqara, dostluğa, eşqə və vurğunluğa!

Sonra isə padşah hirslənib qəzəbindən əmr etdi cəllad onun kiçik oğlunu – Qanqalın qatilini öldürsün. Onun başını bədənindən ayırdılar. Onu isə onların yaxınlığında qoyladılar. Sonra padşah əmr elədi qız ilə oğlanın məzarlarından çıxan gül ilə sünbülü qorumaq üçün, bir molla onların məzarının başı üstdə çadır vurdu. Molla bu işi yerinə yetirdi. Hər gün bir dəstə tikan gülü başqa qəbirdən göyərib sürünüb gəlib "Gül" ilə "Sünbül"ə dolaşıb, sarışırdı. Molla tikanları hey yolub, o

yana atırdı. Tikan yenidən göyərib gedib gül ilə sünbülə dolaşıb onları incidirdi. Günlər belə ötdü. Padşah isə bir gecə qəbiristanlığa getdi. Qız ilə oğlanın məzarlarına baş çəkdi. Gördü "qara tilov" tikanı göyərib, sürtüşüb gəlib gül ilə sünbülün budaqlarına dolaşıb sarışıbdır. Sanki istəyir güc və gül ilə sünbülü boğub, soldurub, öldürüb aradan qaldırsın. Molladan dəlilini soruşdu. Molla qorxa-qorxa cavab verdi. Gecə-gündüz bu qatı tilov tikanı yoluram, yenə də çıxır gül ilə sünbülün budaqlarına dolaşır. Bu sözü deyərkən yenə də ayıldı, "qara tilov" tikanın gülünü yoldu. Padşah şəhərə, öz sarayına qayıtdı. O ertəsi gün, yenidən qəbiristanlığa getdi. Gördü qara tilov tikanı daha da artaraq göyərib, ucalıb, güclənibdir. Gül ilə Sünbülün budaqlarına baş-canlarına sarışıbdır. Onları ülüşkədib, soldurub, boğub öldürüb aradan qaldıracaqdır. Padşah başa düşdü ki, qara tilov tikanı onun kiçik oğlunun qəbrindən göyəribdir. Padşah əmr elədi oğlunun qəbrinin üstünü açdılar, onun cəsədini qəbirdən çıxarıb yandırdılar, külünü isə yelə verdilər. Bəli, onlar bu işə əl vurmaqla, qara tilovu tikanın vasitəsi ilə daha incidilmədilər. Məhəbbət və sevgi aləmində özgürlüyə və qurtuluşa çatdılar. Onların məhəbbət dastanları, eşq və sevgiləri dünyanın aşiqləri üçün bir simgə, örnək kimi yadigar qaldı.

## Qoca

Qədim zamanda bir yoxsul qoca kişi varıydı. Daha dünyadan doymuşdu. Deyir, gedim şaha bir söz deyim. Ya məni öldürtdürsün, ya mənə carə qılsın. Gedir şahın qapısına. Qapıçı deyir:

– A kişi, burada nə qayırırsan?!

Qoca deyir:

– Şahla işim var.

Qapıçı soruşur:
– Nə işin var?
Qoca deyir:
– Sənə deməli dəyil, şahın özünə deyəcəyəm.
Qapıçı gedib şaha xəbər verir. Şah deyir:
– Qoyun gəlsin!
Qocanı içəri gətirdilər. Şah soruşur:
– Nə deyirsən?
Qoca deyir:
– Qurban, qulağını gətir, qulağına deyəcəyəm.
Şah deyir:
– Gəl, di görüm nə deyirsən?
Qoca şahın qulağına deyir:
– Arvadın belə, qızın belə, uşağın belə.... Olmazın pis-pis yamanları deyir.
Şah görür qoca dünyadan doyub. Əmr edir qocaya bir kisə qızıl verirlər.
Vəzir öz-özünə deyir: bu, şaha nə dedi, bir belə qızıl aldı. Mən bu qədər şaha xidmət eyləmişəm mənə bu qədər qızıl verməyib. Gedir kişini yolda tutub soruşur:
– Sən şahın qulağına nə dedin?
Qoca deyir:
– Sən də bir kisə qızıl verərsən, sənə də deyim.
Vəzir qocaya bir kisə qızıl verir. Qoca deyir:
– Şaha zurna çalmağı öyrətdim. İndi gəl sənə də öyrədim.
Qoca vəzirə zırna çalmağı öyrədir. Bir gün şah şikara çıxır. Vəzir də zurnanı qoltuğuna vurub şahın yanınca gedir. Şahlar ayıq olarlar. Görür vəzirin qoltuğu şişib. Soruşur:
– Vəzir, o nəmənədir qoltuğunda?
Vəzir deyir:
– Səninkindəndir da!
Şah deyir:

– Nə mənimkindəndir?

Vəzir deyir:

– Qurban, o qoca verən zurnadır da!

Şah barmağın dişləyir deyir:

– Çal görüm!

Vəzir zurnanı çıxardıb çalır.

Şah qocanı çağırtdırır. İkisinə də deyir:

– Paltarlarınızı çıxardın!

Qocaya deyir, vəzirin paltarlarını gəti! Sənin vəzir olmağa ləyaqətin var. Vəzirə də deyir:

– Qocanın paltarlarını gəti, get zurna çalmağına.

**Alın yazısı**

Bir gün varıydı, bir gün, yox idi. Allahdan sonra heç kim yox idi. Bir padşah var idi. Bu padşahın bir arvadı və bir gənc oğlu var idi. Bir gün şahın arvadı yıxılır, əlinin dərisi soyulur. Oğlan görür alnında yazılmış deyir:

– Bu arvadı oğurluq üzrə tutub başın qırxacaqlar. Padşahla oğlu fikirləşir, əgər bu iş şahın ölkəsində baş verərsə, şahın abrı gedəcək. Qərar qoyurlar, şahın oğlu və anası köhnə paltar geyib başqa ölkəyə gedirlər. Anasını orda bir bəyin evinə kəniz verir və deyir:

– Bir ildən sonra gəlib aparacayam.

Arvad da şah arvadıdır, bəyin ayləsi bu kənizin ədəb, nəzakət, ləyaqət və səliqə-səhmanın gördükdə, kənizə çox hörmət bəsləyir və deyirlər:

– Biz bunu həmişə öz yanımızda saxlayacayıq.

Bir gün bəyin arvadı yuyunanda boyunbağısın divarda bir taxcaya qoyur. Yuyunur, geyinir, boyunbağı yadından çıxır qalır orda. Bir quş gəlir qızıl boyunbağını dimdigində alıb aparır, həyətdə bir ağacın budağından asır. Bəyin arvadının

yadına düşür. Gəlir, görür boyunbağı asladığı yerdə deyil. Deyir bə kəniz oğurlayıb. Kənizin başın qırxıb aparır şəhəri dolandırırlar. Neçə gün sonra görürlər bir quş boyunbağını ağacın budağından dimdiginə alıb, öncəki yerinə gətirib asladı. Kənizin günahsızlığın duyaraq bəyin ayləsi hamılıqca kənizdən üzr istədilər. Bir il sovuşduqda oğlu gəlir, bəyin ayləsinə deyir:

– Sizə kəniz verdigim bu arvad şah arvadıdır. Mən də şahın oğluyam. Olayın (macəranın) əvvəldən nə çeşit olduğunu mən sizə deyən kimi söyləyir. Sağollaşır, anasın götürüb ölkələrinə dönürlər.

## Çox olsa bir ovuc, az olsa yarım ovuc

Günlərin bir günündə bir dənə kişi var idi. Arvadı bunu göndərər ət alsın. Kişi gedər alar qayıdar. Bu yol bunun arvadı deyər:

– Duzun xəbər aldın, ya yox ?

Deyər:

– Yox, almadım.

Arvad deyər:

– Canım, get xəbər al, görəm nə qədər duz salacayıq. Adam da gedər göldu şu alar, duzun xəbər almaz?

Kişi gedər gulduzçunu tapar. Soruşar, gulduzçu deyər:

– Əh, rəhmətliyin balası, çox olsa bir ovuc, az olsa yarım ovuc.

Kişi deyə-deyə gedirdi ki, yadından çıxmasın. Yetişər bir yerə. Bir kişi xirmən sovururdu. Eşidər bu deyir, “ çox olsa bir ovuc, az olsa yarım ovuc”. Götürər üstünə bir-iki sənə vurar deyər:

– Köpək oğlu, necə bir ovuc, yarım ovuc!

Deyər:

– Qərdəş, bə nə deyim, axı?

Deyər:

– Denə, bərəkətli olsun, biri min olsun!

Kişi deyə-deyə gedər, bərəkətli olsun, biri min olsun! Gələr yetişər bir yerə. Demə ölü aparırlar. Salarlar bunu kötəgin altına ki, köpək oğlu, necə bərəkətli olsun, biri min olsun!

Deyər:

– Qərdəş, bə nə deyim, axı?

Deyirlər:

– Denə, Allah rəhmət eləsin, getsin gəlməsin, gördüz görmiyəsiz!

Deyə-deyə gələr bir yerə, demə gəlin aparırlar. Kişi deyər:

– Getsin gəlməsin! Gördüz, görmiyəsiz!

Tutarlar salarlar kötəgin altına. Nə yemisən turşulu aş. Kişi deyər:

– Axı, qərdəş, bə niyə vurursuz? Nə deyirsiz deyim da. Deyərlər. Denə gəlin gətirmək ilə, xeyir görmək ilə, ha bir Allah ! Atıl duz. Börkünü at göyə.

Kişi gedər-gedər yetişər bir şikarçıya. Şikarçı ov salmışdı qaravula, istirdi vursun. Kişi qışqırıb atılanda av qaçar. Ovçunun ovqatı tələf olar. Tüfəngin tərsiylə duşər kişinin canına o ki, var vurar. Kişi deyər:

– Qərdəş niyə vurursan? Axı mən neylədim? Nə deyirsən deyim da.

Şikarçı deyər:

– Heç zad demə. Börkünü götür, başmaqların vur qoltuğuna, əgilə-əgilə duvar dibindən çıx get.

Kişi elə elər. Birinin evin kəsmişdilər. Oğrunu axtardılar. Kişini görmək haman o ki, var kötəgə basarlar ki, sən ev kəsmisən. Kişi deyər:

– Mən oğru dəyiləm. Mənə bir nəfər belə dedi, mən də elədim. Məni niyə vurursuz? Nə deyirsiz, deyim. Deyərlər:

– Börkünü qoy, əgilmə, başını qavza, düz çıx get. Əgilsən, dədəni yandıracağıq.

Kişi düz qoyar gedər, yetişər qapılarına. Əgilməz qapı sinəsindən olar. Səslər:

– Arvad, gəl qapını sök, mən keçim.

Arvad çıxar bir təpik vurar, kişi təpilər içəri.

## Adı ilə Budı

Biri var idi, biri yox idi. Allahın kərəmi çox-çox idi. Bir dənə Adı var idi, bir dənə Budı. Bir gün Budı deyər:

– Kişi, nə var?

Deyər:

– Budı, mən deyirəm duraq, gedək bir qızımız evinə. Çoxdandı görməmişik. Dur tədarük görək gedək.

Budı deyər:

– Nə eləyək?

Adı deyər:

– Duraq bir az kökə yapaq.

Qız gecəsi idi. Adı deyər:

– Allahın təndiri yanır.

Xəmir elərlər, yaparlar duvara. Səhər durarlar görərlər mis kimi donub. Qaçırlar, yığarlar dağarcuğa. Təndirdə bir gulduş ətləri var idi. Üstün örtərlər. Bir kisə də pulları var idi. Bərkidərlər. Qapını bağlarlar, açarı daş altına qoyarlar, gedərlər. Yolda bir baba dərviş gedirdi. Deyərlər:

– Baba dərviş!

Deyər:

– Bəli.

Deyərlər:

– Biz gedirik qızımızgilə. Açar daş altdadı. Gedib qapını açıb, əti yeyib, yerinə s...... ha?

Baba dərviş deyər:

– Yox, xanım mənim özümün işim gücüm var.

Deyərlər:

– Baba dərviş!

Deyər:

– Bəli.

Deyərlər:

– Gedib filan yerdən, bir kisə pulumuz var, götürüb yerinə saxsı doldurmayasan, ha!

Baba dərviş deyər:

– Xanım uzaq olmayın. Mənim sizin pullarızla nə işim var. Qoyun gedim. Qəribə, işdi, ha!

Adı ilə Budı arxayın olarlar gedərlər. Baba dərviş gələr girər evə, əti yiyər, s..... gulduşuna. Pulları götürər.

Bunlar da gələrlər, qızları evinə. Xəbər göndərərlər. Qızları da, bətər yerdə idi. Əri var-dövlətli tacir idi. İki əli olar, bir təpəsi. Adam yollar ki, bir zad-mad gətirsələr, tutsunlar alsınlar ki, abrısı getməsin. Budı bir dana kökə götürər, soxar lüt qoynuna. Gələrlər, yetişərlər evə. Salam. Əleykəsalam. Oturarlar. Bu yandan kürəkən gələr. Budı əl elər qoynuna kökəni çıxardar, qoyar kürəkənin qabağına, deyər:

– Nənən ölsün bala, çox idi. Yolda bir başı yanmış aldı.

Qız tez yeriyər kökəni götürər atar evə. Oturarlar, yeyərlər, içərlər, olar gecə. Qız qaravaşa deyər:

– Yerlərin sal hil-mixək damında.

Adı ilə Budı gecənin bir zamanı ayılarlar. Həl-mixəyin iyi vurar yatanmazlar. Budı deyər:

– Adı!

Adı deyər:

– Can Budı.

Deyər:

– Nə var?

Deyər:

– Nənəsi ölmüş balanın işi çoxdu. Bayıra da gedinməyib, s........ otağa, iyi gəlir. Dur buları tökək çaya.

Durar hil-mixəkləri daşırlar. Tökərlər çaya. Bu yol rahat yatarlar. Səhər çay içməgə gələrlər. Budı deyər:

– Nənən ölsün bala, bə, bu köpək oğlunun evində nə qədər iş var? Bu gecə səhərədək nəcis daşımışıq.

Qız deyər:

– Eviz yıxılsın! Hil– mixəkləri neylədiz?

Gedər görər ki, töküblər çaya. Pul verər nökərlər ayrısın alarlar yerin doldurarlar ki, kişi bilməsin. Helə yeyərlər, içərlər olar gecə. Qız deyər:

– Yerlərin salın aynabənd otaqda.

Gecənin bir zamanı ayılarlar, baxarlar, görərlər oyan bu yan adamdı. Budı deyər:

– Adı!

Deyər:

– Can Budı!

Deyər:

– Nənəsi ölmüş balanın nə çox düşməni varmış. Duraq bunları öldürək. Durarlar hərəyə bir dəgənək, şaqqaşaq vurarlar aynaları sındırarlar. Budı deyər:

– Bax, öldülər. Baxın yoxdu.

Başların qoyarlar rahat səhərəcən yatarlar. Səhər çağı çay içməgə gələrlər. Səlam,

Əleykəsəlam. Deyər:

– Bala, nə çoxdu düşmanın! Bu gecə səhərəcən kişiynən qırmışıq.

Qız gedər görər aynabənd otağı heç eləyiblər. Deyər:

– Eviz yıxılsın. Bə niyə belə eləmisiz?

Verər nökərlər otağı tazadan aynabənd elərlər ki, kişi bilməsin.

O gün də axşam elərlər. Qız deyər:

– Yerlərin salın qaz anbarında.

Gecənin bir zamanı qazlar oxuyurdular. Bunlar ayılarlar.

Budı deyər:

– Adı!

Adı deyər:

– Can Budı!

Deyər:

– Bilirsən nə var?

Deyər:

– Yox, nə var?

Deyər:

– Nənəsi ölmüşün vəqti olmayıb. Qazların başları bitlə-niblər. Dur buları yuyunduraq rahatlasınlar.

Durarlar adama bir qazan su qaynadarlar. Qazları bir-bir tutarlar başların basarlar suya düzərlər duvara. Budı deyər:

– Bax, yazıqlar dincəldilər yatdılar.

Səhər gəldilər çay içməgə. Deyər:

– Nənən ölsün bala! Nə çox möhnətin ağırdı! Qazların başın da yuva bilmirsən. Başları bitlənmişdi. Ağlıyırdılar. Qaynar suya basdıq rahatlaşdılar.

Helə verər nökərlər qaz alarlar, salalar onların yerinə, kişi bilməsin. O gün də axşam elərlər. Qız deyər:

– Yerlərin salın nəft anbarından.

Neftləri doldurmuşdular kuzələrə, düzmüşdülər duvar dibinə. Adı ilə Budı baxarlar görərlər kuzələr doludur.

Budı deyər:

– Adı!

Adı deyər:

– Can Budı.

Deyər:

– Heyvan bala, haradan bilib biz yuyunacağıq kuzələri doldurub hazırlayıb?

Durarlar hərəsi bir qazan nəft qızışdırarlar çimərlər. Səhər çay vəqti cəhənnəm iti kimi gələrlər. Budı deyər:

– Nənən ölsün, nə bildin bizə su lazımdı, kuzələri doldurdun.

Qız deyər:

– Vay, eviz yıxılsın! Olar nəft idi.

Nökərlərə deyər:

– Bu köpək uşaqların aparın hamama.

Hamamdan qayıdanda qapıdan qoymaz. Bir kuzə doşab, bir az çit, bir dana at verər deyər:

– Da, bəsdi gedin evinizə.

Qışın sazağı idi. Soyuqdan yer cırılmışdı. Adı deyər:

– Budı!

Deyər:

– Nə var?

Deyər:

– Yerin dabanı quruyub çatlayıb. Gəl bu doşabı tökək bura. Yazıqdı.

Doşabı tökərlər yerin çatdağına. Bir az gedərlər. Görərlər tikan kolu var, yel vurur əsir. Budı deyər:

– Adı!

Adı deyər:

– Can Budı! Nə var?

Deyər:

– Bizim əynimizdə paltar var. Tikan lüt qalıb əsir. Gəl çiti çəkək tikanın başına, üşüməsin.

Deyər:

– Yaxşı.

Çiti açarlar, çəkərlər tikanın başına. Bir az gedərlər görərlər, bir çolaq qarğa atıla-atıla gəlir. Budı deyir:

– Adı!

Deyər:

– Can Budı! Nə var?

Deyər:

– Bax, heyvan qarğa gör necə atılır. Gəl bu atı verək ona. Bizim qızımız var, gedirik. Ölmərik ki, qarğa yazıqdı, gedib balasına çata bilməz.

Atı da ötürərlər qarğanın qabağına, gedərlər. Baba dərviş rast gələr. Deyərlər:

– Baba dərviş?

Deyər:

– Bəli!

Deyərlər:

– Sən Allah tikan üşürdü, çiti çəkdik başına üşüməsin. Qarğa da çolaq idi, gedə bilmirdi, atı da verdik ona. Gedib çiti, atı aparmayasan.

Baba dərviş deyər:

– Yeri, baba işinə! Mən də helə deyirəm bə nə sözü var. Mənim nə işim var. Dərdimin biri də oydu ki, gedəm çolaq qarğadan at alam! Qoyun çıxıb gedim canım, səfəhləmiyin.

Onlar oyana, dərviş dəbərilər atı minər, çiti götürər gedər.

Adı ilə Budı gələrlər yetişərlər evə. Deyər:

- Budı, sən Allah, tez çıxar əti yeyək, acam mən ölürəm.

Budı əti çıxardar görərlər Baba dərviş aparıb, yerinə saxsı doldurub. Bunların iki əli olar, bir başı.

Yedi, işdi mətləbinə yetişdi.

## Tülkü ilə qurd

Günlərin bir günü tülkü yolun üstündə uzanıb ölmüşdü. Özünü tülkü ölülüyə vurmuşdu. O vəqtlərdə dərisi yeddi-səggiz yüz tümənə gedirdi. Gəlin aparırdılr.

Tülkünü görərlər, atarlar gəlinin atının tərkinə. Hərə özünə məşğul idi. Birdən gəlin “cuy” çıxardar. Tülkü deyər, deyirsən deyim gəlin o....? Gəlin deyər:

– Amandı, demə, abrım gedər. Boyunbağımı verərəm sənə.

Tülkü alar deyər:

– Deyəcəgəm.

Gəlin saatın verər. Tülkü alar deyər, deyəcəgəm. Gəlin nə qədər qiymətli şeyi var idi verər. Tülkü alar, atılar yerə. Həray təpər gəlin....., qaçar gedər. Rast gələr qurda.

Qurd deyər:

– Tülkü qardaş, onlar nədi?

Tülkü deyər:

– Xəbərin yoxdu. Zərgərlik, çərçilik xırdası satıram. Qurd deyər, mayasın hardan tapdın?

Deyər:

– Budu, bax, sel, çay gəlir. Quyruğunu qoy çaya, sel gətirsin yığsın. Səhər çıxart apar sat.

Qudr inanar deyər:

– Yaxşı oldu, sağ ol. Allah səni mənə çox görməsin. Axşam başı quyruğun bir dəbərdər. Görər ağrıdı. Deyər qoy qalsın çox yığışsın. Səhərçağı arabaçılar gedəndə görərlər çay qırağında qurd oturub baxır, əl dəgənəgə qurdun üstünə. Qurd birdən dik daşlanar qaçsın, quyruq kökündən çıxar. Qurd qardaş qanı süzülə-süzlə qaçar. Deyər, köpək oğlu tülkü, tutsam yeyəcəgəm.

Gedər görər, tülkü bir toyuq başı alıb dişinə gəlir. Deyər:

– Köpək oğlu tülkü, gəl qabağa yeyəcəyəm səni. Quyruğumu bura qoymusan, kökündən çıxıb.

Deyər:

– Gədə, hadaran-padaran danışma, özündə huş-fərasət yoxdu, ona neyləyim? Bir az bevaxta qalmışam. Ağırlayıb quyruğunu üzüb. Bu yol qəssablıq eləyrəm. Gəl sənə də ögrədim. Əti sat sərmaya çıxarsın, get kefini çək. Qurd deyər:

– Hardan sərmaya tapdın sən?

Deyər:

– Budu bax, filankəsgildə hin doludur toyuqla. Get beş-onun basmarla gətir sat. Mayası mədəndi.

Gecə çağı qurd gedər təpilər hinə. Toyuqlar çığırarlar. Ev sahabı ayılar. Götürərlər ağacları, vurarlar eni-uzunu bir olar. Qurd yarımcan qaçar gedər. Deyər:

– Köpək oğlu tülkü, bu dəfə tapsam yeyəcəgəm səni.

Tülkü görər, balam, qurd ayrı cür gəlir. Girər dəgirmana, üz-gözünə un sürtər, çıxar durar navın başında. Qurd gələr deyər:

– Köpək oğlunun balası tülkü, bu yol yeyəcəyəm. Gəl yaxına.

Tülkü deyər:

– Gədə, axmaq danışma. De görüm yenə nə puç çıxartmışam.

Qurd deyər:

– O qədər kötək yemişəm ki, heç zada meylim yoxdu. Doymuşam.

Tülkü deyər:

– Səndə əql hardadı? Hər sənətə qoyuram bir tikə çörək sahabı olmursan. Hələ mənə dilin də var? Bu yol dəyirmançılıq eləyirəm. Gəl səni şərik eləyim.

Qurd deyər:

– Mən acam, bir zad-mad ver yeyim, sonra.

Tülkü deyər:

– Gəl daşın dövrəsinə. Un yala, mən gəlim.

Qurd yeriyir daşın dövrəsinə un yalamağa. Tülkü yavaşca suyu qoşar dəgirman işlər. Vurar qurdun ağzı-burnun qanadar, qatar bir-birinə. Tülkü qaçar gedər. Qurd ağzı-burnu qanlı gələr deyər:

– Köpək oğlunun tülküsü, da bu dəfə əlimdən sağ qurtulan canın yoxdu. Yeyəcəgəm irəli gəl, ölürəm acından.

Tülkü gülər, deyər:

– Gəl, görürəm, duz-çörək sahabı olmiyacaqsan. Gəl sələçilik eliyək. Əğlini yığ başına, toxu.

Tülkü deyər, gəl gir sələnin içinə örgəş. Qurdu salar sələyə, başlar toxumağa. Qurd deyər:

– Tülkü, mən örgəşənmirəm.

Deyər:

– Az danış, bax örgəşəsən.

Sələni toxur. Ağzın dələr. Qurd qalar içində. Çoban geçirdi. Tülkü səslər:

– Çoban qardaş, bir dana bal pətəgi qalıb burada, gəl apar, yeyərsən.

Sələni dığırladar, çoban götürər aparar evinə. Nənəsinə deyər:

– Qardaşlarıma demə, nənə, ikimiz yeyək.

Səhər əzanından sonra deyər:

– Nənə, qoyunu tezdən çıxartacağam, dur bal gətir yiyim gedim.

Nənəsi durar əl elər pətəgə. Qurdun aşağı tərəfi rast gələr. Bir barmaq çıxardan yeyər. Görər cimcəşməli dadı var. Gələr deyər:

– Bala, deyir bal şirin olar, bu şordur.

Çoban deyər:

– Arvad necə ki, şordur? Keç görüm özüm baxım.

Durar əl elər pətəgə. Qurdun ağzı rast gələr. Qurd ağzın atar dərisin fılıq çıxardar.

Tökülərlər dəgənəkləri götürərlər geçərlər qurdun g.... o ki, var vurarlar. Qurd şili-küt bir təhrilə özün aradan çıxardar. Yarı canı qalmışdı. Deyər:

– Köpək oğlu tülkü, da bu dəfə hər yandan olsa, yeyəcəyəm.

Gələr görər tülkü oturub durar başında. Deyər:

– Köpək oğlunun tülküsü, en gəl aşağa, yeyəcəgəm. Dərimi filiq çıxardıblar. Yarı canım qalıb.

Tülkü əlin çalar əlinə deyər:

– Bizə bax ki, belə-belə qurdları çörək sahabı eləmək istirik. Oğlan, mən nə fikirdə, sən nə fikirdə. Taza bir bağ almışam. Gəl gedək dolan. Quyruq hər yanı tutub. Keç gəl!

Qurd deyər:

– Səslə bağvanı gəlsin, qapını açsın, gəlim.

Tülkü deyər:

– Qurd qardaş, buyurun. Quyruq odu, bax.

Qurd deyər:

– Sən buyur.

Tülkü deyər:

– Mən orucam, nəzirim vardır.

Qurd yerir ki, yesin, ağzı düşər tələyə. Quyruq atılar eşigə, tülkü bir səlavət çevirər, yeyər, qurd deyər:

– Tülkü qardaş, bə sən orucudun?

Deyər:

– Ayı gördüm.

Qurd deyər:

– Bə mən nə vəqt ayı görəcəyəm?

Deyər:

– Sən də tələ sahabı gələndə görəsən.

Bu yandan bağvan oğlun göndərər ki, get gör tülkü tələyə düşüb, götür gəl. Oğlan gələr görər bir qurd düşüb. Bağvanı çağırar. Çəkərlər rəsmiləri. Nə yemisən turşulu aş. Eni-uzunu bir olar. Tülkü oturmuşdu duvar başında. Qurd deyər köpək oğlu, de bağı almısan, gəl ...... sal yerə. Dədəm yandı kül oldu.

Tülkü deyər:

– Gədə, bu toza-tozda qabalanı kim oxuyacaq?

Tülkü deyər:

– Uzan arxan üstə yat. Özünü ölümə vur, acısınlar. Bağvan gələr görər qurd ölüb, açar. Qurd qoyar qaçar. Deyər:

– Köpək oğlu tülkünün balası, da bu yol yeyəcəyəm. Can qalmayıb biləmdə.

Bir şir var idi, qocalmışdı. Tülkü bilər ki, da bu dəfə qurtulacağı yoxdu. Deyər:

– Yaxşıxsı budu gedim sizə nökər olum. Qurd şirə batanmaz.

Gələr, salam verər deyər:

- Ağa, icazə versəz sizə qulluq eləyim. Nökər olum. Siz şikara getməyin, mən gətirərəm yeyərik.

Şir qəbul elər. Tülkü qalar orada.

Tülkü qurdu çox acıdırmışdı. Axtarırdı tutsun yesin. Gələr görər, şirə nökər olub. Deyər:

– Gəl, sən də nökər ol.

Gələr deyər:

– Ağa, icazə versəz, mən də sizə qulluq eləyim.

Şir qəbul elər. Qurd da qalar orada. Bir gün tülkü gedirdi şikara, bir gün qurd. Bir gün vurar şirin başı ağırır. Qurd oturmuşdu evdə. Tülkü gələndə, qurd acıqlanar ki, hara getmisən? Ağanı qoymusan evdə yalqız.

Tülkü deyər:

– Həkimə getmişdim.

Qurd deyər:

– Nə dedi?

Deyər:

– Qulağına deyəcəgəm.

Qurd eşigə çıxanda, keçər şirin qulağına deyər:

– Həkim dedi baş ağrısına qurd d...... əzsin sürtün. Şir deyər:

– Kasatdı? Özümüzdə var.

Tülkü çıxar qurda deyər:

– Keç gör, ağa nə buyurur.

Qurd şirin yanına gələndə, şir yapışar d...... çəkər üzər. Qurd qanı axa-axa düşər yola. Tülkü rast gələr deyər:

– Qırmızı şalvar qardaş, hara gedirsən inşallah?

Qurd deyər:

– Köpək oğlu tülkü, da canım yoxdu, pis vəqtimdə rast gəldin.

Gedər uzanar ölər.

## Ah nağılı

Bir tacir var idi, üç dana qızı. Bir gün gedirdi ayrı şəhərə ticarətə, deyər:

– Hər kim, hər nəmənə istər, desin, qayıdanda alım gətirim.

Biri deyər don, biri corab, kiçik qız da deyər baş gülü. Tacir gedər. Don, corab alar, baş gülü yadından çıxar, gələr. Evdə oturmuşdular, yadına düşər, ah çəkər. Bir anda görərlər qapı döyüldü. Tacir gedər qapıya görər bir nəfər əlində qutu durub, deyər:

– Kimsən?

Deyər:

– Mən Aham, baş gülü gətirmişəm.

Tacir baş gülün alar, sevincək verər kiçik qıza. Qız qutunu açar görər qəribə gözəl güldü.

Üç gün ondan sonra yenə qapı döyülər. Ah gələr.

Deyər:

– Gəlmişəm baş gülünün sahibin aparam.

Tacirin iki əli olar, bir təpəsi. Öz-özünə deyər, qıza necə deyim? Axırda olmaz, Ah deyər ki, gərək qızı aparam. Kişi görər olmıyacaq, qızı tapşırar Aha. Ah gözlərin bağlar alar atın tərkinə götürər gedər. Qızın gözlərin açanda, görər, pəhu bir dana bağdadı ki, nə gözəllikdə! Hər gülün üstündən bir avaz gəlir. Ah deyər:

– Bura sənin yerindi.

Qız bir qədər qalar. Bir özün görürdü, bir də Ahı. Yeyirdi, içirdi, dolanırdı. Bir gün dədəsi, nənəsi yadına düşər. Ah çəkər, Ah gələr deyər:

– Niyə ah çəkdin?

Deyər ki, bəs dədəm, nənəm yadıma düşdü. Ah deyər ki, saxlayın apararam görərsən.

Sabah qıza deyər:

– Dur geyin gedək.

Yenə qızın gözlərin bağlar alar atın tərkinə aparar qapılarında qoyar yerə, ötürər içəriyə gedər. Öpüş, görüş, qızı apararlar evə. Yığışarlar başına, danışarlar. Qız deyər:

– Vallah, gündə tək-yalqızam. Bir dana kişi var, hər nə desəm elər. Yemək-içmək də boldu. Da heç kim görmərəm. Qızın bir dana xalası var idi. Deyər:

– Qızım, işsiz dəgil. Sənin ayrı ərin var. Gecə yatanda sənə nəmənə verərlər?

Qız deyər:

– Çay.

Deyər:

– Çayı içməzssən.

– Yaxşı.

Axşam olar. Ah gələr. Yenə qızın gözlərin bağlar, aparar. Gecə çay gətirəndə qız göz-göz elər çayı içməz. Tökər fərşin altına. Özün vurar yuxuya. Gecənin bir zamanı görər çıraq işığı gəlir, bir dana gözəl oğlan düşüb nökərin dalıyca gəlir.

Yetişəndə deyər, xanım narahat deyil ki?

Nökər deyər:

– Yox.

Deyər:

– Çayı içib?

Deyər:

– Bəli.

Nökər gedər. Cəvan soyunar bunun yanına girsin, qız qalxar deyər:

– Sən kimsən?

Deyər:

– Dinmə, mən sənin sahabınam.

Qız deyər:

– Bə indiyəcə niyə özünü bildirmirsən?

Deyər:

– Bəni adəm ağ süt əmib. Odu ki, mən özümü nişan vermirdim ki, bəfası olmaz. İndi sirrimi bildin, da özümü gizlətmərəm.

Səhər nökər gələr ağanı oyatsın, deyər:

– Da getməgim olmadı. Ver qızıl gül bağın döşəsinlər, gətirin.

Durarlar, gedərlər qızıl gül bağına. Qız görər elə gözəl bağdı ki, gəl görəsən. Əğl heyran qalır. Hər yan doludu baş güllərindən. Yeyərlər, içərlər, durarlar dolanmağa. Qız istər baş güllərindən dərsin, əli yetimişməz. Oğlan əlin uzadar. Qız görər qoltuğu altda bir dana lələk var. Pis gələr ki, bəs bu lələk burada nə qayırır. Əlin uzadar lələgi çəkər. Bir anda görər heç kim yoxdu. Ağa uzanıb ölüb. Ah çəkər. Nökər gələr, deyər:

– Qərə paltar gətir.

Paltarları gətirər, oturar hey Quran oxur ağlar. Görər olmadı, deyər məni apar bazarda qul elə sat. Nökər aparar satar. Bir nəfər alar, aparar evlərinə. De bir gün, bir iki gün, qız evə

yer elər. Ağa görər xanım qərə geyib. Külftələrin birindən soruşar ki, xanım niyə qərə geyib? Deyir, xanımın bir oğlu var idi. Aparıblar, yoxdu. Xəbər çıxmır. Xanım da qərə geyib.

Qızın fikri xərab idi, gecələr yatanmırdı. Bir gecə görər oğlanın tayası durdu ayağa, fanus götürdü çıxdı həyətə. Qız da onun dalınca, dalbadal gedər. Taya neçə həyətdən keçər yetişər bir ayrı həyətə, arasında hovuz var idi. Ayağın çəkər. Suyu boşaldar. Bir təxtə sənd var idi. Qavzar pilləkandan düşər gedər zirzəmiyə. Qız da dalıyca gedər. Bir oğlan çəkmişdilər dara. Qabağa yerir deyər:

– Mənlə başını bir elirsən, ya yox?!

Oğlan deyər:

– Yox.

Yenə deyər, oğlan deyər yox. Üç dəfə deyər əlində şallaq var idi. Çəkər vurar oğlanın ağzı-burnunun qanı bir olar. Bir dövrü pilo gətirmişdi. Onu da yedirdər. İstər qayıtsın, qız ondan qabaq çıxar, gələr, girər yerinə yatar.

Səhər taya durar gedər hamama. Qız külfətlərin birinə deyər:

– Gecə bir yuxu görmüşəm. Xanımın bağrı çatlamasaydı deyərdim.

Söz gedər çatar xanımın qulağına. Qızı çağırar deyər:

– Nə yuxunu görmüsən?

Deyər:

– Xanım, mənlə dalbadal gəl, deyim.

Bir-bir həyətlərdən keçərlər keçdikcə qız deyər:

– Bura bax, gecə buranı gördüm. Bax, o qapını da gördüm, oranı da, buranı da.

Yetişərlər hovuzun qırağına. Qız deyər:

– Yuxunun içinə bax. Bunların hamısın görmüşdüm. Hozun ayağın çəkərlər, təxtə səngi götürərlər, gətirərlər içəri. Oğlan ayaq səsi eşidər, deyər:

– Vay çəpəl həramzadə, gecə gəlməgin bəs dəgil, gündüz də gəlirsən?

Xanım gələr görər öz oğludu, dara çəkiblər. Qız deyər:

– Xanım, bura bax. Elə gecə gördüyüm oğlandı.

Oğlanı açarlar, gətirərlər. Dəh, həkim-təbib, yaralarına dava qoyarlar. Oğlan açar, başına gələni deyər. Bir anda qapı döyülər. Xanım bilər tayadı, deyər:

– Açmayın.

Elə ki, bir az qapıda qaldı, açarlar. Taya girər kənizkələyi qatar yamana ki, niyə gec gəlirsiz qapıya. Dörd saatdı qapı döyürəm. Otağa girəndə gözü sataşar oğlana, rəngi zəfəran təkin olar. Verər tayanı öldürərlər. Xanım qıza deyər:

– Gəl, səni alım oğluma.

Deyər:

– Qoy mənim iddəm çıxsın sonra.

Bilər ki, buradan dərdinə bir çara olmadı. Atı çəkər. Nökər gələr. Deyər:

– Ağan yatıb?

Deyər:

– Xanım, elə sən görən kimi.

Deyər:

– Məni apar başı üstə.

Yenə bir müddət başı üstə Quran oxur, ağlar. Görər iş çıxmadı, deyər:

– Apar məni qul elə sat.

Nökər yenə aparar qızı qul yerinə satar. Bir nəfər alar, aparar evlərinə. Qız görər ora da yaş kimidir. Soruşar, nə var? Deyərlər ki, çoxdandı xanım uşaq doğub, əjdəhadı. Salıblar zərzəmiyə. Nə ürəgindən gəlir öldürə, nə də eşigə çıxarda bilir.

Bir gün qız xanıma deyər:

– Xanım, nə olardı, məni verərdiz əjdahaya, yeyərdi!

Xanım deyər:

– Qız, səfihləmisən. Bu nə sözdü?

Qız o qədər elər ki, xanım razı olar. Qız deyər:

– Məni qoyun dağarcığa, ağzın bağlayın, atın zerzəmiyə.

Qızı soxarlar dağarcığa, atarlar əjdahanın qabağına. Əjdaha deyər:

– Qız, cildindən çıx, səni yeyim.

O deyər, bu deyər, axırda əjdaha cildindən çıxar, olar bir dana gözəl oğlan. Qız da dağarcığından çıxar, oturarlar danışarlar.

Bu yandan xanım deyər ki, durun gedin, görün qız necə oldu. Gəlirlər, görərlər əjdaha oğlan olub. Xanım sevinər. Qızı oğlanı gətirərlər evə. Xanım deyər:

– Gəl səni alım oğluma. Səndən yaxşı qız hardan tapacağam?

Qız deyir:

– Qoy mənim iddəm çıxsın sonra.

Görərlər ki, oradan da bir zad olmadı. Ah çəkər. Nökər gələr, deyər:

– Ağan yatıb?

Deyər:

– Necə ki, görmüsən, o cürdə yatıb.

Yenə qız gələr baş üstündə Quran oxur, ağlar. Görər həray olmadı, nökərə deyər:

– Götür məni qul yerinə sat.

Nökər aparar qul yerinə satar. Bir kişi alar gətirər evlərinə kəniz-külfət deyər:

– Taza kəniz olan gecə ağayla xanımın otağında yatar, evin qaydasıdı.

Gecənin bir zamanı görər xanım durdu ayağa, getdi şəmşır gətirdi. Ağanın başın kəsdi. Xoşkaladı qoydu taqçaya. Ayaqdan geyindi, başdan qıfıllandı, başdan geyindi ayaqdan qıfıllandı, çıxdı. Qız da çıxar, görər nökər bir cüt at saxlayıb.

Hərəsi birin mindi getdilər. Qız da dallarıyca gedər. Bir dana qapını döyərlər girərlər. Qız görər qırx həramilər durhadur, oturublar. Qırx həramıbaşı deyər:

– Cəpəl həramzada, indiyə kimi haradaydın?

Arvad deyər:

– Mən nə eliyim? Gəlin öldürün yəxəm qurtarsın. Keçər saqini dolandırar. Deyərlər, danışarlar. Səhrə yaxın arvad istər qayıtsın qız ondan qabax gələr yatar.

Görər arvad gəldi soyundu. Bir dana lələk, bir dana yağ gətirdi. Yağdan sürtdu kişinin başına, boğazına. Kişi asqırdı ayıldı.

Kişi deyər:

– Arvad, hardaydın?

Arvad deyər:

– Elə ərsən də! Neçə gündü zöhr azarına düşmüşəm bilmirsən.

Sabah gecə olar. Qız deyər:

– Mən bu gecə də yatacağam ağayla xanım yatan otaqda.

Yenə dünən gecəki kimi arvad durar kişinin başın kəsər gedər. Qız durar yağdan sürtər kişi oyanar görər xanım yox. Qız deyər:

– Dur mənlə gedək gör nə var. Arvadın oynaşı var.

Kişi acıqlanar ki, bu nə sözdü. Qız deyər:

– Düz deməsəm onda öldür.

Durarlar gedərlər haman qapıya. Kişi görər qırx həramilar dörhadör oturublar, arvad da saqi dolandırır. Atları açar-qatar bir-birinə. Özü də durar qapı ağzında.

Çıxanı vurar öldürər. Qalar hərami başla arvadı. Girər içəri. Arvad deyər:

– Budu, bax! Özü gəldi.

Həramibaşı dik duranda ayağa, şəmşiri vurar kəlləsindən, arvadı da qatar ona öldürər. Qızla qoyarlar, gələrlər evə, deyər:

– Qız, gəl səni mən alım, bu dəstgaha-zada sahab ol.

Qız deyər:

- Yox, mən gərək gedəm.

Lələgi götürər, ah çəkər.

Ah gələr, deyər:

– Ağan yatıb, ya oyanıb?

Ah deyər:

– Elə gördügün kimidi.

Qız deyər:

– Məni apar.

Ah qızı aparar ağanın başı üstünə, qız haqqani çıxardar, yağdan sürtər, oğlan asqırar durar ayağa. Ağaclar yenə gül açar. Quşlar başlar oxumağa. Oğlan çəkər qızın alnından öpər. Yeyərlər-içərlər, mətləbinə yetişərlər.

## Haqq yolu

Qədim zamanlar şahların biri öz qoşunu ilə çıxmışdı ovçuluğa. Bir az şəhərdən uzaqlaşmışdılar. Bir dənə qocaman kişiyə rast gəldilər. Orada öküzilən cüt sürürdü. Şah vəzirə dedi:

– Vəzir, gedək bu qoca kişidən soruşaq nə cür yaşayır.

Vəzir qəbul edib, birlikdə qoca kişinin yanına getdilər. Şah soruşdu:

– Qoca necə yaşayırsan, halın necədir?

Qoca dedi:

– Şah sağ olsun, ömürdü keçir də.

Şah neçə dəfə soruşdu, qoca elə o sözü dedi. Şah narahat oldu, vəzirə dedi:

– Vəzir, bu kişi mənə bir düz cavab vermədi.

Vəzir dedi:

– Qurban sağ olsun, gedək ov vuraq, qayıdanbaş soruşaq, cavab verər.

Birlikdə getdilər ovçuluğa. Qayıdan baş yenə bu qocanın yanına gəldilər. Şah yenə elə o sorğusun dedi. Qoca da həmən cavabı dedi. Şah yenə narahat oldu. Dedi vəzirə, bu qoca kişini gətirin mənim sarayıma. Qoca kişini özlərilə saraya gətirdilər. Ona bir həftə sarayda gönlü sevən yeməli, içməli verdilər. Habelə, ona gözəl xidmət etdilər, həftə başa çatanda, şah yenə qocadan soruşdu:

– Qoca halın necədir?

Qoca kişi dedi:

– Qurban sağ olsun, ömürdü keçir də!

Şah narahat olub dedi:

– Bunu salın dustağa.

Bir həftə də dustaq qaldı. Yenə həftə sonu şah soruşdu:

– Qoca, halın necədir?

Qoca kişi dedi:

– Qurban sağ olsun, ömürdü keçir də!

Şah lap narahat olub dedi:

–Bunu boşlayın buradan getsin.

Qoca şaha dedi:

– Mən buradan gedərəm, amma bir həftədən sonra mən ölərəm, onda gələrsən, qəbrimin üstünə, mən sənə deyərəm halım nə xordur.

Şah inanmadı dedi:

– Qoça boş söz deyirsən. Çıx buradan get.

Qoca gəldi öz evinə, amma bir həftədən sonra öldü. Bu xəbər şahın qulağına çatdı. Yaman kədərləndi. Şah bu qoca kişini yaxşı şəkildə kəfən və dəfn etdi, bir həftədən sonra getdi kişinin qəbri üstə. Dedi:

– Qoca, halın necədir?

Birdən qəbir aralandı, şah baxdı gördü bir böyük və gözəl göyçək bağ, hər nemət meyvə ağacı var. Bağın arasından bir böyük çay keçir, qoca da bir ağacın kölgəsində oturub. Şah getdi qocanın yanına dedi:

– Qoca, halın necədir?

Qoca cavab verir, indi halım yaxşıdı. Çünki öz istəgimə çatdım. Mən dünyada Allah deyənə baxdım, haqq yolu getdim. İndi də Allah mənə yaxşı padşah verib. Qoca dedi:

– Şah, sən də gəl qal burada, Allah mənə görə səni də bağışlayar.

Şah qəbul etmədi, dedi:

– Mən bir ölkənin şahıyam. Nə qədər mal və dövlətim var, mən burada qala bilmərəm.

Qoca dedi:

– Sonra peşman olarsan. Mən indi bu sözü sənə dedim.

Şah oradan qayıdıb gəldi. Bu sözləri öz yanındakılara dedi. Onlar şaha dedilər:

– Qurban sağ olsun, kaş qalaydın.

Şah ürəkdən kədərləndi. Amma day bu əfsus heç dərdə dəymədi. Onlar yedilər, içdilər şah oldular. Siz də evizdə şah yaşayın.

## Qaz almışam, qaz almışam

Bir gün var idi, bir gün yox idi. Bir kişi var idi, bir arvad. Arvad əxlaqsız olduğuna görə oynaşı var idi. Bir gün kişi gedər bazara, bir qaz alıb gətirər evə. Arvadına deyər:

– Bu qazı bişir ikimiz yeyək.

Arvad qazı təmizləyib bişərər, saxlar oynaşı ilə yesin. Gecə kişi gələr evə. Arvadına deyər gətir qaz ətini yeyək. Arvad deyir:

– Nə qaz əti?

Kişi deyir:

– Sabah çağı aldığım qaz ətini.

Arvad deyir:

– Kişi qaz əti göylünə düşüb? Çox istəyirsən birini al, bişirim yeyək.

Kişi deyir:

– Bəs mən qaz almamışdım?

Arvad deyir:

– Kişi sən elə gahdan belə sözlər deyirsən. Yuxu görürsən?

Kişi deyir:

– Mən yuxu görmürəm, mən qaz almışam.

Söz bura çatanda arvadı qışqırıb deyir:

– Get qaz al gətir bişirim ye! Sözü uzatma.

Sabah kişi gedər bazara, bir daha bir qaz alar, həm də bir dəvə kirayə edər. Minər dəvənin üstünə, qazı əlində sallayıb, şəhəri küçə bə küçə gəzib belə deyər:

– Qaz almışam, qaz almışam, ördək, inək saz almışam. Camaat eşidin, bilin ki, mən bu gün qaz almışam, qaz almışam.

Beləliklə, şəhər əhalisinə andırar ki, bu kişi qaz alıb ki, arvadı bişirsin, birlikdə yesinlər. Qazı evə aparıb arvada göstərər. Arvada deyir:

– Bu nədir?

Arvad deyir:

– Qazdır, a kişi.

Kişi deyir:

– Bəs, bunu bişir birlikdə yeyək.

Arvad qazı bişirər, kişi axşam gələndə bir kişi qarşısını tutar:

– Ay qardaş, mən qəribəm. Evim yoxdur, mümkün olsa məni də qonaq apar. Dua eylərəm.

Kişi deyər:

– Çox da şad olaram. Mənim qonaqdan çox xoşum gələr. Bu gecə də bizim arvad qaz əti bişirib. Gedək.

Kişi qonağı özü ilə birgə evə aparar. “Arvad, qonaq gətirmişəm”, – kişi deyər.

Arvad cavab verir:

– Çox yaxşı. Qonaq ruzulu qonaqdır. Buyurun içəri.

Evə girərkən arvad pıcıldar:

– A kişi, duzumuz yoxdur, tez qaç get duz al.

Kişi tez qaçar duz almağa. Kişi evdən eşigə çıxan kimi arvad qonağa deyər:

– Bizim kişi hər gün bir qonaq gətirər, onun var-yoxunu əlindən alıb, çılpaq buraxar.

Qonaq bu sözü eşidəndə başmaqlarını götürüb ayağı yalın-başı açıq gütürlənib qaçar.

Kişi evə qayıdıb arvadından soruşar:

– Bəs qonaq nə oldu?

Arvad deyər:

– Elə eylə qonaq gətirmişdin, qaz ətini götürüb qaçdı. Kişi ki qaz ətində gözü qalmışdı, bir tikə çörək əlində burub qonağın dalınca qaçar:

– Sən Allah bircə tikə ver yeyim, gözüm var onda.

Qonaq dalına da baxmayıb yel kimi qaçıb aradan çıxar. Arvad da qazın ətini öz oynaşı ilə yeyib öz kişisinə gülər.

## Gülüzar

Günlərin birində iki bacı var idi. Biri dövlətdi idi, biri kasıb. Kasıb bacı o qədər mehriban idi ki, bütün var-yoxun verir dövlətdi bacısına ki, təzə doğmuşdu. Bir top məxmər alır. Amma dövlətdi bacı onu bəyənməyib atır itdərin qabağına, kasıb bacının ürəyi sıxılır və elə narahat olur ki, evə gəlib çıxınca vaxtınnan qabax sançısı tutur. Allaha yalvar-yaxar

eləyib və kömək istir. Bu heyində üş pəri onun dövrəsin alır və bir qız dünyaya gətirir. Pərilərdən biri deyir ki, mən gülməyimi bu uşağa verirəm və o ha zaman gülsə ətrafı gül-çiçəyinən dolacağ. Biri də deyir, mən ağlamağımı ona verirəm ki, hər vəqt ağlasa, Allah onu darda qoymuya. Üçüncü Pərinin də bir şəvə gərdənbəndi var idi ki, onu bağlır onun boynuna.

Kasıb bacının dizlərinə qüvvət gəlib uşaq qucağında özün yetirir evlərinə və çox çəkmir ki, qızının gülməhləri hər yeri gül-çiçəyinən doldurur və onnarı satıb dövlətdənillər. Qızın da adın Gülüzar qoyurlar.

On-on beş il keçir və gün o gün olur ki, dövlətdi bacı kasıblır və qızın da götürüb gedir qalır bacısıgildə. Bir gün Gülüzar bağ-bağatı dolanırdı ki, şahın oğlu onu görür və ürəhdən aşiq olur. Gedir qəsrə və hal-əhvalı ata-anasına anladannan sora Gülüzara elçi dururlar. Kəbinnərin kəsillər və xalası döşün verir qabağa ki, gərəh mən onu aparam qəsrə. Qəsrə getməyə gərəh otsuz-susuz bir çöl-biyabannan keçirdilər ki, xalası ona şor kabablar pişirib verir və nə qədər su istər deyir su yoxdu. Az qalır ürəyi kabab ola ki, xalası deyir suyu fəqət bir şərtinən verirəm ki, qoy gözlərini çıxardam. Gülüzar susuzluq harayı çəkib huşdan gedir və xalası tez onun gözlərin çıxardır. Onun toy paltarlarını da qızına geydirib Gülüzarı da o cürəsinə çöldə qoyur.

Gedib çatıllar şahzadənin qəsrinə və şahzadə görür ki, bu qız Gülüzar deyil, amma səsini də çıxartmır ki, görə qəsdi nədi.

Gülüzar ac, susuz qalır çölün ortasında və gözlərinin ağrısınnan az qalır nəfəsi kəsilə ki, bir tikançı onun səsin eşidir. Tikançı deyir:

– Sən təh canına burada nə qəyirrərsən, gözlərinə nolub ki?

Gülzar deyir:

– Vəqt məni buradan apar ki, susuzluxdan az qalır ciyərim çıxa.

Tikançı onu aparır evlərinə və qızlarına deyir:

– Allah qonağıdı və gərəh muğayət olax, görəh kimdi. Başının sərgüzəşti nədi.

Tikançının üç qızı var idi ki, hamısı əl-ələ verib Gülüzara dava-dərman elirlər. Neçə günnən soora ki, Gülüzarın halı düzəlir və onu özlərinnən aparıllar bulax başına. Bulax başında bir ağac var idi ki, Gülüzar onun kölgəsində uzanıb yuxuya gedir. Yuxuda iki quş görür ki, ağacın şaxəsində danışırdılar. Bir-birilərinə deyirlər:

– Kaş Gülüzar bizim səsimizi eşidərdi. Onun gözləri xala qızısındadı. Bu ağacdan iki yarpaq qopardıb atıram ki, yerinə qoyandan əgər onları bu yarpaxlarınan bağlıya gözləri əvvəlki kimi sağ-səlamət olacax. Həmi də kaş gülərdi ki, hər yan gül-çiçəh olub, tikançı onları qəsrə aparıb satardı.

Gülüzar yuxudan ayılmaxda həmi gülür və tikançının qızları görürlər hər yan doldu gül-çiçəyə. Qızlar gülləri yığıb aparılallar evə və Gülüzar tikançıdan istir o gülləri şahzadənin qəsrinə aparıb sata. Amma bir şərtinən ki, gülləri pulunnan yox, bəlkə iki gözünən əvəzliyə.

Tikançı qəsrə gedib gülləri istir sata ki, Gülüzarın xala qızısı onnara müştəri durur. İstir ala ki, tikançı deyir:

– Bunnarı nə qızıla satıram, nə pula. Bəlkə iki gözünnən əvəzliyəcəyəm. Hər kəsin varıdı o müştəri olsun.

Gülüzarın xala qızısı tez o gözləri verib çiçəkləri alır və tikançı qayıdır evə. Qızlar köməkləşib Gülüzarın gözlərini qoyullar yerinə və o quşların verdiyi yarpaxlarınan bağlılar. Çox çəkmir ki, Gülüzarın gözləri toxtur və əvvəllər kimi işıldamağa başlır.

Xalasının ki, xəbəri olur qızı neçə dəstə güldən ötrü Gülüzarın gözlərin verib bir əli olur, bir başı və soruşa-soruşa gedir tikançının evinə. Xalası Gülüzarı sağ-salim görməh, həmən başlır dil töhməyə onu bağışlasın ki, birdən-birə əli

ilişir onun gərdənbəndinə və Gülüzar huşdan gedir. Xalası Gülüzarın o halda buraxıb şəvə gərdənbəndini götürüb qaçır. Tikançıynan qızları ki, görürlər Gülüzarı yuxu apardı və neynillər ayılmır.

Eşidəh şahzadədən ki, gecəni yatıbdı və yuxusuna bir Pəri gəlir. Pəri başlır bütün olub keçəni şahzadəyə təriflir və şahzadə yuxudan durması həmən gedir şəvə gərdənbəndi Gülüzarın xalasınnan alır. Sora gedir tikançının evinə və şəvə gərdənbəndi Gülüzarın boynuna bağlır. Gərdənbəndi bağlamax həmin Gülüzar yuxudan ayılır və iki sevgili bir-birlərini tapıb qəsrə qayıdıllar. Şahzadənin əmrinən yeddi gecə, yeddi günüz toy tutullar və Gülüzarın xalasıynan qızını zindana verillər. Tikançının qızların da padşah əmr verib onnarı qəsrə gətirtdirir.

## Hah çəpişim, xuh çəpişim

Biri var idi, biri yox idi. Allahdan suvay heç kim yox idi. Key bir ər və arvad bir vilayətdə yaşayırdılar. Bu kişi çox zəhmətkeş, talaşlı, övrəti tünük bir adam idi. Arvadını da çox-çox istirdi. Arvad kişisini çox istəmirdi və adı da Sərinə idi. Bu arvad o qədər bu kişiyə kənayə vırırdı ki, deyirdi sənin ağlın yoxdu, bir şey bilmirsən. O qədər bu kişiyə deyinirdi ki, bu kişi bildiyin də əldən vermişdi və qocalırdı. Dişlərini də yavaş-yavaş əldən verirdi.

Bir gün kişi getmişdi yerlərin əksin. Çox yorğun idi. Axşamçağı çöldən gəldi evə. Bu arvad bir az quru çörək gətirdi qoydu bunun qabağına. Əma bu kişi çox əsəbi oldu dedi:

– Ay bimürvət, mən bir belə işləyirəm və dişim də yoxdu, axı, mən bu quru çörəyi nə təhəri yeyim? Mənim əkdiyim-biçdiyim çox yaxşı buğdadır, bu çörəyi elə bil qərəçədən pişirmisən. Çox da qərə və bərkdi.

O vaxt arvad deyir:

– Əsla sən danışma. Xoşum gəlmir.

Kişi çox əsəbani olur istir ki, arvadın döysün. Arvad deer ki, mənim günahım deyil ki, çörəgimiz belə olur, inəklərimizin südü xərab olur. Sənin bacın Bəğdadda bizim evimizin bərəkətin qaçırdıbdı. Kişi əsəbani olur bir az yol azuqəsi götürür. Yollanır Bəğdada. Bir ay, iki ay yetişssin bacısına. Xəbər aparırlar ki, muştuluq ver, neçə illərdən sonra qardaşın gəlir səni görə. Kişinin bacısı çox xoşhal olur. Durur gedir qardaşının pişvazına. Ta ki yetişir qardaşına. Qardaşı bunu salır ağacın altına ki, sən o işi niyə görübsən ki, mənim evimin bərəkəti qaçsın!

Bacısı ağlaya-ağlaya soruşur ki, ay qardaş, başıva dolanım axı, mənim günahım nədi? Deyir sənə dedim ki, o, işi niyə görmisən mənim evimin bərəkəti və inəklərimin südü xərab olubdu. Camaat yığışır. Əma kişinin bacısı çox huşyar idi. Deyir:

– Qardaş, bu sözü sənə kim deyir?

Deyir:

– Mənim arvadım.

Deyir:

– Yorulubsan, keç gedək evə, orada danışaq.

Gəlirlər evə.

Bu kişinin bacısı olan məhlədə bir dua yazan var idi, gecə onu evlərinə çağırır hal-qəziyyəni buna deyir. Bu dərviş deyir:

– Ay kişi, sənin arvadın sənə kələk vırıbdı. Sənin arvadının oynaşı vardır. Sənin evinin bərəkəti yerindədir və inəklərin də südü xərab deyil. O, onları özü oynaşıynan yeyir, sənə də artıq qır-qırdıdan verir ki, mərizləyib öləsən.

Kişi bir az fikirləşir deyir:

– Mən, bəs nə eləyim? Mənə bir yol göstər. Bu dərviş kişi buna deyir ki, mən sənə bir dua yazaram və sənə bir də çəpiş verrəm o çəpişin adı “hax çəpişim” və “hux çəpişimdi”. Bu çəpişdə çoxlu hikmət vardır. Sən bu çəpişdən hər nə istə-

sən olar. Qəziyə də qutaranda görərsən çəpiş də düşdü yola gəldi.

Kişi bir-iki gündən sonra bacısından qədrdannıq elər. Könlün alar. Dərvişdən də təşəkkür edər, barbəndalin cəm elər, çəpişi də götürər düşər yola. Öz vilayətinə tərəf yollanır, gəlir yolda çox acır, oturur deyir:

– Hax çəpişim, hux çəpişim, mənə bir dəst yaxçı libas, başmax və barmaq üzüyü, bir da acmışam yaxçı bir quzulu pilov al, çəpişim.

Kişi gördü, bəli bir süfrə açıldı, bu istədigi təam və sayılan libaslar yönbəyön hazır – amada oldu. Kişi xoşhal olur, quzulu pilovdan yeyir və sayılanları da götürür, yola düşəndə görür çəpiş də hopbuldu. Yola düşdü bunun yanına. Daha kişi məmun oldu ki, işdə hoqqa yoxdu. Şad xuraman gəldi, bir müddətdən sonra yetişdi evinə. Arvada çoxlu sovqat gətirmişdi. Paltardan, qızıldan, başmaqdan...

Arvada deyir:

– Ay arvad, sən düz deyirsən, mən getdim bacımı da öldürdüm, bərəkət qayıtdı evə. İndi bir çəpiş alıb gətirmişəm daha sən zəhmətə düşməyəcəksən. Hər nə yemək, içmək istəsən hazır olacax. Daha heç qəm və qüssə olmıyacaq. Bir neçə dəfə də imtahan edərlər. Hazır olar yemək və içmək. Amma bir gün kişi gedir eşigə, zəmilərinə, bağına baş vursun. O vaxt bu arvadın oynaşı deyir, vaxtı ki, sən düz deyirsən, naharçağıdı, bu çəpişdən bir yaxçı şorba və isti çörək istə.

Arvad deyir:

– Hax çəpişim, hux çəpişim bir yaxçı şorba və isti çörək ol, çəpişim.

O zaman çəpiş məsxərə altında deyir, yə yə, eləməm. Arvad əsabani olur. Çəpişə bir oxlov vırır, oxlov yapışır çəpişə, arvad da oxlava. Arvadın oynaşı tullanır, arvadı qucaqlayır ki, çəksin çəpişdən aralsın, oynaş da yapışır arvada.

O zaman arvadın qonşu arvadı başını yuyurdu. Qızın yollur bu arvada ki, bir yumurta versin başımı yuyuram. Qız gedir səhnəni görür. Arvad deyir, ay qız, tez ol bu kişini çək dalıya, ta qız gəlir kişini daldan qucaqlır. Qız da yapışır kişiy-nən. O zaman qonşu arvadı ki, qızı yollamışdı ki, gəlsin iki dana yumurta alsın, qız yubanmışdı, arvad yapışdı qızına. Qəzadan həman zaman bir dərviş qapılardanköməklik yığırdı ki, macəranı görür ki, burda bir neçə nəfər yapışıbdı bir-birinə. Amma axırdakı bir gözəl xanım başı açıq və bədəni də ağap-bağ elə bil mayadı. Bu tərəfə baxır, o tərəfə baxır görür ki, bir kəs yoxdu. Gəlir arvadı qucaqlır ki, bədənindən bir öpüş götürsün, amma dərvişin də ağzı yapışır arvadın bədəninə.

Amma sizə kimdən deyim, ev yiyəsi işdən gəlir evə, ma-cərnaı görür, çox aramlıqla əlini-üzünü yuyur, çarıqlarını çı-xardır, bir az istirahət edir. Sonra durur dəhrəni götürür deyir:

– Hax çəpişim, günahsızları at, günahlıları tut, çəpişim.

Çəpiş hamını boşlur, ama arvadı və oynaşı saxlır. Dər-viş, qız, qonşu arvadı qaçırlar və amma kişi burada dəhrəni çəkir arvadı, oynaşı qol-bud doğrayır və öldürür. Deyir:

– Hax çəpişim, hux çəpişim məni Bəğdada qoy çəpişim.

Bir azdan sonra kişi gözünü açır görür Bəğdaddadır.

## Göy muncuq

Günlərin bir günündə kəndlərin birində bir naxırçı var idi. Naxırçı hər gün Aşırı kəndinə naxırını bayıra aparıb ota-rırdı. Sanki naxırçının arvadı doqquz aydan sonra yeriklədi. Naxırçının arvadı yerikləyirdi. Deməli, naxırçının dünya ma-lında nə bir şeyi yox idi. Faqat naxırı otarıb haqq alırdı. Na-xırçı arvadına istəyinə bir azca fikrə gedib və eşşəyin başını kəsib ciyərindən arvadına gətirdi. Arvadı eşşəyin ciyərindən yedi və doqquz ay, doqquz gün, doqquz saat, doqquz sani-

yədən sonra bir oğlan doğur. Bu oğlanın bədəni adama, amma qulaqları eşşək qulağına oxşadı. On iki il uşağı evdə saxladılar. Uşağı abırlarına görə qoymadılar çölə çıxsın. Günlərin bir günü uşaq da atasıyla getdi. Günorta vaxtı idi ki, naxırçı susuzdayır oğluna deyir:

– Get gör obadan su ala bilərsən?

Oğlan oba sahibini çağıranda qarı qapıya çıxdı. Qarıdan su istədi. Qarı keçib obaya bir bardaq əlində qayıtdı. Bardağı oğlana verib dedi:

– Oğul! Burdan uzaqlaşandan sonra bardağın ağzını açarsan.

Oğlan obadan uzaqlaşandan sonra bardağın ağzını açdı. Bardağın ağzını açanda bardaqdan bir ilan çıxdı. Oğlan qorxub dala çəkildi. İlan dedi:

– Qorxma. Əgər məni ilanlar şahının yanına aparsan, hər nə istəsən verərəm.

Oğlan dedi:

– Niyə, nə üçün?

İlan dedi:

– Çünki mən ilanların şahının qızıyam, amma yadında saxla ki, biz ora çatanda ilanlar bizim dövrəmizi çuhura verəcəklər. Sınavdan qorxmayacaqsan. Çünki onlar mənim istiqbalıma gəlirlər. Ondan sonra atam sənə deyəcək: "Məndən nə istəyirsən istə". Onda deyirsən: "Şahın sağlığını istəyirəm". Bu sözü səndən üç dəfə soruşacaq. Hər dəfə soruşdu, sən deyərsən "şahın sağlığını istəyirəm". Axırıncı dəfə şah bir də sənə deyəcək "məndən nə istəyirsən istə" onda deyərsən: "Dilinin altındakı göy muncuğu istəyirəm".
– İlan oğlana yolu göstərib yola düşdülər. Getdilər-getdilər ta ilanların şahının yurduna yetişəndə hər yandan ilanlar

puhrələndi. İlanlar bunları şahın yanına apardılar. Şah dedi:

– Oğul, məndən nə istəyirsən istə.

Oğlan dedi:

– Şahın sağlığını istəyirəm.

Üç dəfə soruşandan sonra oğlan şahdan göy muncuğu istədi. Şah titrədi, dedi:

– Məni yaman günə saldın.

Şah istədi ki, göy muncuğu verməsin, şahın qızı acıqlandı. Dedi:

– Bəs sən nə cür atasan? Bu mənə nicat verib. Sən onun istədiyini vermirsən?

Şah əlacsız qalıb göy muncuğu verdi. Dedi:

– Oğul, göy muncuqdan hər nə istəsən olmalıdır .

Oğlan iki rükət namaz qılıb dedi:

– Həzrəti Süleyman eşqinə, mənim qulaqlarım adam qulaqları olsun və billurdan burda bir imarət tikilsin.

Həzrəti Süleyman eşqinə oğlanın qulaqları düzəlir, bir də billurdan bir imarət tikildi. Oğlan birdən aclığı duyğulandı. İki rükət namaz qılıb dedi:

- Həzrəti Süleyman eşqinə, bir dənə atım, bir dəst təzə paltarım və bir boşqab xörəyim olsun.

Həzrəti Süleyman eşqinə bunların hamısı oğlanın əlinə çatdı və xörəyi yeyib, paltarı geyib və ata minib, atası evinə yollandı. Oğlan içəri girərkən oğlanı tanımadılar. Oğlan başına gələni – ata-anasına söylədi. Qulağının beyindən getməyinə ata-anasını inandırdı. Oğlan atasına dedi:

- Daha sabahdan naxıra getməyəcəksən.

Atası mal yiyələrinə dedi:

- Daha mən sabahdan bir kəsin malın otarmayacağam.

Oğlan atasına dedi:

– Ata! Şahın qızını mənə elçilik etginən.

Atası dedi:
– Oğul! Şah qızın sənə verməz. Ağır otur batman gəl.
Oğlan atasını razı edib dedi:
– Qorxma! Sən qızına elçiligine getginən.
Sübh aratoranlıqdan oğlanın atası elçi daşının başına çıxıb daşı bir-birinə çırpdı. Şaha xəbər apardılar ki, "naxırçı elçiliyə gəlib". Şah dedi:
– Qoyun gəlsin.
Şah naxırçıya dedi:
– Əgər sənin oğlun mənim qızımı istəyir, gərək mənə min dənə dəvə gətirəsən, gərək mini də bir rəngdə ola. Hər dəvənin belində ona iki çoval qızıl olsun.
Naxırçı evə qayıdıb, şahla danışmağın oğluna söylədi. Oğlan atasına dedi:
– Ata! Şahın istədikləri hamısı sübh çağı qapıda hazır olacaq.
Oğlan iki rükət namaz qılıb dedi:
– Həzrəti Süleyman eşqinə, min dənə dəvə, hər dəvənin belində on iki çoval qızıl olsun.
Həzrəti Süleyman eşqinə oğlanın istəyinin hamısı hazır oldu.
Naxırçı sübh alatoranlıqdan dəvələrin ovsarını çəkib şahın qapısına apardı. Şah təəccüblənib amma bir söz deyə bilmədi. Naçar qızı naxırçının oğluna verdi. Bir müddətdən sonra şahın qızı oğlanın sirrini anladı və göy muncuğu gecə yatandan sonra oğlandan oğurladı. Qız arzu elədi ki, dənizin ortasında bir evi və layiq bir kişisi olsun. Oğlan ayılıb gördü nə arvad var, nə heç zad. Əlini burnuna aparıb gördü göy muncuğu da yoxdur. İki əli oldu və bir başı dedi: "Evim yıxıldı, beçərə oldum, tamam malım, sərvətim əlimdən getdi". Bir pişiyi, bir iti var idi. Onları götürüb göy muncuğu tapmağa yollandı. Gedib-gedib bir dənizə yetişdi dənizin ortasında bir

imarət gördü. Öz-özünə dedi: “Bu imarət hikmətsiz ola bilməz. Demək göy muncuq bu imarətdədir”. Oğlan gördü dənizə gedə bilməyəcək. Naümid oldu. Pişik dedi:

– Niyə yas tutubsan. İndi it ilə mən gedib göy muncuğu gətirərəm.

Pişik itin belinə minib dənizin dibinə üzə-üzə imarətə çatdılar. Asta-asta imarətin içinə keçdilər. İmarətin içinə keçəndə gördülər şahın qızıyla bir dev yuxlayıbdır. Pişik göy muncuğu qızın başından götürüb qaçdı. Dənizin ortasında it dedi:

– Muncuğu mənə göstər görüm necə muncuqdur?

Pişik dedi:

– Dənizin ortasında göstərərəm.

İt dedi:

– Yox! Göstərməsən səni suya atacağam.

Pişik muncuğu göstərəndə əlindən sürüşüb dənizə düşdü. Oğlan yenə də naümid oldu. Bir-bir torçular tor atmağını güdürdü. Bir gün torçuların birinin torunda bir qırmızı balıq eşiyə çıxdı və torçu balğın qarnını cıranda göy muncuq görsəndi. Oğlan torçuya dedi:

– Məndən nə istəyirsən istə. Ancaq o muncuğu ver mənə.

Torçu dedi:

– Yox! Bir dənə qızım var. Bu muncuğu qızıma aparacağam!

Yenə də oğlan əlacsız qaldı. Yenə də pişik dedi:

– Qorxmaginan, mən muncuğu gətirərəm.

Pişik asta-asta torçunun evinin içinə keçib, göy muncuğu torçunun qızının əlində gördü. Pişik tezcə atlanıb qızın üzüngözün diddi. Qız əlin aparıb üzünə ağladı. Ağlayarkən muncuq əlindən düzdü. Pişik tezcə muncuğu götürüb qaçaraq oğlana yetirdi. Oğlan padşaha xəbər aparıb dedi ki, “qızın başqa kişiynən oynayır”. Padşah qızını öldürüb şahlığını oğlana verdi.

## Səbr daşı

Biri var idi, biri yox idi. Bir kişi var idi, bir arvadı. Bu ər-arvadın təkcə bir qızları var idi. Bu qızın adı Sitarə idi. Sitarə yekəlib ərlik yaşına çatır. Bir gün Sitarə gedib kəndlərinin qırağında axar çayda paltar yuyanda bir qara qarğa gəlib, bir iydə ağacının budağına qonub deyir: “ Sitarə– bəxti qara! Sən bir ölüyə qismətsən”. Sitarə bu sözü eşidib ağlaya-ağlaya evlərinə gəlir. Ata-anasına qarğanın dediyini deyər. Sitarənin ata-anası bu sözün doğru olmasından qorxub bir az çörək yapıb, bir az yemək-içmək götürüb kəndlərindən çıxıb gedərlər.

Çox gedərlər, az gedərlər, dərə-təpə düz gedərlər. Bir qalanın qapısına çatarlar. Qalanın yanında dincəlib dağarcığlarını açıb yemək yeyərlər. Sitarənin anası atasına deyir:

– O kənddə qalsaydıq, gözümüzün ağı-qarası bu qızımız da ölüyə qismət olardı.

Sitarənin anası da bu səfərdən razı oldu.

Dincəlib nahar yedikdən sonra qalanın qapısını döydülər. Ata döydü, kimsə qapını açmadı, ana döydü, kimsə qapını açmadı. Sitarə döyəndə qapı birdən açıldı. Sitarə tək başına qalanın içərisinə gircək, qapı bağlandı. Ata-ana nə qədər qapını döydülər, qapı açılmadı. Qapını əzmək istədilər, qapı dəmirdən olduğundan əzilmədi. Sonra “qismət belə imiş” deyib ata-ana ümidsiz qalıb kəndlərinə qayıtdılar.

Sitarə qalanın içinə girib ağlaya-ağlaya qalada olan bir otağa girdi. Bu otaq çox gözəl xalı, gəvələrlə döşənmiş bir otaq idi. Otağın pəncərəsi eşiyə baxırdı. Otağın ortasında bir taxt üstündə bir gözəl gənc oğlan yuxuya getmiş kimi ölmüşdü. Onun başının üstə bir kağız da yazılmışdı: “Hər qız qırx surə Qurandan oxuyub oğlanın sinəsindən 40 mili çəksə oğlan dirilib onu alacaq”.

Sitarə otaqda hər cür yeməyi görüb yeyib içdi. Gündə bir surə oxuyub oğlanın döşündən bir mil çəkdi. Otuz doqquzuncu gün otuz doqquz surə oxuyub oğlanın köksündən otuz doqquz mil çəkdi. Qırxıncı gün Sitarə pəncərədən eşiyə baxanda qalanın yanında bir qaraçı qızı gördü. Gənc qıza yazıqlığı gəldi. "Bu yekə qız pəs kişilərin əlinə keçməsin" – deyə qızın əlindən yapışıb pəncərədən öz otağına saldı. Sitarə ona yemək-içmək verib dedi:

– Ay qız, Allah qardaşını saxlasın, bir az mən yatıram. Başıma bax sirkəsin düşür.

Sitarə başını yerə qoyub qaracı qızı Sitarənin başına baxmaqla oldu.

Bir azdan sonra Sitarə yuxuya getdi. Qaraçı qızı kağızı oxuyub, durub son surəni oxudu. Oğlan asqırıb ayıldı. Dirilincə başının üstə qaracı qızını gördü. Öz-özünə dedi: "Qismətimə bax! Çirkin qızla evlənməliyəm". Oğlan qaraçı qıza dedi:

– Qismət belə gəlmiş. İndi mən səninlə evlənməliyəm.

Sitarəni də yuxulamış görüb oğlan soruşdu:

– Bu yatan kimdir?

Qaraçı qız dedi:

– Bu da kənizimdir.

Oğlan Sitarənin gözəlliyini bəyənib öz-özünə dedi: "Kaş mənim qismətim bu gözəl qız olaydı".

Ölü oğlan dirildikdən sonra qalanın qapısı açılmışdı. Sabah oğlan qaraçı qıza dedi:

– Gedirəm bazara pal-paltar alaram. Sənlə toy edib evlənnəm. Sitarəyə də dedi:

– Sən də nə istəsən bazardan sənin üçün alacağam.

Sitarə dedi:

– Mənə bir səbir daşı yolla, bir bıçaq al gətir.

Oğlan bazara gedib qaraçı qıza gəlin platarı, qızılı bilərzik, qızıl boyunbağı, qızıl sırğa, üzük alıb bir böyük

boxşa bağladı. Bir dükana da girib bir səbir daşıyla bir bıçaq istədi. Yaşlı ağsaqqal dükançı soruşdu:

– Dözüm daşın özünə alırsan, ya başqasına?

Oğlan dedi:

– Yox, evimizdə bir kəniz var o tapşırıb.

Dükançı dedi:

– Səbir daşı alanın dərdi olar. Dərdini daşa deyib özünü öldürər. Sən bu daşı apardıqdan sonra get o kənizi güdgünən. O, bir xəlvət yerə gedib dərdini daşa deyəcək, ona yaxçı qulaq as, bıçağı qarnına çalanda tut əlindən al.

Oğlan bazardan qayıdıb aldığı pal-paltarı qaraçı qıza verib səbir daşıyla bıçağı da Sitarəyə verdi. Oğlan Sitarəni güdürdü. Sitarə cəld otağa girib səbir daşını qabağına qoydu. Oğlan qulaq asdığın Sitarə bilmədən başladı başına gələn dastanı səbir daşına dedi. Hər bölümün dedikdə daşa deyirdi:

– Sən də səbir, mən də səbir.

Dastanı deyib ora çatdı ki, qaraçı qızı gəlib son mili oğlanın döşündən çəkib oğlan da onunla evlənmək istədi. Dastan bura yetəndə Sitarə dedi:

– Dahi mənim ölməyim qalmağımdan yeydir. “İndi özümü öldürəcəm” dedikdə tez oğlan ona dedi:

– Dastanı eşitdim. İndi mən sənin, sən mənim. Özgə xiyal eləmə. Kimsə bizi bir-birimizdən ayıra bilməz.

Qaraçı qızını da ənam verib eşigə ötürürlər. Oğlan əvvəl tayfasını başına yığıb yeddi gün, yeddi gecə toy vurdular. Oğlan Sitarəylə evlənib şad yaşadılar.

## Sarı inəyin nağılı

Biri var idi, biri yox idi. Tanrıdan suvay heç kim yox idi. Bir naxırçı var idi. O naxırçının bir arvadı var idi, bir də bir qızı. Qızının adı Fatma idi. Naxırçının arvadı neçə ildən onun

bir ölən arvadının “dədə verdi”si olan bir inəgi var idi. O, öləndən sonra inək Fatmaya irs qaldı. O inək bir sehredici idi.

Naxırçı yenidən evləndi. Təzə arvadı çox özündən razı, ədəbsiz və qaşqabaqlı idi. O, Fatmiyə əziyət edirdi. Fatmanın bir ögey bacısı var idi. Ögey bacının adı Səryə idi. Səryə də anası kimi çirkin və gözügötürməz idi. Amma Fatma isə gözəl və mehriban idi. Naxırçının arvadı bir gün ərinə dedi:

– Malları sabah Fatma otaracağa aparacaq!

Sabah oldu və Fatma malları otaracağa aparanda nənəligi ona bir böyük bağlamada çiyidli pambıq verdi və əmr elədi ki, bu bağlamada olan pambığı da çiyidlər, ayrır və və düyəcələrini də tovlar və kələf edib gətirərsən. Fatma malları otlağa yaydı və pambıq bağlamasını qabağa açanda mallar ona macal vermədiyinə görə ağlamağa başladı. Sarı inək onun köməginə gəlib dedi:

– Niyə ağlayırsan?

Fatma dedi:

– Niyə ağlamayım, nənəligim mənə bir belə pambıq verib, gərək axşam bunların kələfini evə aparam. Mallar da yavaş otlamır, bilmirəm onlara hayxıram, yoxsa pambığa yetişəm.

İnək dedi ki, bu ki bir şey deyil! Bu pambıqları ver mən yeyim və nahar vaxtı onların kələfini sənə verim. Amma mən pambıqları yeyəndə mənim piləmi özü ilə bir qarının evinə aparacaq. Sən də pilənin ardıyla gedib o qarının evinə çatarsan. O qarı səndən sorğular edəcək. Sən ancaq “hə” deyərsən.

Fatma pilənin ardilə gedib, qarının evinə çatdı. Qarı ondan soruşdu:

– Qızım, de görüm, mənim bax tüklərim təmizdi, ya sənin ananın saçları?

Fatma gülə-gülə dedi:

– Səninki!

– Mənim evim və qab-qacağım təmizdir, ya sənin ananın evi?

Fatma dedi:

– Sənin.

Qarı dedi:

– Sən qayıdanda qarşıya ağappaq axar su çıxacaq. Sən o su ilə əli-üzüvi yuyarsan. Ay kimi olarsan. Sonra qırmızı su axacaq, onunla da dudağını və yanaqlarını yuyarsan. Sonra da qara su ilə qaşlarını və kipriklərini yuyarsan və daha da gözəlləşərsən.

Fatma qarının dediklərini yerinə yetirdi və çox gözəl oldu. O naxıra çatanda gördü ki, kələflər hazırdı. O, kələfləri götürüb mal dəstəsini də yığıb kəndə apardı. Fatmanın ögey nənəsi onu gördükdə daha da gicik elədi. Sabahısı malların otaracağa aparmasını qızı Səriyyə təklif elədi. Səriyəyə də bir bağlama pambıq verdi və onların kələfini axşam ondan alacağını bildirdi.

Səriyə malları otaracağa çatdırandan sonra işə başladı, o işin ağır olduğunu görüb ağladı. Sarı inək gəlib ona dedi:

– Niyə ağlayırsan?

O, dedi:

– Axı, bir belə işi görə bilməyəcəm. Anam da mənimlə savaşacaq.

Sarı inək dedi:

– Sən mənim sözümə baxsan, axşam kələfləri evə aparacaqsan.

O, ertəsi gün Fatmaya hər nə demişdi Səriyəyə də dedi. Fatmanın başına gələn işlər onun da başına gəldi. Səriyə pilənin ardilə gedib qarının evinə çatdı.

Qarı ondan soruşdu:

– Mənim baş tüklərim təmizdi, yoxsa sənin ananın?

Səriyə dedi:

– Anamın saçları.

Qarı dedi:

– Mənim evim təmizdi, ya sənin ananın evi?

Səriyə dedi:

– Anamın evi.

Qarı Səriyəyə dedi ki, qayıdanda qarşına ağ su sıxacaq onunla saçlarını, qaş və kipriklərini yuyarsan. Sonra qara su ilə də əl-üzünü, bədənini yuyarsan. O, elə etdi və çox çirkin oldu. Gəlib otaracağa çatanda nə kələflərdən xəbər var idi, nə də mallardan. Ağlaya-ağlaya evlərinə gedib olanları anasına dedi. Naxırçının arvadı bildi ki, bu işlər Fatmanın inəginin işidi. Sabahısı gün özünü naxoşluğa vurub dedi:

– Dokturlar deyir sənin dərdinin dərmanı sarı inək ətidir.

Naxırçı arvadın halından baş açmadan inəyin başını kəsmək istəyirdi ki, Fatma da bu sözü eşidən kimi narahat oldu.

Fatma gedib sözü sarı inəgə çatdırdı. Sarı inək dedi:

– Mənim ətim onların ağzında zəhər olacaq. Sənin ağzında isə dadlı olacağam. Sən mənim ətimi ye. Sümüklərimi bir dəstə libas və bir cüt başmaq olacaq. Onların hər ikisi qızıl olacaq. Onların yanında da bir dəstə qızıl gül olacaq.

Bir gün kənddə toy idi. Səriyə və anası toya getdi. Fatmanı da bir çalada dustaq elədilər. Fatma çaladan çıxıb qızıl başmaq və libasını geyib toya getdi. O, bir əlində qızıl gülləri və bir əlində bir az duz götürdü. Toya çatanda toz-torpaqlı duzu Səriyənin və ögey anasının gözünə səpdi və qızıl gülləri toya gələn adamlara verib evlərinə qayıtdı. O, qayıtdıqdan bir hovuz gördü. Gedib ondan su içəndə başmağının tayı düşdü suya. O, evlərinə gəldi libaslarını soyundu və aparıb yerinə qoydu və evdə oturdu. Şahın İsmayıl addı bir oğlu var idi. İsmayil atını suvarmağa aparanda hovuzdakı başmaq tayını tapıb onun yiyəsinə vuruldu. O qədər vurğun oldu ki, sevginin şiddətindən azarladı. Doktorlar dedi ki, bunun dərmanı qızıl başmaq tayının sahibinin tapılmasınnan asılıdı. Tədbir edənlər

belə qərara gəldilər ki, bütün camaatı meydana toplasınlar və o qızıl başmaq tayı hər kimin ayağına gəlsə, o qız şahzadənin adaxlısı olsun və evlənsinlər. Səriyə və anası bu xəbəri eşidən kimi Fatmanı quyuda həbs edib, özləri meydana getdilər. Başmaq heç kimin ayağına gəlmədi, bu anda Fatmanın xoruzu birdən-birə banlamağa başladı, qışqırdı ki, Fatmanı evdə həbs edibdilər. Xoruzun sözünü eşidən şah əmr etdi ki, naxırçının evinə gedib onu da gətirsinlər. Məmurlar gedib Fatmanı gətidilər və başmağı imtahan etdilər. Fatmanın ayağına oldu. Fatmanı şahzadə İsmayılin adaxlısı elədilər.

Bir gün Səriyə anasilə Fatmanın görüşünə getdilər. Onu dolamaq bəhanəsilə dərya kənarına apardılar. Onlar Fatmanı dəryaya atdılar. Səriyə Fatmanın libasını geyib şahın evinə qayıtdı. Şahın oğlu onların hoqqasını anladı və sabahısı gün Fatmanın xoruzu banlayıb dedi ki, Fatma dəryada bir bağılın qarnında sağdır. Şah bu xəbəri eşidən kimi üzgüçüləri dəryaya yolladı. Üzgüçülər Fatmanı tapıb gətirdilər. Fatma ərilə birgə yaşadı.

## Qantarqa

Biri varımış, biri yox imış, kəndlərin birində bir naxırçı bir oğlu ilə yaşayır ki, bır az ağlunun azlığı var idı. Bir gun bu oğlan evlənmək istədi, ancaq atası dedi: “Oğlum, sənin düz əməlli işin gücün yoxudu, axı”. Bu üzdən oğlan atasından acığ eləyib gəldi şəhərə. Oğlan çox güclu və heyəkəlli olduğuna görə hamı fikir elədi o pəhlivandı və şaha xəbər yetişdi ki, şəhərimizə bir dev heyəkəlli pəhlivan gəlibdir. Şah onu öz sarayına çağırdı və pəhlivandan istədi qızıynan evlənə. Oğlan qəbul elədikdən sora ona yaxşı-yaxşı paltarlar geydirib və toy tutdular. Günlərin bir güni xəbər gəldi şəhərdə bir aslan əmələ gəlib və camaat qorxusundan çölə çıxa bilmir. Şah yeznəsindən

istədi, gedib o aslanı ayrı yerlərə apara, ya da onu öldürə. Oğlan bunu eşitdikdən sora acığlanıb, şahın qızına dedi:

– Qara yollara, qara sahatlara sənin də bu dədən məndən əl çəkəməyəcək, mənim o çarığımnan petavami gətir, gedirəm öz kəndimizə.

Qız dedi:

– Sən bir iş görməyəcəksən, atam sənən qoşun yollalayacaq, qoşun aslanı öldürəcək və ad sənin olacaq.

Oğlan bu sözü xoşlayıb yola düşdü. Meşəliyə yetişəndə oğlan o zamana kimi aslan görmədiyinə görə aslanı öz danalarına oxşatdı və gedib aslanın qulağınnan tutub dedi:

– Sənə qurban olum, dədəmin ala danası, bə sən itmişdin, burda nə gəzirsən? – belə deyib aslanı aparıb çöllüyə ötürdü və evə qayıtdılar.

Bir gun də xəbər gəldi bir əjdər göl qırağında yaşayır və hamı qorxusundan oraya gedib su gətirə bilmir və mal-davar susuzluqdan az qalır qırıla. Şah yenə də yeznəsinə buyurdu gedib o əjdəri öldürsün. Oğlan yenə də acığlanıb, şahin qızına dedi:

– Qara yollara, qara sahatlara sənin də bu dədən məndən əl çəkməyəcək, mənim o çarığımnan petavami gətir, gedirəm öz kəndimizə.

Şahın qızı belə deyib: "Sən bir iş görməyəcəksən, atam sənnən qoşun yollayacaq, qoşun əjdəri öldürəcək və ad sənin olacaq".

Onu yola saldı. Qoşunnan oğlan gölə yetişəndən sora oğlan bir söyüd ağacı görüb və öz-özünə fikirləşdi ki, "mən qoşunu qabağa salaram və özüm çıxaram ağaca, əjdəri bilməsələr də qoşunu əjdər yeyəcək.

"Sora ağaca çıxdı, qoşun əjdəri öldürə bilmədiyinə görə qaçdılar. Gecə oldu, oğlanı yuxu tutdu, əjdər də deməyəsən ağacın altında yatmışmış. Səhər çağı oğlan yuxulu-yuxulu düşdü əjdərin başına. Əjdəri görəndən sora qorxub qaçdı,

ancaq gördü əjdər heç tərpənmədi və gəlib gördü ki, ölübdü. Sönə-sönə (sevinə-sevinə) gəldi şahın sarayına və dedi:

– Bu dəyərsiz qoşun qaçdı, məni də tək qaldım və mən tək başıma o əzəmətli əjdəri öldürdüm.

Şah bunu eşidəndən sora çox söndü və çoxlu pul-para oğlana verdi. Günlər çox şən və gözəl keçirdi. Ayrı bir gun ayrı ölkənin şahı ki, adı “Qantarqa” idı bızım şaha dedi:

– Savaş qəsdim var, səhər döyüş meydanına gəlün.

Şah bunu pəhlivana xəbər verdi və ondan istədi gedə tövlüyə və bir yaxşı at seçə və savaşa hazırlaşa. Oğlan yenə qıza acığlanıb dedi:

– Qara yollara, qara sahatlara sənin də bu dədən məndən əl çəkməyəcək, mənim o çarığımnan petavami gətir, gedirəm öz kəndimizə.

Şahın qızı belə deyib:

– Sən bir iş görməyəcəksən, atam sənnən qoşun yollayacaq, qoşun düşməni öldürəcək və ad sənin olacaq.

Oğlan gördü çara yoxdu və getdi atların birin seçə. Hansı ata baxdı, gördü çarpıb dağıdan atdı və onu xoşlamadı. Şahın bir yel atı var idı, pəhlivan getdi ona sarı gördü nə iş görür. Bu at dinməyir və dedi mən bu ata minəcəyəm. Şahın adamları şaha dedilər:

– Bizim böyük sultan, sizin bu pəhlivanız çox bilgili və məharətlı bir adamdı və bir baxışnan sızın lap yaxşı atız, yanı yel atızı bəyəndi.

Şah bunu eşidib çox söndü.

Oğlan savaş günü qoşuna dedi:

– Beş-altı metir – ərşın gətirün, mən istəyirəm özümü ata bağlıyam və tək qollarım açıq ola və beləsinə döyüşəm.

Olar bu işi gördülər. Savaş başlayanda at qızışdı və o qədər tez-tez qaçırdı ki, oğlan qorxdu və qişqir-bağır saldı ki, “qantarqanı (atın yəhərini) tutun”. Ancaq heç kəs ona yetişə

bilmədi. Beləsinə gedə-gedə, oğlan yolda bir çınar ağacı görüb ondan yapışdı, bəlkə bu ağaca yapışıq qala və atı buraxılıb təkinə gedə. Ancaq aman-aman yaman gündən, bu ağaca yapışdıqdan sora ağac da kökündən qırılıb olarnan qabağa getdi və oğlan "qantarqanı tutun" sözünü qışqıra-qışqıra düşmən şahin sarayına yaxınlaşdı.

Düşmənin qoşunu bunu görüb ki, necə sürətnən və "qantarqanı tutun!" deyə gəlir və düşmən şahının da adı "Qantarqa" olduğuna görə qorxub dalı-dalı gedib, şahlarına xəbər verdilər:

– Bir dev heyəkəlli adam ki əlində bir köklü-zuğul çınar ağacı var sürətənən "qantarqanı tutun!" deyə-deyə bura gəlir.

Pəhlivan gəldi və düşmən şahın sarayına keçdi, şah bunu qorxmamazlığını və cəsarətini görüb, öz-özünə dedi:

– Buna əgər baş əyməsəm bizim hamımızı qırıb dağıdacaq yaqın.

Şah qorxub və pəhlivannan istədi oları öldürməyə və özü də yeddi ilin bac-xəracın oğlana verələr və bu işi gördülər.

Oğlan düşəmənə üstün çıxıb yeddi ilin bac-xəracın alıb gəldi öz şəhərlərinə. Bu xəbər şaha yetişdi. Şah çox sönüb şəhərin meydanında onun qabağına çıxıdı və onu qarşıladılar. Ömrünün sonunacan belə şadlıqda, şən yaşadılar. Belə oldu, nağılımız sona çatdı. Göydən bir alma düşdü, paylaşdıq biri küsdü, nağıl sona yetişdi, üçü getdi bölüşdü.

## Süleyman peyğəmbərin üzüyü və tacir oğlu Məhəmməd

Biri var idi, biri yox idi, Allahdan suvay heç kim yox idi. Qədim zamanlarda bir şəhərdə bir tacir yaşayırdı. Qəzadan bu tacir bir əlacsız mərizəligə duçar olmuşdu. Və bu səbəb ilə dünyadan getdi. Amma bu tacirin bir oğlu varıdı, adı da Məhəmməd idi. Bir gün Məhəmməd anasından soruşar ki, anacan, mən nə iş görüm. Məhəmmədin anası deyər:

– Məhəmmədcan, çox qəmgin olma.

Məhəmmədin anası bir miqdar pul yığıb saxlamışdı. O puldan bir az verər və deyər:

– Məhəmmədcan, oğlum, get şəhərə həm özüvə paltar al və həm də bir miqdar azüqə yemək al, evə gətir. O zaman Məhəmməd yola düşür, gedir bir meydana yetişir. Görür ki, orada çoxlu camaat yığışıb və bir ocaq qalayıblar və ocağın aluvu göyə qalxır. Məhəmməd soruşar ki, nə olub? Bir nəfər deyər ki, bu tula mənə yuz tümən ziyan vurubdu, istirəm onu atam odun içinə yansın. Məhəmməd deyər:

– Ay kişi! Bu iş insafsızlıqdır, düz iş deyil, siz bu işi görməyın.

Onlar qəbül elər.

Məhəmməd o zaman tutar yuz tüməni verər, tulanı alar və özülən gətirər evə. O zaman Məhəmmədin anası durar onun qabağına və gələr ki, azuğa almayıb. Deyər:

– Məhəmməd! Bəs aldığın azuğa və yeməklər hanı?

Məhəmməd deyər:

– Anacan, pulu verdim bir tulanı aldım.

Və dastanı anasına söylər. Anası da bir süz deməz və bir neçə gün macəranın üstundən keçər. Məhəmmədin anası genə Məhəmmədi çağırar. Bir miqdar pul verər və deyər ki, Məhəmməd, get bir az yemək vəsaylı al evə və özüvə də paltar al, mənə də paltar al gətir.

Məhəmməd pulu anasından alır və bazara sarı yollanar. Genə Məhəmməd yetişir bir meydangaha və genə gələr ki camaat tuplaşıb və genə bir ocaq yandırıblar. Gedir qabağa soruşur, deyərlər ki, bir dənə pişik bir nəfərə yüz tümən ziyan vurub. İstəyirlər onu atsınlar bu ocaqda yansın. Burda da Məhəmməd genə taqət gətirmir yuz tüməni verir, pişigi alır, gətirir evə. Məhəmmədin anası genə soruşar ki, Məhəmməd,

bu dəfə də pişig alıp gətirmisən. Məhəmməd macranı genə anasına tərif eylər, bu dəfə də anası bir söz deməz.

Bir neçə gün keçir, daha onların yeməkləri qurtarır. Anası Məhəmmədi çağırır və genə bir miqdar pul verir, deyər:

– Məhəmməd! Get özüvə paltar və mənə də paltar al və evdə də yemək üçün heç zad yoxdu. Bir miqdar azüqə də al gətir.

Amma bu dəfə öz-özünə deyər ki, şayəd orada mənə tələ qoyurlar. Bu dəfə başqa səmtilən gedib şəhərin o başından vəsail alacağam. O, bu fikirilə yola düşür. Gedir bir müddətdən sonra yetişir bir meydangaha. Görür genə bir ocaq yandırıblar. Alov lap güyə qalxır, camaat da toplaşıb. Genə yaxınlaşıb soruşar ki, burada nə xəbərdi? Deyərlər ki, bir qarğa bir nəfərə yuz tümən ziyan vurubdu. İstirlər onu atsınlar ocaqda yansın. Genə Məhəmmədi fikir götürür. Öz-özünə deyər ki, sən bu yüz tümən ilən nə qayracaqsan? Gəl bu yüz tüməni ver, qarğanı al qoyma bu heyvanı yandırsınlar. Bu işi də görür və qarğanı alar gətirər evə. Amma bu dəfə anası əsəbləşər və deyər:

– Məhəmməd, sənə pul verirəm ki, sən gedib azüqə alıb gətirəsən. Sən də gedib heyvan alıb gətirirsən.

Məhəmməd acızliklə deyər:

– Anacan, urəgimdən gəlmədi, nə iş görüm.

Amma günlər keçirdi, evdə azüğə qurtarırdı və paltarlar da kühlənəlirdı.

Məhəmmədin anası genə Məhəmmədi çağırdı və dedi:

– Məhəmməd, bu pul evimizin axıra qalan puludu. Nə yemək varımızdı, nə də paltar. Bu dəfə paltarılan və azüqə ilən gələrsən!

Məhəmməd pulu alır və şəhərə tərəf yola düşür. Bu dəfə genə bir ayrı səmtilən gedir və bir az müddətdən sonra yetişir

bır meydana. Genə görür ki, camaat cəmləşib və genə büyük bir ocaq yandırıblar. Yaxınlaşıb soruşar:

– Deyərlər bu qutu bir nəfərə yuz tümən zərər– ziyan vurub, istirlər bu qutunu atsınlar bu ocaqda yansın kül olsun. Genə Məhəmmədin urəyi taqət gətirmir. Deyər, mən bir belə pul vermişəm, gəl bu dəfə də bu işi gör. Yuz tüməni verər və qutunu alar və gələr evə. Amma evə gedə-gedə qutunun ağzın açar və gürər ki, qutuda bir şey var, ya yox!? Qutunun ağzını açar və gürər ki, bir ilan qutunun içindədır. Tez qutunu atar o tərfə qaçar. Amma bu ilan dil açar. Səslər:

– Ay Məhəmməd, qaçma, hara qaçırsan? Qayıt!

Məhəmməd səsi eşidəndə təəccüb eylər və genə istir qaçsın. O səs yenə təkrar olar. Məhəmməd qayıdar və ondan qədrdanlıq eylər və deyər:

– Məhəmmədcan, sən mənim canımı satın aldın və yuz tümən pul verdin, məni azad elədin. Mən onların oğlanlarının birini çalmışdım və oğlan da ölmüşdü. Ona xatır istirdilər ki, məni yandırsınlar, sən mənə nicat verdin. Mən ilanlar padşahinin qızıyam. Atam da cəryanı bilər. Mən səni aparram atamın yanına. Mənim atam sənin bu işinin üzərində istər sənə çoxlu ənam versin. Mən sənə bələdçilik edəciyəm. O zaman kı, yetişərik atamın yanına, o soruşar ki, Məhəmməd məndən nə istirsən de ki, “sənin sağlığını” və genə təkrar elər. Genə də deyərsən sənin sağlığını. Üçüncü dünə denən mən səndən Süleyman padşahın üzüyünü istirəm. Üzüyü çox istəsə də, onu sənə verəcək, çünki məni çox istəyir. Əgər verməsə də mən onu alıb sənə verrəm. Sən də huşuvu başıva yığ ki, bu sirri bir kəsə açma. Sənə çətinliklər yaradarlar. Üzüyün xasyətlərindən sənə deyəm ki, hər vaxt Süleyman peyğəməbərin eşqinə iki rükət namaz qıldınsa, hər nə istəsən sənin üçün hazır və amadə olar, bu üzük bir tükənməz sərvətdir. Heç vaxt onun sirrini bir kəsə açma. Və sonra Məhəmmədə deyər, mənim arxamca gəl və gedirlər.

Bir böyük sal daş var idi. Deyər Məhəmməd bu daşı quvza. Məhəmməd daşı quvzayır və görür ki, bura ilanla doludur. İlanlar rəngbərəng, cıqlı, buyuk, buynuzlu, qanadlı var. Amma Məhəmməd qorxurdu, ilan dedi:

– Məhəmməd, qorxma ardımca gəl.

Bir böyük uzun yolnan yerin altilən gedirlər, bir yerdən keçirlər, elə bil lap ilanların qoşunu idi. Yetişirlər büyük bir mağaraya. Saray kimi ki, ilanlar padşahı qızıl təxtin üstündə əyləşib və dürəsin də güzətçilər alıplar.

Padşah qızından soruşar ki, bu kimdi? Qızı cərəyanı birbəbir atasına təərif elər.

Padşah üz tutar Məhəmmədə və ondan təşəkkürünü bildirər və deyər:

– Məhəmməd, məndən istə görum, nə istirsən?

Məhəmməd deyər:

– Qurban, sənin sağlığını.

Genə suruşar və Məhəmməd genə deyər:

– Qurban, sənin sağlığını.

Üçüncü dünə deyər:

– Qurban, mən səndən Süleyman peyğəmbərin üzüyünü istəyirəm.

Padşah deyər:

– Məhəmməd, bu üzüyü sənə verirəm, amma gərək çox huşuvu başıva yığasan. Bunu diqqətlə gizləməlisən və heç vaxt bu sirri açmamalısan. Sənin üzüvə dərd-sər düzlər.

İlanların padşahı üzüyü verir Məhəmmədə. Məhəmməd qayıdır evə. Məhəmməd bu müddətdə çox yorğun idi. Yetişir bir xəlvət dinc yerə, çox səfalı və bulaq qırağİ idi, dəstamaz alır, iki rükət namaz qılır. Allahdan Süleyman peyğəmbərin eş-qinə bir xüşməzə yemək özünə və anasına paltar və bir miqdar azuqə də evlərinə istəyir və göz açır görür ki, onların hamısı hazır idi. Çox xoşhal olur, təamı eylər və vəsaylı da götürər

gələr evə və yetişir evə. Amma bu dəfə anası görür Məhəmməd əli dolu gəlib, çox da gəlib və çox xoşhal olur və deyər:

– Məhəmməd! O pula bir belə vəsayıl almaq olmazdı, bu nə hikmətdir. Nə iş gördün?

Məhəmməd deyər:

– Anacan, nə işin vardı? Allah yetirdi işin olmasın.

Tula, pişik qarğa da hərəsi bir tərəfə getməmişdi. Onlar da ahvali xanvadə olmuşdular ki, bir gün Məhəmməd anasına deyər, anacan mən istirəm evlənəm və padşahın qızını da istirəm və amma Məhəmmədin anası deyər:

– Məhəmmədcan, padşah qızını sənə verməz. Onlar şahın vəzirilən, vəkilən cənaqdılar. Gəl bu işdən vaz keç.

Amma Məhəmməd israr eylər ki, anacan, sən get Allah büyükdü. Məhəmməd anasını məcbür elər, anası bir gün təsəmim tutar ki, əzmini cəzəm eyləsin getsin padşahın qızına elçiligə.

Amma o zaman rəsm idi ki, hər kəs birini istəsə idi gedib bir elçi daşı var idi, onun üstündə oturardı, taa kı ağ səqqəl, qərə səqqəl gəlib soruşardılar, ya padşahın gözətəçiləri, məmurları gəlib onu aparıb mətəl olardılar. Bir gün növbə Məhəmmədin anasına yetişər. Bir az ənlik-kirişanla özunu bir əl bəzək keçər. Gedər elçi daşının üstundə oturar, əz qəza o saat padşah həyətdə qədəm vururdu, gördü ki, bir nəfər elçi daşının üstündə oturub, vəzirə deyər. Vəzir deyər:

– Qebleyi-aləm sağ olsun, eybi yoxdur, sən icazə ver məmurlar getsin, gətirsin və soruşaq. Bir şey istərik ki, tapa bilməz vaz keçər, bir daha gəlməz.

Amma sonradan padşah əmr elər məmurlar gedib o qoca arvadı gətirərlər. Vəzir soruşar ki, ay xanım, o elçi daşının üstündə nə üçün oturubsan. Deyər:

– Qurban, padşahın qızını oğlum Məhəmmədə elçiligə gəlmişəm.

Padşah vəzirilən məşürt eylər və belə deyərlər ki, ay qoca arvad, Məhəmməd nənəsı! Gedərsən hamısı böyük bir heykəldə bir qədədə və bir rəngdə və güzləri qara kı dörd dənəsi nər olsun və üç dənəsi dişi olsun və onların ovsarını uç dənə cavan xoş heykəl, güzəl və qədərətli adamlar olsunlar, dəvələrin yükünün bir tayı qızıl, bir tayı gümüş evə gətir. Əgər təhiyə eyləyə bildin, gələrsən elçiliyə.

Məhəmmədin anası qayıdır evə gəlir, cəryanı Məhəmmədə deyər. Məhəmməd deyər:

– Anacan, nigaran olma, Allah büyükdü.

Gecə olur. Məhəmməd gedir, dəstəmaz alır və iki rükət namaz qılır, Süleyman peyğəmbərin eşqinə tamam padşah istədigi vəsaylları və təşkilatı istir, sübh dan yeri ağaranda Məhəmməd istədigi karvan ovsarçılarıynan və yükələrinən hazır olur. Məhəmmədin anası dəstür verir, karvanı padişahın sarayına tərəf hədayət eylərlər, bu macranın padşah vəzir-vəkil görüllər. Bəli, Məhəmmədin anası padşah və vəzir dediklərinin hamısını təhiyə eyləyib və gətirir. Padşah deyər:

– Vəzir, tədbir tök.

Vəzir deyər:

– Qebleyi-aləm sağ, olsun tədbirə nə tədbir, şərt şərtidi. Sənin sarayında bir belə sərvət yox idi.

Və amma burda padşah qəbul eyləyir və Məhəmmədin anasını hüzuruna çağırır və deyər:

– Ey qoca arvad, Məhəmmədin anası, sən gedərsən əgər eyliyə bildin bir ev– mərtəbə saray ki, bir kərpici gümüş və ici bağlı çarhuuzu güllü çiçəkli ki, dünyada binəzər ola. Və iki dəst toy lıbası ki, nazik tərin ipəkdən ola və onun bəzək muncuqları güzəl cuvahiratdan ola ki, onların biçim yeri, tikiş yeri də məlum olmaya və bir-birdən də kiçik-büyük olmaya. Və iki cüt başmaq da ki, bir cütü qızıldan, bir cütü də gümüşdən ola bir rəngdə. Qırx nəfər də mahir atlı ki, hamısı

bir rəngdə, bir qiyafədə və atları da qərə qəmər ki, onların hamısını qabaq ayaqları qərə və ağ ola ki, tammam ahəl şəhəri heyrətləndirə və huyur qandıra (hoyun qandira). Əgər bu şeyləri düzəltdin gəl. Eyləyə bilmədin bü şəhərdən gedin və əmr verrəm böynüzü vursunnar.

Amma Məhəmmədin anası çoxlu narahat olur, qayıdır gəlir evə və tamam cəryanı birbəbir Məhəmmədə təərif eylər və sonra ağlar ki, məgər olar ki, bu paltar və saylı adam tapa cütləyə. Məhəmməd deyər:

– Anacan, nigaran olma, inşaəllah düzələr.

Gecə olur və genə Məhəmməd dəstəmaz alır. İki rükət namaz qılır. Süleyman peyğəmbərin eşqinə Allahdan istir padşah istədigi üç mərtəbə sarayı, atıçıları, atlarınan və toy paltarın cəvahratınan və başmaqıynan.

Bəli, genə sübh dan yeri ağarandan padşahın istədigi xəyalı atlar və atçılar, toy paltarı, başmaqlarınan, mərtəbə saray, çarhuznan hazır olur. Şəhərdə elə bil iki gün çixibdı. Saraya gün düşüb adamın gözünü qamaşdırır, ama bu dəfə Məhəmmədin anası lap tamam cürətlə atıçıları hədayət eylər, padşahın sarayaının qapısına vara. Padşah sübh ki, yuxudan durur, vəzirinən baxırlar şəhərə görürlər şəhərin vəziyyəti əsla dəyişilibdi. Cərəyanı soruşurlar, görürlər ki, padşahın yeznəsinin təşkilatıdır burda. Vəzir deyər:

– Padşah, daha bu şərti dalı vurmaq olmaz. Dünyada rusuvay olarsan. Mən bu işi ömürümdə nə görmüşəm, nə eşitmişəm, bu xəyalı bir dəstandı.

Məhəmmədin anası keçir qürurnan saraya. Amma bu dəfə sarayda şən və şadlıq bərgüzar olur, burda Məhəmməd padşahın yeznəsi olur. Qırx gün, qırx gecə saz qaval oxuyan aşıqlar, xuanəndələr, balabançılar, zırnaçılar, oynuyanlar, burda bir şadlıq vardır ki, gəl ki gürəsən. Burda Məhəmmədin

anası dərisinə yerləşmirdi. Sonradan padşahin qızı və Məhəmmədnən gedirlər öz saraylarına, başlayırlar zəngədanlığa.

Amma burda bir gün padşahın qızı öz xidmətkarlarınan, vəzir, vəkil qızlarınan seyrə çıxıb bir çəmənzara getmişdir ki, padşahın qızının qızıl başmağının bir tayı çəməndə otların, budaqların arasında itir və tapılmır. O zaman bir qərə qu güydə şikar dalısıca idi. Qəfildən güydə uçanda, dövr vuranda gözü düşür qızıl başmağa. Onun şöqina deyər, bəs ki bir tikə qırmızı ətdi, şığıyar vurar qeynağina və bir müddət güydə uçar və gedər bir vəlayətdə ki, cinlər padşahının məntəqəsi idi, gələr yerə. Bir dimdik vurar gürər ki, yeməli deyil, tərk idər gedər.

Və amma o günü cinlər padşahının oğlu o məntəqədə at çapırdı. Qəfildən gözü düşür başmağa, onu götürür və baxır, onun iyisinə aşiq olur və gedər saraya və başmağı qoyur balıncının altına və əşqin şəddətindən məriz ulur. Düşür yurğan düşəgə və amma bu zaman padşah cinlərə əmr elər ki, təbib yiğişsınlar buna dərman eləsinlər.

Yığışırlar və bu nəticəyə çatırlar ki, bunun bir şey deyil, aşıq olubdu. Və sonradan o bilici adamlar bunun öz şən və salından olan dostlarını bunun yanına yollayarlar ki, bu təriqinən əlacını bilsinlər. Bu cürnən oğlan sözə gəlir, başmağın tayını başının altından çıxardır, nişan verir ki, mən bu başmağın sahibinə aşiq olmuşam. Padşah əmr eylər ki, bir cəlsə bərgüzar olsun və bir raəhəl tapılsın. Amma vəzirlərin biri çox, bilən və bahuş idi.

Deyər:

– Qurban, filan yerdə bir qoca arvad vardı ki, küpü və çox da hiləgər və hoqqadı. Əgər tapılsa onun əlinən tapıla bilər.

Əmr elədi o qoca arvadı gətirdilər. Və onnan sual elədilər, dedi:

– Bəli, o mənim işimdi, dunyanın harasında olsa, onu mən taparam və gətirrəm.

Bu qoca qarı arvad küpünü minər. Qalxar güyə, uçar güydə o tərəfə, bu tərəfə gedər, o torpaqdan çıxar bir şəhərin üstündən keçirdi gözü düşər Məhəmmədin sarayına və öz-özünə deyər ki, əgər başmağın sahibi olsa, hətma bu sarayda olar.

Bu qoca qarı arvad şəhərin qırağına gəlir, yerə küpün gizlədər və bir dəst kühnə paltar geyər, gələr sarayın qapısının qabağına. Hava da çox suyuq, sazaq idi. Payız fəsli idi. Özünü salar titirətməyə.

Sübh idi, Məhəmməd çıxmışdı eşigə, gözü düşür bu arvada, deyər:

– Anacan, burda nə qayırırsan?

Deyər:

– Sənə qurban ulum, mən bir qoca arvadam, köçümüz burdan keçirdi, oğlum əsabı oldu, dedi daha sənin əlindən bir şey gəlmir, sən daha dərdə dəyməzəsən. Məni öküzün üstündən götdü qoydü yerə, getdi. Mənim də burda heç kimim yoxdu, səni Allah cavan, mənə kömək elə. Və amma Məhəmmədin bu arvada ürəyi yandı, onu gətirdi evə. Məhəmmədin arvadı gəldi, soruşdu Məhəmməd cərəyanı dedi, amma Məhəmmədin arvadı dedi:

– Məhəmməd, buna bir miqdar pul ver, qoy burdan getsin, bu qoca arvad yaxşı adam deyil.

Məhəmməd qəbul eləmədi, dedi:

– Ay xanım, büyüklük ver, sarayın bir güşəsində bu qalsın. Ömrünün axırında mən bunu nə cürə burdan salım eşigə.

Amma Məhəmmədin arvadı daha bir söz demədi.

Bir neçə aydan sonra ki, bu qoca arvad öz hədəfinin dalıncaydı. Məhəmmədin arvadı bir gün görür və bir söhbətləri elər və onların arası yaxşı olar və soruşar ki, mən təəcüüb eləyirəm sən ki, bu sarayda yaşayırsan hər bir şey vardı, olar məəlum deyil, nə cur gəlir və nə cur gedir. Məhəmmədin arvadı deyər:

– Mən bilmirəm. Həmə karə Məhəmmədədi.

Amma o zaman qoca arvad deyər:

– Allah eləməsin, dilim lal, əgər bir gün Məhəmmədə bir ətfaq düşəsən nə cür istərsən yaşayasan? Sən padşah qızısan, sən gərək mələklər kimin yaşayasan, gərək biləsən.

Amma bu sözlər Məhəmmədin arvadına əsər qoydü ki, bir gün Məhəmmədin arvadı deyər:

– Məhəmməd, əsla nə cur bu təşkilat dolanır cəryanı, nəmənədi? Mən baş çıxartmıram. Nə cür gəlir, nə cür gedir..

Amma Məhəmməd burda xahiş eylər ki, bu sirri məndən soruşma. Gəl, zəndəganlığmıza dəvam verək.

Bir gecə Məhəmmədin xanımı Məhəmmədin otağına getmir və Məhəmməd çağırır və arvadı deyər ki, daa sənnən işim yoxdu. Amma, Məhəmməd deyər ki, gəl buraya deyərəm. Məhəmməd arvadına əsrar elər ki, gəl bu sirri faş eyləməyək. Amma Məhəmmədin arvadı iki əyağını dirəyər bir başmağa ki, gərək mənə deyəsən. Amma Məhəmməd arvadını çox istirdi, ona deyər ki, xanım, Süleyman peyğəmbərin üzüyü məndədi. Mənim hər nə hacətim olsa iki rükət namaz qılıb, Süleyman peyğəmbərin eşqinə Allahdan istərəm fərahim olar.

Amma sizə kimdən deyim, o qoca biiman arvaddan. Gecənin birində barmağını kəsib bir az da duz töküb ki, ağrıdan yata bilməsin və Məhəmmədin sözlərinə qulaq assın. Amma onların sözlərinin hamısını dalı otaqdan qulaq asdı və eşitdi. Bildi üzüyü hardadı və bundan sonra ki, Məhəmmədinən arvadı yuxuya düşərlər. Qoca arvad durur gedir, Məhəmmədin məxsus otağına üzüyü götürür və gəlir dəstəmaz alır, iki rükət namaz qılır və Allahdan istir ki, Süleyman peyğəməbərin eşqinə bu sarayı tamam əmkanatınan və Məhəmmədin arvadı cinlər padşahinin vəlaytinə gəlsin, yerə bərqərar olsun. Qoca arvad gözün açır görür ki, öz vəlaytındədir və sonra Məhəm-

mədin xanımı bilir ki, ayrı bir vəlayətə gəlib və nə Məhəmməd var, nə Məhəmmədin anası, nə pişik və qarğa və nə tula.

Burda qoca küpəcü qarı xəbər verir cinlər padşahına ki, qebleyi-aləm sağ olsun, bu saray və bu da başmağın sahibi ki, sənin oğlun ona aşiq olubdu. Onlar hər nə qədər eylərlər Məhəmmədin xanımı icazə vermir cinlər padşahın oğlu saraya gələ və deyər ki, mən Məhəmmədin arvadıyam, harda olsa gələr. Qəziyə elə bu cur qalır və qoca arvad sarayda yaşayır, naz və nemət içində itir və həm də cinlər padşahı ona böyük pay da verdi.

Burda sizə kimdən deyim, Məhəmməddən. Onlar ki, sübh yuxudan dururlar, görürlər ki, o həmən qədimnən olan evdədirlər, nə vəsayl var, nə də pul, fəqət uç dənə heyvanlar ki, qabaqdan pul verib alıbdı, yəəni tula, pişik, qarğa. Həsabsız o qədər ağladılar ki, gözləri tutuldu. Onlara hammayət eliən, fəqət o üç dənə heyvan idilər, gedir şəhərdən bir az qırım-qırtı çürək, meyvə tapır gətirirdilər ki, onlar acından ölməsinlər. Oğurlayıb gətirib qoyurdılar bunların dizinin üstünə.

Bir gün pişik bir cəlsə qoydü, dedi mənim dostlarım hər nə bəla gəlib bu qoca arvadın vəsiləsi ilə gəlib bizim başımıza. Günlərimizi xərab eləyib. Gəlin and içək ki, bahəm mətəhəd olaq, bir rah həll tapaq ki, Məhəmmədin həqqi bizim boynumuzda çoxdu. Bizi nicat verib ölümdən. Təsəmim tuturlar və qarğaya deyərlər ki, sən uç get dolan, gör ağ sarayı tapa bilərsən, ya yox. Əgər saray tapılsa, pişik deyər mən geib Məhəmmədin üzüyünü gətirrəm, nigaran olmayın. Təsəmim tuturlar, qarğa uçur göyə. Gedir gözdən itir. Vilayətdən uzaqlaşır və bir neçə aylar, günlər dolanır gəzir və bəlaxrə uzaqdan bir saray görür və yaxınlaşıb onu tanıyır ki, devin sarayıdı. Uçur gedir bağda qonur çınar ağacına. O tərəfə, bu tərfə baxır, Məhəmmədin arvadını görür və qoca biiman qarı arvadı da tanıyır. Və sonradan qayıdır, gəlir dustlarının yanına. Cəryanı təərifləyir. Deyər, tapdım amma yol çox uzaqdı.

Amma yolun uzaq olmağı mühüm deyil, amma yarı yolda gərək bir dəryadan geçək. Siz nə curasına gələrsiz? O zaman tula deyər, mən uzməyi başarıram və sonradan da pişik deyər, qorxmayın, mən də üzməyi bacarram. Qərar qoyurlar və yola düşürlər, mənzəlbəmənzəl dəryanı üzüp keçirlər o taya, cinlər vəlaytinə. Ta sarayin yaxınlığınacan gedirlər. Orda pişik deyər, qarğa qardaş, sən uç get bağın içində və sonra da deyər, tula qardaş, sən də sarayın kənarında müntəzir qal və uzaqlaşma. Çunki itlər səni gürsə azar– əzit olarsan, mən də gedim sarayın içinə. Burda pişik divarın gilifindən keçir sarayın həyətinə və sonra vared ulur sarayın içinə. Çox huşunu başına toplamışdı, o tərəf, bu tərəfə baxırdı ki, getsin Məhəmmədin arvadının yanına. Qoca biiman gəlir. Girir Məhəmmədin xanımının tumanının altına və orda Məhəmmədin arvadı bilir ki, öz pişikləridi. Qoca arvad gəlir, keçir gedir. Amma burda deyim qoca arvad təsəmim tütmüşdu ki, bir az müddətdən sonra dəstəmaz alıb, iki rükəət namaz qıla ki, Məhəmmədin arvadı razı ola cinlər padşahinin oğlunu qəbül elyə. Burda istirdi ki, bir az da padşahı kəsə öz işini də yekələdə ki, o zaman qəfildən huşlu pişik yetirər. Amma huşlu pişik ondan sonra kı, qoca arvad gedir otağında yemək yesin, bir az da yemək götürər gedər məxəsüs otağına ki, özü ordaydı, otaqda göydən asmışdı, o otaqda bir neçə siçan var idi. Onlara yemək apardı və dedi:

– Ey heyvanlar, yeməkləri yeyin və mənim də amantımdan də muazəb olun.

Bir azdan sonra qoca arvad getdi otağına yatdı və xuruldadı amma burda huşlu pişik aman vermədi siçanlar yeməklərini yesin. Onları qovdu, yeməgi yedi və tullandı üzüyü aldı qeynağina, qapıdan çıxdı və yoldaşlarını tapdı və hamısı şad, xuraman yola düşdülər və yetişdilər dənizin qırağına.

Burda qarğa qardaş deyər ki, üzüyü verin mənə, vama, huşlu pişik deyər, sən salarsan. mən özüm çox muazəbəm, vama

tula deyər ki, söz eyliyə bilməssiz mən gətirrəm. Amma huşlu pişik deyər ki, qardaş, dəryada balıqlar göyə hupılanda sən də balığı çox sevirsən, dilim lal, tamahıvı saxlayanmadın ağız atdın balığa uzuk düşər suya. Onda biz eliyə bilmərik Məhəmmədə nəcat və intiqamımızı o qoca biimandan alaq. Vama tula qardaş qəbül eyləməz. Nəsbət onlara zuru çox idi. Üzügü onlardan aldı vurdular suya, biz az qabağa gedəndə bir balıq tullandı göyə. Tula ac idi istədi, huşlu pişik qoymadı verdi keçdi. Amma bir azdan sonra genə balıq tullandı. Bu dəfə də bir balıq göyə tullandı, tula da tullandı ki, tutsun üzük düşdü suya. Amma huşlu pişik qulaqbəqulaq tula qardaşınan üzürdü, hamman müqəfiəlfür şığıdı, üzüyü tutdu və demədi. O vaxtı ki, dəryanın qırağına yetişdilər tula qardaş başlayır ağlamağa deyər:

– Mən day getmirəm.

Onlar soruşur ki, niyə? Deyər:

– Mənim üzüm ağ deyil. Üzüm qərədi, bəs mən nə təhər gedim Məhəmmədin yanına? Mən özmə ğələbə eliyə bilmədim, üzük düşdü suya.

Qarğa qardaş vurdu başına ağladı. Vama o zaman pişik deyər:

– Dostlar, nigaran və narahat olmayın, qəsdən bir zad çıxmaz. Mən üzüyü tutmuşam, qəmgin olmayın.

Onlar bir-birlərini öpürlər və düşürlər yola. Vama, burda belə deyim ki, Məhəmməd və anası daha da qadır deyildilər yol getsinlər və yavaş-yavaş aradan gedirdilər. Daha dir kəs yox idi onlara yetişsin, çünki gözləri tutulmüşdu. Burda belə deyim, üstü bağlı qalmasın padşah da bir neçə nəfəri məmur eləmişədi ki, qızını tapsınlar. Amma onlar da bir iş görə bilməmişdilər. Bəlaxrə huşlu pişik, tula qardaş və qarğa qardaş gəldilər yetişdilər və getdilər Məhəmmədin yanına. Huşlu pişik yaxınlaşdı Məhəmmədə, nəfəs elədi və üzüyü qoydu Məhəmmədin dizinin üstünə. Məhəmmədin əlini gətirdi qoydu üzügün üstünə. O

zaman Məhəmməd bildi ki, pişik tapılıb və bir az üzügünən əlləşdi, bildi ki, üzük Süleyman peyğəmbərin üzügüdü. Çox çətinniginən durdu ayağa. Bir az su tapdı, dəstmaz aldı. İki rükət namaz qıldı və Allahdan istədi ki, Süleyman peyğəməbərin eşqinə arvadı və sarayı, təmam bağ-bağat və saylları öz yerinə qayıtsın və o qoca arvad olsun və anasının və üzünün güzləri də görsün və şəfa tapsın. Bəli, vəqti ki Məhəmməd gözünü açdı, gördü ki, qəsr öz yerində, dustları da vardı. Məhəmməd heyvanlardan qədrdanlıq və təşəkkür elədi və arvadı Məhəmməddən özr istədi ki, o bais oldu ki, onun sirri açılsın, yan olsun və amma qoca biman da bu bəlanı onların başına gətirsin. Hamılıqdan gedirlər o qoca arvadın yanına deyərlər ki, ey bədcins qoca, biiman qarı, sənə ki, biz pislik eləməmişdik ki, sən bu bəlanı bizim başımıza gətirdin. Amma qoca biiman deyər ki, siz əştbayə eləyirsiz. Sizin hamız yatmışdız, siz yuxu görmüsüz. Heç ətfaq düşəmyib. Amma burda huşlu pişik gəlir qabağa və həmçinin tula qardaş və qarğa qardaş. Şəhadət verirlər– biz bu vilayətdən o vilayətə gedib gəlməklərini söyləyirlər və Məhəmmədin arvadı gəlir qabağa şəhadət verir, o vilayətdən cəryanı, macəranı təərif eylər. Daha qoca biiman arvadın sözü olmur danışmağa. Burda hamı təsəmim tutarlar, Məhəmmədin arvadı, tula qardaş, huşlu pişik və qarğa qardaş qoca biiman arvadı bəsdi deyincə vururlar və sümüklərini əzirlər və sonradan hamı qayıdır öz yerinə. Sarayda şad– xuraman zəndganlıqlarına davam verərlər. Nağıl burda sona çatır. Deyər yedi, içdi, yerə keçdi, göydən üç alma düşdü: biri mənim, biri özümün, biri də nağıl deyənin.

## Palazqulağın nağılı

Biri var idi, biri yox idi. Tanrıdan suvay heç kim yox idi. Bir zaman bir padşah var idi. Onun bir qızı var idi. O mahalın qızları belə qərara gəldilər ki, birlikdə seyrangaha çıxsınlar.

Padşahın qızı da qızlara qoşuldu. Qızlar bir meşəyə çatdılar. O meşədə qorxulu bir ayı yaşayırdı. Ayı qızlara hücum etdi. Qızlar qaçıb ayının təhlükəsindən qurtardılar. Amma padşahın qızı qaça bilmədi. Ayı onu tutub kağasına (mağar) apardı. Qızların qalanı evlərinə qayıtdı. Ayı zorla padşahın qızı ilə evləndi. Bir il ötdü, padşah əmr elədi ki, əhali başdan-başa qara geyinsin. Hamı qara geyindi. Padşahın qızı meşədə bir oğlan doğdu. O oğlunun adını "Palazqulaq" qoydu. Oğlanın ayıdan da qan qarışıqlığı olduğuna görə tez böyüdü və güclü bir adam oldu. Bir gün anasından soruşdu ki, niyə mənim üzümün bir tərəfi tüklü, bir tərəfi tüksüzdür?!

Padşahın qızı dedi:

– Adam olduğun görə bir tərəfin mənə, o biri tərəfi isə heyvan olduğuna görə atana oxşayıbdır.

Padşahın qızının oğlu başdan gəlib keçənləri anasından soruşdu. Padşahın qızı da olmuşları öz oğluna dedi. Oğlan özü ilə qərarlaşdı ki, ayını tapıb öldürsün. Ayı həmişə kağasından gedəndə kağanın qapısına yekə-yekə daşlar qoyardı ki, padşahın qızı və onun oğlu oradan qaça bilməsinlər. Oğlan ayını öldürməgə görə elə bir ox-kaman qayırdı ki, onun oxu yekə-yekə daşlardan da keçirdi. Gecələmişdi. Ayı gedib dolanıb, yeyib-içib kağaya qayıdıdı. O, kağaya yaxınlaşanda gördü ki, oğlu kağanın qapısına qoyulan yekə daşı götürübdü. Ayı acıqlanıb özünü kağaya yetirmək istəyirdi ki, oğlan kağanın ağzına qoyulan daşı başına qaldırıb ayıya sarı tulladı. Daş ayını tutmadı, ayı daha da acıqlanıb nənə-bala hər ikisinə hücum etdi. Oğlan kamana bir ox qoyub ayıya atdı. Ox ayının ürəyindən tutub onu öldürdü. Onlar ana-bala padşahın evin sarı yola düşdülər. Qəsrə yaxınlaşanda gördülər ki, bir əkinçi qara geyinib. Padşahın qızı ondan soruşdu ki, niyə qara geyinmisən. O dedi:

– Neçə il qabaq padşahın bir qızı itmişdi. Ondan bəri biz qara geyinirik.

Padşahın qızı dedi ki, əgər o itən qız mən olsam, gəlişimi padşaha xəbər verərsən, ya yox? Əkinçi dayanmadan şahın evinə gedib, qızın nişanlarını şaha dedi. Şah ona dedi:

– Əgər dedikərin düz olsa, sənə öz ağırlığında qızıl verəcəyəm, yoxsa yalan olsa, ölümlə cəzalanacaqsan.

Onlar hamılıqca qızın yanına getdilər və gördülər ki, padşahın qızı neçə ildən sonra qayıdıb gəlib. Onlar sevincək şahın qəsrinə qayıtdılar. Oğlan şəhərdə dərs oxumağa başladı. O, şərur və əziyətcil bir adam idi. Şəhər adamları onun əlindən cana gəlmişdi.

O şəhərdə çox güclü pəhləvanlar var idi ki, onlar da onun əlindən gəlmirdilər. Bir gün Palazqulaq yolunan gedirdi, o gördü ki, bir kişi dağı alıb belinə gedir. Palazqulaq soruşdu ki, bu dağı hara aparırsan? Kişi dedi:

– Aparıram Palazqulağı öldürəm.

O dedi:

– Palazqulaq mənəm!

Kişi dağı saldı Palazqulağın üstünə, ona kar salmadı. O, dağın altından qalxıb kişini öldürə ki, kişi yalvar-yaxar elədi və ona qardaş olmaq sözü verdi. Onlar qardaş olub yola davam etdilər. Onlar bir az yol getmişdilər ki, gördülər bir kişi bir çinar ağacını alıb çiyninə gedir. Dedilər:

– Hara belə?

O, dedi:

– Gedirəm Palazqulağı öldürəm.

Oğlan dedi:

– Palazqulaq mənəm!

Çinarla onu vurdu. Palazqulaq çinarı göydə tutub sındırdı, atdı. Kişi qorxusundan Palazqulağa sığındı və dedi:

– Mən də sənlənəm.

Beləliklə, onlar üç qardaş oldular. Onlar getdilər, getdilər bir şəhərə çatdılar. O şəhərdə adam yox idi. Şəhər bomboş idi. Palazqulaq dedi:

– Bizim yerimiz təkcə buradır.

Onlar orada dirilik qurub yaşamağa başladılar. Hər gün bir nəfər ev işlərinə, qalanları da eşik işlərinə və şikara gedib yemək gətirirdilər. Onlar yeməyi hazırlayıb qurtaranda bir uzun və heykəlli kişi gəlib yeməgi yeyib, yola düşüb gedirdi. Hər gün beləliklə keçirdi. Üçü də oturdular ki, bir çarə tapsınlar. Bu qərara gəldilər ki, onu təqib edib qəsdini və kim olduğunu bilsinlər. Gələcək gün Palazqulaqla qardaşları o uzun kişinin ardınca olub, gördülər ki, tərəf getdi-getdi bir quyuya yetişdi. O quyudan od qalxırdı. Kişi quyuya düşdü. Palazqulaq da işdən baş açmaq üçün onun ardınca quyuya düşdü. Qardaşları Palazqulağı bir uzun iplən quyuya salladı və onu quyunun eşiyində gözləməgə başladılar. Palazqulaq quyuya endikdə gördü ki, quyunun dibində soyuq hava var və bir qoca kişi quyunun dibində oturub. Palazqulaq kişini görən kimi xəncərini çəkib, qoca kişinin qıçını yaraladı. Onlar bir-birilərilə döyüşdülər. Palazqulaq kişini öldürdü. Kişinin neçə qardaşı da var idi. Palazqulaq kişinin qardaşalarını da bir-bir öldürdü.

O kişinin qardaşlarını öldürdükdə hərəsinin yanıda bir qız tapırdı. O qoca kişinin yanında bir qız var idi. O başdan gəlib-keçənləri Palazqulağa açdı. Palazqulaq susuzlamışdı. Getdi bulaqdan su içsin. Bulağın gözündə bir əjdaha var idi. O əjdaha suyun qabağın almışdı və su axmırdı. Qaranlıq şəhərin adamları da susuzluqdan korluq çəkirdilər. Oranın padşahı Palazqulağa dedi:

– Əjdahanı öldürsən, qızımı sənə ərə verərəm.

O mahalın adamları su içmək üçün gündə əjdahaya bir qız ötüzdürürdülər. Əjdaha qızları yemək üçün qırağa gedirdi, bulağın gözü açılırdı və su gəlirdi. O gün də növbə padşahın

qızının idi. Palazqulaq əjdahanı öldürmək istəyirdi. Amma çətin iş idi. O qaranlıq yerin adamları deyirdi ki, ona yaxınlaşmaq olmaz və hər kimsə ona yaxınlaşsa, əjdahanın zəhəri onu su elər. Palazqulaq özünə kəsərli qılınc qayırdı və neçə qat tikilmiş keçədən özünə paltar tikdirdi ki, əjdahanın zəhərinin qabağını alsın. O, istəyirdi ki, əjdahanı öldürməklə o qaranlıq dünyada yaşayan milləti qurtuluşa çıxartsın. O, paltarın geyib, qılıncı götürüb, əjdahanı öldürməgə getdi. Əjdaha onu kamına çəkməgə görə var gücü ilə havanı qarnına somururdu. Palazqulaq qılıncını dik saxlamışdı, əjdaha onu içəri çəkdikcə Palazqulağın iti qılıncı da onu kəsə-kəsə irəliləyirdi. Döyüşün sonu əjdahanın iki bölünməsilə başa çatdı. Palazqulaq əjdahanın yarı parçasını götürüb atdı şəhərin xaraba məhləsinə, əjdahanın ağırlığı xaraba məhəlləni torpağınan bir elədi. Əjdahanın bölünməsindən adamlar şadlığa başladılar. Padşah Palazqulaqdan istədi ki, ondan bir ənam istəsin. Amma Palazqulaq dedi ki, qaranlıq şəhərdə yaşayan adamları işıqlı dünyaya qaytarsın. Hamı qayıdışa çarə yolu axtarırdı. Buna görə ki, bu iş çox çətin bir iş idi. Deyirdilər, bu işi yalnız Zümrüd quşu görə bilər. Zümrüd quşu bir ucaboy çinarın qanadında yuva qurmuşdu orada yaşayırdı. Hər il Zümrüd quşunun cücələrini bir ayrı əjdaha gəlib yeyirdi və Zümrüd quşu balasız qalırdı. Zümrüd quşu Palazqulağa dedi:

– Əgər bizi əjdahanın əlindən qutarsan və o birisi əjdahanı da öldürsən, mən işıqlı dünyaya getməgin yolunu sizə göstərərəm.

Palazqulaq əvəlki əjdahanı öldürdüyü kimi, ikinci əjdahanı da öldürdü və hamını sevindirdi. Palazqulağın qaranlıq dünyadan işıqlı dünyaya qayıtma zamanı gəlib çatdı, onun uzaqlaşmasından hamı narahat idi. Hamı istəyirdi ki, o yeraltı qaranlıq dünyada qalsın. Amma o, qayıtmağa tələsirdi, buna görə ki, eşikdə, quyunun başında qardaşları onu gözləyirdi.

Zümrüd quşu dedi, gərək yeddi inək kəsdirəsən, ətlərini qızartdırıb və yeddi inək dərisi hazırlayasan. Diriləri su ilən doldurasan. Palazqulaq onun dediyini elədi və camaat da ona kömək eləyirdi. Səfər zamanı gəlib çatdı. Yeməkləri Zümrüd quşunun qanadları üstünə qoydular. Palazqulaq da mindi Zümrüd quşunun belinə. Zümrüd quşu dedi:

– Hər vaxt mən desəm acmışam, qızarılmış inəklərin birini atarsan mənim ağzıma və hər vaxt susamışam desəm, bir tulux su verərsən içərəm. Mən sizi yeddi gecə, gündüzə aparacağam işıqlı dünyaya.

Palazqulaq qaranlıq dünyanın adamlarıyla gör-görüş edib, ayrıldı. Zümrüd quşu uçmağa başladı. O, hər vaxt susuzam deyəndə bir inək tuluğu dolusu su, hər vaxt acam deyəndə qızardılmış inək cəmdəgi ağzına atılırdı. Yolda inək cəmdəginin biri düşdü. Zümrüd quşu acam deyədə Palazqulaq öz budunun ətindən kəsib ona verdi. Zümrüd quşu gördü bu ət adam ətidi. Quş bunu yemir və quyunun ağzına çatanadək ağzında saxlayır. Quş deyir:

– Məqsədə çatdıq, bu sən, bu da işıqlı dünya. O da qardaşların, get, onların yanına. Səni gözləyirlər.

Palazqulaq qıçınnan ət kəsdiyinə görə yeriyə bilmirdi. Dedi:

– Gedərəm, hələ sən get.

Zümrüd quşu gördü o, yol yeriyə bilmir. O, Palazqulağın budunun ətini ağzından çıxarıb budun kəsik yerinə qoyur, ağzının suyundan onun yarasına sürtür. Palazqulağın qıçının ətinin yarası yaxşı olur. Zümrüd quşu öz qanadlarından iki lələk çəkib Palazqulağa verir və deyir ki, harda çətinliyə düşsən, mən sənin yardımına gələcəyəm. Palazqulaq və qardaşları yeddi ildən sonra öz şəhərlərinə çatdılar. Onlar ellərinin yanına qayıdandan sonra şəhərdə aramlıqla yaşayırdılar və özgələrə ehtiram edirdilər. Yaşayışda elədikləri ancaq və ancaq ayrılarına yardım və yaxşılıq idi.

## Əhməd Tərəkəmə

Bir gün var idi, bir gün yox idi. Allahdan sonra heç kəs yox idi. Bir dana padşah var idi. Bir dana vəziri. Bir gün vəzir deyər:

– Qebleyi-aləm sağ olsun. Mənə bir icazə ver gedim gəzim dolanım, fikrim açılsın, dincəlim. Çoxdandı da eşigə çıxmamışam.

Padşah deyər:

– Vəzir, neçə gün gedirsən, get dolan.

Vəzir deyir ki, qırx gün. Sabaxısı durar, düşər yola, başlar gəzməyə. Bu şəhərdən o şəhərə. O kənddən, bu kəndə. Yetişər bir suyun başına. Görər, bir qoca kişi əgləşib əlində iki əksi. Birinə baxır ağlır, o birinə baxır gülür. Vəzir mat qalar. Gedər yaxına soruşar:

– Ay qoca əmi, bu nə işdi? Ağlamaq nədi, gülmək nədi?

Qoca deyər:

– Bu əksi ki, görürsən baxıram ona gülürəm. Əhməd tərəkəmənin qızı Pəridi. Dünyada ona tay gözəl ola bilməz. Aşiq olmuşam, istirəm alam. Bu birisi əksidə mən özüməm. Baxıram ağlıram ki, mən qocalıqda kişiyə hansı qız gələr.

Vəzir baxar görər qəribə qızdı. İki göz istir tamaşaya. Öz-özünə deyər ki, yaxşısı budu, bunu alım, aparım padşaha töhfə. Qocaya deyər:

– Qoca, gəl bunu sat, mən alım. Sən özünə ayrısın taparsan.

Qoca qəbul eləməz. Vəzir çıxardar, yüz tümən verər qocaya, deyər:

– Gəl, al bu yüz tümən sənin, əksi sat, mən alım. Yüz tümən də sənə çox puldu. Apar ver işinə, maya qoy, qabağa düş.

Qoca pulu alar. Əksi verər vəzirə. Vəzir sevincək qoyar, gələr öz şəhərinə.

Padşah deyər:

– Vəzir, bizə nə sovqat gətirmisən?

Vəzir deyər:

– Padşah, sənə layiq bir əksi gətirmişəm.

İstər çıxarsın, əksi versin, padşah deyər:

– Vəzir, daha heç şey tapmadın? Mən əksi nə eliyəcəgəm?

İstəməyir. Deyər ki,onu da verdim özünə. Vəzir yazıq olar. Padşah gedər namaz qılmağa. Namaz üstə fikirləşər ki, vəzir də yazıq idi. Ürəginə dəgdim. Yaxşıdı əksi biləsindən alam, sevməsə ataram eşıgə.

Namazı qurtarandan sonra gələr vəzirə deyər:

– Vəzir, birdən ürəginə dəgər, ha! Mən şuxluq elədim, əksi ver baxım.

Vəzir çıxardar Pərinin əksini verər. Padşah bir baxar, ruhu bacaları gəzər, huşu başından olar. Deyər:

– Vəzir, bu qız kimin qızıdı? Gərək deyəsən, mən bunu almasam ölərəm.

Vəzir açar başına gələni deyər. Padşah deyər:

– Vəzir, dur məni apar su başına qocanın yanına. Daha mən dayanmaram.

Durallar, ikisi gedərlər, yetişərlər qocanın yanına. Özləri də dərviş paltarı geymişdilər. Padşah deyər:

– Qoca, bu qız kimdi?

Qoca deyər:

– Bu, Əhməd Tərəkəmənin qızı Pəridi. Əhməd Tərəkəmə də bir devdi.

Padşah deyər:

– Pəri heç su başına gələr?

Qoca deyər:

– Niyə, hərdəmbir. Amma çox vaxt bir dana külfəti var, adı Ağca, o gələr su aparar.

Padşah deyər:

– Vəzir, 40 günəcə padşahlığı verirəm sənə, get mənim yerimdə otur. Mən gərək o qədər burada oturam ki, Pəri gələ, onu görəm alam.

Vəzir deyər:

– Yaxşı.

Vəzir buları qoyar gedər. Qoca da deyər ki, daha siz olduğuz yerdə Pəri məni saymaz. Durum, gedim başıma çarə qılım. O da durar, gedər. Padşah tək qalar. Yuxu tutar, uzanar yatar. Bu yandan vurar külfət gələr su başına. Görər bir dana oğlan uzanıb yatıb nə gözəllikdə, iki göz istir tamaşa. Deyər ki, Allah nə olardı bu bir oyanaydı, mənlə danışardı. Öz-özünə deyər:

– Görəsən adı nəmənədi? Deyər ki, mən tüklü deyəcəgəm. Bu yol deyər:

Canım tüklü, gözüm tüklü,
Canım sənə qurban tüklü,
Nə karasan – şikarasan,
Şikara deyəllər sənə.

Padşah birdən gözün açar, qırx bir qız durub baş üstündə söz deyir. Bilər Ağcadı. Ağzın açar deyir:

Canım Ağca, gözüm
Canım sənə qurban Ağca,
Pərini görəm gəlmişəm,
Pərini deyəm gəlmişəm.

Ağca deyər:

Canım tüklü, gözüm tüklü,
Canım sənə qurban tüklu,
Sən məndən bir cüt busə al,
Pərini yetirim sənə.

Padşah deyər:

Canım Ağca, gözüm Ağca,
Canım sənə qurban Ağca,

Bu bağ Pərinin bağıdı,
Kilidin verməərəm sənə.

Ağca deyər, padşah deyər axırı olmaz. Padşah Ağcadan bir cüt öpüş alar. Ağca hovludan qabları boş-boşuna götürər çıxar gedər.

Pəri soruşar:

– Qız, bəs qabları niyə boş gətirmisən? Suyu hanı?

Ağca deyər:

– Xanım gün qurutdu.

Sonra görər, Pəri inanmadı, deyər:

– Xanım, mən görəni sən görsəydin, heç qabları da gətirməzdin. Bir dana oğlan var su başında səndən ötrü gəlib. Mən adını tüklü qoydum.

Pəri deyər ki, dur gedək görüm necə oğlandı.

Durarlar ikisi gələrlər. Pəri görər, padşah oturub deyər:

Canım tüklü, gözüm tüklü,
Canım sənə qurban tüklü,
Nə karasan – şikarasan?
Şikara deyərlər sənə.

Padşah deyər:

Canım Pəri, gözüm Pəri,
Canım sənə qurban Pəri,
Pərini görəm gəlmişəm,
Pərini deyəm gəlmişəm.

Pəri deyər:

Canım tüklü, gözüm tüklü,
Canım sənə qurban tüklü.
Sənin adın tüklü degil,
Adını bəyan eylə mənə.

Padşah deyər:

Canım Pəri, gözüm Pəri,
Canım sənə qurban Pəri.

Mənim adım tüklü dəgil,
Mənim adım Fərhad şahdı.

Pəri deyər:

– İndiki belə oldu, məndən ötrü gəlmisən, dur gedək bizə. Amma mənim dədəm devdi. Bilsə, səni öldürər. Sürümüzün çobanı yoxdu. Deyəcəgəm, mən səni çoban tutmuşam.

Beləliklə, qoyarlar gedəllər evə. Gecə olar Əhməd tərəkəmə anqıra-anqıra gələr. Pəri bir badyə qatıq, bir teşt su, bir dəstə çörək gətirər, qoyar. Əhməd Tərəkəmə doğrama elər, içər. Yeyəndən sonra qız deyər:

– Ata, bir dana çoban tutmuşam.

Əhməd Tərəkəmə deyər ki, get gətir, görüm nə cür oğlandı. Qız gedər, padşahı gətirər. Dev bir baxar deyər:

– Qızım, elə bil bundan çoban çıxmaz.

Qız deyər:

– Ata, qoy bir mülazə eylək də. Nə olar?

Dev dedi:

– Çox yaxşı, bir sürünü qat qabağına, getsin o biri çobanların yanına. İt aparar nişan verər.

Sabah qız padşaha deyər:

– Böyük çobanı gör, hər zadı de bilsin də. O qoymaz çox inciyəsən. Bir az qal mən özüm gəlim yanına. Padşah qoyunu qatar qabağına gedər, yetişər o biri otuz doqquz çobanın yanına. Qorxar, istəməz böyük çobana sözün desin. Çöldə bir tərəfdə baş saxlar. Günü axşamacan bir daş dibində yatırdı. Sürü də dağılırdı o yan bu yana.

Üç-dörd günəcə sürü yarıya yetişdi. O biri çobanlar dedilər:

– Belə ki, olmaz. Əyər bu gün də yatsa öldürəcəyik. Yoxsa Əhməd Tərəkəmə gələr bizim dədəmizi yandırar. Sabahısı yenə padşah yatar, otuz doqquz dəgənək əldə cobanlar

gələrlər baş üstünə. İstərlər yendirsənlər ki, padşah gözün açar, deyər:

– Əl saxlayın, sözüm var.

Hamı əl saxlar, padşah böyük çobana sözün deyər. Böyük çoban bu yol deyər ki, bəs bağışlayın. Biz səni tanımamışıq.

Çobanlar da deyər:

– Gədə, şaha baş əyin! Baş əyin!

Hamı baş əgər, çöldə daşdan bir yer düzəldərlər. Padşahı qoyarlar orada qalar. Qoyunların da hərə bir azın götürər, qatar öz davarına. Padşahı əzizlərlər. Bir gün vurar, Əhməd tərəkəmə durar, gələr çobanlara baş çəkməyə.

Bu yandan Pəri görər, dədəsi getdi eşigə. Fikirləşər ki, neyləyim necə eliyim ki, özümü yetirim Fərhad şaha. Bir dana qarı var idi. Durar, gedər onun evinə, deyər:

– Qarı nənə, başına dolanım. Pəəs, hal budu. Dədəm gəlsə, özümü vuracağam naxoşluğa. Gəlib səni gətirsə, deyərsən ki, ötür qızı getsin çobanların yanına, havası dəgişilsin, düzəlsin.

Qarı deyər:

– Yaxşı.

İndi sənə deyim kimdən, Əhməd Tərəkəmə gələr, yetişər çobanların yanına. Görər sonrakı, çoban oturub, hamı beləsin əzizləyir. Çobanlar onu görəndə deyərlər:

– Şaha baş əg!... baş əg!...

Əhməd Tərəkəmə saymaz. Çobanlar əl elərlər dəgənəklərə, nə yemisən turşulu aş. Vurarlar eni-uzunu bir olar. Əhməd Tərəkəmə görər baş saxlayanmayacaq, qoyar qaçar. Gələr qızına deyər:

– Qız, bu nə çobandı tutmusan?

Görər qızı sızlır, deyər:

– Qızım, sənə nə oldu?

Deyər:

– Elə sən gedənnən halım yoxdu. Get qarı nənəni gətir görsün nəyimdi.

Əhməd Tərəkəmə gedər qarını gətirər. Qarı bir baxar, Pərini o yan, bu yan edər, deyər:

– Bir zadı dəgil. Göndər getsin çobanların yanında bir az qalsın? Havası dəyişilsin. Toxdar. Qəlbi sıxılar da, ondandı.

Dev Pəriyə deyər:

– Get qırx günəcə qal. Havan dəyişilsin.

Pəri gedər qalar Fərhad şahın yanında. Yeyirdilər, içirdilər, çobanlar da qulluq eləyirdilər.

Bir gün ordan ayrı bir padşahın karvanı keçirdi. Görərlər bir danə gözəl qız var, bir dana çoban. Deyərlər ki, bu gözəllikdə qız cobana layəq dəgil. Gəlin bunu aparaq öz şahımıza. Gələrlər çobanı tutarlar bağlarlar, Pərini götürər, qaçırdarlar.

Bu yandan çobanların xəbəri olar. Düşərlər karvanın dalıyca. Onda yetişərlər ki, Pərini aparırdılar padşahın yanına.

Padşah deyər:

Canım Pəri, gözüm Pəri!
Canım sənə qurban Pəri!
Çobana layeq deyilsən.
Gəl, səni vəzirə alım.

Pəri deyər:

Mənim şahım qibləgahım,
Canım qurban olsun sənə.
Vəziri mən istəmirəm,
Xan çobanı sən ver mənə.

Padşah deyər:

Canım Pəri, gözüm Pəri!
Canım sənə qurban Pəri!
Çobana layeq degilsən,
Gəl, səni alım oğluma.

Pəri yenə öz sözün deyər, istəməz, padşah deyər:

Canım Pəri, gözüm Pəri!
Canım sənə qurban Pəri!
Çobana layeq degilsən,
Gəl səni alım özümə.

Pəri yenə öz sözün deyər, getməz, padşah acıqlanar deyər:

– Babam, gedin bu çobanı gətirin, görüm nə cür adamdı ki, qız ondan əl çəkmir.

Gedəllər gətirərlər. Padşah deyər aparın öldürün.

Apararlar, soyundurarlar ki, öldürsünlər görərlər ki, altdan bir yaxşı paltarı çıxdı, bir dana bazubənd qolda, padşahının tayı, deyərlər ki, bax hələ oğurluq da eləyib.

Bazubəndi apararlar padşahın yanına. Padşah baxar öz bazubəndinə deyər:

– Yox, oğurlamayıb mənimki yerindədi.

Gedin gətirin görüm bunu hardan tapıb, kimdi. Fərhad şahı gətirərlər Padşah deyər:

– Bəs, sən kimsən?

Fərhad şah açar başına gələni deyər. Padşah deyər:

– Məni bağışla. Səni tanımamışam. Atanla mən siğə qardaş idik. Bazubəndləri də cüt almışdıq.

Bu yol, çəkər Fərhad şahın alnından öpər, əzizlər, sonra verər yeddi gün, yeddi gecə toy-tabaq elərlər. Şah Pəri xanımı götürər, gələr öz yerinə. Vəzirə deyər:

– Getdim Pərini gətirdim gəldim.

Yeyəllər, icəllər, kecəllər.

## Səxavət nəmənədir?

Bir gün şah Abbas vəzirindən soruşur:

– Səxavət cənbədədir, ya varlı-yoxsulluqda?

Vəzir deyir:

– Qurban, bir adamın var-dövləti olmasa, nəmənədən verəcək?

Neçə gün sonra şah Abbas dərviş paltarında gedir. Vəzirin qapısın döyür və deyir:

– Allah qonağıyam.

Qapıçı içəri gətirib vəzirə deyir. Vəzir:

– Başdan sov getsin.

Qapıçı gəlib dərvişə deyir:

– Ağa evdə deyil.

Bir gün şah Abbas vəzirlə çıxıb dərviş paltarında gəzirdilər. Axşamdır. Üzləri qaranlığa düşür. Vəzir deyir:

– Qurban, İsfahana yetişə bilməyəcəyik. O uzaqda bir çadır görünür, gedən gecəni bir təhər orda keçirdən. Səhər gedərik. Şah Abbas vəzirin təklifin bəyənir gedirlər, çadırda bir qarı varıydı.

Çöl adamı qonaq sevən olar. Qarı çıxır, atlar tutur, aparır naxura bağlayacaq idi, bağlayır, gəlir qonaqların yanına. Bu zaman qarının çoban oğlu yoldan yetişir, üç quzu qabağına qatıb gətirirdi. Qonaqları gördükdə quzuların birini kəsir, kabab eləyir. Şah Abbas deyir:

– Biz ürək-böyrək yeyirik. Bu quzunun ürək-böyrəyi bizi nə görəcək!

Qarının oğlu dedi:

– Altı ay işləmişəm həqqimə üç quzu veriblər. Bunların üçünü də kəsəcəyəm, ürək-böyrəyin yeyərsiniz.

Quzuları kəsir. Şah Abbas deyir:

– Sabah bu quzuların ətin gətirsən şəhrə, yaxşı pula gedər.

Gecəni qalır, sabaxısı şah Abbasla vəzir İsfahana qayıdırlar. Şah Abbas şəhərin qapıçısına tapşırır, bu adda, bu nişanda gənc çoban gələrsə, onu götürün mənim yanıma.

O zaman şəhərin dörd qapısı varıydı. İkisindən girər, ikisindən çıxardılar. Çoban quzuların ətin gətirir şəhərdə satmağa. Qapıdan girəndə tutub aparırlar Şah Abbasın yanına. Şah Abbas soruşur:

– Səxavət cənbədədir, ya var-yoxsulluqda?!

Çoban deyir:

– Qurban, çənbədədir.

Şah Abbas soruşur, adın nəmənədir?

Deyir:

– Allahverdi.

Şah Abbas Allahverdini özünə vəzir eyləyir. Bir müddət keçir. Neçə otaq varıydı. Allahverdi xan vəzir onların hamısın şahın üzünə açar, amma bir otağın qapısın açmazıydı.

Paxıllıq edənlər şaha deyirlər:

– Allahverdi xan vəzir otaqda gizlincə özünə qızıl və ləl-cəvahər yığıb saxlayır ki, şahın da üzünə damın qapsını açmır. Bu sözlərdən Şah Abbas şəklənir.

Vəzirə əmr edir, gərək o damın qapısın açasan. Allahverdi xan vəzir qapını açır. Şah Abbas nə görsəydi yaxşıydı? Bir cüt çarıx, bir kisə və bir çoban dəyənəgi. Allahverdi xan vəzir Şah Abbasa deyir:

– Qurban, hərdən gəlib bunlara baxıram yadıma düşə əvvəligim nəydi, özümə məğrur olmayam.

# LƏTİFƏLƏR

## Ustad aşıqla şagird aşıq

Bir aşığın şagirdi ustadının yanında söz sənətini öyrənir, sazı götürüb düşür el-obanı gəzməyə. Toylarda, şənliklərdə deyir, çalır-çağırır. Əyri-əsgiyini də qaldırıb bu sənətə mükəmməl yiyələnir. Neçə ildən sonra dünənki şagird, bu günki aşıq bir məktubla ustadına meydan oxuyub belə yazır: Sevimli ustadım, necə ildir gəzib yorulmuşam. Istəyirəm gəlib öz yurdumda əkincilik ilə məşğul olam. Mənə bir cüt öküz alarsan, nə qara olar, nə sarı, nə qızılı, nə boz, nə ağ və nə...... bütün boyaları sayır ki, öküzlərin rəngi bunların heç birisi olmasın.

Məktub ustada catanda götürüb oxuyanda belə yazır: “Sən deyən öküzləri aldım, sən də nə şənbə gəl, nə yekşənbə gəl, və nə cümə gəl (həftənin bütün günlərini sayır ki, bunlarda gəlmə). Hansı gün gəlirsən gəl.

## Yazıq o aradakı

Bir çoban biçinçiləri lağa qoyub deyirdi:

– Biçin biçmək nəmənədir, mən olarsam bir saatda zəmini biçib bağ tökərəm.

Bir gün biçinçilər qərarlaşır, neçə artıq oraq gətirir və çobana deyirlər:

– Belə ki, döşünə döyürsən bu gün sən də biç, görək nə cür biçirsən?

Çoban üzə düşər, orağı götürər onların ikisinin arasında bir kişi qatıb qabağına biçməyə məşğul olur. Bir az biçir bərk yorulur. Arı gəlir deyə yorulmuşam, orağı daşa vurub sındırır. Başqa bir oraq verirlər əlinə. Beləliklə, neçə oraq sındırır, başqasın verirlər.

Başınızı ağrıtmayım, axşamadək çobanı işıqdan salırlar. O gündən çoban harada biçinçiləri görəndə deyir:

– O yandakı yox, bu yandakı yox, yazıq aradakı.

## Duzu da mən alaram, oxu!

Bir oğlanın dədəsi bənna idi. Oğlan da dədəsinin yanına gedib işləyir və hərdən şövqə gələr səsin başına atar və oxuyardı. Bir gün ata oğluna dedi:

– Evin çörəyin, ətin, pendirin hər şeyin mən alacağam. Sən təkcə evin duzun al.

Oğlan fikirləşdi: Çörək də, ət də peynir də və hətta xiyar da duz istəyir üstünə səpəsən. Mən bu qədər duzu necə alacağam? Oğlan qüssəyə düşür. Daha iş üstündə oxumağa şövqi gəlməyir. Bir gün oğlan başqa birinin oğulun sakit gördükdə atasından soruşur:

– Onun da oğulu evin duzun alır?

Ata barmağın dişləyir və oğluna deyir:

– Oğul, oxu! Evin duzunu da mən alacağam.

## Müəllim və şagird

Müəllim əsəblə soruşur:

– Nə üçün dərsə gecikirsən?

Həsən cavab verir:

– Müəllim yatıb qalmışdım, çünki gözəl bir yuxu görürdüm.

Müəllim soruşur:

– Nə yuxu görürdün?

– Görürdüm ki, qatarla səfərə çıxmışam.

Müəllim üzünü başqa şagirdə tutub soruşur:

– Sən nə üçün gecikibsən?

– Mən də yatıb qalmışam. Çünki mən də dayanacaqda durub Həsəni yola salırdım.

## Ya nahar vaxtıdı, ya da şam

Ədəbiyyat dərsində müəllim şagirddən soruşur:

– De görüm, Yaşar, “mən yeyirəm, sən yeyirsən, o yeyir” hansı zamana aiddir?

Yaşar cavab verir:

– Müəllim, hamı yediyi üçün ya nahar vaxtıdı, ya da şam.

## Adım Salavatdır

İlk dəfə sinfə gələn müəllim şagirdlərin adını bilmədiyi üçün soruşur:

– Sənin adın nədir?

– Adım Kövsərdir, müəllim.

Müəllim deyir:

– Sən Kövsər surəsini əzbər deyə bilərsən?

Uşaq “Kövsər surəsi”ni əzbər deyə bilir. Müəllim o biri uşaqdan adını soruşur. Uşaq cavab verir:

– Adım Qədirdir.

Müəllim deyir:

– “Qədir surəsi”ni əzbər deyə bilərsən?

Uşaq “Qədir surəsi”ni əzbər deyir.

Müəllim üçüncü uşaqdan adını soruşur:

O deyir:

– Mənim adım Yasindir, ama hamı mənə Salavat deyir.

* * *

Kişi arvadına deyir:

– Qəribədir, həmişə gözəl qadınlar axmaq kişilərə qismət olur.

Arvad cavab verir:

– Axır ki, mənim gözəl olduğumu etiraf etdin.

**Səni soruşurdular**

Telefon zənglərinə cavab vermək istəməyən bir kişi arvadına tapşırır ki, telefonda məni xəbər alsalar de ki, ərim evdə yoxdu.

Elə bu zaman telefon səslənir. Arvad dəstəyi götürən kimi deyir:

– Alo, təəssüf ki, ərim evdədi.

Kişi bərk qəzəblənib deyir:

– Sənən dedim ki, evdə yoxam.

Arvad cavab verir:

– Narahat olma, əzizim, səni soruşmurdular.

* * *

Bir ailə ev kirayələmək istəyir. Ev yiyəsi deyir:

– Evi verirəm, ancaq uşaqlar olmasın.

Kirayənişin deyir:

– Nə danışırsız, uşaq nədir, biz də başa düşürük.

Bir azdan ailə köçür, hay-küylə dörd uşaq pilləkənlərlə evə çıxır.

Ev yiyəsi qışqırır:

– Bu nədir, axı mən demişdim ki, uşaqlar olmasın.

Kişi cavab verir:

– Bunlar məgər uşaqdır, bunlar cindir, şeytandır.

* * *

Muğanın kəndlilərindən biri qızını şəhərə doktora aparır. Qızın qıçına bir çiban çıxmış idi. Kişi deyir:

– Doktor, istəyirəm çibana bir baxasınız.

Qız qoymayır. Dədəsi qızına hirslənib deyir:

– Ay qız, ağa doktor yeməyəcək ki, baxır!

## Dar ağacı

Bir məhkumu darda asırdılar. Çox əl-qol atır, çabalayır. Padişah əmr elədi, onu endirdilər. Məhkumdan soruşurlar:

– Bəlkə söz-sovun vardır?

Məhkumu dardan endirdilər, boğazının ovuşdura-ovuşdura dedi:

– Nə qayırırsınız, az qalmışdı boğulam.

* * *

Molla iki qarpızı qabağına qatıb yerdən dığırlaya-dığırlaya aparırdı. Molladan soruşurlar:

– Molla, niyə belə eləyirsən? Qarpızları götür qucağına apar da. Molla cavab verir:

– Belə aparsam, xalq mənim səfehliyimi hardan biləcək?!

## Molla Nəsrəddinin xəşil hekayəsi

Molla bir kənddən bir evə qonaq gedir. Xəşil bişirmişdilər. Xəşilin dadı mollanın damağına çıxıb soruşdu:

– Bu nə mənədir?

Ev yiyəsi dedi:

– Bu xəşildir.

Molla öz-özünə dedi:

– Gedim bunu arvada deyəcəyəm, gündə xəşil bişirsin. Adını yadından çıxmasın deyə yolu "xəşil" deyə-deyə gedirdi. Bir arxdan atlananda xəşil adı yadından çıxdı. Dedi, bəs xəşil arxa düşdü. Qıçların çırmalayıb girdi arxa axtarmağa. Yoldan bir kəndli keçirdi. Mollanı bu halda görüb soruşdu:

– Molla nəyin itibdir?

– Elə bir dadlı şeydir!

Kəndli də çırmalanıb girdi arxa axtarmağa. Bir az axtarandan sonra kəndli dedi:

– Molla, arxın palçığı bulamaya döndü.

Molla dedi:

– Ağrın alım, az qalıb taparsan. Yenə bir azdan, bir müddətdən sonra kəndli dedi:

– Molla, arx horraya döndü!

Molla dedi:

– Aha, qadanı alım, az qalıb tapassan.

Bir azdan yenə kəndli dedi:

– Molla, arx xəşilə döndü!

Molla dedi:

– A başına dönüm, yaxşı tapdın.

Arxdan çıxıb xəşil deyə-deyə yola düzəldi.

## Aş suyudur

Molla Nəsrəddindən soruşurlar:

– Ərəbcə "aş suyudur" nədir?

Molla ha fikirləşdi, gördü bilməyir, deyir:

– Ərəblər aşı qoymazlar soyuya. Elə dağ-dağ içərlər.

## İt

Bir gün ailə üzvləri süfrə başında nahara abguşt yeyirdilər. Bir ətli sümük çıxdı. Bala oğlan sümüyü götürüb gəmirtləməyə başladı. Anası dedi:

– Bala, sən it deyilsən ki, sümük gəmirirsən, ver atana.

## Nələr çəkmisən, qayış

Bir kənd mollası cüt ilə yer sürürdü. Cütün qayışı qırılır. Molla əmmanəsin açır, qayışın yerinə bağlayır. İki addım getməmişdir ki, əmmamə davam gətirmədən üzülür.

Molla deyir:

– Nələr çəkmisən, qayış!

## Molla Nəsrəddin qəm-qüssəni atır

Bir gün molla bir təlis dügi gətirib qoydu evə və arvadına dedi:

– Arvad, özümüz bişirəciyik. Özümüz yeyəciyik. Heç nəyin qüssəsini də eləmiyəciyik.

Söz mollanın ağzından çıxmamışdır ki, bir adam evin bacasından dedi:

– Molla, eşşəgimiz bir qoduq doğub, nə qulağı var, nə quyruğu.

Molla dizlərin qucaqlayıb oturdu. Arvadı dedi:

– Kişi, yenə nə oldu, yasa batdın? Bə bayaq nə deyirdin?

Molla dedi:

– Arvad, neyləyim, bu qoduğun nə qulağı var, nə quyruğu, palçığa batanda harasından yapışıb çıxardacaqlar.

## Oxumaq ilə ömrün münasibəti

Bir nəfər tərif adam deyərdi:

-Adam ölməmişdən qabaq oxuyanda deyər: Ay dad.... ey dad... ey dad.....

Evlənəndən sonra deyir: Ey yar, ey yar....ey yar....

Elə ki uşaq oldu deyir: Balam ay....balam ay....

Eləki qocaldı deyir: Yazıq canım ey......vay...

## Yalançılar

Bir gün bir yalançı bir məclisdə dedi ki, mənim dədəmin bir tövləsi var idi. O tövlə elə böyük idi ki, at tövlənin bu başında boğaz olsaydı o başa yetişənə tək doğardı.

Biri də yerindən qovzanıb dedi:

– O ki bir zad deyil, mənim dədəmin bir uzun ağacı var idi. Hər vaxt göy bulud olsaydı o ağacı uzadıb buludları dağıdardı.

Əvvəlki yalançı dedi:

– Pə atovinan yalan sahibi.... o yekəlikdə ağacı hara qoyardı?

İkinci yalançı dedi:

– Sənin dədənin tövləsinə.

* * *

Bir gün Molla Nəsrəddin qonşusundan bir qazan əmanət istəyir. Qonşu nə qədər bəhanə gətirsə molla əl cəkmir. Axırda qazanı alıb aparır. Sonra qazanın icinə bir balaca qazan qoyub qonşuya qaytarır. Qonşu təccüblə soruşur:

– Molla, bu nə qazandır?

Molla cavab verir:

– Qazanın doğub.

Qonşu qazanları alıb sevinir. Bu əhvalatdan bir müddət kecir. Bir gün molla həmən qonşudan bir böyük qazan istəyir. Bu dəfə qonşu sevinə-sevinə qazanı mollaya verir. Molla qazanı alıb aparır. Beş gün kecir qazan gəlmir, on gün keçir qazan gəlmir, bir ay kcir qazan gəlmir. Axırda tab gətirməyib qonşu molladan qazanın aqibətini soruşur. Molla qaş-qabağını tutuşdurub belə cavab verir:

Başın sağ olsun, qonşu! Qazanın öldü.

Qonşu acıqlı-acıqlı soruşdu:

– Qazan da ölərmi?

Molla cavab verir :

– Bəs qazan doğarmı?

## Sancılanmışam

Bir gün bir oğlan adağlıbazlığa getmişdi. Oğlanı qız ilə bir otağa saldılar. Qız bir tərəfdə, oğlan da bir tərəfdə oturub bir-birlərinə baxırdılar. Heç biri bir söz tapmırdı ki, desin. Məmulən qız utancaq olar, oğlanın vəzifəsidir ki, sözə başlasın. Lakin oğlan da utancaq idi. Hər nə bilirdi yadından çıxdı. Nə qədər özünə güc versə də bir söz tapa bilmirdi ki, söhbətin başını acsın. Axırda heç zad tapmadıqda üzünü qıza tutaraq dedi:

– Zəncəfiliniz var?

Qız vəhşətə düşərək dedi:

– Zəncəfili neyləyirsən, sancılanmısan?

Oğlan dedi:

– Yox...sancılanmamışam. Hər nə fikir elədim bir zad yadıma düşmədi, danışam dedim, ancaq bir söz deyim da.

## Qarğa balasının huşu

Qarğa çox ayıq olar. Biri yerə əgilən kimi uçub qaçar. Bir gün bir qarğa balasına nəsihət edərdi ki, bala, hər vaxt

bəni adamı gördün ki yerə əyildi daha məhtəl olma, tez qaç, çünki/ camaat daş götürüb sənə atacaq.

Balası dedi:

– Ata! Mənim nə işim vardır ki, dayanam görəm bəni– adəm yerə əyilir, daş götürür, ya yox. Mən elə bəni -adəmi görcək qaçaram.

## Desinlər ağanın nökəri də var imiş

Biri bir ayrı kənddən öz kəndlərinə qayıdarkən yaxşı qovunlar gördükdə bir dənə yaxşısını seçib alır. Yol üstə bir ağac gölgəsində oturub dincələrək qovunu kəsmək xəyalına düşür. Bıçağı çıxardıb kəsməyə başlayır. Amma qabıqları çox ətli kəsir öz yanında deyir ki, buradan gəlib gedənlər bu qabıqları bu cür ətli görsələr yəqin deyərlər ki, bu qovun yeyən “ağa”dan, “xan”dan imiş. Amma qovun çox şirin idi və qabıqları ətli kəsdiyinə görə doymadı. Hey qabıqlara baxdı. Dedi: “Yaxşısı budur ki, qabıqları gəmirim. Gəlib gedənlər desinlər ki, bu ağanın nökəri də var imiş əti də özü yeyib qabıqlarını da nökəri gəmiribdir”.

Bir yandan qovun şirin, bir tərəfdən də kişi bir azcana elə bil ki, qarınqulu idi. Gözü qabıqlarda qalır. Axırda bu qərara gəlib deyir ki:

– Qovunların qabıqlarını da yiyim, qoy gəlib gedənlər desinlər ki, bu ağanın qoyunu da var imiş.

Qabıqları da bu cürlük ilə yeyir. Amma gözü hələ doymur. Bir iki dənə toxumu ağzına atıb görür ki, yox., yumşaq təzə toxum tilif necə yeyilməidir. Deyir: – Hann... indi elə bu toxumları da yeyərəm gəlib gedənlər deyərlər ki, bu ağanın toyuğu da var imiş.

## Oğru

Bir adam bir bağa oğurluğa getmişdi. Bağın yiyəsi gəlir. Oğru gizlənməyə bir yer tapmayır, ağaca bir eşşək bağlamışdılar, gedir girir eşşəyin altına. Bağın yiyəsi gəlib oğrunu orda gördükdə soruşur:

– Gədə, sən burda nə qayırırsan?

Oğru deyir:

– Mən bu eşşəyin balasıyam.

Bağın yiyəsi dedi:

– Bu eşşək erkəkdir, erkək eşşəyin balası olmaz ki!

Oğru dedi:

– Anamdan küsüb, atamın yanına gəlmişəm.

## Gənclik, qocalıq

Bir qarı qoca ərinə deyir:

– Kişi, onda ki gənc (cavan) idin, işləyirdin, dişləyirdin, söyləyirdin, indi ki qocalıbsan, asqırırsan, öskürürsən ........

## Halallıq

Bir nəfər kürd qaçaq mal gətirmək üçün hər dəfə sərhəddən Türkiyəyə keçəndə qərargahın rəisinə o zamanın pulu qırx tümən verərmiş. Bir il kürd istəyir Məkkəyə getsin. Gedir qərargah rəisinin yanına və deyir:

– Ağa rəyis, məni halal eylə! Üç dəfə səndən izinsiz sərhəddən keçmişəm. Gəl, bu da yüz əlli tümən artığlığıca, məni halal eylə.

## Qoduğ

Bir kişinin adı Eşşək idi. Bir gün qonaqlıq qurub, qohum-qonşunu şama çağırdı. Şamdan sonra dedi:

– İstəyirəm adımı dəyişəm, sizcə adımı nə qoysam yaxşıdır?

Hərə bir söz dedi. Axırda bu qərara gəldilər ki, cün qoduğun adı eşşəkdən yaxşıdır, kişinin adı Qoduq olsun. Kişi sevinə-sevinə arvadının yanına gedib və deyir:

– Arvad muştuluğumu ver, adımı dəyişdim.

Arvad soruşdu bə yaxşı, kişi, adını nə qoydun?

– Qoduq.

Arvad kişiyə baxaraq dedi:

– Ala, başına kül ələyim, qoduq da yekəlib eşşək olacaq da!

## Meymunun pendir bölməyi

İki qarğa bir tikə pənir tapırlar. O deyir mən yiyəcəyəm, bu deyir mən yiyəcəyəm. Olmayır. Aparırlar dalanın başındakı dükançıya ki, bir meymun idi. Deyirlər:

– Bu pəniri bizim üçün iki hissəyə böl.

Meymun pəniri əlində iki bölüb hər tikəsini tərazinin bir tayına qoyur. Bir tayı ağır gəlir. Ondan bir az qopardıb ağızına. Bu dəfə o birsi tayı ağır gəlir. Bir az qopardır qoyur ağızına, habelə tərazinin o tayından və bu tayındakı pənirlərdən qopardıb ağızına qoyur. Sonunda tərazinin bir tayında bir kiçik penir qalır. Onu götürüb qoyur ağızına və deyir:

– Bu da mənim zəhmət həqqim.

## İpi çəkdilər

Qədim şahlardan birinin bir pis xasyəti varıydı ki, yekə-yekə yalanlar danışardı. Hər nə qədər çalışardısa, bu xasyətini tərgidə bilməyirdi. Bir gün vəzir, vəkil şahla söhbət edib deyirlər:

– Başqa şahların elçiləri sarayımıza gəlib səni belə görəndə, abırımız gedir.

Qərar qoyurlar şahın qıçına bir ip bağlayıb, şalvarının altından keçirib ipin ucunu vəzirin əlinə versinnər. Hər vəqt şah danışanda vəzir ipi çəksin, şah özünə gəlib sözünü kəssin. Belə olur. Bir gün ayrı məmləkətin şəhərinin elçisi saraya gəlib, şahla söhbət edirlər. Şah qızışıb yekə-yekə yalanlara başlayır. Bu halda vəzir ipi çəkir, şah susur. Elçi maraqlandığı halda soruşur:

– Bəs söhbətiniz necə oldu?

Şah cavab verir:

– Daha ipi çəkdilər.

Elçi mürəxxəs olub qapıdan çıxanda, şah elçini daldan çağırır. Elçi qayıdır. Vəzir ipi çəkir. Elçini qaytarıb yola salırlar. Sonra vəzir padşahdan soruşur:

– Elçini çağırdın nə deyəcəkdin?

Şah dedi:

– Soruşacaqdım sizin də məmləkətin şahının qıçına ip bağlayırlar?

## Eşşək-eşşək

Ər ilə arvad gecə oturub danışırdılar. Arvad ərinə dedi:

– Kişi, gəl bu oğlanı evləndirək.

Kişi cavab verdi:

– Axı arvad, nəyimiz vardır evləndirək?

Arvad deyir:

– Nəyimiz olacaq, eşşəyi satarıq evləndirərik.

Oğlan ki, yatağında uzanıb amma yuxuya getməmişdir, bunları eşidir. Sabah gecə hər nə qədər isdiir ki, yenə ata-anası bu barədə danışsınlar, olmayır. Axırda üzünü tutub anasına deyir:

– Ana, bəs eşşək-eşşək danışmayırsınız?

## Mollanın oğlu

Deyirlər, mollanın oğlu sözünə baxmazıymış. Hər nə molla deyirmiş onun tərsəsin edərmiş. Bir gün eşşəyə yük atıb şəhrə gətirirdilər. Gərək bir çaydan keçərdilər. Molla çaydan keçir və oğlu da eşşəyi sürür çaydan keçirdə. Çayın ortasında molla görür eşşəyin yükü əyilibdi. Fikir eləyir, əgər desə eşşəyin yükünü düzəlt, oğlan tərsinə edəcək. Dedi:

– Oğul eşşəyin yükünü aşır çaya!

Oğlan dedi:

– Dədə, indiyə kimi sənin sözünə baxmamışam. İndi istəyirəm sözünə baxam.

Eşşəyin yükünü aşırdır çaya.

## Keçinin andı

Keçi doğanda çox ağrı və əzab-əziyyət çəkir əzabın gücündən mələyir deyir:

– And olsun Məkkəyə, bir də gəlməm təkkəyə.

Elə ki, iki-üç gün üstündən keçir balasını yanına aldı, balası yanında atlanıb düşdü. Balanın dadın anladı. Ağrı-acıları unudub deyir:

– Neyləyirsən andı-mandı, quyruğumun dibi yandı.

## Xorultu

Misafirxanada bir türklə fars bir otağa düşüb hərəsi bir təxtdə yatırlar. Fars xoruldamağa başlayır. Nə xoruldamaq, elə bir təyyarə sürürlər. Türk ha silkələyir fars oyanmayır. Görür olmuyacax. Durub farsın ciyinlərindən tutur, silkələyib və deyir:

– Ay qardaş, nə xor-xor! Sən xor-xori, mən qorxuri.

## Xoş xəyal

Bir molla vardır, üzdən çirkin. Bu molla özü söhbət edirdi. Bir gün Təbrizin Firdovsi xiyabanının piyada rəvvənda gedirdim. Bir orta yaşlı, hörmətli, gözəl qadın qabağıma gəlib soruşdu:

– Ağa şeyx, evlənmisən?

Öz-özümə dedim:

– Hökma istəyir siğə olsun. Ürəyimdə sevindim ki, bir ömrü yaşayandan sonra axırda bir qadının mənnən xoşu gəlib və bəyənibdir. Dedim:

– Yox xanım, evlənməmişəm.

Xanım dedi:

– Yaxşı eyləyibsən, qoy nəslin yer üzündən kəsilsin.

## Qonaq və ev sahibi

Günlərin bir günüdə bir nəfərin evinə bir qonaq gələr. Qonaq beş gün, on gün oturaq salıb, öz evinə getməz ki, getməz. Qonaq bir gün öz-özünə fikirləşər ki, görüm ev sahibi mənim bu qədər qonaq qaldığıma razıdır, ya yox. Qonaq deyir, qardaş, mən sizdə çox qaldım, icazə versəniz gedim. Ev sahibi təriflə başlar ki, biz razı deyilik sən gedəsən. Qonaq istər ki, ev sahibini imtahan eləsin və evin bir bucağında gizlənər və ev sahibi ilə arvadının fikrin öyrənər. Görər ki, ev sahibi deyir:

– Ay arvad, o çil toyuğun başını bişir yeyək. Neçə gün idi qonaq bizə müzahim idi.

Arvad toyuğu kəsdirir, tinçədə qovurub dadlı, duzlu bişirib şadyanalıqla, deyə-gülə süfrə açıb, toyuğun ətini süfərəyə gətirərlər. Kişi arvada baxıb deyər:

– Ay arvad, mən nəyə oxşayıram?

Arvad deyir:

– Ay kişi, sən xana, bəyə, sultana oxşayırsan.

Kişi deyir:

– Yox, bilmədin mən qonağı getmiş bir ağaya oxşayıram. Sən gözəl, göyçək bir gəlinə oxşayırsan.

Arvad deyir:

– Yox, mən də qonağı getmiş bir xanıma oxşayıram.

Bu zaman qonaq bucaqdan çıxıb, süfrənin başında oturub deyir:

– Bəs, mən kimə oxşayıram?

Ev sahibi mat qalıb deyir:

– Sən də, allahın bir nağafil bəlasına oxşayırsan.

Beləliklə kişi, arvad və ev sahibi toyuğun ətini yeyib otururlar. Pişik ev sahibinin yanında yatmışdı, kişi əlini pişigin belinə çəkdi və dedi:

Pişigim-pişigim, mavına,
Pişigim gedər oduna,
Qonaq bu gün buradadı,
Sabah gedər evinə.

Qonaq da atmacanı eşidib deyir:

Pişigim-pişigim məvsər,
Çölə çıxma, yel əsər.
Qonaq bu il buradadı,
Gələn ildə sərbəsər.

## Aftabada su içən

Biri aftabada su içirdi. Bir adam dedi:

– Aftafada su içmə, beynin korlar.

Cavab verdi:

– Beyin nə mənə?

Dedi:

– Sənə heç zad olmaz.

## Yandım

İki arvadı olan bir kişi arvadarlarını sınamaq üçün bir gün özünü tülkü ölümünə vurdu. Arvadlar kişini ölmüş sanıb dedilər:

– Qohum-qonşu yığışıb ara qarışar, bir şey yeyə bilmirik. Öncə özümüz yeyək.

Horra bişirib yedikdən sonra arvadların biri kişinin o yanından, o biri bu yanında oturub vay– şüvən saldılar. Biri deyirdi:

– Oy, yandım!

O birisi deyirdi:

– Söndüm!

Kişi başın qovzayıb dedi:

– Sizi horra yandırır, ya mənim ölməgim.

## Oğul evləndirən

Bir bol xərc qoyub oğul evləndirən bir ataya tanışlarından biri deyir:

– Allah o birisi oğullarına da qismət eləsin!

Oğul evləndirən ata ki, xərclədiyi pulların acısı canından çıxmamışdır. Özün eşitməzliyə vurub dedi:

– Allah kimə rəhmət eləsin?

## Təkəbbürlü bir adam

Təkəbbürlü bir adam ayaq yoluna düşmüşdü. Ayaq üstə durub əllərin vurur belinə. Eşikdən bir adam ip sallayır və deyir:

– Bu ipi bağla belinə, çəkim çıxardım.

Mütəkəbbir cavab verdi:

– Əllərim belimdədir, nə cür bağlayım?

## Ağıldan kasıb

Ağıldan kasıb bir gün gedir məscidə. Girir, bir salam verir. Heç kəs salamın almır. Qapıdan eşiyə qayıdır, yenidən içəri girib eşşək kimi anqırmağa başlayır. Hamı gülür. Deyir:

– Həə, dilinizi qandınız!

## Üç pəltək qiz

Bir arvadın üç qızı var idi. Üçü də pəltək. Qızlrına tapşırmışdı ki, köpəyin qızları elçi gələndə heç biriniz danışmayacaqsınız.

Bir gün qızlara elçi gəlir. Bir az sonra böyük qız gəlir anasına deyir:

– Ana pisik südü laladı (Pişik südü yaladı).

Ortancıl qız dedi:

– Tüpən qızı dinmə (Köpəyin qızı dinmə).

Kiçik qız dedi:

– Ana, mən heç dindillini? (Mən heç dindim?).

## Bəhlul

Xəlifə Bəhlula bir miqdar pul verir və deyir:

– Bu pulu apar möhtaclara payla.

Bəhlul pulu aparır şəhərdə harada bir bəlli-başlı dövlətli adam var idi, qapısını döyür və pulları onlara paylayır. Sabahısı xəlifə Bəhlulu çağırtdırıb deyir:

– Sən bu pulları aparıb dövlətlilərə paylayıbsan!

Bəhlul deyir:

– Mən Allahdan çox bilirəm? Onlar möhtacdılar ki, Allah onlara verib!!.

## Gəlin

Bir evə gəlin gəldi. Neçə gün keçdi. Qayınana gördü gəlin düz yeyib, düz gəzir və əlini ağdan qaraya vurmayır. Gəlinə anlatmaq üçün qayınana ata ilə dilləşir. Qayınata süpürgəni götürüb başladı həyət süpürməyə. Qayınana otaqdan çıxıb dedi:

– Süpürgəni ver mənə, kişi də həyətə süpürər?

O da dedi:

– Mən süpürcəyəm.

Bu dedi, o dedi mən süpürəcəyəm. Hay-küyləri qovzadı. Gəlin otaqdan çıxıb dedi:

– Niyə savaşırsınız, bir gün biriniz süpürün, bir gün də o biriniz.

## Qaraxan

Qaraxan adlı bir bəy mollaya deyir:

- Mənim adımı Qurana salıb məclisdə oxuyarsan. Sənə on baş davar verərəm.

Molla razılaşır. Məclis qurulduqda molla Quran oxuyar və arada belə deyir:

– Ən qərəxan əlləzin kəlban kəbira. (Doğrusu qaraxan böyük bir itdir).

Məclisdə bir şəriət tələbəsi var imiş. Bu cümlənin mənasın anlayır və mollanı müttəvcə etmək üçün neçə dəfə yalandan öskürər. Molla görür qırqulaydır. Işin üstü açılacaq. Quran oxuya-oxuya deyir:

– Nəsf meni nəsflək (Yarısı sənin, yarısı mənim).

Tələbə razılaşaraq sakit olur.

## Neçə dənə?

Bir adamın ağzından bir qızıl dişi var idi. Bir gün qəhvəyə çay içməyə gedir. Qızıl dişini göstərmək üçün dodaqlarını açır və br-birinə sıxılmış dişlərinn arasından deyir:

– Çay gətir!

Demə qəhvəçinin dişlərinin hamısı qızıl imiş. Dodaqlarını açır və dişlərini bir-birinə sıxaraq deyir:

– Neçə dənə?

## Mollanin təzə başmağı

Bir gün Molla Nəsrəddin təzə başmaq alıb, ayağına geyib yolla gəlirdi. Uşaqlar top oynayırdılar. Uzaqdan mollanın təzə başmağını gördükdə istəyirdilər mollaya ilişib başmaqlarını oğurlasınlar. Topu atdılar ağacın başına, üstündə qaldı. Molla yetişdikdə dedilər:

– Molla, bizim topumuzu ağacdan endir.

Molla bir uşaqlara baxdı, bir də öz başmaqlarına. Başmaqlarını çıxardıb vurdu qoltuğuna başladı çıxmağa. Uşaqlar dedilər:

– Molla, bəs başmaqlarını haraya aparırsan?

Molla dedi:

– Bala, bəlkə ağacın üstündən o yana yol oldu, getdim!.

## Gözbağlayıcı

Bir gözbağlayıcı var idi. Bu elə bir adam idi ki, necə deyərlər arpanı duvarda yeridərdi. Işinə aid bütün bildiyi fənlərini oğluna öyrətmişdi. Bir gün oğlunu sınamaq üçün alışqanı ovucunda tutur, soruşur:

– Oğlum, bu nədir?

Oğlan soruşur:

– Rəngi qaradır?

Ata cavab verir:
– Bəli, bəli.
– Beli, başı yekədir?
– Bəli, bəli.
– İki dənə buynuzu da var?
– Bəli,bəli.
Oğlan deyir:
– Camışdır.

### Dədəmdən yekə

Uşaq atasını hər zaddan böyük və güclü bilər. Qədimdə bir uşaq evlərinin həyətində bir it görür və huyuxar qaçaraq gəlir otağa və anasına deyir:
– Ana!
Anası cavab verir:
– Hən!
Uşaq deyir:
– Həyətdə bir it var. Dədəmdən yekə.

### Kəndli arvad, şəhərli arvad

Şəhərli arvad bir kəndli arvadı lağa qoyub dedi:
– Kəndli arvadlar çirkindirlər.
Kəndli arvad dedi:
– Gedək hamama sizin şiriniz tökülsün, bizim kirimiz. Görək hansımız gözəlik.

### Rəsulun balağı

Rəsul adında bir kişi istəyirdi balağın kəssin. Getdi mollaya istixarə eləyə. Molla Quranı açdı. Belə oxudu:
– Rəsul əlbələx mibyana.

Kişi əlin qoydu döşünə dedi:
– Mərhəmətiz artıq.
Durdu ayağa getməyə. Molla dedi:
– Bə hara!
Kişi dedi:
– Odur Quran deyir: Rəsul balağın kəs da...!

## Keçəlin dostu

Bir keçəl utandığından börk qoyar və qırx neçə il idi heç kim bu keçəlin başını görməmiş idi. Bir gün yellik bir havada bir adam gəlib keçəllə görüşüb öpüşdü. Öpüşəndə yel keçəlin börkünü qapıb apardı. Keçəl bu adamı yaxalayıb qeyzlə dedi:
– Hansı köpək oğlu səni mənə dost elədi!.

## Ey imamzada

Bir kişi axşam yorğun-arğın evə gəlir, görür şam hazır deyil. Soruşur:
– Arvad, bəs şam hanı?
Arvad deyir:
– Getmişdim İmamzadaya şam bişirməyə.
İkinci gün kişi axşam evə dönəndə görür yenə evin işləri qalıb yerdə, şamdan xəbər yoxdur. Deyir:
– Arvad, yenə şam bişirməmisən?
Arvad deyir:
– Getmişdim Ağanın qəbrinə.
Kişi dedi:
– Arvad, mən səhərdən axşama dədəm yanır işləyirəm. Sən də barı ev səliqəyə sal, şam bişir gəlim bu xarabada qıçımı uzadım. Bir az da dincəlim.

Necə gün bu cür kecir. Kişi axşama gəlir, görür gündəkinə tay. Şam yoxdur ki, heç ev yallı gedir. Zibillər ayaq tutub yeriyir. Soruşanda deyir: Getmişdim İmamzadaya. Daha kişi zara gəlir. Gecə süfrənin başında əllərin göyə götürür və deyir:

Ey İmamzada,
Gəlmişəm dada.
Ey İmamzada,
Yetmiş iki bəlanı
Göndər bu arvada.

## Çiban

Qədim zamanlar ölkənin adlı-sanlı şücaətli bir qəhrəmanı ki eyni halda ordu sərkərdəsi idi bu adamın qıçına çiban çıxmış və əzabından kaf-kuf edirdi. Bu əhvalda xəbər gətirirlər ki, ata vəliyətdən görüşünə gəlir. Düşünür atası onu belə gördükdə nə deyəcək? Qəhrəman oğlum bir çibanın ağrısına dözənməyir. Özünə ar bilib xəncərlə ətini yarır və çibanı kəsib çıxarır. Atası gəlir oturub söhbət etdikdə görür oğlunu çox ax-vay eləyir. Halətin soruşur, cavab verir:

– Heç zad qıçımda qılınc yarası vardır.

Atası deyir:

– Yaxşı, mən dedim çiban çıxardıb.

## Qoca öküz

İki gənc bir düyənin dalınca düşüb qovalayırlar. Bir qoca öküz onlara qoşulmuşdu. Qoca öküzdən soruşdular:

– Bəs sən niyə?

Dedi:

– Mən də öz qorxumdan bunlara qoşulmuşam.

## Keçəl dəyirmançı

Bir keçəl dəyirmançı var idi. Bir gün hay düşdü, şahın əmri ilə keçəlləri tuturlar. Dəyirmançı başını daşa vurur. Dedi: Qoy səndən də olsun, məndən də.

## Daha bəsdir

Qədim zaman millətdən vergi alınandan sonra şah əmr edir, gedin görün rəiyyət nə deyir, nə qayırır. Gedib görürlər hamı ağlayır, şikayət edirlər.

Şah deyir:

– Gedin, yenə vergi alın!

Məmurlar gedib yenə vergi yığırlar. Şah deyir:

– Gedin, görün millət neyləyir, nə qayırır.

Gəlib görürlər ki, rəiyyət yenə ağlayır və şikayət edir və deyirlər:

– Divan var-yoxumuzu yığıb apardı.

Şah deyir:

– Gedin yenə alın!

Məmurlar gedib kötək gücünə camaatdan vergi alırlar. Şah deyir, gedin görün camaat nə edir, nə qayırır. Gəlib görürlər bu səfər hamı gülür və çalır oynayır. Gedib şaha xəbər veririlər deyir, daha bəsdir, rəiyyətin heç zadı qalmayıb.

## Məmurları çoxaltsınlar

Qədimlərdə bir qalanın ətrafındakı kəndlilər qalaya gəlib özlərinə azuqə alıb aparardılar. Bir il qıtlıq üzrə qalanın hakimi kəndliləri o qədər incitdi ki, qaladan ayaqların kəsib və qalanın azuqəsini çəkib kəndlərə daşımasınlar. Öncə gəlmədi. Axırda əmr elədi ki, hər kəndli qalanın qapısından içəri gi-

rərsə məmurlar tutub başına pis iş gətirsinlər. Bəlkə ondan sonra bir daha qalaya gəlməsinlər. Sabahısı məmurlar qala qapısından hər içəri girən kəndlini hakim deyən kimi etdilər. Hakm adam göndərib içəri girən kəndlilərdən soruşdu:

– İndi hakimdən razımısınız?

Kəndlilər dedilər:

– Fəqət məmurları çoxaltsınlar. Qapıda bizi safə düzüb yubadırlar.

## Ölən ölsün

Qədim zamanlar Xoyda bir bulaşıçı xəstəliyin nəticəsində o qədər adam qırıldı ki, məzarlıqlar dolmaq üzrə idi. Camaat yığışar məsləhətləşər bir adamı aparıb məzarlığa qoyarlar. Eşikdən durub soruşarlar ki, yeri var. O adam ki gərəkidi desin, görürsünüz yer yoxdur, camaat ölməsinlər. Deyir:

– Yer çoxdur. Ölən ölsün, qara quşun burnuna kimi yeri var.

## Həkimin sözü

Xoyda bir həkim var idi. Bir qəssabın gözü ağrayır. Gündə girdə bud, davar əti həkimə gətirər və həkim onun gözünə dərman qoyub hələlik toxtadırdı. Bir gün həkim otağında deyildi. Qəssab girdə budu gətirər. Həkimin şagirdi qəssabın gözünə baxar. Görər gözünə balaca bir şey batıbdır. Çıxardar. Qəssab toxtayır gedir. Həkim gələr soruşar:

– Nə var, nə yox? Kim gəlib, kim gedib?

Şagird deyir gündəki qəssab gəlmişdi. Gözünə bir sümük qırığı batmışdı. Sümüyü çıxartdım getdi. Həkim qeyzlə şagirdinə baxar və deyər:

– Sabahdan da görərsən.

## Heç, keç

Əski zamanlarda bir kənddə bir varlı adam var idi. Bunun da bir yoxsul qardaşı var idi. Bir gün dövlətli qardaş ölür. Dövləti yoxsul qardaşına çatır. Yoxsul çoban belə bir mal-dövləti görəndə özündən çıxır. Daha qabaqkı adam deyildi. Özündə bir qüdrət duyur və özünü bir şey bilirdi. Gedib çıxardı dağın başına yoldan keçəni səsləyirdi: ohe...y!

Cavab verirdi: ho...y!

Çoban deyirdi:

- Heç, keç!

Bir gün kəndin ağsaqqalı dedi:

- Gedək görək bu niyə belə eləyir? Buna nə olub? Yoxsa başına hava gəlib.

Necə nəfər ilə gəlirlər. Çoban bunları görəndə uzaqdan səslənir:

- Ohoooo.

Ağsaqqal cavab verir:

- Hoo...y!

Coban deyir:

- Heç, keç!

Gəlirlər çobanın yanına. Kəndin ağsaqqalı soruşur:

- Bu nə oyundur çıxardırsan? Yəni nə olsun özünü gülüncə qoyubsan.

Çoban deyir:

- İstəyirəm biləm ki, hamı mənim fərmanımdadır, ya yox!

## Pis əxlaq ərbab

Bir pis əxlaq ərbab var idi. O yana keçirdi nökəri danlayırdı, bu yana keçirdi nökəri danlayırdı. Bir gün ərbaba qonaq gəlir. Yenə nökəri danlaq altına salır. Ərbab aftaba götürməli olur. Nökərinə acıqla deyir:

– Aftaba doldur, qoy ayaq yoluna.

Əlinə döndüyüm nökər samabarın dağ suyun açır, doldurur aftabaya. Ərbab aftaba götürəndə.... g.... yanır. Gəlib nökəri salır kötüyün altına. Ərbab vurur, nökər gülür. Qonaqlar deyirlər:

– Kişi, niyə vurursan onu?

Ərbab deyir:

– Siz bilmirsiniz elə! Hələ pis-pis də gülür.

Nökər deyir:

– Mən bilirəm ərbabın harası yanır.

## Keçəl

Bir keçəl şahın qızın istəyirdi. Soruşdular:

– Necə oldu?

Dedi:

– Necə olacaq, işin yarısı qurtulub, atam, anam və mən razıyıq. Qalır şaha və şahın qızı. Onlar da razı olarsalar, iş bitər.

## Gənc və qoca

Mən bu hekayəni elə bu cür eşitmişəm. Bir gün şah Abbasın oğlu Allahverdi xan vəzirdən soruşdu:

– Dədəmin vaxtında xoş keçirdi sənə, ya mənim vaxtımda?

Vəzir cavab verdi:

– Heç birində.

Şah soruşdu:

– Niyə?

Allahverdi xan vəzirə cavab verdi:

– Atan qoca idi, mən gənc idim. İndi sən gəncsən, mən qocayam. Bir-birimizinki tutmur.

## Günahın cəzası

Bir Tanrı qulu molladan soruşur:

– Əgər bir adam indi bir günah iş görə, Allah cəzasın nə vaxt verəcək?

Molla dedi:

– Məsələn yeddi, səkkiz il sonra.

O adam mollanın əmmaməsini alıb qaçır və deyir:

– Hələ hanı yeddi, səkkiz il, onda da Allah kərimdir.

Bir az gedir yıxılır, qıçı sınır. Mollaya deyir:

– Bəs sən deyirdin, günahın cəzasın yeddi, səkkiz ildən sonra verir!

Molla dedi:

– Bu sənin qabaqkı günahının cəzasıdır, indiki günahının cəzasını sonra çəkəcəksən.

## Bu da sənin borcun

Qış idi. Kəndin camaatı məsciddə idilər. Bir kəndli mollaya iki çanaq buğda boyun alır, molla bunun ata-anasına dua eləyir. Xərmən vaxtı çatanda molla kəndlidən o iki çanaq buğdanı istəyir. Kəndli deyir:

– Yaxşı qoy, ərbab sovuruq versin.

Xərməni sovurandan sonra bir gün kənd əhli yığışmışdılar məscidin qabağına. Molla ucadan o kəndliyə dedi:

– İki çanaq buğda boyun alıbsan. Bə niyə vermirsən?

Kəndli bir kətil gətirir, altına qoyub oturur, deyir:

– Camaat, mən dua edəcəyəm, siz də amin deyin!

Deyirlər:

– Yaxşı.

Kəndli deyir:

– Allah mollanın atasına rəhmət eləyə!

Camaat:

– İlahi, amin!

– Allah mollanın anasına rəhmət eliyə!

– Ya ilahi, amin.

– Allah, mollanın ölüb gedənlərinə rəhmət eliyə!

– İlahi, amin!

Sonra kəndli üzün tutur mollaya deyir:

– Bu da sənin borcun. Mənim ata-anama dua eliyəmə-mişdinmi?

## Qamadanağı xala

Bir arvad evdə nehrə çalxalayırdı. Bu arvad keçəl olduğuna beləsinə Qamadağı (bərk kecəl) deyirdilər. Bu arvadın qonşusu balaca qızına deyir:

– Get keçəl qamadanağı xalaya de, anam deyir, bir tas ayran versin. Aş bişirmişəm.

Qız gəlir deyir:

– Anam deyir keçəl qamadağı xalaya de, bir tas ayran versin, aş bişirmişəm.

Arvad cavab verir:

– Ananın dədəsinin goruna..... o şirin dil anandı, bir az da kərə salaram içinə.

## Gördün səninlə idi

Bir arvad çörək yapırdı. Toyuqlar yığışıb xəmiri və çörəkləri dimdikləyirdilər. Arvad qoluna hərəkət verib dedi:

– Kiş!

Toyuqlar bir-birinə, o dedi, səninlədir, bu dedi, səninlədir. Arvad neçə dəfə toyuqları kişlədi. Toyuqlar yenə bir-birinə atıb yığışdılar. Arvad hirslənərərk yanındakı ağacı götürüb atar və dəyər toyuqların birinin qıçı sınar. Qalan toyuqlar onun başına yığışıb dedilər:

– Gördün səninlə idi!

## Sən nə deyirsən, mən nə deyirəm!

Erkək eşşək dişi erkəyə yalvarırdı. Dişi dedi:

– Qoduğumuzu kim saxlayacaq?

Erkək döşünə döyüb dedi:

– Mən.

Dişi razılıq verir. Erkək eşşək dişi eşşəyə atlanır və enir. Dişi deyir:

– Hən, tərtibin de, balamızı necə saxlayacaqsan?

Erkək eşşək başın tovlayıb deyir:

– Sən nə deyirsən, mən nə deyirəm.

## Püfü qalır

Bir adam şüşə qayıran iş yerində bir müddət işləyəndən sonra gedib özünə iş yeri açıb şüşə qayırmaq fikrinə düşür. Ustası deyir:

– Yalnız püfü qalır, bir az da qal işlə, onu da öyrən sonra get.

O adam deyir:

– Yox. Öyrənmişəm.

Gedir özünə iş yeri açır. Öyrəndikləri ilə şüşənin xəmirin tutur. Amma hər neyləyir şüşə əmələ gəlmir. Qayıdır ustasının yanına. Ustası deyir:

– Bə sənə demədimmi qal mükəmməl öyrən, sonra get. Gərək bir il də qalıb işləyəsən.

O adam bir ildə qalıb işləyəndən sonra usta deyir:

– İndi gəl mükəmməl öyrən!

Usta xəmiri püfləyir və deyir:

– İndi oldu şüşə. Sənə deməmişdim bir püfü qalır!

## Salavat çevirin

Bir gün Təbrizin Saman meydanında qabaqdan bir qatar dəvə malı-ticarə yükləri ilə meydana girmək istəyirdi. Bu tərəfdən də bir nəfər eşşəkci yüklərini boşaldıb meydandan cıxmaqda idi. Bunlar meydanın çıxış yolunda bir-birinin yolunu kəsirlər və hec biri də geri qayıdıb yolu açmaq istəmir, nəticədə dava düşür, bu arada bir necə nəfər aracılıq edir deyir:

– Neylək, hələ bir salavat çevirin, iş düzəlsin.

Təsadüf üzrə həkim Ləli ordaymış, bu sözü eşidərkən deyir:

– Salavat çevirincə, eşşəyin başını çevirin, dəvələr kecsin dayna.

* * *

Bir gün bir necə eşşək oturub öz ürək ağrılarını bir-birlərinə deyib şikayət edirdiər ki, bu qədər zəhmət və əziyyətdən hacan can qutaracağıq. Cox fikirləşdilər, lakin bir nəticəyə catanmadılar, nəhayətdə bir qərara gəldilər ki, böyük eşşəyin yanına gedib məsləhətləşsinlər. Onlar birgə baş ulağın hüzuruna gəlib öz istəklərini söylədilər, eləcə də böyükləri onlara amiranə – o zaman zəhmət və fəlakətdən qurtaracaqsınız ki, təzəklərinizdən gülab qoxusu gəlsin, dedi. Demək buna görə isə əvam icrə eşşək təzəyi görərkən iylər ki, görsün gülab iyi gəlir, ya yox deyiblər.

## Dul arvad

Bir dul arvad aparır dəyirmanda un üyüdər. Dəyirmançı deyir:

At bu dəni başdan olmaz,
Su gəlib nova dolmaz.

Hamıya növbət olsa,
Xanım, sənə növbət olmaz.

Dəyirmançı razı olandan sonra deyir:

Lap bu dəni başdan ol,
Su gəlib nova dolar.
Heç kimə növbət olmasa,
Xanım, sənə növbət olar.

# MİFOLOJİ MƏTNLƏR, ƏFSANƏ, RƏVAYƏT VƏ XATİRƏLƏR

## Zənganın İmam Güllücəsində "Al arvadı" rəvayətləri

Keçmişdə bir kişinin arvadı, al arvadı imiş. Kişinin bundan xəbəri yoxdur. Bir dərviş buna qonaq olur. Dərviş bu sözü kişiyə deyir. Kişi inana bilmir. Dərviş deyir:

– Sən bir gün evdə əti qovurma elə, ver arvadın yesin. Ancaq evdə əl altında su olmasın. Əti yeyəndən sonra yapış bunun belindən qucaqla. Gör nə olur.

Kişi dərviş deyən kimi edir. Yapışır bunun belindən. Görür bu uzandı getdi bulaqdan su içdi gəldi. Kişi bunu görəndən sonra arvadı təndirə atır. Al arvadı yanır.

* * *

Güllücəli bir kişinin arvadının uşağı olur. O, evdə qalır. al arvadı gəlir bunun arvadın apara. Bacadan, qapıdan evə girə bilmir. Bacadan bormağını uzadır. (deyirlər bormağı uzun olar. İçində bir muncuq var. Al arvadı onu çox istər, ona da al muncuğu deyərlər). Deyir:

– Uşağı asın bormağa, mən onun üzündən öpüm.

Kişi deyir:

– Salla gələ.

O da salır aşağı. Kişi ərsinlə vurur. Al arvadının bormağı qırılır, tökülür. Al arvadı evdən əl çəkmir. O yan, bu yandan evə soxulmaq istəyir. Kişi görür al arvadı kəndinin yanından istəyir evə girə. Bu da güclü, qorxmaz bir kişi idi. Al arvadını tutur. Bu bilirdi al arvadıya nə desin: "Xalanı yandıraram". Al arvadı dayanar, qaça bilməz. Ona görə deyir: "Xalanı yandıraram". Al arvadı yerində quruyur. Bu da onunla əlləşir və al arvadını vurur.

# YER ADLARI İLƏ BAĞLI RƏVAYƏTLƏR

## "Xudafərin" bölgəsinin adı ilə bağlı rəvayətlər

Deyirlər, Xudu adlı bir ustad olur və bu körpünün inşasını ona tapşırırlar. Deyirlər, Xudu ustanın göstərişi ilə sürü ceyranın dövrəsini alıb, Arazın bir tayından, o birisi taya keçirmək istəyirlər. Sürü Araz boyu gəlir və o körpülər salınan yerə gəlincə sudan dışarıya baş qovzamış bəzən də başı suyun üzərinə qədər çatmış, kiçik-kiçik adalara bənzər yerli daşların üzərilə hopbula-hopbula adlayır və o birisi taya keçir.

Bunu görən Xudu usta körpünün binasını ancaq bu daşların üzərində qurmağa qərar verir. İş tamama yetdikdən sonra, körpülərin açılış törəni zamanı körpünü açmağa gələn Azərbaycan şahlığı körpünü görüncə, təkrar "Xudu, afərin", "Xudu, afərin" sözcükləri ilə sevincini paylaşmağa başlayır və elə ordan da deyiblər: bu körpünün adı "Xudafərin" olsun. Hindi bu yerin adı onunla birgə çəkilir.

## İkinci rəvayət

Başqa bir yozumda deyirlər ki, ipək yolu zamanı xutay (xətən) ətiri Çin ölkələrindən gətirilib buralarda alver olunurmuş. Deyirlər, o vaxt bunun lap aparıcı bazarlarından birisi olur bu yer. Elə ki:

– Nə istəyirsiniz?

– Xutay verin.

– Siz nə istəyirsiniz?

– Xutay verin.

Cavablamaları o qədər önəm daşıyır ki, uzun sürə çəkdiyindən bu günkü "Xudafərin" şəklinə dolur.

## Üçüncü rəvayət

Bir rəvayətdə deyillər, bu yerdə çayın quzey tayında Xudu adlı oğul, güney tayında isə Afərin adlı bir qız olur. Bunlar bir-birlərini sevər və adaxlanırlar. Günlərin birində Xudu çayı üzə-üzə keçib, adaxlısının görüşünə gəldiyi zaman cayda boğulur. Axır bunu izləyən, olayın şahidi olan xalq bunların xatirəsin əziz tutsunlar deyə və bir də belə-belə hadisələr başqa oğul və qızların həyatlarında üz verməsin deyə, bu körpünü salır və adını da "Xudafərin" qoyurlar.

## Vəşlə

Təbrizin qırağında bir-birinə yaxın iki kənd var. Biri "Yuxarı Vəşlə" və "Aşağı Vəşlə". Yuxarı Vəşlənin yaşlılarından eşitmişəm deyirlər: "Bu kəndlər yox idi, hələ beş qardaş gəlir, üçü bu yanda, ikisi o yanda yerləşir. Dam-daş tikirlər. Bunların yerlərinə üst-üstə beş qardaş olduqlarına görə "Beşlər" deyərmişlər. Ağızlarda deyildikcə bu kəlmə vəşləyə dönür. Qardaşların törəməsi ilə kəndlər böyüyür və yuxarı Vəşlə və Aşağı Vəşlə adlanır.

## Həmzəyan

Həmzəyan kəndi Xoyun şimal tərəfində yerləşir. Deyirlər, qədim zamanlarda bu kənddə Həmzə adında bir adam var imiş. Bu adamın iki yüz qoyunu, bir qoçu var idi. İlin bir vaxtı qoyun yiyəsi və çobanlar qoçu qatarlar. Qoçları cütləşmək üçün qoyun sürüsün içinə qatarlar. Həmzə qoçu qatır qoyun sürüsünün içinə.

Görür qoçun qoyunlarla işi yoxdur. Elə durub baxır. Hirsindən tutub qoçu kəsir. Gedir ayrı qoç alır və cütləşmək ücün

sürüyə qatır. Bu qoçun da qoyunlarla işi olmur. Həmzə acığından deyir: bu il qoç qatmayacağam. Cəhənnəmə, qoyunlar doğmasınlar. Qoyunların doğan vaxtı yetişəndə Həmzə görür, bay, qoyunların hamısının qarnı şişib boğazdırlar. Barmağın dişləyir: pəh, deyirəm axı başını kəsdiyim qoç niyə qoyunlara dəymədi. Demək gecə vaxtı qoyunları sürmüş imiş. Həmzə dizinə çalır, başına döyür və deyir: Həmzə yan! Niyə o cür qoçun başını kəsdin? Elə o vaxtdan kəndin adı qalır Həmzəyan. Dillərdə deyildikcə, Həmzəyan olur.

## DAŞLAR

### Gültəpə və Gəlindaşı

Qoduq boğan çayının şərq qırağında böyük bir təpədir. Bu təpə zəlzələ bulağının tuşundadır. Qazi məhəlləsinin əhli bu təpəyə “Gül təpə” deyərlər. Həmin bu Gül təpədə böyük bir ağ daş var idi. Bu daşa “gəlin daşı” da deyərlər. Yanındakı neçə balaca daşları gəlinin darağı sanardılar. Deyərlər, qədim zamanlar bir gəlin burada yuyunurmuş qayınatası gəlir və gəlini lüt görür. Gəlin utancağından Allahdan istəyir onu daş eləsin. Allah duasın qəbul edir.

### Dəvə daşı

Pir kəndinin Kafir qalası dağının təqribən boynunda bir daş var. Dəvəyə oxşayır. Deyirlər, kafirlər dəvə ilə su aparırmışlar. Bir xurcunun hər gözünə bir səhəng qoymuş dəvənin belinə aşırmışdılar. Səhənglərin başında su tökülməsin deyə tıxacları var idi. Dəvə kafirlərə su aparıb yetirməsin deyə imamlar qarğış etmiş, dəvə xurcun və səhəngləri ilə daş olmuşdur. Deyirdilər ki, onların yanında bir adam qeyb olmuş və ayaqlarının yeri qalıbdır. Mən bu mətləbi uşaqlığımdan eşitmişdim. Amma bilmirdim ki, daş hayandadır.

## İmam ayaği

Pir kəndinin qırağında bir dağ ətəyində bir İmam ayağı var. Qədimdən heç kəs həftə günlərini bilməzdilər. Burada qeybdən çırağ yananda deyərdilər: Bu gün cümə axşamıdır. Mən bu mətləbi də uşaqlığımdan eşitmişəm.

# MÜXTƏLIF MÖVZULU RƏVAYƏTLƏR

## Usta Cəfər

Otuz qırx il bundan əvvəl Xoyun İmamzada məhləsində çox qabil bir bıçaqçı var idi, usta Cəfər adında. Xoyda usta Cəfər bıçağı məşhur idi. Deyirlər, bu usta dəmiri kürədə qızardır, sovurmağa yaxın iki oğlunun bəhanə ilə dükandan başın əkər, onlar gəlincə dəmiri sovurarmış. Nə var ki, onun özünə məxsus dəmir sovurmaq fəndini öyrənərlər.

## Bərəkəllah oğlum

Bir oğrunu dardan asırdılar. Anasını gətirdilər yanına. Dedi:

– Ana, qoy dilini ağzıma alım.

Ana dilini çıxartdı. Oğru ananın dilini ağzına alcağın dişləri ilə xıncıyıb qopardır və deyir:

– Mən uşaqlığımdan yumurta oğurlayanda anam mənə, “bərəkallah, oğlum “ deməsəydi, mən oğurluğa alışmazdım. İndi dar ağacının dibinə gəlməzdim.

## İngiliscə yoğurt

Eşitdiyimə görə, Amerikada qatıq çalmağı bacarmazlar. Bir təbrizli ki, Amerikaya köçmüş idi, orada dükan açır və qatıq çalıb satır. Amerikalılar soruşurlar: Bu nəmənədir? Təbrizli cavab verir, bu yoğurtdur. Bu kəlmə amerikalıların dilinə düşür və indi ingiliscə qatığa yoğurt deyirlər. Mən qulaq günahkarıyam. Bu söz yalan olarsa, günahı özündən çıxardıb deyənin boynuna.

## Gör, fələk nə sayır

Bir kəndli ışqırtmaq tutub yorğan döşəyə düşür. Kəndlilər deyirlər, daha bu qalmaz ölər. Xəstənin qardaşı bir məclisdə deyir:

– Bu öləcək, arvad-uşağı mənim üstümə düşəçək. Mən yazıq bunları necə saxlayacağam.

Fələkin işinə bax, xəstə sağalıb ayağa durur, əvəzində bir qısa müddətdən sonra o sözü deyən qardaş ölür. Kənd içində bu söz gəzirdi: sən saydığını say, gör fələk nə sayır. O adam on ildir Xoyun Zərvan kəndində hələ də sağdır.

## Bəd nəzər

Təbriz ətrafında İncədərə adında bir kənd var. Bu kəndin əhlindən biri deyirdi, mənim yüz on yaşında bir atam var. Deyir, qədim zaman dörd gün dalbadal kəndə yağmur yağdı. Dağın başında bir böyük qaya var idi. Yağmur bu qayanın altın şumladı və qaya dığırlanıb gəlib yolu tutdu. Camaat yığışar neçə kəndir və siçim gətirib bir uclarını daşa və bir uclarını da mal heyvana bağlayıb sürərlər.

İplər davam gətirməyib qırılar və daş yerindən tərpənməz. Hər nə eləyirlər çarə olmaz. Kənd əhlindən biri deyir, filan kənddə bir nəzər var, gedin onu gətirin. Bir güclü şam eşşəyi var idi. Onu minər və gedib bəd nəzəri gətirirlər. Bəd nəzər daşa baxıb deyir, pəh, nə böyük daşdır. Daş aradan parçalanıb iki bölünər. Bir parçası o yana, bir parçası bu yana düşər. Daşın tikələrin çəkib yolu açarlar.

## Üzlü qonaq

Bir evə qonaq gəlir. Bir gün, iki gün on gün qalır getmək bilmir. Bir gecə ev yiyəsi çıxır həyətə, bir güllə atır, gəlir oturur. Qonaq soruşur:

– O nə gülləsi idi?

Ev yiyəsi deyir:

– Keçən ay mən güllə atmışam, qonşunun qonağı ölüb. Indi o güllə atır ki, sənin qonağını öldürəcəyəm. Sən arxayın ol, sənə bir şey olarsa, mən bu kəndi dağıdaram.

Qonaq deyir:

– Mən öldüm, sən kəndi dağıtdın, mənə nə xeyri olacaq? Mənə yol göstər, gecənin qaranlığında çıxım, gedim.

Ev yiyəsi ha yapışır qal, sənə bir şey olmaz, qonaq deyir:

– Yox gərək gedim.

Ev yiyəsi yol göstərir, üzlü qonaq gecə ilə çıxıb gedir.

## Qurdalama şoru çıxar

Qədim çamatın sarı yağ yeyən vaxtı Şuvan kəndində Hacı Kərim adında bir adam var idi. Şəhərin böyük başlarnın birini görür və deyir:

– Bizim kənddə bir yer var, bu yerin qəbaləsin mənim adıma keçirdərsən. Sənə bir çəllək yağ gətirərəm.

Böyük baş ağa iş düzəldir, yeri hacı Kərimin adına keçirdib qəbaləni verir. Hacı Kərim bir çəlləkə şor doldurur, üstünə bir az yağ tökür, aparıb ağanın qapısından verib qayıdır. Ağa barmağın yağa batırıb çıxardır görsün nə cür yağdır. Barmaq yağın altından şoru qazıb çıxardır üzə. Görür başına börk keçib. Hacı Kərimə adam göndərir, o qəbalədə işkal var, gətirsin. O işkalı qaldırım. Hacı Kərim o adama deyir, gedib ağaya dəərsən, qurdalama şoru çıxar.

# ETNOQRAFİK MƏTNLƏR:
# NOVRUZ ADƏTLƏRİ



## Axır çərşənbə

Kəndlilərin dediyinə, böyük çərşənbə çıxandan sonra kiçik çərşənbə başlar ki, 21 gündə 3 çərşənbəsi var: xəbərçi (yalançı) çərşənbə, külə çərşənbə, axır çərşənbə.

Axır çərşənbədə ağaclar ayılar, sular təzələnər, yer ayılar, söyüd ağacları ayılıb yerə bağır basarlar (təəzim edərlər), noruz gülü çıxar.

Axır çərşənbə axşamı hər kəs öz qapısında tonqal qalayar. Kənd əhlinin dediyinə görə, qədimlər biri evdə olmasaydı, kəndlilər yığışıb onun qapısında tonqal qalardılar. Tonqal qalanandan sonra "ağırlığım-uğurluğum tökül, qal burda" – deyə odun üstündən atılarlar. Bu gün də neçə dəb var ki, hərə özünə görə onu edər. Bunlar belədir:

**Pilov bişirmək** – Bu gecə xanədə bir yerə yığılar, xeyirli söz danışarlar. Bütün evlərdə pilav pişər. Qədimki yox-

sulluğa görə bir para evlərdə təkcə bu axşam uşaqlar pilav yeyə bilərdi.

**Bacadan su tökmək** – Qohum-qonşu zarafat üçün pilav pişən ocağa dam bacasından su tökərlər ki, sönür.

**Şal sallamaq** – Cavanlar sallamaq üçün qurşaq, şal, yaylıq, ya da çadra götürüb evlərin birinin bacasından salarlar. Ev yəəsi şala boyalı yumurtadan, puldan, yemişdən bağlar. Bəzən də biri evin qızına müştəri durar, evin bacasından şalı sallar, evin anası gərək şala bir pay bağlasın:

– Bala, yumurta bağladım.

– İstəmirəm.

– Pul bağladım.

– İstəmirəm.

– Yaxşı, qızı bağladım çək apar.

Adaxlı olmayan oğlanlar sevdiyi qızın evinə şal sallayanda, qızlar onlara hisslərini belə sözlərlə bəyan edirlər. Məsələn, əgər qız da oğlanı sevsəydi, belə oxuyardı:

Ay bacadan salan,
Bayramlığını alan.
Çək şalıvı, sevmişəm,
Bayramlığın qoymuşam.

Əgər sevməsəydi belə söylərdi:

Ay bacadan şal salan,
Tez mənə mail olan,
Məni sənə verməzlər
Ged ayrı evdə dolan.

Və ya:

Ay bacadan sallanan,
Tez şalıvı sallama.
Məni səni verməzlər,
Day xalavı yollama.

**Əncir ağacın burmaq** – Hər kəs bir niyyət edib əncir ağacının budağın burar. Biri niyyət edər ki, mən ziyarətə gedəcəm. Səhər tezdən gedib baxar iri buruq budağ düzəlsə, sevinər ki, niyyəti qəbul olub, gedər səfərə hazırlaşar, yoxsa budağın buruğu düzəlməyibsə ondadır ki, niyyət qəbul olmayıb.

**Evin bar-bacasına daş yığma** – Mal, davarın çöldən gələnə vaxtı evin bar-bacasının qırağına hərə bir daş doyar, səhər tezdən gedib baxarlar. Hər kəsin daşının altında qurd-quş yığışıb, onda sevinər ki, varlı-devlətli olacaq. Birinin də daşının altı boş olsa, o, bekeflər ki, mən kasıb olacağam.

**Söyüd ağacından istək**– Söyüd ağacın qucaqlayıb Allahdan bir şey istərlər.

Qulaq busmaq (Qulaq asma)– Bir kəs ürəyində bir söz tutub, örnək, niyyət edər ki, filan xanımın uşağı olacaq, yoxsa yox. Gedib evin birində danışıqlarına qulaq verir, ilk eşitdiyi söz uşağa görə olsa sevinər ki, niyyəti qəbul olub.

**Su qırağına yumurta düzmək** –Gecə hərə bir çiy yumurta götürüb axar suyun qırağına gedərlər. Yumurtaları dik-dikinə suyun qırağıyla basdırarlar. Yanlarına da ***zəy,*** kömür, qırmızı cöhər qoyarlar. O başdan gedib baxarlar, birinin yumurtasına görsənə ki, qırmızı ləkə, birininkinə ağ ləkə, birininkinə də qara ləkə düşüb. Ağ ləkə kiminkinə düşsə, bəxti ağ olar, qırmızı olarsa, qırmızı günə çıxar, hər kəsin də yumurtasına qara ləkə düşsə, o bekeflər ki, baxtı qara olacaq.

Axır çərşənbə tonqal qalanıb çevrəsində şənlik edəndən sonra evlərə çəkilərlər, evlərdə yar-yoldaş, tay-tuş bir yerdə deyib-gülüb, oynayarlar. Qabaqcalar aşıq gətirərmişlər. O başdan kənd əhli durub, yumurta qoyan yumurtasına baş çəkər, əncir buran əncirinə. Carcavanlar da axar suya sarı yönələrlər, axı bu gün su təzələnib. Çaylarda axan su dənizlərdə dalğalanan su təzə sudu. Qızlar suyun üstündən atılıb "ağır-

lığım, uğurluğum tökül, qal burda”, “atıl-batıl çərşənbə, baxtım açıl çərşənbə” – deyə suyun üstündən atılarlar.

Qabaqcalar Araz çayının yanında olduqlarına çoxları gedib Arazadan keçərdilər. Oğlanlar suyun üstündən atılandan sonra düşüb suda çimərlər. Qadınlar göy– göyərti dərib suya verərlər. Bulaqların təzə suyunda yuyunanlar. Gələndə də özlərilə təzə su, bulağın da xırda daşından gətirərlər. Daşlardan nəhrəyə salarlar ki, bərəkətli olsun, suyu da evin dörd bucağına səpərlər ki, təzə sudan evə xeyir, bərəkər dolsun. Sonra evin qabağında tonqal qalayarlar.

**Ev qurumlamaq** – İl başına kimi ocaq yanan evdə odun hisindən evin dirəklərində, bur-bucağında qurum bağlanar, xanımlar süpürgənin dəstəsinə ağac bağlayıb, evin qurumların təmizlərlər. Evi təmizləyəndən sonra buğda qavırıb, evin dörd bucağına səpərlər ki, ev bərəkətli olsun.

Kişilər çərşənbə günü dağda, bayırda gəzişərlər. Qızlar da ağaclara kuf bağlayıb oynayarlar. Beləliklə, bayram özü çatar, il dəyişər, yeni il başlanar. Hamı təzə paltar geyinib, evində böyük bir süfrə açıb üstünə meyvə, şirni yığar. Kəndin kişiləri kəndin meydanına yığışıb o ili kənddə qara bayramlı olsa, yanı yaslı aylə olsa, onlara gedib bir fatihə verərlər. Olmasa, kəndin ağsaqqallarının evindən başlayıb bir-bir evlərə gedib, qapıdan girib “bayram çərşənbəniz mübarək olsun, neçə-neçə belə bayramlar görəsiz” – deyə oturub meyvədən, şirnidən yeyib durarlar. Bir-bir evləri gəzib qurtararlar. Kişilərdən sonra xanımlar dəstə-dəstə gedib evlərdə bayramı təbriklərlər. Xanımlar hərəsi əllərində bir lənbəkinin içinə iki şirni qoyub evlərə gedərlər. Hansı evə getsələr, şirniləri o evdə qoyub yerinə ayrı şirni o evdən götürəllər. Beləliklə, evdən-evə şirni apararlar.



## BAYRAM OYUNLARI:

### Bəy – gizir oyunu

Car-cavan bir yerə yığışıb və aralarından bir bəy seçərlər. Bəyin qabağına bir at kəlləsi sümüyün, bir qamış qoyarlar. Bəy də özünə bir gizir seçər, neçə nəfər də məmur verəllər.

Bəy buyruq verməyə başlar. Birin tutub gətirərlər bəyin yanına. Bəy göylündən keçəni ondan istər, ya da deyər bir toyuq, ya cücə ver. Ya da gizirə apar ona bir-iki yumuruq, ya təpik vur , burax.

### Yumurta döyüşdürmək

Hər kəs bir neçə boyalı yumurta götürüb bir yerə yığışarlar.

– Hə, kim mənnən yumurta döyüşdürür?

Görsə, özününkü onunkundan bərkdi deyər:

– Mən.

– Gətir vurax.

– Sən tutursan, mən vurum, yoxsa mən tutum, sən vur?

– Tut vurum.

Yumurtanı biri tutar, o brisi üç tərəfdən bir-birinə vurar, hankısının yumurtası sınsa, o birisi ondan yumurtanı alar.

Bayram günləri başdan uppulma, yumurta basdırmaq, "**əl** məndə" kimi oyunlar da oynarlar. Yemək götürüb o günü çöldə keçirərlər. Beləliklə, hamı arzuların saxlar gələn bayarama.

**Təkə oynatma**

Təkə kecinin erkəyinə deyilir. Kecinin soyuğa hec dözümü olmaz, tez üşüyər, amma hava yaxşı olanda və kefi saz olanda oynarlar və bu xasiyyətinə görə oynatmağa təkəni seçərlər. Ağacdan təkənin bədənini yonub ağız və göz yerini çəkirdik, sonra ona qıc düzəldib qoşurduq. Qazan ağızlığı kimi bir tağalağ düzəldirik və onu dəlib içindən bir ağac keçirib təkənin qarnının altına bərkidirik. Sonra əlvan parçalarla onu bəzədib qotaz tikirdik. O üz-bu üzünə də aynalar vururduq. Təkəni oynadanda tağalağı əlimizdə tutub və bir əlimizlə təkənin qarnınına altına qoşulmuş ağacı tağalağın altından tutaraq aşağı-yuxarı, o yan-bu yana apararaq oynadırdıq.

Ara-sıra kəndlərdə bayram ayında təkəçilər düzəltdikləri təkəni götürür, qapı-qapı gəzərək şeyir və "novruzdama" oxuya-oxuya evlərdə bayram payı alırdılar. Bu işi yoxsulluqdan deyil, dəb olaraq əyləncə və şənlik üçün görürdülər. Bayram ayında başlanır və cərşənbə axşamı qurtarardı.

Təkədə oxunan nəğmələr:

Təkəm-təkəm atdama,
Qol– qıcıvu qatdama.
Sabahkı bayram gəlir,
Gedib cöldə otlama.

Təkəm getdi cannığa,
Üz qoydu yamannığa.
Öldürdülər təkəmi,
Atdılar samannığa.

Təkəm-təkəm üş təkəm,
Bizim bağa düş təkəm.
Gəəzəgən arvatdarın
Sırğasına....... təkəm.

Ay mənim ala təkəm,
Başıma bəla təkəm.
Binamaz arvaddarın
Sırfasın yala təkəm.

Mənim təkəm cannudu,
Qolları mərcannudu.
Təkəmə əl vurmayın,
Təkəm iki cannudu.

Ay təkəmin kəndi var,
Kəndi var, kəməndi var.
Hər qapıda oynasa,
Bir nəlbəki qəndi var.

Hürəndi, ay hürəndi,
Yük dibinə sürəndi.
Allah oğlu saxlasın,
Təkəmi yola sal indi.

Təkəm gedib Mərəndə,
Tamaşadı gələndə.
Kül təkəmin başına,
Qəynənəsi öləndə.

# TOY ADƏTLƏRİ

Yekəndə qızlar çox kiçik çağlarında (10-9 yaşlarında) ərə verilir. Yarı zarafat, yarı ciddi məsəl var. Deyərlər ki, "Qızı börk ilə vur, yıxılmasa ərə vermək vacibdir." Zarafat bir yana, kiçik qız alındıqda anasına, kinayə üçün evin bir bucağında gəlin üçün nənni asmağı da xahiş etmişdir.

Qızın dilindən bu barədə yaşıdı olan oğlana xitab bu məsəl də var ki, deyərlər: "Yaşıdım oğlan! Dayan qoy ərə gedim. Qızım olsun, ərə verim sənə".

Oğlanları isə 17-18 yaşlarında evləndirərlər. Bir məsəl vardır deyərlər ki, " tez evlənən ilə tez ayrılan peşman olmaz".

**Elçi getmək və qız nişanlamaq.** Yekəndə oğlanlar qızları heç vaxt görə bilməzlər. Amma, olsun ki, börklərini şeşə qoyan və düş çəkib, boyun tutub, ayaqlarının qabağından savayı heç yerə baxmayan cahil qızları çadra altından, ya qapı carından görmüş olarlar.

Oğlan böyüyən zaman anası, bacısı axtarıb bir qızı nəzərdə tutub məclislərdə söz atmaq, ya sifariş ilə qız anasının nəzərini yoxlarlar. Əgər meyilli olsalar, bir gün necə arvad yığışıb elçilik gedərlər. Mətləbi açdıqda qız evi məmulən razılıq, nişan verərsə şirin gətirib yeyilər. Amma əgər qəbul olunmasa, qız adamı çay və şirin gətirməməklə muafiq olmamaqlarını bildirərlər.

**Kəsi– biçi** – Bu yığıncaq qız evində təşkil tapar. Qız nişanlandıqdan sonra oğlan adamları qız evinə gedərlər və orada başlıq və kəbin barədə söhbət olunub və çənə vurub, muafiqət olarlar. Nə qədər qənd və çay qız evinə verilməli olduğu təyin olar. Bu barədə qızın və oğlanın ataları danışarlar. Bəlkə, onların yaxın qohumları başlıq, kəbin və sairə üstə çənə vurarlar. "Kəsi-biçi" qurtarandan sonra "Allah mübarək eləsin"– deyə aparılan qənd kəlləsini sındırarlar. Bu qəndin kəlləsi üstə qa-

pan-qapış düşər. Cavan kişilər çalışarlar ki, onu ələ gətirsinlər. Çünki, hər kim onu ələ gətirsə, ona pay veriləçəkdir.

Toy günlərində müxtəlif adlar və münasibətlərlə verilməli olan pay isə məmulən Yekənin çox məşhur və gözəl rəngli yundan toxunmuş "qayığı corab", bəzən də sadə yun corab olar.

Sonra, qəndi doğrayıb elə o məclisdə hamıya şirin çay verilir. Toydan qabaq keçirilən bu növ mərasimlər məmulən pəncşənbə gününə salarlar.

**Şal salma (pay aparmaq)** – Bir neçə gün ondan sonra oğlan evindən qız evinə pərgar (xonça)lar düzəldib, şal və ya pay aparırlar. Bu pərgarların vəsayilini hazırlamaqda oğlanın yaxın qohumları da iştirak edərlər. Bu xonçaların sayı məmulən qız evinin böyük ailə üzvləri və yaxın qohumlarının sayıca olar. Hər birinə bir pərgar apararlar. Bu mərasimdə fəqət arvadlar olar və kişilər iştirak etməzlər. Bu pərgarlar bir məjminidən (məcmeyə) ibarət olur ki, onun içində corab və sairə münasib şeyləri qoyarlar və üstünə örtük salınar. Gəlinə isə şal çadralıq, parça və örpək qoyarlar. Bu mərasimdə oğlan adamları tərəfindən qız üçün pul yığarlar. Hamıdan çox pul verənlər qız evi tərəfindən yadda saxlanılar və "şal yeri" aparanda və toy günü bəyə pay göndəriləndə onlara ayrıca və xüsusən xonca bəzənib yollanılar.

Beləliklə, qız rəsmən nişanlanar. Lakin toy bir-iki il onnan sonraya qalar, nəticədə qız bir iki yaş böyüyər. Həm oğlan toyu pulunu düzəltmək üçün qürbətə yollanılar. Şal aparan arvadların bir ədəsi o gün şama qalarlar. Bu qalan qonaqlar elə həmən məclisdə oğlan evi tərəfindən təyin olar. Əlbəttə bu şama qalanların sayı deyilmiş saydan artıq olar. Qız evi də bunu yadda saxlar və şal yeri aparanda, ya toyun dördüncü günü oğlan evinə qonaq getdikdə, onlar da təlafi edərək dedikləri saydan çox adam apararlar. Əlbəttə, o zaman da oğlan evi bu işi nəzərə alaraq saydan artıq hazırlıq görər.

**Şal yeri aparmaq** – Şal yeri, şal salmaya cavab olaraq qız evi tərəfindən oğlan evinə apararlar. Hər birinə ayrıca kürəkən və kürəkənin yaxın qohumları və şal salmada çox pul verənlər üçün hər birinə ayrıca pərgar düzəldib apararlar. Bu şal yeri aparan arvadlar nahara qalarlar. Bu pərgarlarda da dediyimiz kimi, corabdan əlavə hər kəsin özünə münasib şeylər qoyular. Köynəklik, pul kisəsi, saat qabı, tərlik. Bu pərgarlar kişilər vasitəsi ilə oğlan evinədək aparılar. Pərgarları aparanlara da həmişə pay verərlər.

**Parça piçmək (kəsmək)** – Bu mərasimdə qız üçün aparılan fürsətdə olmasa çadralığı bicər və ağızlarını şirin edərlər. Qərəz ki, qeyçi gərək araya gəlsin.

Qız nişanlanandan sonra ilin müəyyən günlərində oğlan evindən qız evinə "pay" aparmalıdırlar. Əlbəttə ər evinə gedəndən sonra bu paylar həmən günlərdə qız evindən kürəkən evinə göndərilməlidir. Bu payların məruf olanları və zamanları belədir:

**On baçı payı** – Bu pay orucluq ayının beşində göndərilər. Qədimdə bu pay " aş" olardı. Çünki bu gün iftara hər evdə aş bişirilir. Buna on beş aşı deyilir. Lakin indilikdə məmulən küftə və qayqanaq bişirilib göndərillər.

**Qurban payı** – Qurban bayramı günü aparılan bu pay keçmişdə bozbaş olardı. Amma indi ət yollanılır.

**Çillə payı** – Bu pay böyük çillənin axşamı göndərilər. Ümumiyyətdə qarpız olar. Qovun və sairə şeylər də qoyular. Çillə axşamı qarpız yemək İranın hər yerində qədim rəsm olaraq icarə olunar.

**Bayram payı** – Novruz bayramında göndərilən bu pay hamı paylardan ağır və müfəssəl olar. Paltar və parça hətmən qoyarlar. "Yeddi ləvin" və sairə yemişlər və şirin və sairələr də olar. Xüsusən Yekənin məşhur olan kuməcləri bu payda olar və kəllə qənd rəngli yumurta və corab kimi şeylər də qoyarlar.

# TOY QAYDALARI

Yekəndə toy payızın axırları, qış fəslində başlanar və toylar dalbadal tutular. Beləliklə, toyları bu aylardan qabaq, ya dalı tutulmalıdır. Payız, qış fəsli də bunun üçündür ki, yazda, yayda hamı qürbətdə, ya əkində, xülasə iş dalısıncadır. Kənddə kimsə yoxdur. Dediyimiz kimi, toy fəsli olanda kənddə hər gün toy olar. Lakin iki toy bir zamanda tutulmaz. Çünki beləliklə adamlar bölünüb toy şənliyindən düşər. Odur ki, toy sahibləri bir-birləri ilə qabaqcadan danışıb qərarlaşarlar.

Qız nişanlandıqdan sonra qız evi toya hazırlanmağa başlayır. Bu cehizlərin içində çoxlu əl işləri də hazırlanmalı olar. Bu əl işlərindən: corablar, həmçinin sadə və ağ yun corablar, tərlik, saat qabı, möhür qabı, canamaz, pul kisəsi, bəy köynəyi və sairə səliqə ilə, rəngli sap, pilək, güləbatun, narın muncuq və sairə şeylərdən istifadə olaraq bəzənib, düzəlib dəyəirli bir töhfəyə təbdil olarlar.

Oğlan evi də toy tədarükünün fikrinə düşər. O cümlədən, yazdan bir ərkək qoyun becərməyə başlarlar. Payızda bu pərvari və heykəlli öyəclər elə kökələr özlərini və quyruqlarını çəkib yeridə bilməzlər. Necə küpə peyniri hazırlanıb yerdə qoyarlar.

Toya bir neçə gün qalmış da toy əppəgi bişirilib bir-biri üstə qoyarlar. Həmcinin toya neçə gün qalandan tayfada olan tasınlar (mis kasa) yığılır. Kömür, odun, ləpə, duz və sairə hazırlanır. Kəllə qənd doğranır. Böyük xeyir-şər samavarı və böyük çayniklər və böyük manqal və bir neçə kicik samavar, məcmeyi və sairə lazım olan şeylər yığılıb hazırlanır. Toydan bir iki gün qabaq çağrılanların adları hazırlanıb yazılar və kəndin dəlləyinə dəvətnamələr verilər. O da evbəev gəzib ya

harada görsə, onlara əblağ edər və adlara xətt çəkər. Yekəndə dəlləyin baş və üz qırxmaq, kəlbətin ilə diş çəkmək, neştər vurmaq, uşaq kəsmək və çoxlu ayrı vəzifələrindən savayı, adamları xeyrə -şərə şağırmaq onun vəzifəsi sayılar.

Xeyir-şər aşpazı kənddə iki nəfərdən artıq deyil, hər məclisdə olanlar cağrılarlar.

Bu məclislərdə xeyir olar, ya şər təkcə bir cür xörək bişirilir. O da bundan ibarətdir ki, pərvəri (qoç) ətini doğrayıb böyük qazanlarda ləpə ilə bişirərlər. Qalibən ləpə ayrıca yağ və duz ilə bişirilib sonra çörəyə qatılar. Yekəndə plov, xüsusən böyük qonaqlıqlarda bişirilməz.

Bir əndazədə ət, ləpə və bozbaş verilə və hamıya yetişə və əskik gəlmiyə...

Yekənin toyları dörd gün çəkər. Üş günü demək olar ki, kişilər üçün və dördüncü gün isə arvadlar üçündür. Bu günlərin hər üçündə səhər nahar və axşam toy evində çörək verilər. Duvax günü də arvadlara nahar verirlər. Hər gün nahardan qabaq və sonra o şamdan sonra aşıq dastan deyib, saz şalıb oxuyar.

**Toy mərasimi**– Toy mərasimi Yekəndə dediyimiz kimi, dörd gün çəkər. Hər günün isə adı var. Dəm günü, xına günü, gəlin çıxma, duvax qapma.

**Dəm günü** – Bu gün toyun əvvəl günüdür. Bu günün rəsmlərindən biri gəlinə pay aparmaqdır.

Bu gün qəlyanalrı və nahara fəqət “evlad” adamı və tayfanın cavanları ki, toyda xidmət etməlidirlər xidmətkeşlər dəvət olunarlar. Bu məclisdə xidmətkeş cavanların vəzifələri bir-bir təyin olunar: kimlər çayı verməli, kimlər samovar başında durmalı, əl suyu verməli, kimlər çörək və içməli su verməkdə kömək etməlidirlər.

Bu gün səhərdən böyük qazanlar asılıb, altı yandırılıb və neçə samovar eşikdə paqqa-paq qaynayır və axşama tədarük görərlər.

Yekəndə hər həyətdə məmulən bir yekə xeyir-şər damı var. Bu dam indi döşənib. Aşağı başında böyük samovar qoyulub. Içi od ilə dolu böyük manqal və odun ətrafında böyük çaynik qoyulub. Qənd və çay kisələri hazırdadır.

Bu gün axşamdan toya çağrılanlar şam və nahar sərf etməyə gələcəklər. Onlar sabahdan üç vədə ehtimalən birisi gün nahara orada yeməlidirlər. Bu gün ikindi cağından aşıq məclisi tutmağa başlıyar. Axşam şamdan sonra da məmulən bir ayrı dastan başlıyar və biri günlərdə hər iki dastanın qalanını öz vaxtlarında deyər. Bu günlərdən gəlin evinə göndərilən paylar xonçalarda aparılarkən aşıq da adamların qabağınca çala-çala gedər. Bəzən aşığın qabağınca dəstmal əlində gedə-gedə oynayanları olar.

Yekəndə aşıq yoxdur. Xoydan, Mərəndən, ya başqa yerlərdən gətirilir. Bu aşıq kəndin toyları qurtaranacan məmulən kənddə qalar.

Xoyun məşhur aşıqlarından Aşıq Aslan, Həbib və Mərəndli aşıq Mammet, sonralar aşıq Həsən hələ də çox təhsin ilə xatırlanarlar.

Aşıq bu gecə dastanı başlar, toy qurtaranacan ona ədamə verərlər.

Çay paylayan xidmətkeşlər hər gələnə əvvəl dəfə iki çay verər, sonralar da çay başa çatdıqda ( məclisin hamısı çayların içəndən sonra) dübarədən yuxarıdan başlıyaraq "tək" çayı verə-verə aşağı gələrlər. Xörək və çaya yuxarı başdan başlanar, təkcə aşıq söhbətə başlayanda çay paylamaq dayandırılar.

Çaylar balaca məxsus bərnəc, ya vərşu sinilərdə (ziraltı) paylanar. İki çay verilmə zamanı çay içiləndən sonra xidmətkeş ziraltını qoyub istəkanı aparar, ikinci çayı içiləndən sonra isə ziraltını da stəkan ilə bərabər aparar. Xidmətkeş çox muəzzəb olmalıdır ki, hər təzə gələnə furan çayı verib, stəkanlar boşalan zaman tez yığışdırsınlar.

Bu xidmətkeşlər hər yerdə içəridə, eşikdə ayaqüstə ədəblə qulluqdda hazırdılar. Çay istəyənə çay, su istəyənə su tezlik ilə verərlər. Samovar boşaldıqca tez-tez eşikdə qaynamaqda olan samovarlar gətirib içəridəki böyük samovarın başına tökülər.

Məclisdə oturmağın da rəsmi vardır. Əvvəlcə, duvar dibləri dolar sonra ortadan ikibəiki dal-dala çevirib ayrı yuxarı başdan bir cüt ayrı süfrə düzəlir. Yuxarı başdan bir az açıq qoyarlar ki, bu nal şəkil tapmış fəzada çay paylayanlar və aşıq dolana bilsin və çörək veriləndə də süfrə açmaq olsun. Toya gələnlər öz münasib yerlərini tapıb oturmalıdırlar. Cavanlar və ictimai cəhətdən qəbul olunmayan şəxslər yuxarı başa keçməlidirlər. Deyərlər ki: “Adam gərək məclisdə öz yerini tanısın”. Yaxud məclisdə gərək elə yerdə oturasan, böyük, ya möhtərəm adamlar gəldikdə aşağı çəkilib ona özündən yuxarıda yer verməklə aşağı gedə-gedə özlərinə münasib yerdə qərar tutacaqdılar.

Çörək veriləndə hər iki nəfərə bir tas (mis kasa) qoyular. Bu tasda ət, şəhlə, ləpə və bozbaş vardır. İki nəfər çörək şərikləri yanbayan olmalıdırlar. Bu iki nəfər əvvəlcə şörək doğrayıb kasanın bir tərəfindən daxil edərlər. Beləliklə, ət və dən, duz kasanın bir tərəfinə yığışar, onda ətləri çıxardıb çörək üstünə qoyarlar. Lakin ləpə tilit içində qalar və bu da tiliti çox xoşməzə edər.

Xörək yeməyin də özünün qaydası vardır. Hər kəs nimcəni öz qabağından götürməlidir. Qaşıq olmadığına görə bir tikə çörək ilə iki barmağı qatlayıb üç barmaq ilə tiliti kasadan götürməlidir. Az kasanın qırağına dayayıb saxlasan daha ətin suyu barmaqlardan aşağı süzməz. Bu işi bacarmayanlar üçün asan olmasa da, başaranlar onu çox zərifliklə əncam verərlər.

Bəziləri şəhlə yeməzlər, bu zaman biri yoldaşı şəhlə yeyən olsa bəzən əti yoldaşı ilə yeyib sonra da şəhləni tək yeyər. Bu çörəki yağlı olduğuna görə soğansız yemək olmaz.

Amma bu ləpə ilə qarışıq tiliti və pərvəri, öyəc ətini Yekənin məşhur olan kövrək və ağ əppəgi və soğan ilə yeyən onun ləzzətindən doya bilməz.

Çörək verilməmişdən qabaq məxsus mis aftafa– ləgən ilə əl suyu verilər. Xidmətkeş cavanlar məclisin baş tərəfindən başlayaraq qonaqların əllərinə tökərlər. Xidmətkeşlərin çiyinlərində məmulən dəsmal da olar. Əllərini yuyanlar istəsələr əllərini qurulada bilərlər. Cörəkdən qabaq verilən su isti olmaz, amma çörəkdən sonra verilən su isti olmalıdır. Xidmətkeşin vəzifəsidir ki, suyun çox dağ olmamasını qabaqcadan yəqin etsin. Suyu tökmək üçün gərək bir– bir qonaqların qabağında bir dizini yerə qoyub dabanını özünə dayaq edib otusun.

Əl yumağın rəsmi vardır. Bəllidir ki, bu su əlləri yumaq üçün deyil, çünki belə olsa hər nəfərə bir aftafa su lazım olar və hər nəfərdən sonra da ləyən boşalmalı olar. Onlar fəqət sağ əlinin barmaqlarının ucunu müxtəsər yumalıdırlar. Bəziləri cörəkdən sonra barmağını duza batırıb dişlərinə çəkərlər. Bəziləri də çörəkdən sonra əllərini yuyanda bir az su da ovuclarında ağızlarına alıb dolandırarlar. Bu su udulmalıdır, yoxsa ləyənə qaytarılsa biədəblik sayılar.

Şamdan sonra hər nəfərə iki çayı da dübarə verilər. Bu zaman aşıq məclisin bir tərəfində oturduğu halda özünü hazırlamağa başlar. Sazını quraraq hərdən bir dınqıldadar. Məclis əhalisi isə şirin bir intizara dalar. Aşıq sazını qurandan sonra oturduğu yerdə asta və araməş baxışlayan səs və məxsusi ahəng ilə bir ustadnamə ya nəsihətnamə oxumağa başlayar. Məsələn:

Dəli könül məndən sənə əmanət,
Məhşər günü qohum-qardaş tapılmaz.
Demə bu dünyada qalım yaxşıdı,
Demə ölsəm var, elim yaxşıdı.

Bir yerə gedəndə özünü öymə,
Əgər gücün vardı fağırı döymə,
Şeytana bac verib, kimsəni söymə
Demə qüvvətim var, qolum yaxşıdı.

Qocaqdan olmusan, sən də qoçaq ol,
Aşıq qabağı ol, göylü alçaq ol.
Qadadan, bəlada, gen gəz qaçaq ol,
Demə pulum vardı, malım yaxşıdı.

Xəstə Qasım kimə qılsın dadını,
Yaxşı igid yaman etməz adını.
Canı çıxsın özü çəksin odunu
Yaman ad etməkdən ölüm yaxşıdı.

Bu zaman məclis hesabı qızışıb və səbirsizliklə aşığın söhbətinin intizarını çəkərlər. Aşıq ayağa qalxır və dastanı başlayır: "Əndəlib Mirzə Qulam Kəmtər", "Əsli Kərəm", "Koroğlu", "Şah İsmayıl", "Şah Abbas", "Seyid Əmrə", "Aşıq Qərib ilə Şahşənəm", "Bəhram ilə Gülxəndan" və sairə kiminlər.

Dediyimiz kimi, o dastan o gün qurtarmaz. Amma aşıq öz şirinkarlığı və lətifələri ilə hamını razı salar. Axırda yorulanda isə oturub bir çaya qənd atıb içər. Bu zaman tayfa cavanlarından səsi yaxşı olanlardan dəvət olunar ki, gəlib aşığın yanında oturub bir ağız oxusun. Bu cavanlar da bir az naz eyləyib "soyuq dəyib səsim gəlmir və qeyri kimi bəhanələrdən sonra" gəlib aşığın yanında oturub əlini qulağına qoyub gözlərini yumaraq aşığın sazı ilə aşıq mahnılarından bir neçə bənd oxuyar.

Gah da məclis əhli aşıqdan bir Qarabağ (şikəstəsi) maya qoymağı xahiş edərlər. Aşıq da məclisi bir "Qarabağ şikəstəsi"nə qonaq elər. Guşə, kənardan isə əhsaslı adamlar "ay anam qurban sənə, nənəm qurban aşıq" -deyərək göz yaşlarını mıncıq kimi özlərinə axıdarlar. Yekənlilərdə İranın hər yeri

kimi qəmgin havaları çox sevərlər. Məclisdə olanların gözləri yaşarsa oxunan havadan ləzzət çəkdiklərini düşünmək olar.

Aşıq qurtarandan sonra uşaqlar və bəzi böyüklər cıxıb gedərlər.

Toyda hec zaddan müzayiqə olmaz. Çünki qonaqların hər cəhətdən razı qalmaları toy sahibi üçün çox əhəmiyyətlidir. Hər adama tiryək çəkmək yaraşmaz. Bəzilərinin boynunu da vursan hoqqanın "qimşəsinə" dodaq vurmağa hazır olmaz. Tiryək çəkənlər dediyimiz kimi, kəndin ziyalıları və düşüncəli və məclis adamları sayılarlar. Sonra qumar dəstələri arabaara təşkil tapar. Burada da həmən ziyalı sayılanlar, varaq ilə bang oyunu oynarlar. Bunların özlərinin çox da səngin və maraqlı ədaları vardır. Həmişə bir əda bunların yanları və başları üstündə olarlar. O biri dəstələr də "divsit odin" (rusca iyirmi bir) və "aşığı qibtə", ya çox cavanlar və dədədən qorxanlar isə məxsusi pulla "aşıq" oyunlarına məşğul olarlar.

Gecə keçdikcə cavanlar və təfrih üçün qumar oynayanlar yavaş-yavaş durub gedirlər. Bəziləri də evin bir tərəfində bicilib yatarlar. Amma rəsmi qumarbazlar səhər açılanadək oynar və qəlyanaltı süfrəsi döşənmək zamanı durub qəlyanaltı eyləyib yatmaq üçün evlərinə gedərlər. Bunu da deməliyik ki, bu fəsildə heç kəsin işi olmaz və hamının bekar vaxtıdır. Beləliklə, bu toy məclisləri böyük qənimət sayarlar.

Qonaqlardan layiqincə pəziralıq olar. Hətta gecə səhərəcən ayıq qalan qumarbazlara da səhərətəkin acana, peynir çörək dürməgi, ya sinidə peynir çörək, şirin çay gətirilir, su istəyənə su verilir, çay istəyənə çay verilir. Heç zaddan məzayiqə olmazlar.

**Xına günü (gecəsi)** – Bu gün toyun ikinci günüdür. Səhər tezdən böyük damda iki rədif süfrə döşənib Yekənin ağ və ləzzətli əppəkləri süfrəyə salınıb, zir dolusu küpə peyniri çöræklər arasında qoyulub, samovarlar eşikdə paqqapaq qayna-

maqdadır. Toya çağırılanlar hər vaxt yuxudan dursalar bir baş öz evlərindən toy evinə gəlib qəlyanaltı edərlər.

Hər gələnə bir qənd salınmış çay və sonra da iki dişləmə acı çay verilər. Iri qənd parçasının stəkanda mənzərəsi hər görəni iştahaya gətirər. Bir tərəfdən də şirin çay ilə yekə əppəyi və küpə peynirini yeməklə doymaq olmaz.

Xidmətkeşlərin bir başda çörək tökər və boşalmış zirləri (nəlbəki) peynir ilə doldurarlar.

Nəştovluq sovuşandan sonra süfrələr yığılar. Ancaq genə də dalıya qalan olmuş olsa, məcməyidə peynir çörək gətirilir qabağına qoyular.

Sonra aşıq gəlib genə də oxuyar. Bu zaman toya cağrılan və çağrılmayan xüsusən uşaqlar və toy adamları aşığın söhbətinə qulaq asmağa fürsət taparlar. Naharçağı getməlilər gedər və qonaqlar nahara oturarlar. Nahardan sonra aşığ həmən təşrifat ilə durub saz çalıb söz tutar. Gündüz deyilən dastan məmulən gecəki ilə fərqli olar.

## Bəy geyindirmək

Bu gecənin rəsmlərindən biri də bəy (kürəkən) geyindirməkdir. Qız evinin və oğlan evinin arvadları arada çəkilən bir pərdənin dalısında oturarlar. Aşıq və kəndin dəlləyi də gələr. Bəy paltarı geyindirmək dəlləyin vəzifəsidir. Dəllək əvvəl başını qırxar, sonra da paltarlarını geyindirər.

## Paltar aparmaq

Bu gün oğlan evindən qız evinə gəlin paltarı göndərirlər. O paltarların işərisində üç dənə şam və üç dəsmal göndərirlər. Qız evi də üç pərgar (xonça) bəzədib, hər pərgara üç samı və dəsmalların birini qoyub və sairə şeyləri ilə toy evinə göndərər.

Bu pərgarların biri bəyin və ikisi də sağdış ilə soldışınkıdır. Bəyin pərgarında köynək, corab və sairə şeylər də izafə olunar. Və indi isə bəy geyindirəndə dəllək həmən paltarları, yəni köynək və corabı bəyə geyindirər və üstündən də oğlan evi tərəfindən hazırlanmış təzə caket və şalvar geydirər. Bu halda aşıq saz və söz ilə bəyin boyunu "görüm ay bəy, toyun mübarək olsun"– deyə oxşayar. Orada olan oğlanın qohumlarından da ənam alaraq tərif edər, bu halda məclisdə olanlar tərəfindən pul verilər və bu pullar aşıq ilə dəlləyin arasında bölünər. Bəyin ayağından çıxan corab dəlləyə yetişər. Bu gecə məmulən gəlin də köhnə çadraya bürünərək arvadların arasında gizlicə bu mərasimdə hazır olar. Bu məclisdə də oxunan şerlərdən nümunə üçün nəql edirik:

Gedirəm Nəcəfə girərəm bəstə,
Sağdışın, solduşun, özün nurəstə.
Dərərəm güllərin, tutaram dəstə,
Qohumun, qardaşın elin var olsun.

**Bəyin atası ənam verdikdə:**

Bazardan aldım məkəni,
Sağ olsun oğlan əkəni.
O məkəni, bu məkəni,
Ay bəy, toyun mübarək.
(Ay qız, toyun mübarək).

**Bəyin anasının tərifində:**

Bazardan aldım soğanı,
Sağ olsun oğlan doğanı.
O soğanı, bu soğanı,
Ay bəy, toyun mübarək.
(Ay qız, toyun mübarək).

**Oğlan baldızının tərifində:**

Bazardan aldım qarpızı,
Sağ olsun oğlan baldızı.
O qarpızı, bu qarpızı,
Ay bəy, toyun mübarək.

## Dövran

Bu gecənin bir ayrı rəsmi də "dövran" yığmaqdır. Toyda iştirak edənlər tərəfindən kürəkən üçün pul yığırlar. Beləliklə, toyun xərcinin çox hissəsi təmin olar və oğlan da zindiganlığının əvvəlində borclu düşməz və çox zərər və ziyan çəkməz. Bu verilən pulların miqdarı adamın kürəkən ilə yaxınlığı və uzaqlığı münasibəti ilə qərq edər.

Dövran yığmaq bu cürdür ki, bu gecə şam və çayı verilib aşığ söhbətini qurtarandan sonra toy adamlarınıdan bir ağsaqqal məclisin başında oturar və dəllək ayağa qalxıb, verilən pulları alıb, uca səs ilə pulun miqdarın və pul verənin adını çəkər və "evi avadan" ibarəsini də artırar, pulu ağsaqqalın qabağına qoyar, bir nəfər savadlı verilən pulları və adamların adını qeyd edər.

Dövran yığılandan sonra pulların cəmi elan olunaraq "elin evi avadan" deyilər. Məclis əhli də hər tərəfdən "mübarək olsun" deyərlər. Ancaq dövran verməyin də rəsm, rusumu vardır. Əvvəl hamıdan artıq dövran salanlar danışar və pul verər. Dəllək tərəfindən elan olunar. Bu adamlar məmulən kürəkənin yaxın adamlarıdır. Tədric ilə verilən pulların miqdarı aşağı gələr. Burda biganə adamları onlardan qabaq danışmamalıdırlar. Hər kim öz yerində dinlənməlidir və hər kəs elan olan pulların məbləği onun nəzərində tutduğu pula yetişdikdə danışa bilər. Çünki əgər sonradan gələn adam qabaqkılardan artıq məbləğ salsa olanlara tuhin sayılar. Əgər az

dövran salan şəxs vaxtından qabaq danışsa ondan sonrakılar ondan az məsavi pul verməyə məcbur olarlar. Nəticədə dövranın miqdarı birdən aşağı düşər və toy sahibinə zərər olar.

Odur ki, oğlan adamı hətta öz verdikləri həqiqi məbləğdən də çox artıq bir məbləğ elan edər və bir miqdarını nisyə saxlarlar. Lakin hamı bilir ki, həqiqi məbləğ həmən nəqd verilən puldur nisyə deyilən məbləğ təşrifat üçündür və verilməyəcəkdir.

Çox dövran verənlər içində o il toy edənlərin adamlarını da görmək olar. Çünki bu borc kimin bir şeydir. Sabah bunlar da onun toyunda çox dövran salacaq və beləliklə dövranın cəmi yuxarı gedəcək. Hər nə də dövran çox olsa, bir elə də toy sahibinin başının ucalığı sayılar.

Hər dəfə ki, bir nəfər pul verər, dəllək pulu alıb əlində göstərərək uca səslə elan edər ki, “filankəs də bir belə verdi evi avadan”.

Dediyimiz kimi, verilən məbləğ tədric ilə aşağı gələr məmuli adamlar yetişəndə hər ilin vəzinə ( orucluq, bahalıq nisbəti ilə) miqdarı təqribən məlum olan bir məbləğ verilər. Odur ki, o məbləğə yetişər ki, pul verməyin sürəti artar, daha kimsə bir-birini mülahizə etməyə məcbur olmaz və dalbadal pullar verilib, adlar “evi avadan”– deyə elan olunar. Bəzən də yaxın qohumlardan hazır olmayan olsa, onun ailəsi tərəfindən pul məclisə yollanıb adı çəkilər. Bu gecə də kecən gecəki kimi səhərə çatar. Əgər dövran rizayətli olsa toy sahibi oradaca elan edər ki, sabah el nahara dəvətlidir. Məmulən, elə o cürədirlər. Əgər elan olunmassa, sabah nahara tayfa adamları gələcəkdirlər.

## Gəlin çıxma

Bu gün nahardan sonra kəndin mollası oğlan evinə gətirilir. Qızın və oğlanın vəkilləri və bir neçə nəfər şahid və

qeyri bir otaqda yığışarlar və “ağa”da olanlardan vəkillik alaraq hər iki tərəfin vəkilatı ilə siğəni oxuyar. Kəbin kağızını yazar ağa və şahidlər imzalarlar. Qəbalədən və zövc və zövcə və ata və analarının adları və “kəbin” məbləği və əgər ayrı bir şəraitdə olsa yazarlar. Bu kəbin kağızı oğlan adamına verilir. Sonra bir neçə nəfər oğlan adamları qız evinə gedib qızın cehizindən sürət götürüb yaddaşət edərlər. Qız böyügü aldığı, ya hazırladığı şeylərin adını və qiymətini deyər. Bir nəfər yaddaşət edər. Əgər oğlan adamı deyilən qiyməti qəbul etməsələr, çənə vurmağa başlarlar amma çünki xoşluq məsələsidir və alım-satım arada yoxdur. Odur ki, bir qiymətin üstündə muafəqqət edib yazarlar. (Son illərdə qız şəhərdən aldığı şeylərin faktorunu göstərərək işi rahatladar). Cehizin miqdarı məmulən başlığın məbləğ ilə münasibət olmalıdır.

Cehizin cəzvində bir sandıq da olar. Ancaq bu sandığı aşmazlar. (Sandığın içində əl işləri, möhür qabı, pul kisəsi, tərlik, saat qabı, corab və sairə olar).

Bu sandığın içindəki şeylərə qız evi hər nə desə cəmidə bir qiymət qoyulub yazılar. Bu kağız da oğlan evinə aparılar və cehiz oğlan evinə yetişdikdə o surəti özü ilə yoxlanılıb və oğlan tərəfindən imzalanar. Və gəlin gətirilib oğlan evinə təhvil olandan sonra “kəbin kağızı” ilə birlikdə qız evinə təhvil verilər. Bu iki mədrək həmişə qız evində saxlanılar. Əgər ittifaqın qız bir dəfəlik olaraq dədəsi evinə qayıtmalı olsa, kəbin və cehiz, o mədrəklər özü ilə verilməlidir.

Əlbəttə, Yekəndə arvad boşamaq cox az olar. Lakin söz yoxdur ki, ölümün qabağını almaq olmaz.

Bu gün, gün batana bir az qalana oğlan adamları aşıq çala-çala bir neçə xonça içində kəllə qənd və sairə şeylər ilə qız evinə sarı hərəkət edərlər və gəlini qız evindən çıxarıb və yenə də aşıq çala-çala oğlan evinə gətirilər.

Gəlin evdən cıxmamış da bir sıra təşrifat əncam tapar, o cümlədən gəlin təndirin dövrəsinə dolandırıb 10-15 yaşında bir məhrəm oğlan uşağı belini bağlar və bir məhrəm kişi xeyir– dua oxuyaraq gəlinə yeddi oğlan bir qız doğmağı arzu edər. Gəlinin qabağınca bir neçə xonca hərəkət edər.

Məmulən, qızın başına qalın bir şal salındığına görə, heç yeri görə bilməz. Odur ki, iki məhrəm kişi qızın qoltuğindan yapışıb çox ahəstəliklə oğlan evinə sarı apararlar.

Gəlin çıxarkən yan-yörəsindəkilər müxtəlif nəğmələr söylərlər:

Gəlin gəlir, xan gəlir,
Bizim evə can gəlir.
At gətirin çullayın,
Tokuş nəqşi yollayın.

At gətirin atlansın,
Atı kəhər yar-yar.
Gəlin gəlsin tez minsin,
Adı Gövhər yar-yar.

Üç bacıdan birisi,
Atlandı yar-yar.
Indi onun günüsü,
Patlandı yar-yar.

Bu zaman qız evinin ətrafında dam-daşlar və küçə, arvad uşaq ilə dolarlar. Aşıq bir az həyətdə çalıb oxuyar. Gəlin anası, xalası, ya böyük bacısı əlində dəsmal üzü yaşmaqlı halda gəlinin qabağında oynuyarlar. Amma bu oynamaq tək bir arzunu yerinə yetirmək mənasındadır. Və çox aram hərəkətlə əncam tapar.

Bəzən də görərsən ki, qız tərəfindən bir kişi qapını kəsib gəlinin çıxmağına mane olar. Mümkündür ki, fəqət bir pay istəyir və bir cüt corab ilə iş qurtarar. Yainki, qızın, məsələn əmisi

başlığın azlığına etirazı olmuş olar. Hər halda onu razı edib gəlini apararlar. Bu zaman dam-duvarı tutan arvad, qızlar və uşaqların birisi gəlin ilə hərəkət edər və çox çəkməz ki, qabaqcadan izdiham tapmış oğlan evinin otağı daha da şuluqlaşar. Və gəlin oğlan evinin həyətinə varid olar. Kişilər arvadların izdihamına qatışmazlar və uzaqdan dayanıb tamaşaçı olarlar. Təkcə bir nəfər məhrəm kişi gəlin ilə həyətə girib o şuluğluqda gəlini gətirib damın duvarının dibində dalısı duvara sarı saxlayarlar.

Bu zaman damın bir guşəsində gizlənmiş, yaxud qonşu həyətdən həmən zaman dama çıxan kürəkən sağdış və soldışı ilə birlikdə qızın başının üstünə gəlib və kürəkən cibində saxladığı üç almanı çıxardıb yuxarıdan gəlinin başına atar. Bu zaman gəlinin yanındakı məhrəm kişi börkünü çıxarıb tərsəsinə qızın başının üstündə saxlar ki, almalar onun içinə düşsün və gəlinin başına dəyməsin. Bəzi vaxt kürəkənin qız evindən dilxorluğu olsa çalışar ki, almaları börkün kənarından gəlinin başına çalsın. Əlbəttə, bu barədə qabaqdan oğlana lazım olan nəsihət verilər ki, əgər qızın başı yarılsa hər nə cür olsa öz arvadıdır. Narahatlığını özü çəkəcəkdir. Alma atılandan sonra sağdış əlində olan xırda pul və noğul ilə dolan sinini damdan yerə tökər və arvadlar içində qapan-qapış düşər. Sonra kürəkən sağdış və soldış ilə birlikdə qonşu həyətə yenərlər. Bu zaman orada bir neçə qohumlardan onun intizarını çəkər və bəyi şama qonaq aparmaq üçün dəyişməyə başlarlar. Amma məlumən sağdışın onların içində sözü keçərli olar. Hər halda hər kimin sözü keçərli olsa, bəyi öz evinə aparar. Gecəyarısı qonaqlar dağılandan sonra kürəkəni gətirib gəlin otağına keçirdib hər tərəfdən bir arvadın tövsiyəsi ilə əl-ələ verərlər. Amma hələ də bir adi arvad, qız o biri otaqlarda və həyətdə olub, bəziləri də qapı, pəncərə dalısında qulaq asarlar. Bunların arasında qız yengəsi və ayrı qız adamları da vardır və qızın nəciblik mədrəki olan döşəyə tikilən dəsmalın müntəzirdilər.

Bəy həcləyə girəndə sağ ciyini ilə girər. Bu zaman gəlin qaçıb kürəkənin ayağını ayağlamalıdır. Hər biri o birinin ayağını ayağlaya bilsə, gələcəkdə onun dili o birisinin üstünə uzun olar. Əl-ələ verib çıxandan sonra kürəkən hər nə gəlini dindirsə də cavab verməz. Bu zaman kürəkən bir miqdar pul ona "dil bağı" verməlidir. Bu pul az olsa yenə də gəlin cavab verməz, ta ki, onun razı olduğu qədər pulun məbləği artırılar.

Gəlin yatağının üstünə şirinlik üçün kişmiş səpərlər və gəlin oğlan doğsun deyə, oğlan uşağını da döşəyin üstünə dığırlarlar.

Bəzən qız və oğlanın təcrübəsizlikləri nəticəsində yaxud utancaqlıqlarından bu intizar o gecə nəticə verməz.

Bu zaman dedikləri kimi oğlan bağlıdır. Yəni guya düşmənlərindən biri müraciət edərək onu bağlatdırır. Və onun çarəsi də doktorların əlində yox, bəlkə həmən daunislərin əllərindədir. Odur ki, danuislərin dalısınca o qədər gedərlər ki, oğlan açılar.

## Duvaq günü

Bu gün, ümumiyyətdə arvadlar üçündür.

Bu gün səhər tezdən qız evində qayqanaq bişirib oğlan evinə "otaq görüşünə" gələrlər. Kürəkən və gəlin üçün ayrı bir qabda pay qoyarlar. Bu gün oğlan və qızın tayfa arvadları nahara çağırılırlar. Nahar veriləndən sonra kişilərin dövranları kimi, arvadlar tərəfindən "duvax", yəni pul yığılar. Beləliklə, oğlan və qız dövran və duvax pulları nəticəsində müştərək yaşayışlarının ilk günlərində malı məzyuqələrə məruz qalmazlar.

Bu da deyilməlidir ki, bu duvax və dövranlar borc kimi bir bir şeydir, illərcə toylarda şərkət edib bu pullardan verib və gələcəkdə verəcəkdirlər.

Bu yığılan pulların müqdəratı hər nə qədər cox olsa artıq iftixar sayılar. Odur ki, toy sahibləri çox çalışarlar ki, hamı razı qalsın və toya gələnlərin istədikləri tamamı ilə yerinə yetirilsin. Məsələn, bir nəfər ki, hey tiryək və çay və qeyri sifariş verir, söz yox ki, dövranda da çox pul verəcəkdir. Əlbəttə bunsuz da bir növ vəzifə və "dəb" olaraq tayfa cavanları o neçə gün həmişə ayaqüstə qulluqda durar və yorulmadan xidmət edib, su istəyəndə su, çay istəyəndə çay, hətta gecəyarısı acmış qumarbazlara peynir, çörək və şirin çay və qeyrini yetirərlər.

## Duvaq qapma

Bu gün rəsmlərindən biri də duvağ qapmadır. Gəlini gətirib tərsə qoyulmuş bir tabağın üstündə oturdarlar. Tabağın altına cörək, peynir və su qoyarlar. Gəlinin üzünə nazik parça duvağ salınar. Bir məhrəm oğlan uşağı gəlib o örtüyü qapıb qaçar. Bəzən oğlan utancaq və gəlin yumulub duvağı uşaqdan alar. Bu zaman oğlana bir zad verilməz, amma duvağı qapıb apara bilsə ona corabdan– zaddan verilib, duvağ dalı alınar. Sonra çörək və peynir tikələnib hərəyə bir balaca tikə verərlər. Və suyu da icərlər. Duvağ qapmadan sonra üşüncü gündən qız adamları tərəfindən növbət ilə kürəkənə ayağ açma edərlər.

## Qadın toylarında oyun

Səfər ayının sonunda qadınların arasında kecirilən mərasimdə xoş rəngdə geyinib kecinırdik – qırmızı don , qırmızı önlük. Bir nəfər başına cadra salıb qız olardı. Bir nəfərə də şalvar geydirərdik, olardı kişi. Bəzi vaxtlar əlinə bir zad da verərdik. Yadıma gəlir "şərabı tök fincana" oxumağa yetişəndə bunun əlinə süt şüşəsində cay verirdik. O da kefli ədası cıxardardı, ya "zıri xanımlar"ı oxuyanda əlini topanca kimi

şaqqıldadardı. Bu qız qır verə-verə yoldan kecərdi, kişi də onu görüb sataşardı. Əvvəli belə başlardı:

– Hacı məhlə qızı, sən üzün sövməli,
Görsəydim gözüvü alardım səni.

Qız gözünü çadradan eşigə cıxarardı. Sonra üstə yazılan sözləri oxuyub, qızın çadrasını acardı. “Bala Zəri xanım” oxumağından əldə olan parcalar:

Ev oldu xulut, bala Zəri xanım,
Cadranı tərpət , bala Zəri xanım,
Şeytana lənət, bala Zəri xanım.

Əldə topanca, bala Zəri xanım,
Gəlləm dalınca , bala Zəri xanım,
Mənim olunca bala Zəri xanım.

“Can-cana” oxumağımızdan əldə olan parçalar:

Can cana, can cana,
Şərabı tök fincana.
Mən ki içən deyiləm,
Qurbanam içən cana.

Bir cürə də varıydı. Bir nəfər ayağına rəng, ya corab kecirdərdi, birinin üstünə arvad qaş-gözü çəkərdi, birinin də üstünə bığ-saqqal. Sonra bu ayaqlar bir-birilə savaşardılar. Mənim yadımda deyil nə deyirdilər, amma yadımdadır ki, arvad ərinin döyərdi.

Bir cürə də var idi, kişi evə gəlib qapını döyərdi. Arvadı acmazdı, ikisi şerinən danışırdılar:

Aç qapını arvad, qapıda qalmışam,
Beş tümənə bir ləbədar almışam.

## YAĞIŞ YAĞDIRMA MƏRASİMLƏRİ

Yekənatda yağış çox az gələr. Hərçənd su azlığı İranın çox yerlərində xalqın böyük müşkilatı sayılır. Arvadların el ocağında oxuduqları şeirlərdən biri budur ki, Kəhriz -Yekənin şərqində vaqiə olan qala dağına xitab edərək deyərlər:

Qala dağının buludu,
Yetimlərin ümudu,
Allah bir yağış yetir
Dəmlərimiz qurudu.

Bir ayrı rəsmidə "Çömçə xatın" çıxartmaqdadır. Bu rəsmdə bir-iki nəfər libasların dəyişərək bir uzun taxta qaşıq, ya çömçə ilə gəlib evlərin qabağında oxuyaraq pay alarlar:

Qışdan çıxdıq, yaza girdik,
Açıldı darvaza girdik.
Bir pul verin tuman alaq,
Kimdən alaq?
Ağadan alaq, xanımdan alaq?

Bu sözləri oxuyanda çömçəni su ilə doldurub adamların üstünə səpərlər.

### "Yada daşı"na səslənmələr:

Ada, ada, ada hey,
Yada, yada, yada hey.
Adam adamı tutdu,
Yadam yadamı tutdu.

Yadam gör huya düşdü,
Yadam gör suya düşdü.
Yadam qara daş oldu,
Yadam yaman yaş oldu.
Ada, ada, ada hey,

Yada, yada, yada hey.
Yada yadamı tutdu ,
Yadam gəldi, yaş oldu,
Adam gəldi, yaş oldu.

Yadam yadama gəldi,
Yadama adama gəldi,
Yadam gəldi, sel oldu,
Yadam gəldi, yel oldu.
Yadam hər yerə başdı,

Yadam dağları aşdı,
Yadam zəhməti dandı,
Yadam dərdimi andı.

Yadam yağımı əzdi,
Yadam nabatda gəldi,
Hey verdi, huyuma yadam,
Hey verdi, huyuma yadam,

Ada, ada, ada gəl,
Yada, yada, yada gəl.
Yadam gəldi baş oldu,
Üstü-başım yaş oldu.
Ada, ada, ada hey,
Yada, yada, yada hey.

Çömçəxatın nə istər,
Şirə aşır, yağış istər.
Əli, qolu xəmirdə,
Bir qaşıq su istər.
Çax daşı, çaxmaq daşı,
Yandı ürəyim başı.
Biçinlərin yoldaşı,
Əkinlərin yoldaşı,
Qalaq-qalaq xərmənlər,
Hanı çayın nəm daşı?
Çax daşı, çaxmaq daşı,
Yandı almalar başı,
Yandı heyvanlar başı.
Düzləyir sapa qarı,
Ay bulutlar siz tarı,
Gəlin bu kəndə sarı.

Bu kənd bəylər kəndidir,
Iyit yeylər kəndidir.

Dağlar quraq-quraqdı,
Tikan toraq-toraqdı.
Tikan nəyə karımdı,
Mənə oraq lazımdı.
Çax daşı, çaxmaq daşı,
Yandı ürəyim başı,
Hanı göyün yoldaşı,
Yandı dağların başı,
Allah, bir yağış göndər,
Göyərtsin dağ-daşı.
Ala dağın buludu,
Əkinçinin umudu,
Allah, bir yağış göndər,
Arpa, buğda qurudu.
Çax daşı, çaxmax daşı,
Sayaçıya pay daşı,
Olduğundan pay verən
Əli olsun yoldaşı,
Var olan əlin qıssa,
Yasdığı mismar daşı.
Verənə Allah, Əli,
Ellərə yardım əli.
Çax daşı, çaxmax daşı,
Sayaçıya pay daşı.
Əmcəgi quru inək,
Gəlin sayanı deyək,
Allah, bir yağış yetir,
Bal, qaymağı biz yeyək.

Bal-qaymaq ota bənddi,
Ot-ələf suya nəddi,
Çay-çəmən göyə bənddi,
Göylər buluda bənddi.

Bulutlar, ay bulutlar,
Əkinçiyə umudlar.
Darını səpdim, təpdim,
Toxumu lap yerə səpdim,
Göy gözü quru baxır,
Şənə sinəyə çəkdim,
Əmçəyi quru inək,
Gəlin sayanı deyək.
Saya yaxşı sayadı,
Onun işi payadı,
İstədiyi yağışdı,
Üzü sarı çayadı.
Çaylar axır şaqqaşaq,
Nəhrə çalaq laqqalaq,
Kərə qaymaq sizinki,
Ayrana biz də qonaq.
Əmcəki qurur inək,
Gəlin sayanı deyək.

Saya elin yoldaşı,
Yaman günün yoldaşı.
Al Allah, yağış göndər,
Gövərtsin dağı, daşı.
Sayaçıya pay bağlı,
Pay verən yaya bağlı,
Yay hasili su istər,
Hasillər paya bağlı.

Su gəlsin daşa-daşa,
Çaylardan aşa-aşa,
Muştuluğun mən verim,
Yanğın yada, yoldaşa,
Qara bulut çaqqaşa.

Yağa yağışın düzə,
Uşaqlar, ay oynaşa.
Əmcəki qurur inək,
Gəl səni söyündürək,
Yağış yağsın ot olsun,
Onda səni dindirək.

Saya-saya nə istər,
Allahdan yağış istər.
Pay verənin əlindən
Al qırmızı nar istər,
Pay verməyənin qəbrin,
Çox yox, bir qarış istər.

**"Dodu"yla bağlı nəğmələr:**

Dodu-dodunu gördünmü?
Doduya salam verdinmi?
Quşum hardan gəlirsən?

Qanlı qaya dibindən.
Qanın harda qurudu,
Allah belə buyurdu.
Allah bir yağış göndər,
Dənlərimiz qurudu.

Evlərdən pay alandan sonra bu nəğmələr söylənir:

Allah bir yağış göndər,
Bəndəvə bəxşi eylə.

Qapıları döyərkən deyirlər:

Çömçə gəlin nə istər?
Allahdan yağış istər,
Hər qapıya dayansa,
Bir nəlbəki pay istər.

Çömçə gəlin nə istər?
Tanrıdan yağış istər,
Əli-qolu xəmirdə,
Allahdan yağış istər.

Xudadan yağış istər,
Balaların yağlıya,
Xudaya şükür eyləyə.
Çax-çaxı çaxmaq daşı,
Yandı ürəyim başı,
Allah, bir yağış göndər,
Demilərimiz qurudu.
Çax-çaxı çaxmaq daşı,
Yandı ürəyim başı.
Allah, bir yağış göndər,
İslatsın dağı-daşı.

* * *

Ay məstana, məstana,
Keçi düşdü bostana,
Allah bir yağış göndər,
Zəmilərimiz isdana.

**Xorasanda "Yağış yağdırma" mərasimi nəğmələri:**

Kosan, kosa nə istər?
Tanrıdan yağış istər.
Kosan işi hesabdır,
Qar da yağsa hesabdır.
Kosan yazıq kasıbdır,
Çox borc onu basıbdır.
Allah yağış verginən,
Nəzrim qəbul etginən.
Yağ yağışım selinən,
Yağ yetimin belinən.
Yağ sağırın bağçasına,
Yağ qocanın deyməsinə.

**Saya mərasimi və sayaçılar**

Mərasimin əvvəlində oxunan nəğmələr:

Bu saya kimdən qalıb,
Adəm atadan qalıb,
Adəm ata gələndə,
Dünya bünyad olanda.
Qızıl buğda bitəndə,
Qızıl öküz duranda,
Musa çoban olanda,
Şişliyimiz oyucluq bəylər.

Salam əleyk, say bəylər,
Bir-birindən yey bəylər.
Sayanı gətirmişəm,
Sayanı itirmişəm.
Qurusu sayalı bəylər,
Gül üzlü həyalı bəylər.
Qurumasın gölünüz,
Ürə gəlsin dolunuz,
Gödəlməsin boyunuz,
Kəsilməsin soyunuz.
Sayanın üstə gəlsin,
Üstündə püstə gəlsin.
Hay verin sayaçıya,
Pay verin sayaçıya.
Qapınız haylı olsun,
Sayanız paylı olsun.

* * *

Saya yaxşı sayadır,
Yerin-yurdu qayadır,
Onun gözəl sözləri,
Yatanları oyadır.

Bu sözlərdən sonra qoyun bəylərinin sayaçıya pay və qoyun verməlerini təşviq etmək və maraqlandırmaq üçün bu sözləri oxuyardılar:

Basa-basa gətirənin,
Cırdığı mahud olsun.
Doğduğu oğlan olsun,
Adı Məhəmməd olsun.

Qısa-qısa gətirənin,
Cırdığı bez olsun,

Doğduğu da qız olsun,
Başları da daz olsun.

Sayaçılar hər qapıdan pay alıb çıxanda və qoyunları qabaxlarında apara-apara və qapıdan çıxa-çıxa bu sözləri oxuyardılar:

Pay verdilər sayaçıya,
Neçə bəkil keçini,
Neçə səkil qurunu.
Erkəçin asmasını,
Quyruğu basmasını.
Pay verdilər sayaya,
Say verdilər sayaya.
Yolun yol olsun saya,
Sayan bol olsun saya.
Sürülərdən pay aldı,
Say bəyləri bəy aldı.

* * *

Qoyunlu evlər gördüm,
Qurulu yaya bənzər,
Qoyunsuz evlər gördüm,
Qurumuş çaya bənzər.
Qoyun var kərə gəzər,
Qoyun var, kürə gəzər.
Gedər dağları gəzər,
Gələr evləri bəzər.

* * *

Sayaçıya rəhmət gəldi,
Xeyir və bərəkət gəldi.
Saya-saya sayadan,
Damazlıqda mayadan
Gətir sayanın payın,
Ağa (xanım) evin avadan.

Və ya:

Gəlinin dodağı bal,
Durub qabağımda lal.
Gəlin, tez ol pay gətir,
Sayaçını yola sal.

Sayaçılar payları alandan sonra bu sözlərlə təqribən mərasimə son qoyulardı:

Gəlinlər dayandı doqqazda,
Sayalar oxundu doqqazda.
Salam verdik say bəylər,
Bir-birindən yey bəylər.
Sayanı gətirmişdik,
Sayını itirmişdik,
Hay verdiz sayaçıya,
Pay verdiz sayaçıya.

Sürülərdən pay aldı,
Say bəylərdən say aldı,
Qapınız saylı olsun,
Sayanız paylı olsun.

## Çillətökmə mərasimləri
## (Ərdəbil)

Ana ilə balanın qorunması üçün admlar var gücləriylə çalışırlar. Yeni doğan qadın (zahı) körpəsiylə birgə qırx günə qədər ətraflı gizlənilib, bu dövrü salamatlıqla sovmalarına olduğu qədər yardım göstərilir. Zahının yaxın adamlarından neçə nəfər yeddi günə kimi onunla körpəsinin yanında olub hər yönlü qoruyaraq, yedirib-içirtməklə onlara da yer verirlər.

Bizim ailələrin arasında belə bir inam var ki, yeni doğmuş başqa qadın xəbərsizcə özü kimi tazə doğan qadının yanına gəlsə, onun çilləsi evdə olan qadını basar. Demək çillə basmış qadın daha boylu ola bilməz. Yeri gələmişkənə onun çilləsi tökülməlidir. İnanclara görə, çilləbasmanın başqa növləri də var.

– Qırxı çıxmamış uşağın üstünə xəbərsizcə qırx içində olan uşağı gətirsələr onun çilləsi evdə olan uşağı basar.

– Belə ittifaq toyları olmuş iki gəlin arasında da üz verə bilir. Elə bu durumda da bir gəlin xəbərsiz o birsi gəlin yanına gəlirsə, qabaqda dediyimiz iş üz verəcək.

– Dua ilə zaminlənmiş yanında olan hər kimsə də zahı ilə qırxı çıxmamış uşağın yanına xəbərsiz gəlsə, çilləbasma baş verər.

Ailələrdə çilləbasmağın qabağın almaq üçün çeşidli yollar var:

– Qırxlı uşağı çillə basmasın deyə, onun görüşünə gələn yaxın-uzaq adamları otaq qapısının astanasında saxlayıb uşağı qapının önündə yuxarı qaldırıb görüşə gələn qonaqları onun altından keçirərlər.

– Zahının görüşünə gələn qadın qonaq qırxı çıxmamış yeni doğan olsa zahı onun qabağına çıxıb, çalışarlar bu iki

nəfər üz-üzə qarşılaşsınlar ki, çilləbasma baş verməsin. Bu durumda təzə toyu olan gəlinlər arasında da ola bilir.

– İki tazə toyu olmuş gəlin bir-birini görmək üçün üz-üzə addımlayıb, heç biri dayanmadan bir yerə yetişib kef-əhvallaşarlar.

Çilləbasmamaq yollarına göz yumub, gahdan bilməzlik üzrə çilləbasma baş versə inanclara görə qadın, gəlin, bir də uşağın gövdəsində çatışmamazlıqlar üzə çıxar. Qadınla gəlin çilləəri üstlərində qalan kimi boylu ola bilməzlər.

Çilləsi olan uşaqda bir para xəstəliklərlə gövdə çatış-mazlıqları tapar. Vaxtından gec dil açar, yerimək zamanı uzun çəkər, başı durmadan titrəyər, gözləri axar və s.

**Çeşidli çillətökmə yolları:**

– Başqa bir gəlinin toy gecəsi işlətdiyi məxsus parçanı bir kasa suda isladıb onun suyunu üzü qibləyə olan novdan-dan bir qızın (bakirənin) əli ilə çilləbasmışın başına tökərlər.

– Bir yumurtanı bir gənc qızın (bakirənin) yastığının altına qoyub səhər qızı dama çıxarıb o yumurtanı şalvarın arasına qoyub üzü qibləyə sarı olan novdandan qabaqca doğmuş sonra çilləbasmış qadının başına sala-sala belə deyir: "mən doğum, sən də doğ".

– Bir uşağın çilləsi başqa uşağı basanda, o uşaq azar tutub yeriyəndə yıxılıb, danışmağını itirib demək buna tay xəstəliklər tutar. Onun çilləsin tökmək üçün dişləri uzun olan darağı bir kasa suyun içinə salıb hər donə döyərlər. Sonra o kasanın suyunu darağının dişlərinin arasından süzgəcdən süzən kimi çilləbasmış uşağın başına tökərlər.

– Bir uşağın çilləsi başqa uşağı basanda iki uşaq birlikdə bir-birinin yaxasına sancaq taxarlar.

– Bir gəlini başqa gəlinin çilləsi bassa, şənbə ilə çərşənbə günü üç dönə çilləbasan gəlini o birisi gəlinin arının alt tumanının arasından keçirərlər.

Çillə basan gəlini eldə ölmüş gənc kişinin qəbrinin üstündən atladarlar.

Çilləbasanı qəbirstanda ölü yuyulan daşın, ölü pişik, bir də ölü siçanın üstündən atlandırarlar.

– Məsçidin astanasından, ümumi hamamın qapısından, yeddi yolun ayrımından, qəbirstandan, çeşmə başından, bazardan bir də öz evlərinin qapısından torpaq toplayıb, bir kasa suya qatıb o suyu üzü qibləyə novdandan bir qızın (bakirənin) əli ilə çilləbasanın başına tökərlər.

– Ölünü yuyanda mirdəşirin əlində olan lifi yerə qoymazdan alıb suyu yerə tökülməsin diyə bir qabın içinə qoyandan sonra üzü qibləyə olan bir qızın (bakirənin) əli ilə çillə basmış gəlinin başına töküb belə deyərlər: “ins-cin, 72 millət, ölü-diri, bəni-adam hər nəyin çilləsi basıb tökülsün”.

– Siçan ölüsü, pişik ölüsü, yeddi boy sapı suya salıb yuxarıda dediyimiz yol ilə çilləbasmışın başına tökərlər.

– Yeni evlənmiş gəlin başqa bir yeni evlənmiş gəlinin üstünə gəlsə, o biri gəlini çillə basar. Çillə basanda isə gəlin boylu olmaz. Belə olduqda neçə yolla cillə tökərlər. Xalqın içərisində buna inanırlar ki, çillə tökülsə qadın boylu olar. Qadını çillə basmasın deyə, yeni gəlin gəlmiş qadının üstünə başqa bir yeni gəlin gəlmiş qadın gələndə onları küçə qapısından eşikdə üzbəüz gətirərlər. Onlar qarşı-qarşıya gələndən sonra daha heç birinin çilləsi başqasının üstünə tökülməz.

Çillətökmənin bir yolu belədir ki, ilin axır çərşənbəsində 40 dənə buğda, 40 dənə arpa, 40 dənə daş, 40 qaşıq isə suyu toplayıb bir qaba tökərlər. Qibləyə sarı olan novdanın (qiblənovdanı) altına xəlbir tutub gəlini xəlbirin altında oturdarlar. Bir qızın (bakirənin) əli ilə novdandan tökəndə belə deyirlər:

“İnsin, cinsin, bəni-adamın, hər nəyin əli ilə çillə basıb, onun çilləsin tökürəm”. Beləliklə, gəlinin çilləsin tökərlər.

Başqa bir variant da belədir ki, yaylığı sona çatmış fərşin boylarından keçirib sonra bu boyları kəsərək belə deyərlər:” İnsin, cinsin, bəni -adamın, hər nəyin əli ilə çillə basıb, onun çilləsin tökürəm”. Sonra yaylığı boylardan çıxarıb çillə-basmış qadının başını örtüb bağlarlar. Başa çatmış fərş olmasa, ilin son çərşənbəsinə də çox qalsa, daha rahat yolla bu iş görülür.

– Qırxayaq böcəyini tapıb çillə basmış qadından istəyərlər qırxayağın üstünə işəsin.

# İNANCLAR

• Ağac bar gətirməsə iki nəfər ağacın yanına gedərlər. Əlində nacaq olan birisi başqasına uca səslə deyər: ”Bar verməyən ağac hec işə yaramaz, onu capmaq gərək”. Beləliklə, ağac eşidib qorxusundan bar verər.

• Ağ göyərçin mələk olar.

• Axşam üstü uşağa qarğış eləməzlər.

• Altı-yeddi aylıq uşaq əyilib ayağ barmağların dişlərsə, yoldaş axtarır.

• Ay batanda mis qab, ya da təndir duvağı kimi filiz qabları çalınar.

• Ayağı qaşınan adam kötək yeyər.

• Ayaqlarının başı yorğandan eşigdə qalan oğlanın evlənmək vaxtı yetişib.

• Başında iki qıvrım olan oğlan uşağı böyüdükdə iki arvad alar.

• Başmaq tayları daban-dabana dursalar, acılıq olar.

• Başarılı insan sağ əlin kimsənin başına cəkərsə, o adam işində başarılı olar.

• Bayquş qonan evin adamları bədbəxtlik tapar.

• Bazar günü, cərşənbə günü hamama getmək düzgün olmaz.

Bərəkətsiz heyvanların yanında nömrə olaraq bir-birinə “ Qulağıza dəyməsin! Ancaq bərəkətsiz heyvandır. Onu qəssaba satmaq lazımdır”– deyərlər. İnanarlar ki, heyvan eşidib sütünü çoxaldar.

• Bir yerə gedəndə deyərlər, sübhcağı əgər filankəs qabağımıza çıxarsa işimizi əyər. Ya əgər onun tərsəsi filankəs qabağımıza çıxarsa, o gün axşamadək yaxşı olar.

• Bir yurddan başqa yurda köcən zaman heyvan ölürsə, daha cox ölməsin deyə ölən heyvanın dörd qıcını kəsib arxacda qoyarlar.

• Bir evə gəlin gəlsə, ya da coban tutsalar, o il o evə bolluq uğur gəlsə, deyərlər gəlin, ya da cobanın ayağı düşüb. Elə bu deyim həmin inancdan törəyib. Gəlinin ayağından, cobanın dayağından.

• Birinin əl, ya da barmağına tikan batsa, onu gecə cıxartmazlar, deyərlər-gecə tikan gəlin olar, yəni gizlənər.

• -Bir ulağın yanında bir ayrı ulağa arpa verilsə, o ulağ damağ olar

• Boylu qadın gərək aya baxmasın.

• Boylu arvad yeni doğan zahının yanına getməməlidir. Yoxsa onu cillə basar. Cillə basarsa qadının uşağı düşər.

Ceviz (qoz) – ağacının altında yatmaq yaxşı deyil, havası ağır olar.

• Cillə basan qadına dua yazallar, sonra dua kağızını suyun novdandan qadının başına tökərlər.

• Çox saysan bərəkət qaçar.

• Çeçəyən sovqat gətirər.

• Deyərlər filankəsin ayağı yüngüldür.

• Deyərlər qapıya isti su atma, yoxsa pərilər balasın yandırarsan.

• Dırnaqda olan ləkələr belə yozulur: baş barmaqda-xoşbəxtlik, şəhadət barmaqda-bədbəxtlik, orta barmaqda – yol getmək, nişan barmağında – təzə paltar geymək, cecələ barmaqda – məhəbbət.

• Dilinə pay cıxsa, kiminsə payını yemisən.

• Diş cıxaran uşağın dişligin bişirməsən, böyüyəndə şit olar.

• Duanı sürməyə oxuyub püləsələr, evsiz adamın bəxti bütün bağlanar.

- Evdə cox sican görünsə, deyirlər il qıtlıq olar.
- Evin sahibi həyətdə söyüd kəsə o özünə, ya da arvadına uğursuzluq verər.
- Əgər ayağın altı qaşınsa kötək yeyəcəksən.
- Əgər əlin içi qaşınsa əlinə pul gələcək.
- Əgər içməli çayın içində bir uzun çay olsa, deyərlər qonaq gəlir, əgər iri olsa, deyərlər qoca kişidir. Və düz olsa deyərlər cavandır.
- Əgər bir yerə getmək istəyirsən tək səbir gəlsə, deyərlər işimiz rast gəlməz. Ancaq, əgər cüt gəlsə deyərlər iş rast gələ.
- Əgər qarğa qapıda ağac üstünə qonub qarıldasa evə qonaq gələcək.
- Əgər qulağın içi qaşınsa deyərlər qonaq gələcək.
- Əgər qıçı uzun hörümcək evə gəlsə, deyərlər xəbər gətirib.
- Əgər göz səyrisə, bir iş qabağa gələcək.
- Əli ağır adam dulla evlənər.
- Gecə novdan altında durmazlar.
- Gecə duran qonağın başmağına duz tökərlər.
- Gecə ev süpürsən evin bərəkəti qacar.
- Gecə dırnaq tutmazlar.
- Gecə baş daramazlar.
- Gecə dırnaq tutmağ və gündüz nağıl demək yaxşı deyil.
- Gecə pul saymazlar.
- Gecə uşağı döyməzlər.
- Gecə corabı baş üstə qoysan adamı qara basar. Adama ayaxdan soyuq deyər. Odur ki, Yekənlilər səfərdə gecə soyuq olsa corablarını çıxartmazlar.
- Gəlin gələndə nəlbəki sındırmağı uğurlu olar. Ayağı inciməsin deyə nəlbəkini mis qabın altına qoyarlar. Gəlin qabı ayaqlamaq ilə nəlbəkini sındırar.

- Gəlin gələn evdə sübhədək çırağı söndürməzlər.
- Gün batan cağlarında ağlamaq uğursuz olar.
- Gic sarı sevər, dəli qırmızı.
- Hər cümə axşamı evlərdə bərəkət itməsin deyə həmin gün evdə iyi cıxan cörək bişirırlər.
- İki tay başmaq qarşı-qarşıya dursa, başmaq yiyəsinin başqa yerdə qeybəti olunur.

İki arvadın arasından keçən kişinin sözü keçərli olmaz.

- İsti su səpərkən “bismillah” de, cinlər eşidib özlərini qorusunlar.
- İldırım çaxan yerə almaz düşər.
- İstəkanı üzü dik qoymazlar.
- Kirpikləri cütlənən adama nəzər dəyər.
- Kicik uşağı qoymazlar aya baxa, yoxsa ağzında “ay balalar”. Ay balalarsa uşağın ağzından su axar.
- Kirdarlı olsun deyə, qız uşağının beşiginin başına iynə-sap qoyallar.
- Kimsənin iradəsindən asılı olmayaraq, qab-qacaq bir sıraya düzülsə, qonaq gələcək.
- Körpəni qörx günədək astanadan kecirəndə “bismillah” deyərlər.
- Körpə uşağın üstündən kecməzlər, kecsələr təkrar eləmələri gərəkdir.
- Qadın başına tərsə çadra salsa, siğə axtarır.
- Qapıdan eşigə isti su səpməzlər.
- Qara pişik çin olar.
- Qazan dibi qaşıyan qızın toyunda qar yağar.
- Qız-gəlinin darağa ilişib qalan tüklərini duvar catlağına basallar.

• Qoyun dabağ xəstəliyi tutanda bütün dabağ xəstəliyi tutan heyvanları bir yerə yığıb, qadınlar cörək tabağın başına qoyub deyər :” Gedək tabağ, qacsın dabağ”.

• Qorxan adamın balıncı altda duz qoyarlar. Sübh yuxudan durandan sonra məcməyiyə salıb altına od yandırarlar. Yayılan duzun şəkli nə olsa onu qorxu qaynağı kimi yozarlar.

• Quzu saxlamaq ücün quzu yeri saxlayanda o yerə inscin dəyməsin deyə ora quzu salmamışdan öncə bir mis qabı ağzı üstə cevirərlər.

• Qovun ilə bal yemək adamı öldürər.

• Malı (at ya ulağ) öz yenişində minsən piy olar. Odur ki, bir məsəl vardır ki, deyərlər “yoxuşda dost malını min, yenişəndə düşmən malın”.

• Naxoş gərnəşsə, məlumdur ki, xəstəlik ağırlaşmaqdadır. Amma əgər asqırsa, üzü yaxşılığa sarı gedir.

• Neçə bacısı olan tək oğlan bic olar.

• Oğlu olmayan evlərdə qızlara “Qıztamam”,”Qızyetır”, “Qizqayıt “ kimi adlar qoysalar qız deyil, oğlan doğar.

• Ovcu qaşınan adamın əlinə pul gələr. Amma oğlan uşağının başına cəkmək gərəkdir.

• Ölən uşağın paltarların başqa uşağa verməzlər.

• Ölünün kəfənin başqa kəsə vermək doğru deyil.

• Pişiklərin əksəriyyəti əslində mələykədir. Onlara daş atmaq zərər verər. Özəlliklə qara pişiyə.

• Səfərə gedənlərin dalısınca su səpərlər.

• Səyəngin (kuzə) ağzından su içilsə, səyəng qoxar (iylənər).

• Səhər evdən cıxanda uğursuz kişi ilə qarşılaşsan uğursuz hadisələr yaşayacaqsan.

• Su aydınlıqdır.

• Süpürgə dəstəsi ilə yerə qoyulsa, evdən bərəkət qaçar.

- Şənbə səfərə cıxmaq düzgün olar.
- Şəpə yanından kecəndə danışmamaq lazımdır. Yoxsa danışan kimi şəpə adamın üstünə gələcəkdir.
- Tək asqıran işində dözməlidir.
- Təsadüf üzrə bir-birləri ilə baş-başa dəyən insanlar gərək öz iradələri ilə başların carpışdırsınlar, yoxsa kecəl olarlar.
- Tikantəpə bölgəsində təzə gəlinin ayağının uğurlu olmasını sınamaq ücün evin alacıq, ya da komanın astanasına iynə atarlar. Gəlin iynəni taparsa uğurlu və yaxşı gəlindir, əgər tapmazsa, günü qara olacaq, onu boşarlar.
- Uşaq kürəkli doğularsa ayağının, ya da əlinin cili barmağını qırmaq gərəkir.
- Uşaq təzə olanda bəzən deyərlər filankəs dualıqdır, yəni onun evə gəlməyinin uşağa ziyanı var.
- Uşaq təzə olanda hər kim evə gəlsə, gərək uşağı götürsünlər qonaq içəri keçsin.
- Uşağı güzgü qabağına tutmazlar.
- Uşağı süpürgə ilə vursan, oğru olar.
- Uşağı nəzərləsələr, üzərlik salmaqla onu bəlalardan qoruyarlar.
- Uşağın göbəyin hər hansı yerə atsan xarakterində iz qoyar. Dərs oxuyan olsun deyə, mədrəsəyə atarlar.
- Uşağın boynuna göz muncuğu salarlar, göz dəyməsin deyə.
- Uzun adamın ağlı olmaz.
- Üzünə sap salan qadının sapı qırılsa əri onu çox sevər.
- Yatanın üstünə qara çəkməzlər.
- Yengəc insana yapışsa qopmaz. Ancaq qara eşşək anqırsa qopar.
- Yeni doğulan uşağın üstündən atlamamaq gərəkir.

- Zahı qırx günədək gecələr eşigə cıxmaz. Cıxsa özüylə bıcaq götürməlidir.
- Zahının başına qəfildən duz səpərlər. Əlin başına atsa qızı, üzünə atsa oğlu olar.
- Zahının qabağına parcaya bürünmüş bıcaqla qaycı tutarlar. Qaycını alsa qızı, bıcağı alsa oğlu olar.

## SÖYLƏYİCİLƏR HAQQINDA MƏLUMAT

Bəxtiyari Mələknaz, Miyana – Qoşabulaq, 43 yaşında, savadsız. Söylədiyi mətn: Uşaq nəğmələri (bir hissəsi). *Toplayan: Feyzəli Bəxtiyari.*

Ebadi Həsən, Səhənd – Qoşacay, 42 yaş, savadlı. Söylədiyi mətn: İnanclar (bir hissəsi). *Toplayan: Havar Ebadi.*

Əğyari Rübabə, Təbriz, 70 yaş, savadlı. Söylədiyi mətn: Qadın toylarında oyun. Toplayan: Ülkər Ocqar.

Hacıismayili Bəhlulə, Tufarqan, 55 yaş, savadsız. Söylədiyi mətn: "Hədi ilə Hüdük".

Heydərakanlı Kubra Seyfi, Qaradağ, Xudafərin. Söylədiyi mətn: "Armudan bəy"in nağılı. *Toplayan: Qənbər Seyfi.*

Həbibi Müslüm, Zəngan, 55 yaş. Söylədiyi mətn: İmam Güllücəsində "Al arvadı rəvayəti". *Toplayan: Zənganlı Məhəmməd Rəzaqi.*

İsmayıli İsmayıl, Xudafərin– Heydərkanlı. Söylədiyi mətn: "Qonaq və ev sahibi". *Toplayan: Qənbər Seyfi.*

Məhəmmədi Aylar, Miyana şəhəri, savadlı. Söylədiyi mətn: Uşaq nəğmələri (bir hissəsi). *Toplayan: Feyzəli Bəxtiyari.*

Məşədi Zeynal kişi, Xudafərin, 86 yaş. Söylədiyi mətnlər: "Süleyman Peyğəmbərin üzüyü və tacir oğlu Məhəmməd", "Sarı inəy"in nağılı", "Süsən-sünbül, şeyda bülbül", "Hax cəpişim, hux cəpişim", "Palazqulağın" nağılı. *Toplayan: Qənbər Seyfi.*

Mirzayi Şapur, Ərdəbil. Söylədiyi mətn:" Göy muncuq" nağılı. *Toplayan: Rəhim Ebadi.*

Musəviyan Həsən, Əhdirgan. Söylədiyi mətnlər: “Südlü sümük”, “Baş qoruma”, “Topana cızan”, “Əl məndə” oyunları.

Nəvadey Rəzi İsmət xanım, Təbriz. Söylədiyi mətn: Tapmaca. Əlirza Zihəq ( bir hissəsi). *Toplayan: Süsən Nəvadey.*

Noruzzadə Səyyarə, Mücümbər kəndində doğulmuş,15 yaşında Sarıqaya kəndinə köcmüş, 17-i yaşından Təbrizdə yaşamışdır, 53 yaşında. Söylədiyi mətn: Çillə mərasimləri (bir hissəsi).

Rəzzaqi Məqsudəli, Zəngan. Söylədiyi mətn: “ Haq yolu”. *Toplayan: Rzaəli Kərimi.*

Məsimə xanim Pənahi, Təbriz, savadsız. Söylədiyi mətn: Çillətökmə ( bir hissəsi).

Səryayi Ruqiyyə, Ərdəbil, 6-ci sinfə qədər təhsil almışdır. Söylədiyi mətn: Cillətökmə( bir hissəsi).

# LÜĞƏT

**A**

Abadə(f) – abad

Abü tab(f) – təmtəraqlılıq

Ağcıl (d) – ürəyi təmiz, pak adam

Ağraz vermək(d) – ağrımaq, bədəninin bir tərəfinin ağrıması, əzab vermə

Aqibət(ə) – son, nəticə

Aludə(f) – bulaşmış, batmış

Aməd(f) – yetişmə, catma

Arqaç(d) – pud

Aşüftə(f) – həyəcanlı,qarmaqarışıq

Ayaq vermək(d) – birin ayağından çəkmək

Ayın-oyun (d) – şey-şüy

Ayin(f) – rəsm, adət,qanun

Azama(d) – mərhələ

Azarbaxar(d) – günün yatan vaxtı

**B**

Badə(f) – çaxır, şərab

Bar(f) – yük, tay

Balavəri(d) – azca,nisbət

Baldun(d) – palto

Bargah(f) – saray

Başı papaxlı(d) – kişi xeylağı

Bazubənd(f) – qiymətli daşlarla işlənmiş qolbaq

Bədəl(ə) – dəyər,qiymət

Bədtət(f) – daha pis, daha yaman

Bədxisal(f) – pis xasiyyətli, bədrəftar

Bəniadəm(ə) – adəm övladı

Bərazəndə(f) – layiq, ləyaqətli, dəyərli

Bimar(f) – xəstə

Bidar(f) – oyaq
Bihal(f) – taqətsiz
Boylu(d) – hamilə
Boyuna uşaq düşmək(d) – hamilə qalmaq
Burqi(d) – qarın ağrısı, sancı, qulunc

**C**

Calis(ə) – oturan, taxta çıxan
Cariyə(ə) – qulluqcu, xidmətçi( qız)
Cüz(ə) – qisim, parça
Ceçim(d) – palaz
Cecə barmaq(d) – kiçik barmaq
Cəhrə – yun əyirən çarx
Cələ (d) – bir xətdə dayandırılmış xırman döymək üçün bir-birinə bağlanmış heyvanların rədifi
Cında(d) – köhnə parca kəsiyi
Ciğala(d) – siqaret
Cici(d) – paltar
Cinli olmaq(d) – dəli olmaq

**Ç**

Çarvadar(f) – mal-qara alverçisi
Çataqlamaq(d) – birləşdirib bağlamaq
Çeşm(f) – göz
Çəm(f) – yol, üsul
Çəng(f) – pəncə
Çərtmək(d) – altından çıxmaq
Çınqır (d) – lap yavaş səs
Çi(f) – nə
Çimçəşmək(d) – iyrənmək
Çovgan(f) – kecmişdə atla oynalılan top oyunu
Çub(f) – ağac

**D**

Damad(f) – kürəkən

Danqaz(d) – nadinc

Deyitləşmək – bir-birilə acıqlı danışmaq

Dəllak(ə) – dəllək

Dəhan(f) – ağız

Dəhət qılmaq (d) – göz qoymaq, güdmək, göz altına almaq, dəhətləmək.

Dəri(d) – xəyal (dəridə olma, fikirdə, xəyalda olma)

Dəşt(f) – səhra, çöl-biyaban

Dınqılı (d) – kiçik

Dişdan(d) – qabaq dişi iri olan

Dinar(ə) – ərəb xəlifəliyində köhnə qızıl pul

Döbülənmək(d) – boş-boşuna dolanmaq

Dözdürtmək(d) – yetirmək

Dürtmək(d) – soxmaq

**E**

Eşik(d) – bayır, çöl

**Ə**

Əba(ə) – aba

Əbru(f) – qaş

Əkrə(d) – əkin (Əkərə yer, məzərə, əkin yeri)

Əks(ə) – şəkil

Əqdəm(ə) – daha qədim olan

Əqiq(ə) – qiymətli qırmızı daş

Əqrəba(ə) – yaxın qohumlar

Əl-ayağı kəsilmək(d) – gəlib-getməyi dayandı

Əlqissə(ə) – xülasə, sözün qısası

Əlhal(ə) – indic, bu saat

Əppək(d) – çörək

Ərsin – yastı və ensiz dəmir parçası

**G**

Gay(d) – axmaq adam
Gərvət(d) – dəstə
Gənc(f) – xəzinə, dəfinə
Gicikdi(d) – öz-özünə hirslənib qərar verdi
Gilif(d) – açılmış su yolu, divar dibində açılmış su yolu
Giranıq(d) – bərk daş
Godanbuçaq(d) – dağınıq
Göz-göz etmək(d) – fürsət axtarmaq
Göyül(d) – könül

**F**

Fərahəm(f) – toplu, yığcam, toplanmış

**H**

Hakəza(ə) – beləcə, bunun kimi
Haqlamaq(d) – çatmaq
Haman – şərik.
Haram(ə) – yasaq olunmuş, qadağan olunmuş
Hacət(ə) – ehtiyac
Hacətmənd(ə) – ehtiyaclı, möhtac
Həmrəng(f) – eyni rəngli
Hən-hün eləmək(d) – çalışmaq
Hənuz(f) – hələ, hələ ki
Həsud(d) – paxıl
Həva(ə) – hava
Hoqqa(d) – hiyləgər
Horra – su və unla bişmiş yemək
Hovz(ə) – hovuz, çarhovuz
Höcəşmək (d) – bəhs eləmək
Hüzalamaq(d) – ovmaq
Hüşü qara(d) – ağlı az

**X**

Xah(f) – istər, istərsə

Xamçılıtmaq(d) – aldatmaq, xam salmaq, xam eləmək

Xanədan(f) – ailə, ocaq

Xəfdən vurmaq(d) – xəbərsiz vurmaq, gizlin vurmaq

Xələt(ə) – toyda qız və oğlanın qohumlarına verilən hədiyyə

Xəşə(d) – çuval, xurcun

Xəzra(ə) – yaşıl

Xıxlamaq(d) – dəvəni yatırmaq

Xınxımaq(d) – baxıb əzmək

Xoruzək(d) – öskürərkən xoruz səsi çıxartmaq

Xozdaban(d) – dabanı uca olan, xanımlar üçün başmaq növü.

Xürd(f) – narın

**İ**

İqdam(ə) – təşəbbüs etmə, başlama

İdamə(ə) – davam

İddə(ə) – ərindən ayrılan, ya dda əri ölən qadının təzədən ərə getmək ücün gözləməyə məcbur olduğu müəyyən bir müddət (dini)

İxfa(ə) – gizlətmə

İnfaz(ə) – yerinə yetirmə

İrza(ə) – razı salma, könlünü alma

İstifa(ə) – tarazlaşma

İsgə(d) – nazik

**K**

Kalafa(d) – gen və xaraba otaq

Kar(f) – iş

Kasə (f) – kasa

Kəlləpəz(f) – kəllə-paça bişirən

Kəmü kəsr(f) – çatışmamazlıq

Kərmə(d) – qurudulmuş heyvan təzəyi
Kərtik(d) – nazik
Kir(d) – çirk
Kişgirmak(d) – iti cummağa təhrik eləmək
Kövüz(d) – ölçü vahidi
Külah(f) – papaq
Kümçə(d) – çömçə
Kürəklik(d) – bel(alət)
Künə(d) – yumurtanın dairəvi tərəfi
Küvən(d) – 2 çiynin ortası

**Q**

Qapsamaq(d) – içinə almaq
Qarğı(d) – qamış
Qara vəlig etmək(d) – yalandan səs-küy salmaq
Qatma(d) – ip
Qanaşar(d) – qəm, qüssə
Qavzamaq(d) – atmaq
Qəmənti(d) – pıcaq
Qərabət(ə) – qohumluq
Qəvi(ə) – qüvvətli, güclü
Qran(f) – İranda pul vahidi
Qomarlamaq(d) – dövrələmək

**L**

Laf(f) – söz, danışıq, söhbət
Lağa qoymaq(d) – məsxərə etmək
Lat-lut(d) – heç zadı yox
Lapdan (d) – qəfildən
Ləəb(ə) – oyun
Ləm(d) – taxça
Ləmə(ə) – parıltı
Lıqqa(d) – palçıq

Limtaş(d) – köhnə
Lövn(ə) – növ, çeşid
Lütük(d) – tüksüz (heyvan)
Lüzum(ə) – ehtiyac

**M**

Mah(f) – ay
Matah(d) – az tapılan, nadir
Maymalaq(d) – axmaq
Məbud(ə) – Allah, itaət olunan
Məded(ə)– kömək, yardım
Məmulən(ə) – adətən, bir qayda olaraq
Məriz(ə) – xəstə, naxoş
Məəruf(ə) – məşhur
Məzaq(ə) – zövq
Mıcur(d) – ağacların, otların baharda dağılan tozu
Mırt vurmaq(d) – söhbət etmək
Mırtı durmaq(d) – şuxluq etməyə həvəslənmək
Mitil(d) – köhnə paltar, cır-cındır
Milax(d) – qışa saxlanılmış üzüm
Minval(ə) – yol, tərz
Mötəmid(ə) – etibarlı, hörmətli
Müamilə(ə) – rəftar, hərəkət
Mürğ(f) – quş
Müvazib(ə) – qeydə qalan
Müzahim(ə) – zəhmət verən, çətinləşdirən

**N**

Natəraz(f) – həddən artıq böyük
Naməqbul(f) – qəbul olunmayan
Nav(f) – nov, kanal
Nəqşə(f) – rəsm, şəkil
Nəvaz(f) – çalan

Nıqqıldamaq(d) – bir şeyi istəmək
Nisar(ə) – qurban
Novət(d) – neft
Novbahar(f) – ilk bahar, yazın əvvəli

**P**

Para(t) – pul
Papuş(f) – ayaqqabı, başmaq
Pədəmə (d) – mühacir
Pəncər(d) – səbzi
Pərişan(f) – qəmli
Pərxaş(f) – dava
Pəs(f) – indi, bu halda
Pəsinmək(d) – ehtiyat eləmək, dala çəkilmək, qorxmaq (pəsinmək)
Pəyə(d) – tövlə
Piltə (d) – filtir
Pijdənmək(d) – çirk etmək
Pünhan(f) – gizli

**R**

Roza (d) – çomaq
Rast(f) – doğru, düz
Razi(ə) – razı
Rəxt(f) – paltar
Rəkik(ə) – zəif, süst
Rənc(f) – zəhmət
Rəva(f) – layiq, münasib
Rizq(ə) – nemət, ruzi
Rizə(f) – tikə, parça

**S**

Sail(ə) – dilənçi

Salim(ə) – sağlam
Sayə(f) – kölgə
Səng(f) – daş
Səri(d) – sarı
Səyirmək (d) – xəfif titrəmək
Sirto(d) – mundar adam
Sital(d) – nadinc
Sülük(d) – zəli
Sümsünmək(d) – hər yeri gəzmək
Sümə (d) – qoyunun ilk dəfə qırxılmış yunu

**Ş**

Şellənmək(d) – boş-boşuna yaşamaq
Şədid(ə) – güclü, qüvvətli
Şəmşir(f) – qılınc
Şəpə(d) – bəhməz
Şir(f) – süd

**T**

Tafta(f) – parıldayan ipək parça
Taskülah(f) – dəbilq
Təam(ə) – xörək
Təhər(d) – bu cür, yön
Təqabül(ə) – qarşı-qarşıya gəlmə, rast gəlmə
Tərcih(ə) – bir şeyi başqasından üstün tutma, daha artıq bəyənmə
Təpilmək(d) – soxulmaq, yerləşmək
Təpimək(d) – bərkimək (yağış yağandan sonra torpağın yığılması, bərkiməsi)
Təpinmək(d) – qorxuya salmaq
Tərsimək(d) – tərs işləmək, qanuna baxmamaq
Təsəmmüm(ə) – zəhərlənmə
Tiyan(d) – böyük qazan

Tirnak(f) – qaranlıq
Toxdamax(d) – sakitləşmək
Tovlanmaq(d) – aldanmaq
Tuşutmaq(d) – nişan vermək, işarə etmək, tuşlamaq

**Ü**

Ücrət(ə) – zəhmət haqqı, maaş
Üt(d) – ot
Üzgörənlilik(d) – özünü şirinləşdirmək, üzdə yaltaqlamaq.
Üzdən sola demək (d) – zahirdə demək

**Y**

Yalav(d) – od
Yapma(d) – mal-qaranın təzəklərini divarlara yapar, sonra hər birinə yapma deyilir
Yava (d) – pis
Yavuq(d) – yaxın
Yey(t) – yaxşı
Yıxınıq(d) – düşgün (yıxınıq düşmək – birinin əl-ayağına düşmək, təslim olmaq).
Yiyə(d) – sahib

**Z**

Zər(f) – qızıl
Zərbaft(f) – qızıl ilə toxunmuş parça
Zəyəl (d) – yetişməmiş, kal.
Zopa(d) – yoğun əl ağacı.
Zöhr(ə) – günorta zamanı
Züha(ə) – səhər çağı

# ƏDƏBİYYAT

1. “Azərbaycan şifahi xalq ədəbiyyatı”. Toplayan: doktor Məmmədhəsən Pedram, Təbriz, 1963.

2. Hadi. B Deyimlər. Aralı-soralı sözlər, Təbriz, 2005.

3. Heyət C.Türk dilləri və ləhcələri tarixinə bir baxış. Tehran, No nəşriyyatı, II cap, 1987.

4. Mir Hidayət Hesari. “Seyri dər folklor Azərbaycan bər əsas munuqrafi məntəq-e Yekanat” Tehran, Taban, 1969.

5. Şeybani Cəmşid. Bayatı bulağı, Təbriz, 1378.

6. Şancanlı Xürrəm Ə. Ədəb xəzinəsi. Tehran, 1980.

7. Vəfai Z. Tapmacalar. Təbriz, 1383.

8. Zəfərxah Əli. “El biligi sərvətimiz”. Təbriz, 1962.

***Dərgilər***

1. “Azərbaycan Ei Bilimi” dərgisi. (Baş redaktor: Əhəd Fərhəməndi).

2. Azari Eldili@yahoo.com (“Azəri” jurnalı, Baş redaktor: Behzad Behzadi).

3. Bayramzangan@gmail.com (“Bayram” dərgisi, Baş redaktor: Əli Məhəmməd Bəyani).

4.www.Khudafarin@.ir (“Xudafərin”dərgisi, Baş redaktor: Hüseyn Şərqidərəcək (Soytürk)

# MÜNDƏRİCAT

**Ön söz .................................................................3**
**UŞAQ FOLKLORU**
Laylalar .................................................................8
Yalanlar.................................................................18
Hədik ilə Hüdük.........................................................20
**DÜZGÜLƏR, ACITMALAR, UŞAQ NƏĞMƏLƏRİ..22**
**TAPMACALAR.........................................................25**
**OYUNLAR**
Südlü sümük oyunu.....................................................33
Baş qoruma (Baş tutdu) ...............................................33
Topana cızan ............................................................34
"Əl məndə" oyunu ......................................................34
Əl-ələ.....................................................................34
Qonaq bacı ..............................................................35
İncələ qız.................................................................35
Qovala qaçdı ............................................................35
Tas Məlik ................................................................35
Cızdana-cızdana........................................................35
Atlanmaq.................................................................36
Təkər sürmək ...........................................................36
Haça minmək ...........................................................36
Atımın başı qızıl........................................................36
Dədəm mənə kor deyib ...............................................37
Bişibdi ....................................................................37
Sarı gülün sapı..........................................................37
İp ilə həndəsi şəkil ....................................................37
Girdəkan dığırlamaq ..................................................38
Qariş atmaq .............................................................38
Pul çöndərmə ...........................................................38
Alçı tava..................................................................38
Qatar qoymaq...........................................................39
Misqala kəsmək ........................................................39
Toxum çıxartmaq ......................................................40

Mum oynatmaq ....................................................40
Çəkişmək...........................................................40
Mərcləşmək........................................................40
Qırx barmaq .......................................................41
Çaydana girmək ..................................................41
Gizlin şallaq .......................................................41
Motal-motal........................................................42
Sınıq qol ............................................................42
Lu, lu, lu,lu xovzə ...............................................43
Kəkliyimin başı sarı ............................................43
Tapmışam ha tapmışam .......................................44
Bir quşum var bu xərtənə.....................................45
Üçəm.................................................................45
Cız ....................................................................46
Qalaşək..............................................................47
Kor ...................................................................48
Göydən gəldi......................................................49
Yerdə oturdu ......................................................49
Saqqa vurdu .......................................................50
**AĞAC OYUNLARI**
Döymə ağac....... ................................................50
Doqquz öküz ......................................................51
Sancma ağacı ......................................................51
Hoyma ağac ........................................................52
Coz mərəsi ..........................................................52
**ANDLAR**
İşığa, suya olan andlar (Yekan) ...........................54
Dini andlar ..........................................................54
Digər andlar ........................................................55
**ALQIŞLAR VƏ XEYİR– DUALAR.........................56**
**QARĞIŞLAR, BƏDDUALAR...................................59**
**ATALAR SÖZÜ VƏ MƏSƏLLƏR............................64**
**DEYİMLƏR ...............................................................99**
**BAYATILAR............................................................125**
**YER-YURD ADLARI İLƏ BAĞLI BAYATILAR ..158**

**NAĞILLAR**

İlan qaç, Xəccə gəldi ........ 168
Qızıl yük üstündə dəvə ........ 170
Zeyqəm şah ........ 172
Ey vay hay ........ 183
Əmqızı ilə əmoğlu ........ 170
Nənəlik ........ 192
Naraxatın ........ 193
Armudan bəyin nağılı ........ 196
Gül ilə Sünbül ........ 200
Qoca ........ 206
Alın yazısı ........ 208
Çox olsa bir ovuc, az olsa yarım ovuc ........ 209
Adı ilə Budı ........ 211
Tülkü ilə Qurd ........ 216
Ah nağılı ........ 222
Haqq yolu ........ 229
Qaz almışam, qaz almışam ........ 231
Gülüzar ........ 233
Hax çəpişim, xuh çəpişim ........ 236
Göy muncuq ........ 239
Səbir daşı ........ 244
Sarı inəyin nağılı ........ 246
Qantarqa ........ 250
Süleyman peyğəmbərin üzüyü və
tacir oğlu Məhəmməd ........ 253
Palazqulağın nağılı ........ 267
Əhməd Tərəkəmə ........ 273
Səxavət nəmənədir? ........ 280

**LƏTİFƏLƏR**

Ustad aşıqla şagird aşıq ........ 283
Yazıq o aradakı ........ 283
Duzu da mən alaram, oxu! ........ 284
Müəllim və şagird ........ 284
Ya nahar vaxtıdı, ya da şam ........ 285

Adım Salavatdır ....................................................285
Səni soruşurdular ..................................................286
Dar ağacı ..............................................................287
Molla Nəsrəddinin xəşil hekayəsi ........................287
Aş suyudur ...........................................................288
İt ...........................................................................289
Nələr çəkmisən, qayış ..........................................289
Molla Nəsrəddin qəm-qüssəni atır ........................289
Oxumaq ilə ömrün münasibəti.............................290
Yalançılar .............................................................290
Sancılanmışam ......................................................291
Qarğa balasının huşu.............................................291
Desinlər ağanın nökəri də var imiş .......................292
Oğru .....................................................................293
Gənclik, qocalıq ....................................................293
Hallalıq..................................................................293
Qoduq....................................................................293
Meymunun pəynir bölməyi...................................294
İpi çəkdilər ...........................................................294
Eşşək-eşşək ..........................................................295
Mollanın oğlu........................................................296
Keçinin andı ..........................................................296
Xorultu ..................................................................296
Xoş xəyal ..............................................................297
Qonaq və ev sahibi................................................297
Aftafada su içən ....................................................298
Yandım..................................................................299
Oğul evləndirən.....................................................299
Təkəbbürlü bir adam .............................................299
Ağıldan kasıb ........................................................300
Üç pəltək qız .........................................................300
Bəhlul.....................................................................300
Gəlin.......................................................................301
Qaraxan .................................................................301
Neçə dənə? ............................................................302

Mollanin təzə başmağı........................ ...............302
Gözbağlayıcı ........................................................302
Dədəmdən yekə....................................................303
Kəndli arvad, şəhərli arvad ..................................303
Rəsulun balağı.....................................................303
Keçəlin dostu .......................................................304
Ey imamzada........................................................304
Çiban...................................................................305
Qoca öküz ............................................................305
Keçəl dəyirmançı .................................................306
Daha bəsdir ..........................................................306
Məmurları çoxaltsınlar..........................................306
Ölən ölsün ............................................................307
Həkimin sözü .......................................................307
Heç, keç................................................................308
Pis əxlaq ərbab .....................................................308
Keçəl ...................................................................309
Gənc və qoca........................................................309
Günahın cəzası .....................................................310
Bu da sənin borcun...............................................310
Qamadanağı xala..................................................311
Gördün səninlə idi................................................311
Sən nə deyirsən, mən nə deyirəm! .......................312
Püfü qalır.............................................................312
Salavat çevirin......................................................313
Dul arvad.............................................................313
**MİFOLOJİ MƏTNLƏR, ƏFSANƏ, RƏVAYƏTLƏR.........................................................315**
**YER ADLARI İLƏ BAĞLI RƏVAYƏTLƏR...........316**
**MÜXTƏLİF MÖVZULU RƏVAYƏTLƏR ..............320**
**ETNOQRAFİK MƏTNLƏR: NOVRUZ ADƏTLƏRİ...............................................................323**
**BAYRAM OYUNLARI .........................................327**
**TOY ADƏTLƏRİ ..................................................330**
Bəy geyindirmək.................................................340

Paltar aparmaq ......................................................340
Dövran..................................................................342
Gəlin çıxma..........................................................343
Duvaq günü...........................................................347
Duvaq qapma ........................................................348
Qadın toylarında oyun...........................................348
**YAĞIŞ YAĞMA MƏRASİMLƏRİ ...........................350**
"Yada daşı"na səslənmələr ...................................350
Saya mərasimi və sayaçılar...................................354
Çillətökmə mərasimləri.........................................358
**İNANCLAR.....................................................................362**
**SÖYLƏYİCİLƏR HAQQINDA.................................369**
**LÜĞƏT ..........................................................................371**
**Ədəbiyyat......................................................................381**

**Güney Azərbaycan folkloru,**
**IV kitab.**
Bakı, Elm və təhsil, 2015.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Kompyuterdə yığan:
**Ruhəngiz Əlihüseynova**

Kompyuter tərtibçisi və
texniki redaktoru:
**Aygün Balayeva**

Kağız formatı: 60/84 1/32
Mətbəə kağızı: №1
Həcmi: 388 səh.
Tirajı: 300

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompyuter Mərkəzində yığılmış, səhifələnmiş,
“Elm və təhsil” NPM-də ofset üsulu ilə
Hazır deopozitivlərdən çap olunmuşdur.